

# HÜSEYN CAVİD
## VƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI

*LÜTVİYYƏ ƏSGƏRZADƏ*

US- 2021

*LÜTVİYYƏ ƏSGƏRZADƏ*

# *HÜSEYN CAVİD VƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI*

**New York - 2021**

# *HÜSEYN CAVİD VƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI*

Copyright © LÜTVİYYƏ ƏSGƏRZADƏ

15.02.2021

ISBN-978-1-955094-00-9

15.02.2021 by
Liberty Academic Publishers
New York, US

ALL RIGHTS RESERVED

NO PART OF THIS BOOK MAY BE REPRODUCED IN ANY FORM,
BY PHOTOCOPYING OR BY ANY ELECTRONIC OR MECHANICAL MEANS,
INCLUDING INFORMATION STORAGE OR RETRIEVAL SYSTEMS,
WITHOUT PERMISSION IN WRITING FROM BOTH THE COPYRIGHT
OWNER AND THE PUBLISHER OF THIS BOOK.

© Liberty Academic Publishers 2021

The digital PDF version of this title is available Open Access and distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 license (http://creativecommons. org/licenses/by-nc/4.0/) which permits adaptation, alteration, reproduction and distribution for non-commercial use, without further permission provided the original work is attributed. The derivative works do not need to be licensed on the same terms.

Liberty Academic Publishers works to counter discrimination on grounds of gender, race, disability, age and sexuality.

Cover design by Andrew Singh

**New York- 2021**

# *HÜSEYN CAVİD VƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI*

**Elmi redaktor** və **Ön söz:** **Cəlal Qasımov**
filologiya elmləri doktoru, professor
**Rəyçi:** **Alxan Bayramoğlu**
filologiya elmləri doktoru, professor

## *Annostasiya*

*Kitabda XX əsr Azərbaycan romantizminin banisi, ədəbiyyatda özünəməxsusluğu ilə seçilən, yaradıcılığında Qərb və Şərq ədəbiyyatı ənənələrini davam və inkişaf etdirən filosof Hüseyn Cavidin həyatı və yaradıcılığı araşdırılır. Hüseyn Cavid müxtəlif münasibətlər, müxtəlif ədəbi qüvvələrlə ünsiyyətlər, bölüşmələr, mübahisələr fonunda təhli edilir, Qurbanəli Şərifzadə, Şeyx Məhəmməd, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, türk romantikləri Rza Tevfik, Məhmət Akif Ərsoy, Xalid Ziya Uşaqlıgil, Əbdülhəq Hamid və başqaları ilə olan yaradıcılıq əlaqələri sistemində təqdim edilir. Repressiya qurbanı olan filosof şair-dramaturq Hüseyn Cavidin bir romantik ədəbiyyat nümayəndəsi kimi fərdi tərəf və xüsusiyyətləri araşdırılır.*

**Lütviyyə Əsgərzadə.** ***Azərbaycan ədəbiyyatşünaslığı və Hüseyn Cavid. Bakı: 2021, 544 s***

## MÜNDƏRİCAT

*Ön söz: Cavidşünasliğa yeni baxiş, yaxud tənqidin tənqidi ...........................................................................................................7-13*

*I Fəsil*

*Hüseyn Cavid: şəxsiyyəti və sənəti ........................................14-103*

*II Fəsil*

*Hüseyn Cavid: Sovet dövrü ədəbi mühitində ..........................................................................104-453*

*III Fəsil*

*Ya müttəfiq, ya ölüm: hücum-ədəbi münaqişələr, ədəbi məhkəmələr ........................................................................454-493*

*IV Fəsil*

*Əbədi sənətkar və əbədi Cavid-Cavid əfəndi ...........................................................................................................494-508*

*Nəticə ..................................................................................515-523*

*İstifadə olunmuş mənbələr...............................................525-553*

# CAVİDŞÜNASLIĞA YENİ BAXIŞ, YAXUD TƏNQİDİN TƏNQİDİ

1923-cü ildə "Yeni fikir" qəzeti yazırdı: "Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə sakit oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir. Şəksiz, tarix vaxtında onu sənət mühakiməsinə alacaq, təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istəyəcəkdir"[1].

Bu mülahizələrdəki bir məqama diqqət yetirmək istərdik; **"Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır**." "Yeni fikir"in bu hökmü 1923-cü ilin martında verdiyini nəzərə alsaq onunla müəyyən qədər razılaşmaq olar. Həqiqətən də, o illərə qədər demək olar ki, Cavid əfəndi ədəbi tənqidin diqqətini o qədər də cəlb etməyib. Elə hər şey də ondan sonra başlayıb. Bundan sonrakı illərdə tarix Cavid əfəndiyə nəinki, əl vurub, həm də sənət mühakiməsinə çəkib. Əslində, 1923-cü ildən etibarən sənət mühakiməsi Cavid əfəndini bütün yaradıcılığı boyu izləyib.

[1] "Yeni fikir" qəz., 1923, 4 mart

Cavid əfəndinin möhtəşəm sənəti ədəbi mübahisələrdən, ədəbi mühakimələrə, ədəbi mühakimələrdən senzor qadağalarına, senzor qadağalarından, ənənəvi məhkəməyə və nəhayət məhbəsə qədər aparıb çıxarıb.

Cavid əfəndi haqqında aparılan araşdırmalar və tədqiqatlar bir daha sübut edir ki, Cavidin sənəti öz müəllifinə xəyanət etməyib, onu tarixin bütün mərhələ və mühakimələrindən üzü ağ, alnı açıq çıxararaq əbədiyyətə qovuşdurub, **CAVİDLƏŞDİRİB.**

Filologiya elmləri doktoru Lütviyyə Əsgərzadə bir qədər də qabağa gedərək **"Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı"** monoqrafiyası ilə mütəfəkkir şairə "əl vuranların" özlərinə "əl vurur." O, ədəbi tənqidin və tənqidçi alimlərin Cavid əfəndiyə münasibətini tədqiqatının predmetinə çevirir. Monoqrafiyadan aydın görünür ki, müəllif cavidşünasların fikir və düşüncələrinə ehkam və stereotip kimi yanaşmır. Onları müasir dövrün tələbləri səviyyəsindən işıqlandırmağa və təhlil etməyə çalışır.

Cavid yaradıcılığı ilə XX əsrin ədəbi və ictimai-siyasi mühiti arasında əlaqə yaratmaq və onları vəhdətdə tədqiq

etmək müəllifin əsas uğurlarından biridir. Sənətkar və zaman, sənətkar və mühit problemi bizim ədəbiyyatşünaslıqda az işlənən problemlərdəndir. Ona görə də, ayrı-ayrı sənət adamlarının – yazıçı və şairlərin həyatı və mühitinin tədqiqata cəlb olunması olduqca təqdirəlayiq bir haldır. Yazıçı və mühit problemi əslində yazıçı şəxsiyyətini, yazıçının düşdüyü mikro və makro mühiti öyrənmək baxımından da əhəmiyyətlidir. Vaxtilə Məhəmməd peyğəmbər qeyd edirdi ki, "insanlar valideynlərindən daha çox mühitinə oxşayır." Həqiqətən də, şəxsiyyəti formalaşdıran hər şeydən öncə onun mühitidir. Azərbaycan ədəbiyyatşünaslığında sənət adamlarının mühitinin öyrənilməsi heç də həmişə aktual olmamışdır. Elə ona görə də bu problem kifayət qədər öyrənilməmiş, öyrənilsə də, müəyyən ideoloji sistemin təsiri nəticəsində hərtərəfli şəkildə tədqiqatın predmetinə çevrilməmişdir. Amma bütün bunlara baxmayaraq bu sahədə mövcud olan boşluğu Azərbaycan ədəbiyyatşünaslığında akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri", Alxan

Bayramovun "Şamaxı ədəbi mühiti", Əskər Qədimovun "XIX əsr Ordubad ədəbi mühiti" və bu kimi digər elmi tədqiqat əsərləri qismən də olsa doldura bilmişdir. Bu istiqamətdə atılan uğurlu addımlardan biri də zəhmətkeş alim Lütviyyə Əsgərzadənin **"Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı"** adlı monoqrafiyasıdır, desək yanılmarıq.

Müşahidələrimizə görə, iki cür alim mövcuddur. Bunlardan bir qismi kabinet alimi, yəni mətbuu mənbələr əsasında tədqiqat aparan, eyni zamanda ciddi elmi-nəzəri, metodoloji əsərlər yazan alimlər, digərləri isə mətbuu mənbələrlə yanaşı, arxivlərdən, çöl təcrübələrindən – yaşlı nəslin yaddaş boxçasından  əldə etdikləri materiallar əsasında dissertasiya və monoqrafiyalar yazan alimlər. Fikrimizcə, bunların hər ikisi zəhmətkeşdir. Lakin ədalət naminə onu da qeyd etməliyik ki, ikincilərin xidməti və zəhməti daha böyükdür. Çünki, ikinci qrupa daxil olan alimlərin böyük əksəriyyəti bir neçə işi paralel olaraq eyni vaxtda həyata keçirirlər. Monoqrafiyanın müəllifi Lütviyyə Əsgərzadə də yalnız mətbu mənbələrlə işini bitmiş hesab

etməmiş, epstolyar ədəbiyyatı, eləcə də bu gün də yaşayan və Cavidlər ailəsinə yaxın olan, lakin indiyə kimi elmi dövriyyədən kənarda qalan bir çox fakt və materialları can yanğısı ilə toplamışdır. Monoqrafiya müəllif 20-30-cu illərdə Cavidin sənəti ilə bağlı deyilmiş fikirlərin tutarlı faktlar və məntiqi hökmlə yanaşanda, hər hansı bir tədqiqatçı ilə polemikaya girəndə belə alim etikasını axıra qədər qoruyur. Daha doğrusu, o illərdə Cavidlə bağlı yazılmış hər hansı bir tənqidi əsərin və ya şeirin müəllifini (məsələn, Cəfər Cabbarlını və Əkrəm Cəfəri) ittiham etmir, onun üçün dar ağacı qurmur, müəllifi çarmıxa çəkmir, özü həmin illərə enir, dövrü və mühiti, bütövlükdə totalitar rejimi tədqiqata gətirir. Bu zaman Cavidin mühiti və müasirləri bütün tərəfləri və cəhətləri ilə görünür. Müəllifin 20-30-cu illərə 2020-ci ildə dayanaraq qiymət verməməsi, o illərə, o dövrə enərək tənqidçi və sənət adamlarını anlamağa və dərk etməyə çalışması, onları dərdləri, ağrıları ilə birlikdə, düşdükləri total mühitin müstəvisindən təqdim etməsi təqdirəlayiqdir.

Cavidin repressiyasını və reabilitasiyasını da tədqiqata

cəlb edən  Lütviyyə Əsgərzadənin araşdırmalarından bizdə belə bir təəssürat yarandı ki, Cavid bütövlüyünü 37-də qorusa da, 56-da – reabilitasiyadan sonra qoruya bilmədi. Yəni repressiyaya məruz qalan Cavid türkçü, turançı kimi ittiham edilirdisə, reabilitasiya olunan Cavid Böyük Oktyabr İnqilabının tərənnümçüsü, sosializmin müdafiəçisi kimi bəraət aldı. Bir qədər obrazlı desək, sosializm mundirində Cavid ikiləşir, kiçilir və narahat olurdu.

Adətən məzar daşları üzərində bir neçə söz olur. Hər hansı bir şəxsin adı, soyadı və atasının adı. Bir də, olum və ölüm ili. Olumla ölüm ili arasında bir “-” işarəsi də vardır. Fikrimizcə, bu insanın ömür və əməl yolunun simvollaşdırılmış qrafik işarəsidir. Tanınmış alim Lütviyə Əsgərzadənin **“Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı”** əsəri bu qrafik işarənin, yəni Cavid əfəndinin ömür və əməl yolunun kodlarını açmağa yönəlmiş sanballı bir monoqrafiyadır. Başqa sözlə desək, bu əsər hələlik Cavidşünaslıqda sistemli və fundamental şəkildə öyrənilməyən və ya ayrı-ayrı tədqiqatlarda ötəri toxunulan, indiyədək xüsusi bir tədqiqatın predmetinə

çevrilərək konseptual həllini tapmayan Cavidin ədəbi məfkurəsi və sənəti, dövrünün ədəbi-mədəni, ictimai mühiti müstəvisindən öyrənilməsi, XX əsrin əvvəllərindən günümüzə qədərki dövrlərdə ədəbi tənqidin Cavid yaradıcılığına verdiyi qiymətə verilən qiymətdir. Başqa sözlə desək, Cavid əfəndi və onun tədqiqatçıları barədə deyilən son elmi sözdür.

Lütviyyə xanımın tədqiqatlarından, çəkdiyi zəhmətin böyüklüyündən və gərəkliliyindən çıxış edərək belə bir qənaətə gəlmək olar ki, o Cavid əfəndinin vəkili deyil, tədqiqatçısıdır. Fikrimizcə, hər hansı bir alim və ya araşdırıcı tədqiq etdiyi sahənin vəkili yox, tədqiqatçısı olmalıdır. Əks təqdirdə uduzan Cavid və oxucu olar.

***Cəlal Qasımov***

***Filologiya elmlər doktoru, professor***

# I FƏSİL
# HÜSEYN CAVİD: ŞƏXSİYYƏTİ VƏ SƏNƏTKARLIĞI

Azərbaycan ədəbiyyatında elə görkəmli şəxsiyyətlər var ki, onların sağlığında gördükləri işlər, yaratdıqları zəngin irs ictimai ömürlərindən daha uzun, əbədilik olur. XX əsr Azərbaycan romantizminin klassiki, filosof şair və dramaturq, özünə ədədilik mənasını ifadə edən "Cavid" təxəllüsünü götürən Hüseyn Rasizadə böyük şəxsiyyətlər arasındadır.

XX əsr Azərbaycan romantizmi daha çox Hüseyn Cavidin adı ilə bağlıdır. Sənətdə özünəməxsusluğu ilə seçilən, yaradıcılığında Qərb və Şərq ədəbiyyatı ənənələrini davam və inkişaf etdirən Hüseyn Cavid daha çox dram yaradıcılığı ilə məşhurlaşmışdır. Onun poeziyadan dramaturgiyaya keçərək faciə janrında əsərlər yazması bir tərəfdən yaradıcılıq psixologiyası, sənətkar qüdrəti, digər tərəfdən cəmiyyət və həyat haqqında öz düşüncələrini ifadə etmək istəyi ilə bağlı idi. "Poeziyanın

zirvəsi" hesab edilən faciə - insan düşüncəsinin, ictimai həyatın və məişətin ən dərin məsələlərini həll edən, həyat və varlıq, mübarizə və ölüm haqqında fəlsəfi fikir oyadan janr olmaqla yanaşı, həm də "həyatın sirlərini, ziddiyyətli həqiqətlərini açmağa böyük imkan yaradır, insan ruhunun dərinliklərinə, onun fikrinə, mənəvi aləminə nüfuz edə bilir"[2] (Şərif, 1986:8).

Mütəfəkkir sənətkar faciə janrının bu xüsusiyyətlərini, bu janrın estetik və poetik imkanlarının və təsir dairəsinin genişliyini nəzərə alaraq lirikadan faciəyə adlamışdı və yaratdığı əsərlərində daima həyatın kəskin ziddiyyətlərini göstərməyə, insanın mənəvi aləmini əks etdirməyə çalışmış, bir-birinə bənzəməyən, təkrarsız "obrazlar qalereyası" yaratmışdır.

Böyük sənətkarın yaradıcılığının ən məhsuldar dövrü XX əsrin ikinci və üçüncü onilliklərinə düşür. Bu dövrdə Azərbaycanda nəsr və poeziyaya nisbətən dramaturgiya daha çox inkişaf edərək genişlənir və bu zaman

[2] Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986, s.8

“dramaturgiya və teatr sahəsində baş verən inkişaf yeni tarixi, ictimai-siyasi şəraitdə-sosialist gerçəkliyində də davam etdirilir, dövrün ictimai-siyasi tələblərinə cavab verən əsərlər yazılır, “mövzu, problematika, sujet etibarı ilə”[3] (Əhmədov,2015:71) bir-birinə bənzəyən əsərlər meydana çıxırdı.

Azərbaycan dramaturgiyasının “keçid dövrü” kimi səciyyələndirilən bu mərhələsində dövrün sifarişi ilə yazmayan, özünəməxsus yaradıcılıq manerası olan Hüseyn Cavid “Ana”, “Maral”, “Şeyx Sənan”, “Şeyda”, “Uçurum”, “İblis”, “Topal Teymur”, “Xəyyam”, “Səyavüş” kimi şedevr əsərləri ilə Azərbaycanın teatr səhnəsini zənginləşdirirdi. İlk qələm təcrübələrindən başlayaraq həqiqət axtarışlarında olan sənətkarın yaradıcılığında insanlarda saf və təmiz duyğular, yüksək əxlaqi keyfiyyətlər aşılamağa və özünüdərkə çağırış hissi güclüdür. Onun romantik qəhrəmanları özünüdərkə qədəm qoymuş və ya özünü dərketmiş, keçmişinə, adət-ənənələrinə bağlı, güclü əxlaqi keyfiyyətlərə malik, mənəvi

[3] Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı.Bakı:Elm və təhsil, 2015, s.71

dünyaları zəngin olan insanlardır.

Cavidin “Ana” pyesində (1910) hadisələr Dağıstanda bir ailə çərçivəsində cərəyan edir. Səlmanın oğlu Qanpoladın nişanlısı İsmətə Orxan da aşiq olur və dostu Muradla Qanpoladı qətlə yetirir. Əlində tapança Səlma ananın evinə sığınan Murad ondan imdad istəyir. Səlma ana, “Allah şahid, mən onu verməm ələ. İnsaf yoxmu? Səlma ölməmiş hələ!”[4] (Cavid,2007:69) – deyərək onu evində gizlədir. Yaralı Qanpoladı görərkən vəziyyətdən hali olun Murad qaçmaq istəyir. Ana Muradın oğlunun qatili olduğunu bildiyi halda: “Sən bir qonaqsan, qatil olsan belə” - deyərək onu ələ vermir, özünü vurmaq istəyən Murada mane olur. Onu: “Get namərd qonaq , get! Alçaq mültəci!”[5] (Cavid, 2007:69) - deyə evdən uzaqlaşdırır.

Əsər ananın: ”Mərhəmət! Ya rəb, mərhəmət, inayət!” - misrası ilə başlayan monoloqu ilə bitir. Romantik əhvali-ruhiyyəni əks etdirən bu dramında ədib insanları xeyirxahlığa, mərdliyə, düzlüyə səsləyir və “dramatik

[4] Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007, s.69
[5] Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007, s.69

xarakterlər yaratmaqla geniş yaradıcılıq imkanlarına sahibləndiyini ilk təcrübə olaraq sınaqdan keçirir”[6] (Əlioğlu,1975:67).

H.Cavid “Ana” dramı ilə Azərbaycan ədəbiyyatında mənzum dramın əsasını qoymaqla yanaşı, həm də öz öğlunun qatilini bağışlayan ana obrazı ilə ədəbiyyat tariximiz üçün bənzərsiz bir obraz yaratmış və yaradıcılığının sonrakı pillələrində; “Xəyyam”, “Peyğəmbər”, “Səyavuş” dramları ilə bu janrın sonrakı inkişafına zəmin yaratmışdır.

Hüseyn Cavidin sayca ikinci dram əsəri “Maral” (1912) faciəsidir. Əsərdə hadisələr Qafqaz şəhərlərinin birində baş verir və pyesdə Turxan bəyin Maralı zorla özünə arvad etməsi, bu gənc qızın azadlığının əlindən alınması, oğlu Cəmilin arzularına sədd çəkilməsi ciddi şəkildə pislənir. Dövrün və dəhşətli adamların təqib və təzyiqlərinə tab gətirə bilməyən Maralın faciəsi yalnız onun özünün şəxsi faciəsi kmi deyil, mühitin və zəmanənin

[6] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s.67

faciəsi kimi diqqətə çəkilir. Bir çox əsərlərində qadın azadlığı məsələlərinə xüsusi diqqət yetirən böyük sənətkar "Maral" əsərində bu ideyanı daha qabarıq şəkildə əks etdirmişdir. Taleyini həll etməkdə hüquqsuz olan Maralı "bayquş yuvası" adlandırdığı evdən ölüm çıxarır. Maralın faciəsi, əslində məhkum Şərq qadınının faciəsidir. Cavid əsərdə qadın hüquqsuzluğu ilə yanaşı, həmçinin bütün yaradıcılığı boyu izlədiyi türkçülüyə də münasibət bildirir, qəhrəmanının dili ilə türk obrazının sözlə təsvirini verir: "Bir Türk nə gülər, nə oynar, nə də ağlar. Gülmək çocuqlara, oynamaq çingənələrə, ağlamaq isə qadınlara yaraşar, Bir türk çadırda doğulur, savaşlarda ölür"[7] (Cavid, 2007:85). Böyük bir incəliklə deyilmiş bu sözlərdə bir həqiqət var; "Qüvvət xarakterdədir, əzəmət mənəviyyatda təzahür edir." Professor Kamran Əliyev yazır ki, "ideallar şairi Cavidi dərk etmək üçün yaradıcılığında və görüşlərində yüksək poetik ifadəsini tapmış müxtəlif və rəngarəng fikir silsilələrinə yaxından bələd olmaq üçün, həmin fikirlərin fövqünə qalxmaq lazımdır. Bunsuz Cavid

[7] Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007, s.85

dərk edilməz”[8] (Əliyev, 2009:24). Həqiqət dolu kəlmə... ”Yaradıcılığında və görüşlərində yüksək poetik ifadəsini tapmış müxtəlif və rəngarəng fikir silsilələrini” əks etdirdiyi obrazlar da Cavidi dərk etmək üçün çox önəmlidir. Cavidin qüvvətli xarakterə və saf mənəviyyata malik gənc romantik qəhrəmanları həqiqət axtarışındadırlar. Bu həqiqət axtarışında olanların əhvali-ruhiyyəsini əks etdirən əsərlərdən biri də “Şeyda” (1913) faciəsidir.

Yazıldığı zaman dramaturgiyamızda hadisə kimi səslənən “Şeyda”da hadisələr Bakıda vaqe olur və mətbəə işçilərinin iş və məişət həyatının təsvirini verir. “Əsər istismar dünyasına qarşı üsyan edən, ancaq mubarizə yollarını bilmədikləri üçün məğlub olan ziyalı gəncliyin faciəsi idi. Şeyda sonralar ədəbiyyatımızda geniş yayılan mütərəddid ziyalı tiplərinin sələfi oldu”[9] (Qarayev, 2007:17).

Əsərin ilk pərdələrində gənc mühərrir, coşqun ruhlu

---

[8] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5, S. 25-35.
[9] Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər.Bakı, “Elm”, 2007, s.17

inqilabi nəğmələr bəstələmiş Şeyda mübariz bir proqramla çıxış edir, birlikdən danışır, işçilərə hüquqlarını anladır. Dəftərindən gizlicə götürdükləri nəğməni əzbərləyən fəhlələr bir ağızdan bu nəğməni oxuyurlar. Həmin nəğməyə görə Şeydanı mətbəədən qovurlar. Mətbəədən qovulması onda bədbin əhval-ruhiyyə yaradır. Özünü "dərviş" adlandıran, səfil və divanə həyat keçirən Şeydanı həbs edirlər. Şeyda ilə yanaşı, əsərdə fəhlə Qara Musanın taleyindən bəhs edilir. Onun qardaşı  və özü mətbəədə ziyan çəkmişdir. Biri mətbəədə vərəmdən ölür, birinin isə əli şikəst olur. Əli şikəst qaldığı üçün işdən qovulur, borc yerinə mətbəə müdiri tərəfindən evi qəsb edilir. Qara Musanın "tək əli"nin intiqamı hətta Şeydanın üsyanından qorxulu və ağır olur.

Əsər Qara Musanın "Arkadaşlar! Artıq zəncirlər qırıldı, həqq yerini buldu. İştə səadət günəşı parlıyor, hürriyyət pərisi gülümsüyor. İştə bu gün məzlumlar üçün şərəfli bir bayram, zalimlər üçün qorxunc bir intiqam

günüdür”[10],- (Cavid, 2007:174) sözləri ilə bitən əsərdə ədib “üsyankar çıxışlar etməsinə baxmayaraq, real mübarizə yollarını tapa bilməyən insanların faciəsini ümumiləşdirmişdir”[11] (Həbibbəyli,2007:496).

Mütəfəkkir sənətkarın ədəbiyyatımızda mühim bir hadisə kimi dəyərləndirilən əsərlərindən biri “Şeyx Sənan” (1912-1914) faciəsidir. Əsər Tiflisdə yazılıb. Əziz Şərifə görə, Cavid “Şeyx Sənan” mövzusu ilə 1914-cü ilin birinci yarısından etibarən maraqlanmağa başlayıb.” Əslində isə, şair bu mövzu ilə 1910-cu ildən maraqlanmış, həmin ilin 14 sentyabırında dostu Abdulla Şaiqə yazdığı məktubda ondan “Mümkün olsa “Tarixi-İslamiyyətin” ikinci cildini poçta vasitəsi ilə (Tiflis, Şeytanbazar, altıncı uçastok, Məşədi Ələsgər Bağırov Naxçıvani) adresinə göndərin və Rasizadə Hüseyn Cavidə verilməsini də ayrıca qeyd edin”[12] (Şərif, 1986:263) – deyə bir ricada bulunmuşdu. Bu kitabda ərəblərin islamı yaymaq üçün İran və Qafqaz səfərlərindən

[10]Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007,s.117
[11] Həbibbəyli İ. Azərbaycan şeirində himn və marş / Ədəbi tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s,493-501.
[12] Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986, s.263

bəhs olunması da şairin bu mövzu ətrafında düşündüyünü və ətraflı məlumat topladığını göstərir.

Hüseyn Cavid mövzu ilə 1910-cu ildən maraqlanmağa başlasa da, mövzu ilə İstanbulda təhsil alarkən tanış və bu mövzuda yazılan bütün əsərlərdən; Fəridəddin Əttarın "Məntıqüt-teyr"i[13], Əlişir Nəvainin "Qisseyi Sənan"ı[14], Mostarlı Ziyainin "Şeyx Sənan"[15], Gülşəhrinin "Dastani-Abdurrəzzaq" məsnəvilərindən xəbərdar idi.

Elmi fikir, "Şeyx Sənan" mövzusunun bir müddət ərəb folklorunda dolaşdıqdan sonra səlib yürüşləri dövründə yaranmış, "Töhfətül-mülk" adlı risalə vasitəsi ilə ilk dəfə yazılı ədəbiyyata gətirildiyini təsdiqləyir"[16] (Zeynallı, 1983: 80). Mövzuya ilk Şeyx Fəridəddin Əttar (1118-1229 ) müraciət etsə də bu mövzuda xeyli əsərlər yazılıb. "Şeyx Sənan" əfsanəsi Türk ədəbiyyatında, Divan

[13] Əttar F. Məntıqit– teyr (çev. Əbdülbaki Gölpınarlı). İstanbul: Milli eğitim Basımevi, 1968
[14] Nevayi. A.Ş.Lisanüt-tayr (haz.Mustafa Canpolat). Ankara, Türk dil qurumları yayınları, 1995
[15] Mostarlı Ziyai Şeyx Sənan məsnəvisi (haz: Müberra Gürgendərəli), İstanbul: Kitabevi Yayınları, 2007
[16] Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, s.80

şeirində də geniş yer alıb. Eşq yolunda edilməsi vacib olanları anladan zaman "Şeyh-i Sanan hekəyəsi"ni xatırlayan Yunus Əmrə yazır:

Cübbe vü hırka vü tac virsen gerekdür aşka bac
Dört yüz mürid ilə əlli hac tərk etdi Abdürrezzak
Onun gibi din ulusı haç öpti çaldı nakusı
Sen dahi bırak namusı gel beri yolun oda yak[17] (Tatçı, 1998:151).

Yunis kimi Nəsimi də eşq yolunda dindən keçməyi könlünə nişan verərkən "Şeyx Sənan kimi sən də tərsa-yı aşk ol", yəni eşqin uğrunda xıristiyan ol söyləyir:

Eşq içində din - ü dildən geç sen imdi iy göñül
Şeyh-i Sanan kimi olġıl sen dahı tersa-yı eşq[18] (Ayan, 2002:447 ), Qazi Bürhanəddin isə sevgilisinə xitab edərək "mən sənin yolunda Şeyx Sənanam, dilərsən həmən dəlil göstərəyim" - deyərək eşqi uğrunda Şeyx Sənan kimi dinindən keçə biləcəyini ifadə edir:

Çaldum şişe-i karı taşa

[17] Tatçı M. Yunus Əmrə Divanı. Ankara: Akçağ Yayınları, 1998, s.151
[18] Ayan H. Nəsim: Həyatı, ədəbi kişiliyi, əsərləri və türkçə Divanının Tənqidli Mətni. I c. Ankara Türk Dil Qurumu Yayınları, 2002, s.447

Her ne gelürse ķonulsun başa[19] (Ergin,1980: 416).

Füzuli, Bağdadlı Ruhi, Qövsi Təbrizi şeirlərində də Şeyx Sanan tez-tez zikr edilib. "Qövsü, beyitllərdə sevdiyi üçün Sənan kimi zünnar bağladığını, sevgilinin zülfünün telini tutaraq zünnardan, təsbehdən keçdiyini, məna əhlinin özünün Sənandan fərq edə bilməyəcəyini, duanı, tək biri Sənandan öyrəndiyini dilə gətirir"[20] (Çakır, 2008:155). Bu ənənə XVIII əsrin əvvəllərində yaşayan Arpaəminizadə Sami "eşqin Şeyx Sənanın imanına afət olduğunu"[21] (Kutlar, 2004:86), türk romantiki Namiq Kamal isə, "eşq ölkəsinə yönələrək Kəbə sakinlərinə vida etdiyini ifadə edərkən özünə örnək olaraq Şeyx Sənanı alıb:

Azm-i darül-mülk-i aşķ itdim yine Sənan-misal

Sakinan-ı Kabe-i imana ķıldım el-veda[22] (Onay Əhməd).

Azərbaycanda isə dahi Üzeyir bəy Hacıbəyov "Şeyx Sənan" (1908) adlı opera, Mehdi bəy Hacınski rus dilində

---

[19]Ergin M. Qazı Bürhanəddin Divanı. İstanbul: İstanbul Üniversiteti Ədəbiyyat Fakültəsi Yayınları, 1980,s.416

[20] Çakır M. Qövsi. Həyatı, ədəbi kişiliyi və Divanı (İncələmə-Tənqidli Mətn-Dizin/Gazi Üniversiteti, Sosyal Bilimlər İnstitutu. Yayınlanmamış Doktora Tezi, Ankara 2008,s.155

[21]Kutlar F.S. Arpaeminizadə Mustafa Sami. Divan, Ankara, 2004, s.86

[22] Onay Ə. T. Əski Türk ədəbiyyatında Mazmunlar və izahı (hazırlayan: Camal Kurnaz). Ankara: Akçağ Yayınları, 2000

"Şeyx Sənan əfsanəsi" adlı risalə yazıb. Göründüyü kimi, Seyx Sənan əfsanəsi bir çox şairin əsərinin mövzusu olub. Yəni Cavidin diqqətini yalnız "Tiflisdəki avam camaatın ziyarətgahı" olmuş Şeyx Sənan dağı cəlb etməyib", onun tanış olduğu bir çox əsərin mövzusuna çevrilən "bu möhtəşəm zatın tarixini araşdırmağa, onun haradan gəldiyini öyrənməyə qoşulması"[23] (Zeynallı, 1983:80 -106) və dəfələrlə Şeyx Sənan dağını ziyarət etməsi təsadüf deyildi.

Tiflisdə "Şeyx Sənan" dağı ilə yanaşı, gürcü məhəlləsində "Şeyx Sənan" adlı küçə varmış və bu küçənin rusca adı Davud küçəsi imiş. Hüseyn Cavidin müasiri Cəlil Məmmədquluzadə "Xatiratım" əsərində yazır ki, "O vaxtlar mən Tiflisdə gürcü məhəlləsində "Şeyx Sənan" küçəsində olurdum. Rusca həmin küçənin adı Davud küçəsi idi. Çünki xaçpərəstlər istilahında müqəddəs Davud – Şeyx Sənan deməkdir. Bizim məhəllə dağ ətəyində idi və bizdən yuxarı dağın şəhərə enən tərəfində müqəddəs

[23] Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106.

Davudun məbədgahı da vardır. Şeyx Sənanın gürcü qızına aşiq olduğu yer həmin yerdir”[24] (Məmmədquluzadə, 1967: 704).

Deməli, “dövrün, onu büsbütün təzyiqi altına alan bir ruhani, dindar, sufiyanə mühit və digər tərəfdən müvəqqəti də olsa belə ticarət mühiti Cavidi gəzdirə-gəzdirə Qafqazın ən gözəl şəhərində – Şeyx Sənan dağı qarşısında saxlamağı”[25] (Hənəfi,1982:92) təsadüf deyil, tale məsələsi imiş. İbn Xəldun boşuna yazmır ki, “coğrafiya taledir.”

“Şeyx Sənan”da ədibin bioqrafiyası ilə ust-üstə düşən məqamların çoxluğu diqqəti çəkir. Cavidin yaratdığı Şeyx Sənan sevən, sevilən, mühitini rədd edən bir aşiqdir. Mühitini rədd edən Şeyx Sənan, Cavid üçün maraqlı idi. Böyük eşq yolçusu olan Şeyx Sənan əslən turanlıdır. Onun mürəkkəb taleyi, çətin “ziqzaqlı” həyat yolu var, eynilə Cavidin taleyi və həyat yolu kimi. Şeyx Sənanın gəzdiyi yerlərlə Cavidin gəzdiyi yerlər eyniyyət təşkil edir. Şeyxin Gürcüstana yolu Ərəbistandan, Cavidinki isə İstanbuldan

[24] Məmmədquluzadə C. Əsərləri. 3 cild. Bakı: 1967,s.704
[25] Zeynallı H. “Şeyx Sənan” haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106.

başlayır. Cavidlə Şeyx Sənanın fikir və düşüncə, mühit bənzərlikləri də paralellik təşkil edir. Bu tale bənzərliyini diqqətə çəkən Hənəfi Zeynallı yazır: "Deməli, Cavid, məsələn, molla, rövzəxan oğlu, şeyxin kiçik qardaşı, sufiyanə, xəlqi ruhunda şeirlər söyləyən filosof Rza Tevfik şagirdi və İstanbul kimi o zamankı dindar bir darülfunun dəsti-pərvərdəsi olaraq Tiflisə gəlir" [26] (Zeynallı,1983:80-81). "Filosof Rza Tevfik şagirdi və İstanbul kimi o zamankı dindar bir darülfunun dəsti-pərvərdəsi olaraq Tiflisə gələn" Cavid burada xalq arasında dolaşan məşhur "Şeyx Sənan" əfsanəsini eşitmiş, dəfələrlə türbəni ziyarət etmiş, hətta faciədən öncə "Şeyx Sənan" adlı bir qəzəl yazıb, qəzetdə nəşr etdirmişdi:

Oyan, ey piri-xoşdil!!! Qalx, ayıl bir xabi-rahətdən!
Qiyamətdir, Qiyamət! Qalx, oyan, zövq al fürsətdən.
Seçilməz imdi əsla məqbərin gülzari-cənnətdən,
Donanmış hər tərəf pürşölə yıldızlarla caizdir,
Ki, Tiflis ərş pürəxtərlə dəm vursun rəqaətdən[27]

[26] Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106
[27] Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.77

(Cavid,2007:77). Bir neçə variantda işlənən və bütün variantlardan xəbərdar olan Hüseyn Cavid əsəri 1914-cü ildə böyük bir coşqunluqla işləyib tamamlayıb. Şairin dostu Abdulla Şaiq də xatirələrində; “1914-cü ildə ədibin nəşr etdiyi ”Şeyx Sənan” faciəsini böyük maraqla oxuduğunu və bəyəndiyini, görüşərkən də səmimi qəlbdən təbrik etdiyini bildirir”[28] (Şaiq,1961:205).

Təriqət mənsubu Şeyx Şənanda qüvvətli bir ehtirasla həqiqət axtarışı oyanır, qəlbinə şübhələr dolur. Sənanda baş verən dəyişikliyi duyan müridlər bunu Şeyx Kəbirə söylərkən Şeyx Kəbirin verdiyi cavab belə olur: ”Mərifət nuru şübhədən parlar!”[29] (Cavid,2007:135).

Xumara olan sevgisi Şeyxin özünü tanımasına səbəb olur, Sənanın tərəddüdləri sona yetir, artıq onun qəlbində torpaqdan və varlıqdan gələn təbii hisslər yaranır, qəlbindəki təlatüm və sarsıntılara son qoyulur. O, eşq yolunda ağır, məşəqqətli yollardan, dinindən keçir, şərab içir, xaç taxır, donuz otarır. Xumarla Sənanın böyük eşqi

[28] Şaiq A. Xatirələrim. Bakı: Azərnəşr, 1961, s.205
[29] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.135

dərk olunmadıqları cəmiyyətdə onların səadətinə yox, fəlakətinə çevrilir. Anbaan dəyişən, ziddiyyətli, psixoloji hallar keçirən Şeyx Sənan aşiq Sənana çevrilir. Bu aşiqlik onu dinlərin və təriqətlərin fövqünə qaldırır, həqiqətə yaxınlaşdırır. Əsər yerdən usanan, üzü göylərə, Haqqa doğru olan aşiqlərin, "Haqqa doğru uçması" ilə bitir. Nəhrə atılan Xumarla Sənan "İsa kimi…" qol-qola olaraq buludlar içində uçuşaraq, göyə yüksəlirlər"[30] (Cavid, 2007:275).

Əsərin başlanığıcından sonunadək təkamül prosesi keçirən Sənan hər pərdədə dəyişir, püxtələşir, yəni şəriətdən təriqətə, təriqətdən mərifətə, mərifətdən həqiqətə qədəm qoyur. Öz mütləq eşqinə qovuşandan sonra ölən təriqət başçısı Şeyx Sənan eşqi yolunda İslami təriqətindən uzaqlaşaraq yeni bir fəlsəfi təriqətin; "Məhəbbət dini"nin əsasını qoyur; "məkan və zaman müəyyənliyindən, etnik və dini mənsubiyyətindən asılı olmadan bütün insanların eyni bir mahiyyətə yüksəlmək şansını qəbul edir. Məhz mahiyyətə varanda, insanın ümumbəşəri keyfiyyətləri önə

[30] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.275

çıxanda, üfüqi müstəvidəki fərqlər itmir və insanlar ancaq vertikal müstəvidə, haqqa, həqiqətə yaxınlıq dərəcəsinə görə fərqlənirlər. Burada "Məni hər kim sevirsə, yüksəlsin" ("Şeyx Sənan") fəlsəfəsi rəhbər tutulur… həm də bu yüksəliş intellektual müstəvidən daha çox mənəvi müstəvidə həyata keçirilməlidir. Çünki Allaha, ancaq inanmaq, onu ancaq müqəddəslik duyğusu ilə dərk etmək olar. Təfəkkür, məntiq, rasional idrak burada acizdir" [31] (Xəlilov,1996:128).

Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi "disharmoniyanı harmoniyaya çevirən məhəbbət, böyük eşq nəfəsi qoxuyan, insanı azad sevgi, azad eşqə - özünüdərkə səsləyən eşq dastanıdır[32] (Əsgərzadə, 2005:89). Cavid yaradıcılığı üçün özünüdərk hər zaman aktualdır. Məhəbbətlə gözəlliyi bir vəhdətdə görən Caviddə sevgi, eşq Tanrı yüksəkliyindədir. "Bəni hər kim sevirsə yüksəlsin" - deyərkən ulu Cavid insanları mənəvi

[31] Xəlilov S. Cavid faciəsi. I kitab. "İblis"də fəlsəfi motivlər. Bakı: Qanun, 1996, s.128
[32] Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Filol.ü.f.d. alimlik dərəcəsialmaqüçün təqdim edilmis Dissert. Əlyazması hüququnda.2005,s.89

yüksəlişə, özünüdərkə səsləyirdi.

Ədibin "Şeyx Sənan"ına milli dəyərlər müstəvisində yanaşıldıqda, XII əsrdə Şeyx Əttarın Anadoluya apardığı Şeyx Sənanı Cavidin türkləşdirdiyini, Anadoludan Qafqaza gətirdyini, aradığı "haqq nurunu" Qafqazda tapdığını görürük. Akademik Məmməd Cəfər Cəfərov "Şeyx Sənan"ı müəllifin yaradıcılığında yüksək sənətkarlıqla yazılmış birinci mənzum dram və həqiqi şeir, poeziya dilində, son dərəcə zəngin, emosional dildə yazılmış bir əsər"[33] (Cəfərov,1960:65) kimi yüksək dəyərləndirmişdir.

Mütəfəkkir sənətkarın "Uçurum" (1917) faciəsində süni avropalaşmanın, yad təsirlərin milli mənəviyyatla uzlaşmayan eybəcərliklərini əks etdirmiş, romantik ideallarının ardınca Qərbə səyahət edən rəssam Cəlalın timsalında Qərb burjua əxlaqının Şərq ziyalılarına mənfi təsirini tənqid atəşinə tutmuşdur.

Əsərin qəhrəmanı rəssam Cəlalın Qərbə səyahət

[33] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.65

arzusu onunla Gövərçin arasında bir “narahatlıq, qısqanclıq aşılayır”, çünki bu səyahət Cəlal üçün Qərbə ideallarının ardınca getməkdirsə, Gövərçin üçün sevgilisindən ayrılıqdır. Gövərçin bu ayrılığın onun üçün bir faciə olacağını hiss edir. Cəlal Romaya gedir, Rafael və Mikelancelo sənəti ilə yanaşı, Süslü Avropa həyatı ilə də tanış olur. Bu həyat Cəlalın başını gicəlləndirir. O, buraya nə üçün gəldiyini unudaraq Avropa burjua əxlaqının təsiri altına düşərək sərxoş bir əyyaşa çevrilir. Fransada arzuladığı sərbəstliyə qovuşan Cəlala bu sərbəstliyin hədiyyəsi əvvəllər “gözəllik sərgisində lətif bir çiçək”[34] (Cavid, 2007:345), sonralar “şeytanət”[35] (Cavid,2007: 406) adlandırdığı Anjel olur. Ona keçici səadət bəxş edən Anjel Cəlalı məhvə sürükləyir. Və əsərin əvvəlində Avropaya arzularının ardınca gedən Cəlal, əsərin sonunda bir sərsəri vəziyyətində, iztirab və acılar içində qovrulur, Gövərçinə kəndini bağışlatmaq istəyir. Özünü “divanə”[36] (Cavid, 2007:404) adlandıraraq Anjeli “müqəddəs amalını

[34] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.345
[35] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.406
[36] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.404

çeynəməkdə", "tanrısını ona unutdurmaqla"[37] (Cavid, 2007:407) suçlayır. Əslində isə, özünü bağışlatmaq istəyən Cəlal üçün Anjel bir bəhanədir. Şərq ənənəsi ilə böyümüş şərqli Cəlalın faciəsini Qərbə səyahəti yaratmış, ona müqəddəs amallarını unutdurmuş, əyyaşlıq, sərxoşluq girdabına çəkərək alçaltmış, uçurumun başına gətirmişdir.

Əsərdə "böyük bir məharətlə cəzb edən, aldadan, pozan və məhv edən" Anjel Avropa burjua əxlaqını simvolik şəkildə təcəssüm etdirir. Gövərçinsə Anjelə qarşı saf, məsum bir gözəlliyi təmsil edir. Böyük sənətkar burada iki model, Şərq və Qərb modeli quraraq hər ikisini müqayisə edir və göstərir ki, Şərq və Qərbin özünəməxsus qanunları var. Şərqdə böyümüş, Şərq adət-ənənəsi əsasında tərbiyə və təhsil almış gəncləri Qərb modeli uçuruma sürükləyə bilər. Bu uçurum ümumilikdə, Şərqin Qərbə üz tutmasından, təsirlənməsindən yaranmış bir uçurumdur. Bu uçurum minlərcə şərqli gənci udub, öz ağuşunda məhv etmişdir.

Mütəfəkkir Cavidin fəlsəfi görüşləri, Avropaya üz

[37] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.407

tutan gənclərdə həyatla tanışlıqdan yaranan cəhətlər, avropalılaşmaq xatirinə hər yola əl atan, ailəsini ataraq Avropada "yad çiçəklər" qoxulayan, bir sözlə, kor-koranə avropalılaşan, Avropanı təqlid edən, öz adət və ənənəsini unudan gənclərə münasibətini  Uluq bəyin dili ilə ifadə edib:

O gün ki, İstanbulda
Gənclik fransızlaşdı
Getdikcə türk övladı
Uçuruma yaxlaşdı
Yurdumuzu sardıqca
Düşkün Paris modası
Hər kəsə örnək oldu
Sərsəm firəng ədası[38] (Cavid,2007:402).

Mövzusu Türkiyə həyatından götürülsə də, ümumilikdə Şərq ölkələri üçün səciyyəvi olan bu əsərdə qoyulan problemlər hər zaman aktualdır. Bu gün sərhədlərin götürülməsi, müstəqilliyimizin bizə verdiyi

[38] Cavid H. Əsərləri. 5 cilddə, II c., Bakı: Elm, 2007, s.402

imkanlardan dolayı Qərbə intiqrasiya, Qərbə elm, sənət və tərəqqi arxasınca yollanan gənclərimiz çoxdur. Qərb çox zaman elm və texnikanın, tərəqqinin məskəni kimi anılsa da, Qərbin də özünəməxsus həyat tərzi var. Ona görə də Cavid Qərbdən Şərqə ekspansiya olunan bəzi məsələlərə tənqidi yanaşmağın zəruriliyini açıb göstərmişdir.

Cavidin yaradıcılığının birinci mərhələsi "Uçurum"la başa çatır.

"Romantiklər üçün başlıca məqsəd dünyanı istədiyi kimi görmək arzusudur. Sənətkar təxəyyülündə dünyanı istədiyi kimi görmək elm adamlarının dünyanı dəyişmək idealına bərabərdir. Ona görə də bu həqiqəti ideallaşdırmaq deyil, reallaşdırmaq üçün zərif bir gülü də, məyus bir qəlbi də, Ayı da, hərb allahını da, hətta cənnətdən qovulan Adəmi də yanına salıb qeyri-adı bir axtarışa çıxır. Beləliklə, Cavid yaradıcılığının ilk mərhələsində iki böyük əsər - "Şeyx Sənan" və "İblis" əfsanə və mif meydana çıxır. Bunlar romantik düşüncənin bədii normaya

çevrilməsi idi”[39] (Əliyev,2008:4)

Cavidin “cəmiyyətin və tarixin ən mürəkkəb suallarına cavab tapmaq istəyi” ən çox sensassiyaya səbəb olan, ətrafında mübahisələr doğuran “İblis” (1918) əsərini meydana çıxarır. A. Turan yazır: “Əsərin yazılma tarixinə baxılırsa, bu tarix türklüyə, türk birliyinə rus müdaxiləsi dövrü ilə üst-üstə düşür” və bu səbəbdən simvolik şəkildə yazılan əsər “başdan-başa bədii simvollar, rəmzi işarələr, təzadlı ideyalar üzərində qurulub”[40] (Turan,2010:145).

İblis Şərq mifologiyasında, İslamda dərin kök salmış, mifik, dini-mücərrəd obrazdır. Hz. Adəm isə Tanrı tərəfindən yaradılan ilk insandır. Tanrı Adəmi torpaqdan, İblisi atəşdən yaratmışdır. Dini əfsanələrə görə əvvəllər Mələk olan İblisə (Şeytan, Əzazil, Haris) Allah tərəfindən insana xidmət etmək buyrulmuş. İblis atəşdən yaradıldığından, torpaqdan yaradılan Adəmə ibadət etməyi rədd etmiş və qiyamət gününə qədər Tanrının lənətini qazanmışdır. Müqəddəs kitabımızdakı birneçə ayə

[39] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, s.4
[40] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, s.145

(Əraf,12), İblisə əmr edilməsinə rəğmən Hz.Adəmə xidmət etməyi rəddetdiyini göstərir. Bu ayələrdən birində İblisin Adəmə səcdə etməməsinin səbəbi öz dilində açıklanır. (Allah İblisə buyurdu): "Sənə buyruq verdiyimizdə sizi səcdə etməkdən nə saxladı?" "Mən ondan daha yaxşıyam, çünkü məni atəşdən yaratdın, onu palçıqdan yaratdın", - deyir. Cavid, "İblis"də bunları eyni rəvayətdəki kimi verir:

Bən şimdi bir atəş, fəqət öncələr mələkdim,
Həp Xaliqə təsbih idi, təhlil idi virdim.
İlk öncə mələklər məni təqdis ediyordu,
Adəm kimi bir sayqısız axir ləkə vurdu.
Alçalmadı, yüksəldi fəqət şöhrəti şanım,
Allah ilə bir zikr edilir namü nişanım[41] (Cavid, 2007:13).

Hz.Adəmin qabırğasından  yaradılan Həvva anamızın cənnədən qovulması iblisin ilk məharəti. Ancaq Adəm və Həvva ilə birlikdə iblis də cənnətdən dünyaya qovulur. Bu səbəbdən iblis "cənnətdən qovulan mələk" (satan as a fallen angel) olaraq da anılmaqdadır.

Beləliklə, dinirəvayətə görə, Allah tərəfindən

[41] Cavid H. Əsərləri.Beş cilddə, 3 c., Bakı:Elm,2007,s.13

cəzalandırılan və yerə, insanların arasına göndərilən üsyankar iblis insanlara iblisanə şəkildə xidmətdədir. İnsanların mənəvi dünyasında özünə məskən salmış İblis onları daima şər işlərə sövq edir.

Lu-Sin “Sərsəmin gündəliyi” əsərində Konfusi etikasının mürtəce mahiyyətini açıqlayaraq yazır: “Mən tarix kitabını açdım. Hər səhifəsi “insanpərvərlik”, “əxlaq”, “fəzilət” sözləri ilə doludur. Birdən sətirlər arasından oxudum ki, bütün dünya “insan əti yemək” sözündən ibarətdir”[42] (Lui Sın,1954:64-65). Sətirlər arasından oxunan, “insan əti yemək” sözündən ibarət olan dünyanı qana çalxalayan, qəlbini iblisə satan, şərə qulluq göstərənlər deyilmi?

“İblis” faciəsində hadisələrə məhz bu aspektdən yanaşılmış, əsər dünyanı qana çalxalayan, bəşər tarixini müharibə dəhşətləri ilə dolduranların, şərə qulluq edənlərin, “insan əti yeyənlərin” əleyhinə yazılmışdır. Faciənin İblisin müharibə dəhşətlərindən bəhs edən monoloqu ilə başlaması da bunu subut edir: “Toplar

---

[42] Lu – Sın. Sobranie soçinenıe. Moskva: 1954, s.64-65

veriyor aləmə dəhşət, Dəhşət!...Qopuyor sanki qiyamət"[43] (Cavid, 2007: 9).

Əsərdə "məkan konkretliyi" olmasa da, hadisələr qeyri-müəyyən bir yerdə – harada isə Şərqdə – Bağdad civarında – "Dışarısı yeşilliklərlə mühat bir çardaq, içərisi həsirlə döşənmiş sadə bir qülbəcik... Ağustos, ikindi çağında"[44] (Cavid,2007:8) cərəyan edir.

Pərdə açıldıqda Arif bir tərəfdə, taxta bir karyola üzərində əlinə təkyə edərək, uzanıb düşüncəyə dalmış, ətrafda göy gurultusu, şimşək çaqışı, trampet sədaları,top, tüfəng, bomba partlayışları... Qarşıda, səhnənin nihayətində iki böyük göz (pəncərə) atəşlər, içində, dəhşətli bir müharibə təsvir edər. Gözlərin birində İblis, digərində Mələk görünür"[45] (Cavid, 2007:8).

Əsərdə İblis müharibə, Mələksə sülh çağırışları ilə çıxış edir. İblis "Canlar yaqan, evlər yıqan"[46] (Cavid, 2007: 8) insanın halından məmnun, Mələksə "Bəşəriyyətin

---

[43] Cavid H.Əsərləri. Beş cilddə III c.,Bakı: Eım, 2007, c.9
[44] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.8
[45]Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007,s.8
[46] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.7

iblisə uymasından"[47] (Cavid,2007:8) mütəəssirdir. Tanrıya müraciətlə "Ey varlığı yox, yoxluğu vardan daha dilbər"[48] (Cavid, 2007: 9) – deyən Arif Şərqin mücərrəd fəlsəfəsinə qarşı çıxır, daxilindəki bu ikiləşmədən çılğına dönür. "Şərqin əsəbi, yorğun yavrusu" Arif həyatın ən dərin qatlarına enir. "Min dürlü xəyalat" onu üzsə də, beynindəki suallara cavab tapa bilmir. Bu suallara cavab tapmaq istərkən, sürəkli və istehzalı qəhqəhələrlə yerdən, alovlar içindən çıxan İblis böyük qüdrət olmasından danışır, laübali qəhqəhələrlə uzaqlaşıb gedir.

Ədibin bütün faciələrinin qəhrəmanları kimi, Arif də həqiqət arayışındadır. "Nuri-həqiqət"in axtarışında olan Arifi həyatın açılmamış sirləri düşündürür. İstər qəhrəmanların mənəvi aləminə, istərsə də sənətkarın öz yaradıcılığına məxsus tərəddüd və ziddiyyətlər, ideya böhranları da məhz bu axtarışlarla bağlıdır. Bütün zamanların, ariflərin aradığı, lakin bulamadığı əzəli və əbədi bir hikmət: kamal qalib gələcək, yoxsa qüvvət? İblis

[47] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.8
[48] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.9

İnsana qalib gələcək, yoxsa İnsan İblisə? İnsan İblisi öldürməlidir, yoxsa könlünü ona verib İblis-insana dönüşməlidir? Cavid bu düşüncədə idi ki, insan iblisə, şərə qalib gəlməli, onu mənəvi dünyasından uzaq tutmalıdır.

Faciənin əsas surətlərindən biri Arif, digərisə İblisdir. Bu iki obraz insan qəlbindəki iki mühim tendensiyanın – Xeyir və Şərin rəmzidir. Ağıl, zəka və vicdan rəmzi olan Arif mənəvi təkamülə nail olmaqla, qəlbində mərhəmət kimi ülvi bir hissə yer verməklə hər cür pislik və fənalığa qalib gəlməyin mümkün olduğunu nümayiş etdirir. İblissə, sanki Arifin əlindən tutub onu həyat yolları ilə aparır, haqsızlıqları, ədalətsizlikləri, insanların mənəvi əzab - əziyyətini göstərməklə gözünü açmağa çalışır. Sonda, Arifin qəlbində şübhələr baş qaldırır. Vaxtilə korkoranə inandığı dəyərlər onun üçün əhəmiyyətini itirir, qəlbində baş qaldıran təlatümlərə əsir olur. Narahat təbiətli, ziddiyyətli bir mühitdə böyüyən, saysız-hesabsız dini-fəlsəfi və siyasi ədəbiyyat oxuyan Arif əqllə cəhalətə qalib gəlməyin mümkün olmadığını düşünür, çünki o, adı Arif olsa da, həyatının hələ ariflik dövründə deyil. Öncələr dərk

etmədiyi heç nəyin olmadığı düşüncəsində olan Arif, çox keçmir, həyatın və varlığın möcüzəsini anlayır, bundan usanır, dərk edir ki, öyrəndikləri ilə kifayətlənmək olmaz. Bundan sonra Arifdə nadanlığa qarşı üsyan, sarsıntılı hallar, təlatümlər baş qaldırır ki, "bu əqlin və idrakın faciəsi" idi. "Cavid demonizmində həqiqətin dərki insanın öz-özünü dərkidir. Özünüdərk gözəlliyin, insani müqəddəsliyin, azadlığın dərkidir. Cavidin fikrincə, insan öz-özünü ruhən "həbs" etdiyi kimi, özü də mənəvi həbsxanadan – cahillik və nadanlıqdan xilas olmalıdır"[49] (İsmayılov,1969:98).

Qəlbində "sarsıntılı hallar, təlatümlər baş qaldıran" Arifin mənəvi dünyasında artıq Şər hakimdir. Bu təlatümlərin səbəbkarı İblis Arifi əlibağlı quluna çevirib. İblis Arifin qəlbində fantastik və mövhumi qüvvə kimi mücərrəd aləmdən, yəni qeybdən nazil olmamış, onun ikinci dünyası olan mənəvi aləmində baş qaldırmışdır. "İnsan öz daxili aləmini dərk etmədən mühiti dərk edə bilməz. Kamil mənəviyyata malik olmadan mühitin

[49] İsmayılov Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı: Azərnəşr, 1969, s.98

təzyiqinə tab gətirə bilməz. Fərdi hisslərin məhdud dairəsini keçib onları ümumbəşəri hisslərlə tamamlaya bilməsə, fəlsəfi baxımdan mənalandırmaq səviyyəsinə yüksələ bilməsə, çirkli mühitdə saf qala bilməz"[50] (Xəlilov,1996:101).

Arifin mənəvi dünyası zəif olduğu üçün İblis asanlıqla orada məskən sala bilıb. İnsanın İblisə qarşı mübarizədə ən gərəkli və güclü dostu onun saf, təmiz mənəviyyatı olmalıdır, çünki əgər "mühit nə qədər eybəcər olursa olsun", İblis nə qədər güclü olursa olsun, insan öz şəxsi-mənəvi dünyasında zəiflik göstərməzsə, səhvə yol verməzsə məğlub olmaz. İblisə yol açan belə səhvlərdən biri müəyyən bir fərdi hissin mütləqləşməsidir. Hər hansı bir mənəvi keyfiyyətin, duyğunun, ehtirasın ölçü həddini keçərək öz əksiliyinə çevrilməsi, insanın əqidə və amalına zidd mahiyyət kəsb etməsidir.

Hüseyn Caviddə Şər – faciə cəmiyyətin özüdür və əgər faciə cəmiyyətin özüdürsə, fəlakət və qətllər, qarət və zülm isə şərə verilmiş meydan və bu meydanda təzahür

---

[50] Xəlilov S. Cavid faciəsi. I kitab. "İblis"də fəlsəfi motivlər. Bakı: Qanun, 1996, s.101

edənlərdir. Bu mənada, müəllif insanın mənəvi aləmində əksliklərin vəhdəti və mübarizəsi problemini qabarıq şəkildə qoymuş, insanın İblislə mübarizəsinin yalnız xarici ziddiyyət məqamlarını müvəffəqiyyətlə, yüksək bədii ustalıqla əks etdirə bilmişdir"[51] (Xəlilov,1996:102).

Qərb və Şərq ədəbiyyatında; Aligyeri Dantenin İlahi komediyası, Belmontun "Təbliğci İblis"i, Kalderonun Ecazkar sehrbaz"ı, Con Miltonun "İtirlimiş cənnət", Bel Consonun "Şeytan"ı, Jak Kazottun "Aşiq Şeytan,"ı Şarl Bodler"Şeytana dualar"ı, Mark Tvenin "Sirli əcnəbi"si, Mixail Bulgakovun "Ustad və Marqarita", Uilyam Peterin "Şeytan"ı, Neyl Geymanın "Sandman"ı, Stiven Kingin "Məhşər"i, Kristafor Marlonun "Doktor Faust"u, Yohann Volfqanq Götenin "Faust", Corc Bayronun "Gabil", Saramagonun "İsanın İncili", Mixail Lermontovun "Demon"u, L.Andreyevin "Şeytanın günlüyü, Abdurrauf Fıtratın "İblisin Tanrıya üsyanı", Əbdürrəhim Haqverdiyevin "Pəri cadu"su, "Xortdanın cəhənnəm məktubları, Abdulla Şaiqin "İblisin huzurunda" əsərlərində

[51] Xəlilov S. Cavid faciəsi. I kitab. "İblis"də fəlsəfi motivlər. Bakı: Qanun, 1996, s.102

İblis (Şeytan) çeşitli tərəfləri ilə mövzu olmuşdu. Qərbdə bu mövzudan yazılmış ən önəmli əsərlərdən biri Götenin "Faust"udursa, Şərqdə Cavidin "İblis" faciəsidir.

Cavidin "İblis"i özünəməxsusluğu ilə səciyyələnir: onun yaratdığı İblis, "öz artıq başlarını" atmış, cismən kiçilmiş  və bir növ insanlaşmışdır. Onun bütün dəhşəti, qorxuncluğu xarici görkəmində deyil, daxili aləmindədir. Bu İblis surətinin bədii cəhətdən ən qiymətli xüsusiyyətlərindən biri ondadır ki, o, öz sələflərindən seçilir, yenidir, müasirdir"[52] (Əfəndiyev,1985:77).

Mütəfəkkir Cavid böyük sənətkarlıqla yaratdğı "İblis" əsərində insanların taleyi ilə yanaşı, onların taleyində rol oynayan müxtəlif ideyaların, müharibə dəhşətlərinin, Şərin böyük rol oynadığını vurğulayır, eyni zamanda tanıdığı İblisi tanıdırdı. Çünki Cavid Birinci Dünya müharibəsində rastlaşdığı hadisələrlə, 1918-ci ildə, Bakı qırğınları  zamanı bizzat iblisləşmiş insanlarla üz-üzə qalmışdır. Abdulla Şaiq "Mənim həyatım" adlı memuarında, "İblis" faciəsinin yazıldığı ildə, Cavidin keçirdiyi böhrandan bəhs edərək

[52] Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi.Bakı, 1985, s.77

yazır: "Cavidin "İblis" faciəsini nə kimi təsirlər altında yaşmış olduğunu bilmək üçün şairin keçirmiş olduğu dəhşətli bir fəlakəti yazmaq məcburiyyətindəyəm. Cavid Bakıda Nikolayevski küçədəsindəki "Təbriz" mehmanxanasında yaşayırdı… Mart hadisəsindən sonra Hüseyn Sadiqlə bizə gəlmişdi. Onun bət-bənizi ağarmış, az zaman içərisində son dərəcə nəşəsiz və mütəəssir görünürdü. Əhvalın soruşdum, Hüseyn Sadiq Cavidin əsir düşdüyünü və ölümdən qurtulduğunu söylədi"[53] (Şaiq,1961:205).

1918-ci ildə, Bakıda əksinqlabçılar tərəfindən 60 nəfər günahsız vətəndaşla əsir alınmış Cavidin gözü qarşısında İblis insanlar tərəfindən əsirlərin hamısı güllələnmiş, bir təsadüf nəticəsində sağ qalan ədib Bakıdan Təbrizə, Təbrizdən doğulduğu Naxçıvana gəlmiş və "İblis"i də Naxçıvanda (1918) bu acı və unudulmaz təəssüratlarla yazmışdır.

İblisləşmiş insanlar tərəfindən əsir götürülməsi və təsadüfən xilas olması ağır mənəvi hallar keçirən Cavidə

[53] Şaiq A. Xatirələrim. Bakı: Azərnəşr, 1961, s.205

güclü təsir etmişdi. Azərbaycan səhnəsinin şah əsərlərindən olan "İblis" faciəsi bu acı təsirlər altında yazılmışdı. Əslində, böyük sənətkar üz-üzə qaldığı, gördüyü, tanıdığı iblis-insanı anladırdı. "İblis" insan haqqında faciədir, öz taleyi ilə insanlıq hər yerdə əsərin mərkəzində dayanır"[54] (Qarayev,1996: 108). "İblisəmi uymuş bəşəriyyət?"[55] (Cavid, 2007:8) – deyə heyrətlər içində fəryad edən şairin əsəri "tamaşaçılara, oxuculara olduqca geniş və yeni bir sahə açır. Cahan müharibəsini tərsim edən bu əsərində Şərq və Qərb həyatını, onların ictimai, ruhi və siyasi əhvalını, yaşamaq üçün çırpınan türk xalqının bəxtiyarlığına əngəl olan bütün səbəbləri və maneələri həqiqi və canlı surətdə göstərməyə müvəffəq olmuşdur. Cavidin bütün əsərləri içərisində "İblis"qədər həyati və realist bir əsər yoxdur zənn edirəm"[56] (Şaiq,1977:172).

Mütərəqqi ideyalar təbliğ edən humanist sənətkarın əsərinin leytmotivini bəşəriyyəti "qəhr etmədə" olan

[54] Qarayev Y. Romantizmin Cavid yaddaşı. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996,
[55] Cavid H. Əsərləri. 5 clddə, II I c., Bakı: Elm, 2007, s.8
[56] Şaiq A. Cavidin "İblis" faciəsi haqqında duyğularım//Şaiq A. Əsərləri. 5 cilddə. 4 c., Bakı: Azərnəşr, 1977, s. 177-191.

müharibələrə qarşı nifrət hissi təşkil edir. Bu əsər "mənzum faciə janrının gözəl nümunəsi kimi bu gün də öz təravətini saxlayır"[57] (İbadoğlu,1969: 130). Əsər yalnız "bu gün" deyil, dünya var olduqca və Xeyrin Şər üzərində qələbəsinə qədər var olacaq. İblis əsərinin əsas mövzusu iblis-insan, könlünü iblisə-nəfsə vermiş insandır. "İnsanın başına gələn bütün fəlakətlərin səbəbi nəfsə uymalarıdır. İnsanın təbiətində iki əsas güç var: nəfs (şəhvət), ağıl və zehn. Bu iki təməl güc daima bir-biri ilə mübarizədədir. Biri insanı Allaha itaət et və nəfsə uyma, digəri isə, əksinə yönləndirir. Qədimn zamanlarda, insan bu iki prinsipi özündən kənarda bilirdi, halbuki hər şey insanın içində, mənəvi dünyasında başlayır. Allah insanın təbiətində onu İblisin aldatmalarından qorumaq üçün iman deyilən bir güc də yaratmışdır. Könlündə imana yer verməyənlər İblisin əlibağlı qullarıdır. Əslində, dünya Xeyirlə Şərin müharibə meydanıdır. Ədəbiyyatın və dinin kəsişdiyi bir çox nöqtədə

---

[57] İbadoğlu Ə. H.Cavidin "İblis"faciəsi. Bakı: Azərnəşr, 1969, s.130

[57]Əsgərzadə L."İblis"- Şərq mifologiyasının tipoloji həlli"// Azərbaycanda elmin inkişafı ve regional problemler. Bakı: Nurlan, 2005, s. 293 - 299

İblis hadisələrin yaranmasında və yaşanmasında ən önəmli bir fiqurdur”[58] (Əsgərzadə,2005,193). 1920-30-cu illərin ədəbi tənqidində daha çox “Çavid iblisi idealizə edib”, - fikirlərinə rast gəlsək də, “Caviddə İblisi idealizə yoxdur, əksinə İblis poeziyasında realizm yeni bir səviyyəyə – Caviddə çatır. Cavidin İblisi ilahi, əfsanəvi şəkilləri rədd edir. O, iblis-Allahı, iblis-mələyi, iblis-insanı yaradır.

Burada hadisələr Şərq aləmində baş versə də, bu əsəri yalnız Şərqə aid etmək düzgün olmaz. İblisin coğrafi məkanı çox böyükdür. Şərqdə abid olan iblis, Qərbdə rahib ola bilir. Bu mənada, Cavidin məramı məhz insanlara fəlakət və xəyanətlərə, haqsızlıqlara bais olan iblisi tanıtmaq olub. Əsərdə Cavidi düşündürən də budur: “Hər şey gözəldir, bu gözəlliyi pozanlar qəlbini İblisə satanlar – iblisləşmiş insanlardır”[59] (Qarayev, 1985:191).

Hər zaman həyata və insana Cavid ucalığından baxan böyük mütəfəkkirin “İblis” faciəsi insanları özünüdərkə, düz yola səsləyən, qəlblərini Xeyirə verməsini tövsiyə edən

---

[58] Əsgərzadə L.Hüseyn Cavid və Şərq. Naxçıvan:Əcəmi,2005, s.193
[59] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.191

mənəviyyat və əxlaq dərsliyidir[60] (Asgerzade,2020: 172).

Cavid əsərdə Yaxın Şərq xalqlarının, xüsusilə, türkdilli xalqların ağır vəziyyətini dolayı yollarla şərh etmək üçün Vasif, kiçik zabit, yaralı zabit surətlərindən istifadə etmiş və böyük bir xalqın tarixi faciəsini, onun əsrlərdən bəri çəkdiyi ictimai bəlaların qurbanı olaraq qırılmasını, mütərəqqi fikirli insanlara çatdırmaq istəmişdir. Şairin milli məsələlərə münasibəti və sədaqəti “İblis”də ümummilli məfkürəmizin ana sözünə, düsturuna çevrilmiş bu misralarda öz əksini tapır: “Turana qılıncdan daha kəskin ulu qüvvət, Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!”[61] (Cavid, 2007:30). Sənətkar bu əsərində də “onu tərk etməyən ana düşüncəsinə - milliyyət fikrinə” sadiq qalıb.

Mütəfəkkir sənətkar “İblis” faciəsinə görə hələ sağlığında mükafatlandırılıb. Azərbaycan Xalq Maarifi Komissarlığı kollegiyasının 1921- ci il 13 yanvar tarixli

---

[60]Asgerzade L. İnsanın ve insanlığın kaderinde İblis(Hüseyin Cavid'in İblis trajedisi üzerine bir inceleme)/ Tokyo summit. 2nd international conference on innovative studies of contemporary sciences,17-20 avqust 2020, The Book of full texts p.156-172

[61]Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.30

qərarı ilə oxuculuq və bədiilik cəhətdən müsəlman aləmində yeganə olan “İblis” pyesinə görə Hüseyn Cavidə maarif üzrə müəlliflik haqqı, bundan əlavə də mükafat olaraq 150 min manat verilib.

Cavid yaradıcılığı bir-birindən maraqlı və ziddiyyətli qadın obrazları ilə- Səlma, Şeyda, Xumar, Südabə ilə də yaddaqalandır. Onun sovet dövründə yazdığı “Afət” (1921) faciəsinin qəhrəmanı Afət də öz ziddiyyətli xarakteri ilə seçilir.

Bütün yaradıcılığı insanda, təbiətdə və dünyada gözəllik axtarışlarından ibarət olan mütəfəkkir dramaturqun yaradıcılığı üçün gözəllik və sevgi aparıcı bir ideyadır. Cavidi “gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıra qədər başa düşmək olar”[62] (Qarayev,1985:105). İnsan oğlu dünyaya gələndən xaliqi-mütləqi axtarır, sevgi ilə yaşayır, “Cavidsə gözəlliyi və sevgini özünə Tanrı seçir, insanları sevərək özünüdərkə

[62] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.105

çağırırdı"[63] (Asgerzade,2016:329). "Mən gözəllərdə gözəl ruh araram. Ruhu düşkünləri çirkin sayaram" - deyən Cavidin gözəllik meyarı sadə və aydındır. Cavidə görə, əsl gözəl "gözəl ruh" sahibi olandır. "Afət" pyesində üzdən gözəl görünən kübar cəmiyyət, əslində daxili zənginliyi olmayan gözəl kimidir.

Kübar cəmiyyətə məxsus olan Afət zahirən çox gözəl bir qadındır. O qədər gözəldir ki, özü belə gözəlliyinin vurğunudur. Özünəvurğunluq isə, onda eqoistlik yaradıb. Bəs zahirən bu qədər gözəl olan Afətə mənəvi cəhətdən gözəl demək olarmı?

Cavidin təbiricə yanaşsaq, Afət gözəldir, çünki sevir, sevilir. Zahirən gözəl olan Afət həm də çirkindir, çünki bir neçə insanın faciəsinə bais olub. Onun faciəsi isə, gənc və gözəl Afətin qurduğu ailə fəlakəti ilə, əyyaş Özdəmirə ərə verilməklə yaranıb. Sevmək və sevilmək üçün yaranmış Afəti Özdəmir xoşbəxt edə bilmir.

Sevib-sevilmək, məhəbbətlə dolu bir həyat yaşamaq

[63] Eşq və gözəllik fəlsəfəsinin işığında sənət (filosof şair Hüseyn Cavidin yaradıcılığı üzərinə) s, 325-30. Uluslararası söz, sənət, sağlıq simpozyumu bildiriləri. Edirne 2016, s. 325-330

istəyən Afət üçün ailəsində həsrətini çəkdiyi səadəti tapmaq mümkün olmur. Ərinin sərxoşluğu, ona qarşı laqeyidliyi, məsuliyyətsizliyi Afəti bezdirib. O, zahirən yaraşıqlı görünən doktor Qaratayla görüşərkən xoşbəxtliyini tapdığını sayır, onunla xoşbəxt olacağına inanır, lakin aldanır, öz faciəsini yaşayan Afət yaşadığı mühitdə də dərk olunmur, mühit ona düşməndir. "Onun aid olduğu kübar mühitin insanları ancaq üzdə gözəl görünürlər. Məsələn, zahirən özünü gözəllik aşiqi, "alicənab və mədəni göstərən", Afətə onu sevdiyinə inandıran Qaratay əslində, insanlaşmış iblisdir"[64] (Əsgərzadə,2006:6-8).

Afətin ailəsindəki vəziyyətdən xəbərdar olan iblis xislətli doktor Qaratay şirin dili və zahiri görünüşü ilə Afəti yoldan çıxarır, onu ərini zəhərləməyə sövq edir. Qaratayın şirin sözlərinə inanan Afət inanır ki, artıq o, "məhəbbətsiz bir həyata son qoyub"[65] (Cavid, 2007:127), lakin bu o qədər də uzun çəkmir, Afəti əldə edən Qaratay yeni

[64]Əsgərzadə L. Hüseyn Cavidin gözəllik və məhəbbət fəlsəfəsi. Elmi araşdırmalar jurn., Bakı: Səda, 2006, s.6-8
[65] Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.127

macəralar axtarmağa başlayır. Onların mənsub olduqları cəmiyyətdəki kübarlığın arxasından çox böyük bir eybəcərlik boylanır. Bu cəmiyyətin özünəməxsus adətləri var. Bunlardan biri də onların yüngül əyləncəni və davranışı "yeniləşmək" kimi qəbul etmələridir. Bu "yeniləşmə"nin türk ailələrinə daxil olması, bir türk ailəsinin bu dərəcədə "yeniləşmə"si bu cəmiyyətin, bu cəmiyyətə məxsus insanların faciəsini yaradır. Lakin yeniləşməni qəbul etməyən, normal əxlaq qaydaları ilə yaşayanlar; Ərtoğrul kimi "hala əski qafa ilə düşünən", hənuz bir türlü yeniləşəməyənlər"[66] də var (Cavid, 2007:133).

Əsərdə "hala əski qafa ilə düşünən, hənuz bir türlü yeniləşəməyən"[67] (Cavid,2007:133), bayağı yeniləşmənin əleyhinə olan Ərtoğrul əslində, Cavidin bu cəmiyyətə aid düşüncələrini əks etdirir. Kübar cəmiyyət Ərtoğrulu yeniləşdirə bilmədiyi kimi, dövran da, sovetlər də Hüseyn Cavidi bu cür bayağılaşdıra, yeniləşdirə bilmədi.

[66] Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.133
[67] Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.133

Bu mühitdə ən çox yeniləşən Özdəmir, Qaratay və Afətdir. “Fəqət mən... mən isə yeniləşdim: əski qafamla bərabər yeniləşdim, daha doğrusu, məni yeniləşdirdilər. Sevgili və rəfiqəm, bu gözəl Afət məni yeniləşdirdi. İştə onu da bu doktor, doktor Qaratay yeniləşdirmiş...”[68] (Cavid, 2007:135) - deyən Özdəmirin ətrafı yeniləşmiş insanlarla dolu. Bir şərqlinin bu qədər “yeniləşmə”si onun faciəsini yaradır. Bu yeniləşməyə uyan Afətsə “çirkin mühit”də bu mühitin “gözəl” görünən gözəllik və sevgi təcəssümüdür. Bu təsirə uyaraq yaşayanları Ərtoğrul “zəncirsiz divanələr”[69] (Cavid,2007:135) adlandırır.

“Kübarlıqla eybəcərliyin, gözəlliklə çirkinliyin bir-birinə qarşı olduğu bu mühitdə gözəllik dərk olunmur, qiymətini almır, mühit gözəlliyin faciəsini yaradır. Belə bir mühitdə yaşaması Afətin gözəlliyini onun faciəsinə çevirir, Özdəmirin “yeniləşməsi”ni öz dilinə gətirməsi isə onun faciəsinə səbəb olur”[70] (Əsgərzadə,2006:6-8). Xaraktercə

---

[68] Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.135
[69] Yenə orda, s.135
[70] Əsgərzadə L. Hüseyn Cavidin gözəllik və məhəbbət fəlsəfəsi. Elmi araşdırmalar jurn., Bakı: Səda, 2006, s.6-8

heç kimə bənzəməyən, bütün qanunların xilafında yaradılmış "hər sevincimdə bir fəlakət, hər fəlakətimdə bir bəxtiyarlıq" olan Afət "ağlarkən gülür, gülərkən ağlayır"[71] (Cavid, 2007:156).

Əsərdəki güclü dramatizmə səbəb Afətin xarakteri, yaşadığı mühitin amansızlığıdır. Onun bu xarakteri, xarakterindəki "ikiləşmə", yaşadığı "çirkin mühit"də qarşılaşdırıldğı obrazlarla davranışlarında üzə çıxır. O, özünü anlayır, lakin özünə və ehtiraslarına qadağa qoymağa gücü çatmır, ehtiraslarının əlində oyuncağa çevrilir.

Əsərdəki faciəni törədənlər də, faciəyə məruz qalanlar da aristokrat cəmiyyətə mənsubdurlar. Bu mühit Afəti və Ərtoğrulu qane etmir, çünki Ərtoğrul gözəlliyi duyur, qiymətləndirir.

Beləliklə, "Cəmiyyətin insan idealına uyğun gəlməyən qaydaları ilə adi adamlar arasında deyil, bu qaydalardan öz mənafeyi üçün faydalana biləcək təbəqələr arasında

[71] Cavid H. Əsərləri. 5 cilddə, II I c., Bakı: Elm, 2007, s.156

uçurum yaranır”[72] (Paşayev,1982:139) ki, bu da onların facıəsını yaradır, onlar isə sonda uçuruma yuvarlanırlar. Özdəmir və “xain mühit” Afəti uçuruma sürükləyir. Afət Özdəmirlə yaşadığı sevgisiz həyatda özünü bədbəxt sayır və xoşbəxtliyini ararkən macaraçı Qaratayın qurbanına çevrilir. Qarataysa Afətlə əylənəndə bu oyunun sonunun nə olduğunu düşünmür, unudur ki, qadın sevəndə mələk, nifrət edəndə qatil də ola bilir. Dərk olunmayan mühitdə və dərk olunmayan insanların əhatəsində olan gözəl Afət, Qaratayı öldürüb, qatil olur. Bir zamanlar gözəlliyi önündə diz çökən Qarataydan qiymətləndirmədiyi gözəlliyinin, təhqir olunmuş məhəbbətinin qisasını alır. Afət sevməyi bacardığı kimi, öldürməyi, yaşatmağı bacardığı kimi məhv etməyi də bacarır. Sonda çırkinlik gözəlliyi deyil, gözəlliyin əli ilə çirkinlik məhv edilir. Fikrimizcə, gözəllik və sevgi şairinin də fikri budur; gözəlliyi duymayanlar, gözəlliyə qıyanlar ölümə məhkumdur. Gözəlliyi görmək, onu sevmək azdır, gözəlliyi dəyərləndirmək, qorumaq lazımdır.

---

[72] Paşayev Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyat. Bakı: Maarif, 1982, s.139

Əsərdə məhəbbətin müxtəlif xarakterli insanlarda fərqli təzahürünü göstərməklə yanaşı, "çirkin mühit"lə gözəlliyin ziddiyyətini, "insanın xoşbəxtlik və cəadət arzularının həyata keçməsinə imkan verməyən mühitin geniş mənzərəsini yaradan", "bütün eybəcərliklərə ölüm" – hökmü oxuyan müəllif, eybəcərliyi gözəlliyin əli ilə məhv edir. Doğrudur, sonda gözəlliyin rəmzi Afət də ölür, ancaq ölməmişdən əvvəl öz əli ilə yaratdığı bütü – Qaratayı da məhv edir. Afətin bir romantik qəhrəman kimi daxili sarsıntılarını və təbəddülatlarını, fəal mübarizəsini, ziddiyyətlərini pyesdəki digər obrazlarla, hətta Cavid yaradıcılığının digər qadın qəhrəmanları ilə müqayisədə aşkarlayan tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru C.Məmmədli yazır: "İndiyə qədər Azərbaycan ədəbiyyatında yaradılmış hüququ tapdanan qadın obrazlarından fərqli olaraq Afət yazıq, aciz, və qorxaq"[73] deyil (Məmmədli, 2007:60). "Yazıq", "aciz" və "qorxaq" olmayan Afət "Özdəmirdən təhqir olunmuş mənliyinin intiqamını, Qarataydan artıq ləkələnmiş mənliyinin

[73] Məmmədli C. Hüseyn Cavidin "Afət" faciəsi. Bakı:Nurlan, 2007, s.60

intiqamını ala bilir"[74] (Məmmədli, 2007:60).

Ədib əsərdə "Türkiyə aristokrat mühitini, kübar ailələrin əxlaq və məişətini, "alafranqa" mühitini və bu mühitdə yeniləşmə adına hökm sürən eybəcərliyi tənqid etməklə yanaşı, belə cəmiyyətdə ailənin "mənəvi dayağını zədələyən", laxladan ictimai amilləri, qadın hüququnun tapdalanmasını, qadının sevmədiyi insanla evləndirilməsinin hansı faciələri törətdiyini, sərxoşluğun ailəni bir qurd kimi içindən yeyib məhv etdiyini, kübar ailələrə məxsus "yeniləşmə"nin nəyə mail olduğunu, "mənəvi-əxlaqı cəhətdən düşkün bir mühit"də insanın korlandığını və bu zaman yüksək əxlaqi idealdan qat-qat aşağıda durduğunu göstərib. Çünki belə mühitdə "mənəvi mükəmməllik və əxlaqi gözəllik əsl mahiyyətlərinin əksi kimi dərk olunur. Afət və Ərtoğrul kimi adamların faciəsi məhz bunda - öz mənəvi kamillikləri ilə qeyri-mükəmməl cəmiyyətdən yüksəkdə dayanmalarında və belə mühitdə öz ideallarına çata bilməmələrindədir"[75] (İbadoğlu, 1969:26).

[74] Yenə orda,s.60
[75] İbadoğlu Ə. H.Cavidin "İblis"faciəsi. Bakı: Azərnəşr, 1969, 165 s.

Əsərdə qarşıya qoyulan gözəllik və mühit problemi bu hər zaman aktualdır. Ölkəmizin müstəqillik qazanması, sərhədlərin açılması, kapitalist münasibətlərinin inkişafı, ölkələr arasında genişlənən ticarət və turist əlaqələrinin genişlənməsi sayəsində Qərb adət-ənənələrinin Şərqə ekspansiyası başlanıb ki, bu da uzun zaman Şərq – müsəlman zehniyyəti ilə yaşayan Şərq insanı üçün "yeniləşmə" adı altında "bayağılaşma" təhlükəsi yaradır.

Mütəfəkkir sənətkarın yaradıcılığında "mifik tarixin islam tarixi ilə əvəz edilməsi ilə" "Peyğəmbər" (1922) əsəri yaranır. Bu dram filosof şair-dramaturqun sovetlərin ilk illərində yazdığı möhtəşəm və ədəbi fikrin diqqət mərkəzində olan əsərlərindəndir. Əsərdə Şərq - İslam tarixinə müraciət edən mütəfəkkir sənətkar mövzuya və şəxsiyyətə özünəməxsus mövqedən yanaşır, insanın müqəddəslik mərtəbəsinə yüksəlməsini göstərərək, dünyanı öz məhvərinə qaytarmaq vəzifəsini onun üzərinə qoyur, dolayısıyla özünün humanizm və maarifçilik ideyalarını İslam Peyğəmbəri vasitəsiylə təqdim və təbliğ edirdi.

İslam Peyğəmbərini möhtəbər qaynaqlarda olduğu kimi təsvir edən ədib Peyğəmbəri “ideallaşdırmaq”la suçlanmış, kəskin tənqidə məruz qalmışdı. Əslində, Cavid Məhəmməd Peyğəmbəri ideallaşdırmamış, sadəcə obyektiv yanaşmış, Məhəmmədi “yoxsul ərəblərin müdafiəçisi, ədalətli, hüquq bərabərliyi ideyasının təbliğatçısı, əsarət, köləlik əleyhinə çıxan bir qəhrəman, qadın azadlığı tərəfdarı, hər cür mövhumat, xurafat, cəhalət əleyhinə mübarizə aparan, elm, mədəniyyət vurğunu, humanist bir insan, panteist bir mütəfəkkir kimi”[76] (Cəfərov,1960:145) təsvir etmişdi. Ədibin Sovet hökumətinin ilk illərində, əvvəlindən sonunadək “dərin fəlsəfi, ictimai, siyasi, əxlaqi mənası olan həqiqətlərlə, rəmzlərlə, eyhamlarla dolu”[77] (İsrafilov, 1991: 194), “siyasi dram”[78] (Turan,2010:67) olan “Peyğəmbər”i yazması, bir tərəfdən, beş il Təbrizdə yaşayan, “Talibiyyə”də dərs alan, “Əmsilə”, “Sərfi - Miri”, “Təfsir”, “Şərhi-Amili”ni oxuyan, “İslam tarixi”nə yaxından bələd olan, Hacı Molla Abdulla kimi rövzəxanın

[76] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960,s.145
[77] İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1991, s.194
[78] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, s.67

ailəsində böyüyən, “ana südü, ata öyüdü” ilə onun ruhuna hopmuş bu mövzuya rəğbəti idisə, digər tərəfdən “günün həqiqətini deyə bilmək üçün tarixin qoynuna sığınması”, “onu tərk etməyən ana düşüncəsinə milliyyət və türklük fikrinə xüsusi bir yer ayırması idi”[79] (Rəsulzadə, 1991:67). Cavidin “İblis”dən sonra "Peyğəmbər"i yazması nəyin işarətiydi?

Dini inancmıza görə, müəyyən bir missiya ilə dünyaya göndərilən Peyğəmbər mövzuda əsərlərin yazılması, Yerlə Göyün, Allah və İnsan birliyinin zəyiflədiyi vəya qırıldığı cəmiyyətdəki xaotik durumlara düzən gətirmək, insanları haqiqət yoluna çağırmak üçün müqəddəs bir missiyaya xidmətdir. Bu, Cavid və Cübranın “Peygambər”lərinin dərin ideoloji qatlarının sirridir. Ancaq Allahsız, dinsiz Sovetlərin Peyğəmbərə ehtiyacı varmıydı? Təbii ki yox. Köhnəni yıxıb, hər şeyi yenidən yaradan Sovetlər, “Yeni insan” (bu insanın Allahı da, Peyğəmbəri də Sovetlərdi), “yeni şair” (qələmi yalnız Sovetləri vəsf etməliydi), yeni

---

[79] Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991,s.67

ədəbiyyat (proletar ədəbiyyat) yaradırdı... Allah, Peyğəmbər sözlərini unutdurmağa çalışan yeni sovet cəmiyyətində mütəfəkkir Cavid "Peyğəmbər"i yazmış[80] eyni zamanda, bu əsərlə "XX əsrin mürəkkəb və təzadlı epoxasının Azərbaycan səhnəsinə gətirib gəlmişdi"[81] (Qarayev,1985:131).

Doğrudur, bu mövzuda H.Caviddən əvvəl əsər yazanlar olmuşdu, lakin Cavidə qədər əsərinə "Peyğəmbər" adını verən olmamışdır. Bu mövzuda yazanlar daha çox İslam Peyğəmbərinin surət və şəxsiyyətini təbliğ etmək istədiyi fəlsəfi fikirlərə uyğunlaşdırmağa çalışmışlar. Dünya ədəbiyyatında da Peygəmbər mövzusu hər zaman aktual olub. Peygəmbər obrazı ilk dəfə "İlahi Komediya"`da Aligieri Dante tərəfindən yaradılıb. Fransız Volterin "Peyğəmbər Məhəmməd və ya fanatizm" əsərində, alman şairi Göte isə "Məhəmməd" və "Məhəmmədin mahnısı" parçalarında Məhəmməd Peyğəmbərdən bəhs etmişlər. Göte demək olar ki,

[80] Əsgərzadə L. Hüseyn Cavidin "Peyğəmbər"əsəri islami dəyərlər kontekstində/ 213-14
[81] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.131

Məhəmməd surəti ilə özünün humanist görüşlərini təbliğ etmişdir. Ancaq Peygəmbər haqqında, iki mütəfəkkirin; Hüseyin Cavid və Cibran Xəlil Cibran eyni ildə yazdığı “Peygəmbər” əsərləri yazılmasından yüz ill keçməsinə rəğmən, hələ də öz ehtişamını qoruyur. Çünki hər iki mütəfəkkir mövzunun müqəddəsliyini və dərinliyinə aşina idi. Hüseyn Cavid səhnə üçün yazmadığı “Peygəmbər” əsərini Azərbaycanda, Gibran Xəlil Cibran isə dörd il boyunca əl yazmasında saxladığı və “varlığının bir parçası” olaraq gördüyü “Peygəmbər”i 1923-cü ildə Amerikada nəşr etdirmişdir. İslam Peyğəmbərini Cibran Xəlil Cibran Qərb ölkəsində, Hüseyn Cavid yeni qurulan Şuralı Azərbaycanda yazdığı əsərlə təqdim edirdi.

Peyğəmbər obrazı Azərbaycan klassik ədəbiyyatında da öz əksini tapmışdır. Nizami Gəncəvi əsərlərinin Məhəmməd Peyğəmbərə istinadən yazılmış rəsmi hissəsindəki Nətlərdə; “azadələrin dostu”, “kölgəli ağac” (“Şərəfnamə”), “əqlin sultanı”, “səxavət mülkünün böyüyü” (“Leyli və Məcnun”), “bütün möhtacların pənahı”, “lovğalığın düşməni”, (“Yeddi gözəl”),

“yetimlərin dostu” “aqil və bilikdən qüvvət alan”, “xəstə dünyanın həkimi” (Xosrov və Şirin”) kimi dəyərləndirilmişdir. Klasiklərimizdə əsərlərini Peyğəmbər tərifi ilə, Nətlə başlamaq kimi bir ənənə olsa da, İslam Peygəmbəri obraz olaraq ilk dəfa yazılı Türk ədəbiyyatına Balasaqunlu Yusi`in “Qutadqu bilik” (XI) əsəri ilə daxil olur. Yusif Balasaqunlu Peyğəmbəri əsərində “yalavac” olaraq tanıdır. Yusif Balasaqunlu ilə eyni zamanda, eyni siyasi-coğrafi sərhədlər içərisində yaşayan Mahmud Kaşqarlının “Divani-Lugat-it Türk” əsərində də Peygəmbər “Yalavac” olaraq öz əksin tapır. “Yalavac” kəlməsiylə böyük Türklərdən Əli bəy Huseynzadənin “Ey böyük Tanrı” şeirində də qarşılaşırıq; “Yalavacın qəlbi böyüklüklə doludur / Onu qəlbidir Göylərə çıxaran.” Əli bəy Hüseynzadə “Yalavacın qızı” şeirində peygəmbər qızı Zahraya Yalavacın qızı kimi xitap edir: Yalavacın qızı Zahra! Ey şanlı qadın, / Adın qaranlığı şərəfləndirdi” və s.

Klassik ədəbiyyatımızdan gələn ənənəni davam etdirən mütəfəkkir Cavid Məhəmmədi İslam tarixində ən mütərəqqi fikirli Peyğəmbər kimi; “cənnət anaların

ayaqları altındadr" – deyə qadına yüksək dəyər verən, "sənə bir hərf öyrədənin 40 il qulu ol" - deyə elmin dəyərindən bəhs edən, bütün insanları Allah nəzərində bərabər görən, qul azad etməyin savab olduğunu söyləyən, qul ticarətini pisləyən adil bir şəxs kimi göstərmişdir[82] (Əsgərzadə, 2005:129). Akademik M. Cəfərin fikrincə, "Məhəmmədə verilən bu sifətləri tarixi həqiqətə uyğun hesab etmək olmaz və bunlar əsərin zəif, mənfi cəhətlərindəndir", güya "Peyğəmbər qadın azadlığı haqqında belə yüksək fikirdə olmamışdır. Bu ancaq Cavidin fikri idi"[83] (Cəfərov,1960:145).

"Peyğəmbər" əsərində qələmə alınan hadisələrin bəziləri Məhəmmədin qırx yaşında özünü peyğəmbər kimi elan etməsi, ətrafına tərəfdarlar toplayaraq İslam dinini möhkəmləndirməsi, Məkkədən Mədinəyə hicrət etməsi, bütpərəstliyi məhv etmək üçün apardığı mübarizə və qılınc gücünə İslamiyyəti əsaslandırması kimi bir çox məsələlər, demək olar ki, tarixdən bizə məlum olanların eynidir.

---

[82] Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Filol.ü.f.d. alimlik dərəcəsialmaqüçün təqdim edilmis Dissert. Əlyazması hüququnda.2005, s.129
[83] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.145

Tarixi faktlar əsasında yazılmış əsərdə Peyğəmbər həm olduğu kimi, həm də Peyğəmbərin dili ilə təbliğ olunan bəzi məsələlər H.Cavidin öz fikirləri, qənaətləri olduğunu önə çəkən, akademik Məmməd Cəfər Cəfərovun qənaətləri o dövr üçün doğru sayılmalıdır. Görkəmli akademik ya o zaman İslam Peyğəmbərini Cavidin gördüyü kimi görmək, ya dövrün tələbindən kənara çıxmaq istəməmişdir. "Peyğəmbər"in əsl qiymətini vermək o dövrdə dinin təbliği hesab oluna bilərdi.

Bu gün elm "Quran"da yazılanların, həqiqətən də, vəhy olduğu qənaətinə gəlir ki, bunlar bir insan ağlına sığa biləcək şeylər deyil. Qəlbi bəşəri duyğular məskəni olan, cəmiyyətdə baş verən bəlalardan qeyzə gələn, qadın haqqında yüksək fikir söyləyən, fəlsəfi görüşləri və humanizmi Məhəmmədin dilindən səslənən H.Cavidin bu keyfiyyətləri birbaşa İslam dinindən gəlmədir. Ən böyük dinin məhəbbət olduğuna inanan mütəfəkkir bir çox əsərlərində olduğu kimi, "Peyğəmbər"də də bəşəriyyəti idarə etməkdə böyük mənəvi eşqin əhəmiyyətli olduğu qənaətini paylaşmışdır.

Zamana və məkana sığmayan, hər şeydən yüksəkdə dayanan nə zamanı, nə də bolşevizmi mədh etmək istəyində olmayan Cavid əsərinin mövzusunu köhnə Şərq həyatından, din tarixindən aldığı üçün uzun müddət tənqid hədəfində olmuş, islamın təbliğində günahlandırılmış, müsəlman ölkəsində İslamı təbliğ etmək, Peyğəmbəri sevmək və tanıtmaq, suç sayılmışdı. Əslində isə, belə ağır, məsuliyyətli bir mövzuya girişməyə hər kəs cəsarət etməzdi, çünki bu mövzuya girişmək böyük cəsarət, elm, güclü təfəkkür tələb edirdi, yəni islam Peyğəmbərindən yazan sənətkar ilk öncə sənətinin peyğəmbəri olmalı idı.

Bu mənada, "Peyğəmbər"i yazmaq, mütəfəkkir Cavidin, sənət peyğəmbərinin haqqı idi. O, "Peyğəmbər" əsərini yazmaqla "İslam renessansının müdafiəsinə qalxdı. Burada dahi sənətkarın fəaliyyət əmsalı xeyli yüksəldi. Hüseyn Cavid öz yaradıcılıq metoduna sadiq qalaraq insanın təmizlənməsini, fəal həyat mövqeyinə nail olmasını cəmiyyət içindəki "kiçik" adamların məzəmmətində deyil, yüksək və bəşəri ideallarla nəfəs alan bədii qəhrəmanların

təsir gücündə görürdü”[84] (Əliyev, 2008: 32).

“Peyğəmbər” - Cavidin illərlə beynində gəzdirdiyi “Şah əsər” idi: “Uçurum” (1917) qəhrəmanlarından olan Əkrəmin arzusunu sonralar Cavid özü bu əsəri ilə yerinə yetirmişdi. “Uçurum”da filosof Əkrəm, rəssam Cəlal, tələbə İldırım, “rəssamlığın şah əsəri” barədə mübahisə edərkən filosof Əkrəmin “şah əsər” təsəvvürü; “Böyük Hirra dağında qarşısında göydən enən gülümsər mələk”[85] idi (Cavid, 2007:332). Deməli, hələ o zaman Cavidin ruhunda gəzdirdiyi “Şah əsər” “Peyğəmbər” imiş”[86] (Qarayev, 1985: 132). “Şah əsər”ini - “Peyğəmbər”ini Cavid oynanmaq, səhnə üçün deyil, ancaq oxumaq üçün yazmışdı. Əsərdə hər pərdəyə xüsusi ad verilib; “Bisət”, “Dəvət”, “Hicrət”, “Nüsrət”, lakin iştirakçı şəxslərdən heç birinin adı verilməyib.

Birinci pərdə - “Bisət” Məkkə yaxınlığındakı Hira dağında dərin düşüncələrə dalmış Peyğəmbərin təqdimi ilə, Məhəmmədin yeni din uğruna mübarizəyə atılması ilə,

[84] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, s.32
[85] Cavid H. Əsərləri. 5 cilddə III c., Bakı: Elm, 2007, s.332
[86] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.131

ikinci pərdə - "Dəvət" Peyğəmbərin mübarizəsinin il mərhələsi-Kəbəyə uzanan yolun təsviri ilə, üçüncü pərdə - "Hicrət" Xəttab qızı ilə onun həyat yoldaşı Səid arasındakı dialoqla, yəni Peyğəmbərin "Allah elçisi" kimi yoxsulların qarşısında çıxışları, dördüncü pərdə; "Nüsrət" 8 il sonrakı hadisələrin təsviri ilə başlayır, Peyğəmbərin tam qələbəsi göstərilir, Peyğəmbərin monoloqu ilə bitir.

Əsərdə məhəbbət ideyası da qırmızı xətlə keçir, "nuri-həqq" axtaran – Cavid ruhu, Cavid fəlsəfəsi görünür. Peyğəmbər qurtuluşunu "Ərşi-lahutə", "hüsni-mütləqə" qovuşmaqda görür, lakin arzu və əməlləri arasında bir şey də var ki, o da "bütün kainatı eşq olan cihan" – arzusu da var:

Mən məhəbbət əsiriyəm… hər an,
Hər zaman özlərim öylə cahan,
Ki, bütün kainatı eşq olsun,
Könül uçduqca etila bulsun[87] (Cavid, 2007: 178).

"Peyğəmbər" ədibin səhnə üçün yazılmayan yeganə əsəridir.

---

[87] Cavid H. Əsərləri. 5 cilddə III c., Bakı: Elm, 2007, s.178

Cavidin daha çox tənqidə məruz qalan əsərlərindən biri də Sovet dövründə nəsrlə yazdığı “Topal Teymur”dur (1925). Bu dəfə Şərq tarixinə müraciət edən Cavidin obrazlar qalereyasına özünü dərk etmiş tiran, Əmir Teymurla qədəm qoyur. 1402-çi ildə Əmir Teymurla Yıldırım Bəyazid arasında baş vermiş Anqara döyüşü qələmə alındığı “Topal Teymur” əsəri yaranması ilə “Oğuznamə”lərdə türk xaqanının əzəmətli yürüşləri, göyləri və yerləri tutmaq ehtirası, özünü cəmiyyətin fövqünə qaldırmaq inadı folklor yaradıcılığından sıyrılıb H.Cavidin timsalında yazılı ədəbiyyata keçdi: “Oğuznamə” epopeyasının Oğuz xan, Bilgə xaqan, Qazan xan kimi əfsanəvi şəxsiyyətləri Topal Teymur və Yıldırım Bəyazidlə əvəz edildi. H.Cavid tarixdəki dramatik döyüş ilə bədii nümunədəki dramatik toqquşma arasında təbii bir harmoniya yaratdı: tarixin və müasirliyin, gerçəkliyin və bədii yaradıcılığın, folklor süjetinin və yazılı ədəbiyyatın harmoniyası!”[88] (Əliyev, 2014:4)

Mütəfəkkir Cavid nədən bu mövzuya müraciət etdi?

[88] Əliyev K. Hüseyn Cavidin sənət dünyası /Ədəbiyyat qəz., 2014,s. 4

Görkəmli alim K. Əliyevin fikrincə “H.Cavidin “Topal Teymur” əsəri müəllifin həyatda şahidi olduğu dünyanın yenidən bölüşdürülməsindən müəllifin təsəvvür etdiyi tarixi bölüşdürməyə yönələn bədii axtarış faktıdır.” “İki türk sərkərdəsi və iki doğma tərəf arasında baş verən mövcud döyüşlər tarixi silsilə təşkil edir. Buraya Əmir Teymur və Yıldırım Bəyazid (1402), Uzun Həsən və Sultan Məhəmməd Fateh (1473), Şah İsmayıl və Sultan Səlim (1514), Şah Təhmasib və Sultan Süleyman Qanuni (XVI əsrdə bir neçə dəfə) arasındakı qanlı vuruşlar daxildir. Bu silsiləni nəzərdən keçirdikdə H. Cavidin niyə məhz Əmir Teymur və Yıldırım Bəyazid savaşının təqdiminə üstünlük verdiyi aydınlaşır. Çünki bu döyüş tarixi faciəni əks etdirən həmin silsilənin ilkidir”[89] (Əliyev, 2014:4).

Əsərdə hadisələr Əmir Teymurun sarayındakı hadisələrin təsviri ilə başlayır, “Allah bir olduğu kimi padşah da bir olmalıdır”[90] (Cavid, 2007:318) təfəkkürü ilə

[89] Əliyev K. Hüseyn Cavidin sənət dünyası /Ədəbiyyat qəz., 2014, s. 4
[90] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s. 318

hərəkət edən Əmir Teymur Şam və Misir üzərinə yürüşə hazırlaşır. Yıldırım Bəyazidin sarayına cəsuslar yola salınır.

Üçüncü pərdədəki hadisələr Bursada, Yıldırım Bəyazidin sarayında cərəyan edir. Yıldırıma xəbər verilir ki, Teymurun adamlarından 3 nəfər yaxalanmışdır. Sobutaysa saraya elçi kimi gəlir. Yıldırım öncə yaxalananların boynunun vurulmasını əmr etsə də, sonra onları bağışlayır. Hadisələr Bursada - Bəyazitin sarayında davam edir. Yıldırımla Əli paşa Teymurun qələbələrini müzakirə edir. Əli paşa Yıldırıma Teymurdan məktub gəldiyini bildirir. Əmir Teymur özünü dərk etmiş bir fatehdir. Təəssüf ki, məğrurluğu Yıldırıma bu həqiqəti görməyə qoymur. Məktuba təhqiramiz cavab yazılır. Beləliklə, bir çox müharibələrin qalibi olmuş Osmanlı sultanı Yıldırımın məğrurluğundan və Teymurun yer üzündəki Allahlıq iddiasından iki Şərq hökmdarı müharibə meydanına atılır.

Son pərdədə hadisələr Anqara ovasında cərəyan edir.

Əmir Teymurun çadırı Ankara ovasında qurulub, çadırın önündə keşik çəkən keşikçilər Teymurun müharibələrindən danışırlar. Bu zaman Teymurun ordusu Yıldırımın ova çıxan 15 min əsgərini məğlub etməsi, özünün beş-on nəfərlə qaçıb qurtarması xəbəri gəlir. Teymur Ağbuğaya ordusu dağılmış, əsgərləri pərən düşmüş Yıldırım Bəyazitə yüksək ehtiram göstərilməsini əmr edir. Az sonra Yıldırımı gətirirlər. Müharibənin amansız qanunları var və bu qanunlardan biri də müharibədə qalibin tək olmasıdır. Bu döyüşdə qalib Əmir Teymurdur. Lakin qalib olmağına baxmayaraq Teymur, məğlub Yıldırıma - əsirinə qarşı fəzilətlidir. Onun "fəziləti də, dəhşətləri qədər böyükdür"[91] (Cavid, 2007:364), lakin əsirinə qarşı fəzilətlə yanaşı Teymurda: "Şövkətli sultanım! Tanrı qulu Teymurdan daima ikram və ehtiram görəcəksiniz. Yorğunsunuz, rica edirəm, oturunuz. Teymur ona cibindən bir kağız çıxarıb verir. Lütfən şu məktubu oxurmuzunuz?"- söylərkən acımasız bir istehza da var. Digər tərəfdən, əsir olmasına

[91] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.364

baxmayaraq, Yıldırım: “Zatən yazıldığı zaman oxunmuş”– cavabını verərəkən yenə məğrurdur. Damarlarında şərqli qanı axan Yıldırım Sultan ikən dediyi sözü əsir vəziyyətində də geri götürmür.

Şərq tarixinin mürəkkəb, qarışıq və uğursuz bir səhifəsinə müraciət etmiş ədib seçdiyi hadisə və məsələlərin tarixi gerçəkliyinə mümkün qədər sadiq qalmış,  daha ziyadə həmin hadisələrdən bir bəhanə kimi faydalanmış və öz fəlsəfi-estetik mülahizələrini əsaslandırmaq məqsədini izləmişdir.

Əslində, “Əmir Teymur Yıldırım Bəyazitə qarşı tarixdə də ədalətli olmuş, oğlanlarını azad etmiş, Yıldırım xəstələndiyində öz həkimini ona göndərmiş, öldüyündə sultanlara yaraşan və vəsiyyətinə uyğun şəkildə torpağa verilməsini istəmişdi. Bəzi mənbələrdə Yıldırımı əsir götürən Teymurun onu qəfəsə qoyub yanında gəzdirməsi kimi hadisələrə yanaşmamışdır. Cavidin bir türk hökmdarının digər bir türk hökmdarına əsirlikdə belə

münasibət göstərməsi, fəzilətli davranması arzuediləndir[92] (Əsgərzadə, 2020:). Bu da Cavidin turkçülüyündən, turançılığından, humanizmindən, insana və dünyaya gərəkli olan şeyin ancaq və ancaq məhəbbət olduğu qənaətində olmasından doğurdu. H.Cavid bütün əsərlərində olduğu kimi, burada öz fəlsəfi düşüncələrini ifadə etmişdi. Bu daha çox Yıldırım Bəyazitlə Əmir Teymurun dialoqunda özünü göstərir:

- "Teymur: İştə mən şu məktubdakı sözlərinizi unutdum və sizi əfv etdim. Yalnız əfv etmək deyil, hətta məhəbbətinizi qazanmaq istərim. Əvət, məhəbbətinizi də qazanmaq istərim. Əcaba, buna şair nə söylər?"

- Şair: "Məhəbbət! Məhəbbət!.. Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir"[93] (Cavid, 2007:313).

Bu sözlərdə, "Mənim tanrım, gözəllikdir, sevgidir" - meyarını əsas götürən, məhəbbət və sevgini, mənəvi

---

[92] Əsgərzadə L. Əmir Teymur:tarixdə və ədəbiyyatda. Globe Edit, 2020

[93] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.313

yüksəlişi hər şeydən uca tutan, məhəbbətlə çırpınan bir çoban qəlbinin, kin və ədavət püskürən bir sultan qafasından şərəfli olduğunu söyləyən mütəfəkkir Cavidin ruhunu; “Məhəbbətdir ən böyük din” - fəlsəfəsinin qalibiyyətini görürük. Şair Kirmaninin fikrincə, yalnız haqq-ədaləti müdafiə etmək üçün və insanların qəlbindəki kin-küdurəti silmək üçün məhəbbət, mərhəmət və sülh ideyalarını təbliğ etməklə bəşəriyyəti xilas etmək olar. Cavid sonda Şair Kirmaniyə deyil, Teymura haqq verir: “Dünyanı təkcə məhəbbət və mərhəmətlə xilas etmək olmaz”[94] (Cavid, 2007:65).

Bir tiran kimi, Əmir Teymur üçün əsir etdiyi Sultanın o andakı düşüncələri maraqlı idi. O, əsirindən soruşur: – “Əcəba, məğrur Yıldırım nə düşünüyor?”[95] (Cavid, 2007: 65).

Yıldırım: - “Düşünəcək bir şey yox. Əvət, sən qalibsən. Lakin bu qələbə türk əqvamını deyil, yalnız fürsət bəkləyən qonşu hökumətləri məmnun etdi. Ah, daha

[94] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.65 s.
[95]Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s. 65

doğrusu, İslam aləmini başsız qoydu”[96] (Cavid, 2007:65) cavabını verir.

Teymur - İki-üç addım axsayaraq Yıldırıma doğru yürüyür, məğrur və gur bir səslə; - “Heç məraq etmə, Xaqanım! Sən kor bir abdal, mən də dəli bir topal! Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucubucağı yoq məmləkətlərə sənin kibi bir kor, bənim kimi bir topal müsəllət olmazdı”[97] (Cavid, 2007:66).

Göründüyü kimi, “əsərdə gerçəkləşən və ancaq gerçəkləşdikdən sonra qavranılan mənəvi korluq və topallıq-şikəstlik ən parlaq şəkildə ifadə olunub. Ankara savaşı İslam, Yaxın və Orta Şərq miyqasında bir günah, “siyasət və rəyasət” bəlası, “qardaş qırğını” olaraq damğalanır”[98] (Qarayev, 1985:22).

Əmir Teymur Cavidi özünü dərk etmiş tiran və Turan hökmdarı kimi cəlb etmişdir. Teymurun “özünüdərk” məqamlarında söylədiyi sözlər mütəfəkkir Cavidin qəlbindən gələn sözlər və pyesin ideya pafosu kimi

[96] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.65
[97] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s. 65
[98] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.22

səslənir.

H. Cavidin Şərq tarixinə müraciətlə yaratdığı, Şərqi öz məğrurluğu, gözəlliyi və əzəməti ilə canlandırdığı "Topal Teymur" tarixi dramında sənətkarı şəxsiyyət, xalqın tarixində və taleyində şəxsiyyətin rolu məsələsi düşündürmüşdür. Hüseyn Cavidin türkün qəhrəmanlıq salnaməsi, XV əsrin hadisələrindən bəhs edən "Topal Teymur" əsəri "türk qüruru və türk mənlik tarixinin sadəcə olaraq bədii inikası deyil, həmçinin bədii kəşfdir"[99] (Əliyev,1914:4).

Ədib əvvəlki faciələrindəki; "Şeyx Sənan" və "İblis"də "hər iki əsərin əsas qəhrəmanı olan filosof və mütəfəkkirlər bu dramda sərkərdə və cəngavər surəti ilə əvəzləyib. Əsər Azərbaycan xalqının kommunist ideologiyasının səyləri ilə rus dilinin millətlərarası ünsiyyət dili elan edildiyi, milli maraqların unudulduğu, sovet xalqının bir hissəsi kimi təqdim olunduğu bir zamanda yazılıb. Əsər ciddi tənqid edilmiş, hətta bir müddət teatr repertuarından çıxarılmışdır. Ancaq buna baxmayaraq, əsər

[99] Əliyev K. Hüseyn Cavidin sənət dünyası /Ədəbiyyat qəz., 2014, s. 4

öz əhəmiyyətini indi də qoruyub saxlamışdır.

Hüseyn Cavidin "yaradıcılığındakı yeni əhvali-ruhiyyəni əks etdirən əsər kimi ciddi maraq doğuran"[100] (Həbibbəyli,2007:321) "Knyaz"(1928-29) əsəri Qərb təəssüratları əsasında yazılmış əsərlərindəndir. Faciədə şairin "Şeyda"da qaldırdığı sinfi ziddiyyətlər, zəngin-yoxsul, sahibkar - işçi ziddiyyətlərinin bədii təhlili davam etdirilib, "proletar inqilabının qələbəsindən sonra bir sinif kimi məğlub olan "knyazlar dünyasının" faciəli sonu göstərilib.

1917-ci il Fevral burjua inqilabının qələbəsini bütün sənətkarlar alqışlamışlardı. Lakin bu sənətkarlardan fərqli olaraq, Cavid qalibləri deyil, məğlubların bu şəraitdə düşdüyü ağır və acınacaqlı vəziyyəti, keçirdiyi psixoloji halları, maddi və mənəvi cəhətdən iflasını canlandırmışdır.

Əsərdəki hadisələr Gürcüstanda baş verir. Fevral burjua inqilabı nəticəsində Gürcüstanda müvəqqəti milli hökumət yaranıb, lakin bu hökümət demokratik şüarlar

---

[100] Həbibbəyli İ. Azərbaycan şeirində himn və marş / Ədəbi tarixi yaddaş və müasirlik. Bakı:Nurlan, 2007, s. 493-501.

səsləndirsə də, əslində Knyaz kimilərin ağalığının mühafizəsi ilə məşğuldur.

H.Cavid "Knyaz" faciəsində yaratdığı Knyaz obrazını köhnə dünyanın feodal-patriarxal adət və ənənələrinin keşiyində duran, keçmişi geri qaytarmağa çalışan bir titan kimi təsvir etmişdir. Əsərin əvvəlində Cavid bizi Gürcüstanda milli burjua inqilabının hakimiyyətə gəldiyi dövrün Knyazı ilə tanış edir. Bu təkəbbürlü Knyazın damarlarında "ulu bir nəslin qanı"[101] (Cavid, 2007:106) axır. Bu, təkəbbür onun bütün ruhuna hopmuşdur. Lakin hər şeyin sonu olduğu kimi, Knyazın da sonu gəlmişdir.

Tiflisdə inqilabi təşkilatın yaranması, Antonun bu təşkilatın fəal üzvü kimi həbs edilməsi, "düşmən qoşunlarının" Gürcüstan sərhədlərinə yaxınlaşması və sonda evinin qovduğu işçilər tərəfindən yandırılması, sevimli qadını Jasminin xəyanəti Knayzı sarsıdır. Qısqanclıq hissləri Knyazı oxudub "mühəndis yamağı"[102] (Cavid,2007:15) etdiyi Antonu güllə ilə vurmağa vadar

[101] Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s.106
[102]Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s. 15

edir. Artıq xəyallardan ayılan Knyaz dostunu düşmənindən seçir və özü üçün "baldırı çılpaq"larla[103] (Cavid,2007:106) mübarizə yolunu müəyyənləşdirir.

Romantikadan arınan və sarsılan Knyaz realist bir obraza çevrilir. Son ümidini inqilab ordusuyla çarpışan milli orduya bağlayan Knyaz bu ümidini də itirir və çarəni "hökumət ərkanı kimi qaçıb aradan çıxmaq"da görür. O, mübarizəsini mühacirətdə davam etdirmək istəyir. Ailəsini və sərvətini götürüb Berlinə qaçır.

Burada da menşevik Şakro onun var-yoxunu talayıb aradan çıxır. Hər kəs bir-bir onu tərk edir. Sonda tək qalan Knyazda artıq məğrurluqdan, möhtəşəmlikdən əsər əlamət yoxdur. Müflisləşmiş 60 yaşlı Knyaz səfil həyat sürür. Qızı Lena Berlin kafe-şantanlarında rəqqasəlik edir, Knyazı tərk edən Jasmensə Antona qoşulub vətənə qayıdır.

Sərvətini itirərək müflisləşmiş Knyaz ağır böhran keçirərək dəli olur. Berlində də nümayiş səsləri, inqilab mahnıları eşidən Knyaz "Yox onlara təslim olamam

[103] Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s. 106

mən”[104] (Cavid,2007:133) - deyərək intihar edir.

O, səfil bir yaşayışı sürdürəməz, çünki o Knyazdır. Əgər o, bu cür həyatı seçərsə, titulunu itirə bilər. Onun üçünsə bu titul hər şeydən əzizdir. Səfil, sərsəm, tanınmaz bir adla həyatda yaşamaqdansa, Knyaz adını daşıyaraq ölmək onun üçün daha şərəfli olur.

Cavid burada inqilabı deyil, əsil-nəcabətinə xain çaxmayan, Knyaz adı ilə yaşamağı sərsəm həyatdan üstün tutan Knyazı canlandırmış, hətta bolşeviklərin rəmzi surəti olan Antonun iç üzünü açıb göstərmişdir.

Sözsüz ki, qalib olan yerdə məğlub da olmalıdır, lakin qaliblərin qalibiyyət təntənəsi ilə yanaşı, məğlubların da mənəvi faciəsi yaşanır. Hakimiyyətləri əlindən alınmış əksinqlabi qüvvələrin ağır və faciəli mühacirət həyatı, bu həyatın faciəli bir sonluqla bitməsi kimi hadisələrin yer aldığı “Knyaz” əsərində, həmçinin Almaniya və onun nümunəsində bütün kapitalist ölkələrində baş alıb gedən iqtisadi və mənəvi böhran geniş şəkildə öz əksini tapıb. Hüseyn Cavidin bütün yaradıcılığı boyu əsas ideya kimi

---

[104] Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s.133

keçən həqiqət və güc qarşıdurması əslində, mənəviyyat və maddiyyatın qarşılaşdırılmasıdır.

Ümumiyyətlə, “Knyaz” əsərini yazarkən Hüseyn Cavidi ən çox məşğul edən inqilab zamanı istisimarçı siniflərin zəhmətkeşlərə qarşı apardıqları mübarizə və bir sinifin digər bir sinif üzərində qələbəsinin qaçılmazlığı və bu siniflərin qarşıya qoyduğu ideologiya idi.

Hakimiyyətləri əlindən alınmış əksinqlabi qüvvələrin ağır və faciəli mühacirət həyatı və bu həyatın faciəli bir sonluqla bitməsi kimi hadisələrin yer aldığı “Knyaz” əsərində həmçinin Almaniya və onun nümunəsində bütün kapitalist ölkələrində baş alıb gedən iqtisadi və mənəvi böhran geniş şəkildə öz əksini tapıb. “Kim güclüdürsə, o haqlıdır” fəlsəfəsinə qarşı çıxan və “kim haqlıdırsa, o güclüdür” mövqeyinin təntənəsinə üfüqdə bir ideal kimi baxan Hüseyn Cavidin bütün yaradıcılığı boyu əsas ideya kimi keçən həqiqət və güc qarşıdurması əslində həm də mənəviyyat və maddiyyatın qarşılaşdırılmasıdır. Özünün Avropa müşahidələri və təəssüratları əsasında qələmə aldığı bu əsərində Cavid Rusiya qaçqınlarının Avropadakı

acınacaqlı həyatını, Şərq xalqlarının azadlıq mübarizəsini də təbii boyalarla vermişdir. Hüseyn Cavid "Knyaz"da reallığa daha yaxın idi.

1930-cu ildən 1937-ci ilədək Hüseyn Cavid qəhrəmanları müxtəlif xalqların nümayəndəsi olan "Telli saz", "Xəyyam", "Səyavüş", "Şəhla", "İblisin intiqamı" kimi bir-birindən dəyərli dramlar yazmışdır.

Mövzusu "Şahnamə"dən alınan "Səyavüş" əsərini Hüseyn Cavid Şərqin böyük dahilərindən olan Firdovsinin min illiyinə həsr edilmiş müsabiqə üçün yazmış və əsər müsabiqədə mükafata layiq görülmüşdür. Bu tarixi mövzuya - miladdan əvvəlki hadisələrə Cavidin yanaşması yeni idi. Cavid "Səyavüş"ün "timsalında özünün ən qədim türk tarixinə istinad edən əsərini yaradıb"[105] (Turan, 2010:208).

Faciənin qəhrəmanı əsli əsatirdən götürülən, daha sonra Firdovsinin "Şahnamə" dastanının xariqülədə obrazlarından biri, Şərq poeziyasında "talesiz insan" rəmzi kimi məşhur olan Səyavüşdür. Onun anası turanlıdır. İran

---

[105] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, s.208

pəhləvanlarından Kiv və Tus Səyavüşun anası Xubçöhrini ovlaqdan tapıb gətirmişlər. Səyavüş Kəyan taxt-tacının tacidarı Keykavusun Xubçöhri ilə izdivacından doğulmuşdur. O, sarayda anadan olsa da, kənddə, Zabilistanda sadə kənd adamlarının əhatəsində, “ilk mürəbbisi elin ağsaçlı anası” və Rüstəm Zalın tərbiyəsi ilə bir cəngavər kimi böyüyüb. Böyüdüyü mühitlə ata mühitinin təilm-tərbiyəsi uyğun gəlmir. Xalq müdrikliyindən qidalanmış Səyavüşün xarakterinə, əxlaqi-psixoioji aləminə yeni keyfiyyətiər aşılanmış, mənəvi təmiziik və əxiaqi gözəliik ömrünün axırına qədər hakim kəsilib.

Onun əsas faciəsi də buradan başlayır. Səyavüş saraydan çox xalqa bağlı idi. Tərtəmiz köy mühitində, elin ağbirçəyinin və qəhrəman Rüstəmin tərbiyəsi ilə böyüyən Səyavüş saraya dönsə də saraylara isinişmir, saray mühiti onu boğur, bu mühit ona yaddır. Saraya addım qoyan kimi, analığı Südabənin qorxunc iftirasına və babası Keykavusun qəzəbinə düçar olur. Özünü böhtanlardan qorumaq üçün Səyavüş Turana-dayısı Əfrasiyaba pənah aparsa da, orada

da üzü gülmür. Tarixən yaranmış İran-Turan mücadiləsinin davamı atası Keykavusla dayısı Əfrasiyab tərəfindən davam etdirilir. Son nəticədə ədavətin güclənməsi Səyavüşün qətlinə gətirib çıxarır.

Babası iranlı, anası turanlıdır Səyavüşə nə ana qucağı, nə də baba ocağı xoşbəxtlik gətirmir, çünki sarayın öz qayda-qanunları var, istər Əfrasiyab sarayı olsun, istər Keyxosrov sarayı; Səyavüşə münasibət hər iki sarayda eynidir, çünki Səyavüş Turanda iranlı, İranda turanlıdır.

Ömrünün bir qismi İran, bir qismi Turan sarayında keçən Səyavüş sarayların iç üzünü görür, dərk edir ki, "fitnə-fəsad", iftira və hiylə ocağı, pambıqla başlar kəsilən sarayda  həqiqət axtarmaq düzgün deyil və bunu dərk edən Səyavüş; "Keykavus bir cəllad, sən də bir cəllad"[106] (Cavid, 2007:291) - deyərək saraylara lənət oxuyur. Ruhundan acı fəryad kimi qopan bu sözlər, sanki Səyavüşün deyil, xalqın bağrından haqsızlığa və ədalətsizliyə qarşı qopmuş kimi səslənir.

Cavid Səyavüş obrazının dilindən səslənən bu lənətlə

---

[106] Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s.91

üstüörtülü olsa da Keykavus və Əfrasiyab səltənəti ilə yanaşı, Stalin səltənətini də tənqid edib, çünki hökmdarlar, saraylar, zaman və məkan dəyişsə də, sarayların idarəsində dəyişən bir şey yoxdur. Səyavüşün lənətlədiyi Keykavus sarayı ilə Stalin sarayının elə bir fərqi yoxdur. Bu mənada, "Türk tarixinin və cəmiyyətinin daha qədim dövrünə müraciət imkanı verən bu əsəri "Türk yaddaşının 30-cu illərdəki ətalət burulğanından xilas edilməsi" və "milli yaddaşın oyandırılması naminə H. Cavidin ən böyük savaşı və "bir sıra hallarda isə 30-cu illər Azərbaycanının faciəsini və problemlərini incələyən bir əsər" kimi də dəyərləndirmək olar"[107] (Turan, 2010:208).

Yetər çıldırdınız, hökumət!- deyə,
Evləri yıqdınız, ədalət!- deyə.
Söylə, övündüyün ədalət bumu?
Hökumət dediyin rəzalət bumu?[108] (Cavid, 2007: 251).

"Səyavuş" əsərinin "milli mahiyyət daşıması səbəblərindən biri də onun heca vəznində yazılması idı."

---

[107] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010, s.208
[108] Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007, s.251

Firdovsinin əruzla yazdığı "Şahnamə"ni Cavid hecada yazmışdı. Hecanın ilk nümunələri də, məhz Səyavuş dövründə yaradılmışdı. Məsələn: bu dövrdə Alp Ər Tunqanın ölümünə söylənən ağılar heca ilə söylənmişdi.

Dramaturq "Səyavüş" faciəsini yazmaqla özünün türkçülük, turançılıq ideyalarına sadiqlik göstərib. Bu səbəbdən, özünün təbirincə desək, o, "Şahnamə" mövzusuna toqundu, ancaq mövzuya yaqınlaşarkən, ondan uzaqlaşdı", "süjeti tamamilə yeniləşdirdi, müstəqil bir bədii əsər yaratdı. Bununla da o, Firdovsi təsirindən az-çox uzaqlaşdı. Ən mühimü özünün bədii-estetik və fəlsəfi görüşlərini ifadə etmək üçün sərbəstlik əldə etmiş oldu"[109] (Orucəliyev, 2011:46-47).

H. Cavidi qəhrəman və xalq, şəxsiyyət və mühit arasındakı ziddiyyətlər daha çox düşündürmüş, əsas məqsədlərindən biri "qəhrəmanlar xalq içərisində yetişir" - fikri olmuşdursa, digər fikri isə məğrur şəxsiyyətlərlə onlara üyğun gəlməyən mühit arasındakı ziddiyyətiəri"

[109] Orucəliyev İ. (Atilla). Hüseyn Cavidin mənzum dramları. Üçüncü hissə, Bakı: Adiloğlu, 2011, c.46-47

göstərmək olmuşdur. "Dramaturq əsərin adını iki variantda yazıb: "Səyavuş", Səyavüş."

1935-ci ildə yenidən Şərq tarixinə müraciət edən sənətkar "Xəyyam" mənzum pyesini yazır. Mütəfəkkir şair Ömər Xəyyamın minillik yubileyi münasibəti ilə yazılmış və başdan-başa Cavidin tarixi dövlətçiliyə-Səlcuqilər dövlətinə baxış və münasibət konsepsiyası olan bu əsərində Məlikşahın "məhkəmə var, qanun var" - hökmu səlcuq türklərinin dövlətçilik ənənəsinin əsas prinsipi, şah damarıdır", çünki "ədalət və qanun" türkü səciyyələndirən ən ali keyfiyyət və dəyərdir.

H.Cavid nəyə görə "Xəyyam"da Səlcuqilər sülaləsinin banisi Toğrul bəyin xidmətlərini deyil, ondan sonrakı Alp Arslan və Məlikşahın həyat və fəaliyyətini əsk etdirir? Çünki böyük Səlcuq imperatorluğunun yaradıcısı Toğrul bəy deyildi. Bu imperatorluğun yaradıcısı Sultan Alp Arslan və onun oğlu Məlikşah idi və Cavidin də hədəfində imperatorluq idi. Daima axtarışda olan böyü ideallar şairi H.Cavid əslində, "həmişə yenini, qeyri-adini və nəhəngi axtarırdı: əfsanə və mifik tarix, son və müqəddəs din,

bəşəri və tarixi faciə, yeni və nəhəng dövlət”[110] (Əliyev 2014:4).

Bunu xüsusi vurğulayan K.Əliyev yazır: “Maraqlıdır ki, “Peyğəmbər” VII əsri, “Xəyyam” XI əsri, “Topal Teymur” XVI əsri işarələyir. Bu tarixlərin birini digərindən 4 əsr ayırır. Bu heyrətamiz faktın H.Cavid tərəfindən nə dərəcədə dəqiq düşünüldüyünü söyləmək çətindir. Amma bir həqiqət var ki, həmin fakt Cavidin bədii düşüncə sistemi müqabilində qeyri-şüuri olsa da, təbii informasiya yükünün nəticəsi idi.” Beləliklə, “adı türk həqiqəti, türk idealı və türk simvolindan kənarda təsəvvürrə gəlməz olan” Cavidin dramaturgiyasında “türklüyün bədii marşrutu adi bir şeirdən başlayıb bir iqtidarın – Səlcuq hakimiyyətinin təqdiminə qədər (“Xəyyam”) davam edir”[111] (Əliyev, 2014, 4)

Cavid “Xəyyam”ı yazarkən tarixi həqiqətlərə istinad etsə də romantik təxəyyülün gücü ilə yazıb. Mütəfəkkir Cavid mütəfəkkir Xəyyamın məftunu idi. Cavid hələ

[110] Əliyev K. Hüseyn Cavidin sənət dünyası/ Ədəbiyyat qəz., 2014: 11aprel, №13, s.4
[111] Əliyev K. Hüseyn Cavidin sənət dünyası/ Ədəbiyyat qəz., 2014: 11aprel, №13, s.4

Naxçıvanda Rüşdiyyə məktəbində dərs deyərkən Xəyyamın rübailərindən misallar gətirir, dərs dediyi tələbələrinə də sevdirirmiş, hətta onun bir neçə rübaisini də tərcümə etmişdi.

"Xəyyam"ı yazmağa hazırlaşan ədib onun haqqında fars dilində yazılmış bir neçə kitabı Mirmehdi Seyidzadədən alıb oxumuş, əsərinə qəhrəman seçdiyi filosof şairin həyat və yaradıcılığını, elmi fəaliyyətini bir alim cəfakeşliyi ilə araşdırmışdı.

Əsərin mərkəzində Ömər Xəyyamın qoyulması birbaşa "müəllifi düşündürən ictimai fəlsəfi məsələlərin: həm Xəyyamın dövrü üçün səciyyəvi olan məsələlərin, həm də, Cavidin dövrü üçün müasir olan problemlərin qaldırılmasına imkan vermişdir. Əsərin qəhrəmanı Şərqin mütəfəkkir sairi Ömər Xəyyamdır. O, sadə bir insandır, hər zaman insanların arasındadır. Onu ətrafındakı adamlardan fərqləndirən yalnız dünyagörüşü, insana və təbiətə baxışıdır.

Ədib Ömər Xəyyamın yaşadığı dövrü çox böyük bir ustalıqla canlandırıb. Bir tərəfdə Şərq mədrəsə həyatı, bu

mədrəsədə "elmi-irfanla məşğul olan şərqli tələbələr, digər tərəfdə din və xurafat məskəni olan məscid. Hər iki tərəfə gedən var. Alimlər, ariflər, tələbələr mədrəsəyə, zahidlər və möminlər məscidə. Bir-birinə zidd zehniyyətlər. Məscid sakinləri axirət haqqında düşünərkən, Xəyyam Xərəbati və Rəmzi ilə şərab içir. Məsciddən səslənən "minacat" insanları göylərə səslərkən Xəyyam dostları ilə "badə ilə cənnət quraraq" xilqətin varlığı axtarışındadır"[112] (Cavid, 2007: 9).

Mütəfəkkir Xəyyam varlığın hikmətini anlayır, "sağır və dilsiz göylərə" inanmır, əksinə "hər şeyin əsası təbiətdir"[113] (Cavid,2007:213) – fikrini təbliğ edir. Bu dünyada hər şey keçicidir. Əbədi olan ana torpaq və təbiətdir, o da daima dəyişir, yeniləşir.

Hüseyn Cavid yaradıcılığının şah damarı olan böyük eşq "Xəyyam" əsərində Xəyyamla Sevdanın arasında baş verir. Sevdanı görənə qədər Xəyyam "xilqətin varlığı"nı axtaran filosof idisə, bu görüşdən sonra, həm də sevən aşiq

---

[112] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.9
[113] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.213

olur. Cavid yaradıcılığında eşq Şeyx Sənandan sonra Xəyyamda meydana çıxır.

O, əsərində bir tərəfdən mühitindən yüksəkdə duran Xəyyamı Şərqin mütəfəkkir şairi, sevməyi, sevilməyi bacaran bir Şərq aşiqi kimi, digər tərəfdənsə zamanəsində dərk olunmayan, sevdiyini itirən tragik surət kimi yaratmışdır. Xəyyam"ı filosof şair – dramaturq Hüseyn Cavidin "fəlsəfi düşüncələrinin poetik dramatik ifadəsi də adlandırmaq olar. Onun həyata fəlsəfi baxışı Xəyyam obrazında ifadə olunub.

Doğrudur, fəlsəfi düşüncə Cavid yaradıcılığının estetik təbiətindədir; onun bütün əsərləri – şeir və dramları həyatın fəlsəfəsi ilə aşılanmış, sənətin mahiyyətinə çevrilmişdir. Lakin əvvəlki dramlarında fəlsəfə həyatın özünün təsvirində, hadisələrin bilavasitə göstərilməsində, ona yazıçı münasibətində ifadə olunurdu. "Xəyyam"da isə "bütün bunlarla yanaşı konfliktin mahiyyəti, qəhrəmanın xarakteri, adamların qarşılıqlı əlaqəsi, hadısələrin inkişafı, əsas obrazın düşüncə və qənaətləri, dili və üslubu fəlsəfi

xarakter daşıyır”[114] (Əlioğlu,1975:196).

Xəyyamda şairlik və filosofluq vəhdətdədir. O, zəmanəsində dərk olunmur, bu da onun faciəsini yaradır; “Zəkası nurdan və işıqdan məhrum cəmiyyət”də böyük əql və ürfan sahiblərinə üz verən əsas faciəni – mənəvi sarsıntını onun dostu Rəmziyə anlatdıqlarında aşikar görünməkdədir.

Tarix boyu zamanı qabaqlayan dahilər, adətən, yaşadığı mühitdə dərk olunmayıblar. Avstriya yazıçısı Eduard Banerfeld yazır: “Dahi insan vaxtdan qabaqda gedir. Hiyləgər insan vaxtdan istifadə etməyə çalışır. Axmaqlar vaxtın qabağını kəsməyə çalışırlar.” Hər iki filosof şair – Ömər Xəyyam və Hüseyn Cavid nə vaxtla gedən, nə də zamanın qabağını kəsən deyil, vaxtı qabaqlayan dahilər idilər. onların ikisinin də dünya və kainat haqqında fikirlərində paralelliklər var. Əgər Ömər Xəyyam poeziyasında “İnsan ləyaqətinə hörmət, insan məhəbbətinə alqış” - məsələsi əsas problem kimi qoyulub öz həllini tapırsa, bütün bəşəriyyətə “məhəbbət dini”

[114] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975,s.196

arzulayan H. Cavidsə, məhəbbət və gözəllik insanı özünüdərkə çatdırır - düşüncəsini paylaşmışdır..

“Fəzilət, zəka, qüdrət, dəha”[115] (Cavid,2007:165) sahibi Xəyyamın həyatını əks etdirən Cavid əsərin sonunda gənclərin əhatəsində təsvir edib. Burada özünə “Cavid” təxəllüsünü seçən şairdə böyük bir uzaqgörənliklə yarın gənclərin qəlbini fəth edəcəyinə inam hissinin nə qədər güclü olduğu görülməkdədir. Əsərdə mütəfəkkir Xəyyamın dilindən səslənən:

Şairimi? Saqın duyduğum ilhama uyan yox.
Şeirmdəki əsrarı duyan yox,
Yox oxşayacaq ruhumu bir nuri səadət,
İzlər məni hər dürlü fəlakət[116] (Cavid,2007:34) -

sözləri, sanki filosof şairin, Cavidin könlünün səsi, qəlbinin fəryadıdır. İki mütəfəkkir şairin duyğularının birliyindən yaranan “Xəyyam” dramı uzun əsrlərin arxasından bu günümüzə çağrışıdır.

Yalnız ilhamına söykənmiş dahi sənətkar deyil,

[115] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.165
[116] Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007, s.34

həqiqətlər barədə öz konseptual baxış tərzi olan, bəşərin əhvalını, millətinin istiqbalını və istiqlalını düşünən, milli məfkurəvi məsələlərdə dürüst nəticələrə gələn, böyük filosof şair-dramaturq Hüseyn Cavid sənətinə müstəqillik illərində yeni baxış yaranmış, yeni-yeni rakurslardan araştırmaya cəlb edilmişdir.

Eynilə, Xəyyam kimi, "irfan işığı ilə" ədəbiyyatda "bambaşqa bir cihan" yaradan Cavid Azərbaycanın "bənzərsiz" böyük sənətkarı olmaqla yanaşı, həm də örnək ola biləcək ərdəmli, əqidəli şəxsiyyətlərindəndir.

"İzlər məni hər dürlü fəlakət" – bu da repressiya küləyini hiss etmiş Cavid uzaqgörənliyinin bir sübutu idi. Bu "fəlakət" onu Sibirə-Tayşetə qədər izlədi. Qəhrəmanı Xəyyam kimi onu da sevdiklərindən: Mişkinazından, Turanından, Ərtoğrolundan ayrırdılar.

"Həqiqət istərəm yalnız həqiqət" - deyən, həqiqətin var olduğuna, bir gün mütləq qalib gələcəyinə inanan Hüseyn Cavidlə Ömər Xəyyamın fəlsəfi görüşlərinin sintezi əks olunan əsər bir Şərq filosof şairinin digər bir Şərq filosof –şairinə, Ömər Xəyyama ehtiram və

məhəbbətlə ucaltdığı “Xəyyam” adlı abidəsidir.

“Xəyyam” “ədibin yaradıcılığını təkcə xronoloji baxımdan deyil, ideya-bədii cəhətdən də tamamlayır. Bu əsərdə Cavid böyük şair və mütəfəkkir Ömər Xəyyamın simasında dövrünün fövqünə yüksələ bilən bir romantik qəhrəmanı canlandırmışdır. Xəyyamın ayıq şübhələri və həyat eşqi Cavidə sənətkar və cəmiyyət probleminə münasibətini ifadə etmək üçün münasib şərait yaratmışdır”[117] (Həbibbəyli,2007:149).

“Xəyyam” həmçinin Cavidin Azərbaycan əruzunda yazılmış ən mükəmməl əsəri idi. Əsərdə Cavid Xəyyamın istifadə etdiyi 16 rübaisini özü Azərbaycan dilinə tərcümə etmişdi.

1910-cu ildən 1937-ci ilə qədər müntəzəm şəkildə ədəbi fəaliyyətlə məşğul olmuş Hüseyn Cavid əsərlərinin böyük bir hissəsini; “Peyğəmbər”, “Topal Teymur”, “Dəli knyaz”, “Səyavuş”, “İblisin intiqamı”, “Şəhla”, “Koroğlu” kinossenarisi və s.  Sovet dövründə yaradıb. Onun “İblisin intiqamı” (1936) beynəlxalq mövzuda yazılıb və sülhsevər

---

[117] Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007,s.149

qayəni əks etdirib. “Telli saz”ın mövzusunu Güney Azərbaycanı həyatından, “Şəhla”nın isə 1920-ci illər mühitindən götürülməsi bəllidir. Hüseyn Cavidin 1937-ci ildə NKBD tərəfindən götürülərək taleyi naməlum olan “Atilla”, “Çingiz”, “Telli saz” adlı faciələrini yazması haqqında da ədəbiyyatşünaslıqda müəyyən məlumat var.

1923-cü ildə Əziz Şərif mətbuatda gedən yazılarının birində Cavid haqqında yazırdı: “Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir”[118] (Şərif, 1923).

Həqiqətən, bu sözlər yazılanda “Hüseyn Cavid bir tərəfdə oturub əsərlərini yazırdı”, amma “tarix qulaq asıb gözləməyə” o qədər də səbirli deyildi, yəni bu sözlərdən az sonra “tarix Cavidə əl vurmağa” başladı. Böyük sənətkarı Ədəbi məhkəmələrə çəkdi, yazdığı əsərlərin mövzusuna görə suçladı, mühakimə etdi.

Bu zaman ən çətin iş tənqidçilərin öhdəsinə düşürdü (sovet tənqidçisi olmaq ən amansız, ürəkağrıdan bir peşə idi, deyə düşünürəm). Onlar Cavidin əsərlərinə tənqidi

---

[118] Şərif Əziz. “Yeni fikir” qəz., 4 mart 1923

yazılarla cavab verir, onu "köhnə mövzu"lara müraciət etməkdə günahlandırır, bəziləri isə Cavidi təhlil etməyə çalışır, sanki bugünün prizmasından yanaşıldığına seçdiyi mövzulardan dolayı xəbərdarlıq edilirdi. Hənəfi Zeynallı yazırdı: "Böyük mövzu dedik ya. İştə Cavidin ən zəif nüqtələrindən biri də bu mövzuları alıb üzərində çox çalışmasıdır. Ona görədir ki, ondan gözlədiyimiz qədər meydana böyük bir əsər atmaz. Cavid bir "Şeyx Sənan" yazar, bir "Peyğəmbər" yaratmağa qeyrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır"[119] (Zeynallı,1983,37).

Tənqidçilər belə düşünürdülər, lakin Cavid nədən yazdığını və necə yazacağını bilirdi,sadəcə dövr üçün yazmağı düşünmürdü. Ədib özü bunu belə ifadə edirdi: "Nədən yazmağın məsuliyyətini həmişə yadda saxlamaq lazımdır ki, beşgünlük olmasın. Yazının tərzi vaxtı ötəndən sonra köhnə görünə bilər. Bu qorxulu deyil. Qorxulusu odur ki, mövzuların günün hay-küyü ilə bağlı olsun və hay-

[119] Zeynallı H. Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 36 – 79

küy yatan kimi də unudulsun. Məsələn, baxın, indi Çay-Kay Şidən yazırlar, şer də həsr eləyirlər ona. Ancaq görərsiniz, çox keçməyəcək ki, o yazıların çap olduğu qəzet-jurnalın vərəqləri yalnız əl silməyə yarayacaqdır”[120] (Hüseynov, 1988:264).

Üzərindən uzun bir müddət geçsə də, H.Cavidin böyük bir uzaqgörənliklə söylədiyi sözlər bu gün öz təsdiqini tapır. Müəyyən bir dönəm üçün yazanların adı tarixin üzqaraları, utancları kimi xatırlanırsa, ədəbiyyatımızın Allahsızlığı ilə qürurlandığı, Peyğəmbərə dil uzadıldığı məlum 30-cu illərdə heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə baxa-baxa, ölümlə dilləşə-dilləşə “Peyğəmbər”də Peyğəmbər, “Seyx Sənan”da Şeyx Sənan, “Topal Teymur”da Əmir Teymur, “Xəyyam”da Xəyyam, “Səyavüş”də Səyavüş yaradan mütəfəkkir bu gün də bizlərə yoldaşlıq edir, çünki “milli düşüncə əfəndisi H. Cavid bu millətə həqiqəti anlatmaq üçün yazırdı” (M.Ələkbərzadə).

Həqiqətlər barədə öz konseptual baxış tərzi olan,

[120] Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.264

bəşərin əhvalını, millətinin istiqbalını düşünən, milli məfkurəvi məsələlərdə dürüst nəticələrə gələn mütəfəkkir Cavid ədəbiyyatda “bambaşqa bir cihan” yaratmışdır.

# II FƏSİL
# HÜSEYN CAVİD YARADICILIĞI VƏ AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİ

Sənətkar və şəxsiyyət, sənətkar və zaman məsələsi hər zaman aktualdır, çünki hər bir sənətkar eyni zamanda yaşadığı zamanın övladıdır. Zamanla yaşayır, zamanla nəfəs alır və ona qulluq göstərir. Bu zaman güclü sənətkar olsalar da çəxsiyyət ola bilmirlər. Elə güclü sənətkarlar da var ki, nə zamana (burada zaman dövran mənasında işlənir) baş əyir, nə də ona qulluq göstərir. Belə şəxsiyyətlərdən biri də hələ 27 yaşında özünə Cavid təxəllüsünü götürərək öz missiyasını dərk edən mütəfəkkir Caviddir. Dünyaya və ədəbiyyata xüsusi bir missiya ilə gələn Hüseyn Cavidin yaradıcılığı şəxsiyyətini, şəxsiyyəti sənətini xarakterizə edir.

Çarlıq Rusiyası zamanında Naxçıvanda dünyaya gələn şair 17 Oktyabr inqilabına, Şərqdə yaranan ilk Azərbaycan Demokratik Cumhuriyyətinə (az bir zamanda süqutuna) və 1920-ci ildə Azərbaycanda Sovet hökumətinin qurulması

kimi tarixi hadisələrə şahidlik edib. Şərqin böyük mədəniyyət mərkəzlərindən olan Naxçıvanda, Təbrizdə, İstanbulda təhsil alan Hüseyn Cavid 1919-cu ildən repressiyaya – 1937-ci ilə qədər Bakıda yaşayıb (iki il də Bayıl həbsxanasında saxlanılıb).

Məlumdur ki, keçmiş SSRİ-nin digər respublikaları kimi 1937-38-ci illərin sovet repressiyasında Azərbaycan da öz nəsibini almışdı. Bu illərdə mədəniyyət və incəsənət sahəsində proletkultçuluğu və sosialist realizmi yaradıcılıq metodunu əldə bayraq edən marksist-leninçi estetika və tənqid tarixi keçmiş və soy-köklə bağlılığı nəzərdə tutan hər cür münasibət və yaxınlığın üstündən qara xətt çəkir, Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin ədəbiyyatını Şərq kontekstindən qoparmaq və onun varlığını və inkişafını sinfi-siyasi mövqedən olmaqla yalnız və yalnız qondarma proletar mədəniyyətinə və sovet ədəbiyyatına bağlamaq məqsədi güdürdü. Azərbaycanı həm ictimai-siyasi, həm də elmi-mədəni baxımdan Şərqdən, xüsusilə, müsəlman və türk dünyasından təcrid etmək keçmiş mərkəzin-rus-sovet Moskvasının yeritdiyi

daxili və xarici siyasətin ana xəttini təşkil edirdi. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqının tarixindən, soy-kökündən irəli gələn dini-mənəvi ehtiyac və istəklərini tamamilə boğmaq mümkün olmamışdır. Azərbaycanın müsəlman Şərqi ilə bu və ya digər dərəcədə olan əlaqələri içərisində ədəbi əlaqələri də özünə müəyyən yer almışdır.

Azərbaycan Respublikası SSRİ dağılandan sonra azad və müstəqil bir dövlət kimi bütün dünya ilə, o cümlədən qonşu Şərq xalqları ilə münasibətlərini sərbəst şəkildə özü müəyyənləşdirməyə başlamışdır. İndiki mərhələdə Azərbaycanın İslam dininə, Türkiyə, İran və ərəb xalqlarına münasibətdə tutduğu mövqe və məqam, əslində, tarixi keçmişin müasir reallıqda əks olunan və bərpa edilən sosial və mədəni qanunauyğunluqlarından doğur.

70 il müddətində Azərbaycan xalqını bir xalq kimi SSRİ daxilində əritmək siyasəti güdüldüyü, xalqımızın Şərqlə bağlılığı unutdurulmağa ciddi cəhd edildiyi üçün bir çox klassiklərin əsərləri daha çox Avropa yazıçılarının yaradıcılıqları ilə müqayisəli şəkildə araşdırılırdı. Mütəfəkkir Cavidin yaradıcılığında mövzularının

əksəriyyətinin Şərqdən alınmasına baxmayaraq elmi təhlillərdə o, Şekspir, Bayron kimi sənətkarlarla müqayisədə öyrənilirdi. Bu bir tərəfdən Cavid sənətinin Sekspir, Bayron sənəti qədər böyüklüyü, ecazkarlığının təsdiqidir. Digər tərəfdən, ədibin yaradıcılığının Sərq və Qərb kontekstində öyrənilməsi daha məqsədə uyğundur. Çünki söz sənətində hər zaman milli sənətkar olaraq görünmüş, az qala hər bir əsərində bunu dönə-dönə təsdiqləmiş Hüseyn Cavid eyni zamanda, Azərbaycan ədəbiyyatında Qərb ədəbi ənənələrini də yaşatmışdır.

Yaradıcılığı XX əsrin əvvəllərindən 30-cu illərin sonunu (1937) əhatə edən H.Cavid fəaliyyəti dövründə böyük uğurlar qazanıb. 30-cu illərdən tədqiq olunmağa başlayan sənətkar tərifləri də sağlığında duyub, kəskin tənqidə də tuş gəlib. Həmin dövr ədəbi tənqidinin Hüseyn Cavidə doğru yönələn maraq və diqqətinin izlənilməsi, hər şeydən əvvəl sənətkarın yaradıcılığına dair doğru və yanlış baxışların meydana çıxarılması və onların səbəblərinin aydınlaşdırılması deməkdir. Geniş dünyagörüşə və analitik təfəkkürə malik Hüseyn Cavid sənət baxımından yeni

bədii sistemin yaradıcısı olduğuna görə, Cavid şəxsiyyətinə və onun bədii yaradıcılığına münasibətdə də ona yaxın bir dünyagörüşü, ona yaxın sənət qavrayışına malik tənqidçi tələb olunurdu.

Yaradıcılığa şeirlə başlamasına baxmayaraq daha çox dramaturgiya ilə məşğul olmuş Cavidə onun qeyri-adi poetik təbi Azərbaycan dramaturgiya tarixində mənzum dramaturgiyanın banisi olmasına imkan vermişdir. Lakin əsas məsələ Hüseyn Cavidin şeir, yaxud dramatik əsər yazmasında deyil, başlıca mətləb ondadır ki, ədəbi tənqid onun şeir yaradıcılığı ilə deyil, əsasən, dramaturgi irsi ilə məşğul olmuş, təzadlı fikirlər söylənmişdir. Bu isə ilk növbədə teatrla bağlı bir hadisədir, çünki Cavid dövründə əsərlərin tamaşaya qoyulması geniş miqyas almış və tənqidçilər teatr problemlərinin təhlilinə ciddi əhəmiyyət vermişlər. Eyni zamanda ədəbi tənqidin işi yalnız teatr məsələləri ilə məhdudlaşmırdı, həmçinin dramaturgiyanın özünün sənət problemlərinə də geniş əhəmiyyət verilirdi. "İnsan ruhunun, onun gerçək aləmə münasibətinin öyrənilməsində çox böyük rola malik olan Cavid

romantizminin tədqiqi, ideyalar aləminin müxtəlif aspektlərdən öyrənilməsi, tarixə və çağdaş zamana münasibətinin qabarıq şəkildə tədqiqata cəlb edilməsi, məfkurəsinin dərindən araşdırılması ədəbiyyatşünaslığımızın həmişə aktual problemlərindən olmuşdur. Ədibin irsinin tədqiqi, Cavidşünaslıq şairin sağlığından etibarən başlayıb. Bu barədə şairi xoşbəxt sənətkar saymaq olar. 20-ci illərdən bu tərəfə Cavidşünaslıq uzun və çox çətin bir yol keçmişdir. Amma Cavidin bütün yaradıcılığına, o cümlədən dramlarına tədqiqatçılar tərəfindən eyni mövqedən yanaşılmamışdır”[121] (Sadiq, 2011:12).

Hüseyn Cavid ömrünün 20 ilini sovet hakimiyyəti dövründə yaşayıb. 1920-30-cu illərin ədəbi-mədəni və ictimai-siyasi mühiti onun taleyində dərin izlər buraxıb. Böyük sənətkar bir tərəfdən daimi iş yeri qazanıb, bədii yaradıcılığını və pedoqoji fəaliyyətini davam etdirib, müalicə olunmaq üçün xaricə göndərilib, əsərləri tamaşaya

[121] Sadıqov Ş. Huseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyasi. Bakı:Hədəf, 2011, s.12

qoyulub, ikinci tərəfdən yeni quruluşun tələblərinə baş əymədiyi üçün təzyiqlərə, mənəvi sıxıntılara, əzablara məruz qalaraq həbs edilib, siyasi repressiya qurbanı olub, çünki Cavid hələ sovetlərin ilk illərindən mövzusunu islam tarixindən aldığı "Peyğəmbər" və "Topal Teymur" əsərlərini yazaraq özünün tərəfini göstərib, Türk hökmdarının qüdrət və əzəmətindən bəhs edərək türklərin birləşmək zərurətini, Turan ideologiyasını irəli sürüb, məramını bəyan edib.

Hüseyn Cavid 1920-30-cu illərin Azərbaycan ədəbi-ictimai mühitində həmişə diqqət mərkəzində dayanıb. Tamaşaya qoyulan əsərləri bir tərəfdən böyük maraqla qarşılanıb, təhlil-müzakirə predmeti olub, ikinci tərəfdən vulqarcasına tənqid edilib, əsassız olaraq günahlandırılıb. Hər tərəfdən daşlar gələn belə mürəkkəb şəraitdə sağdan, soldan, öndən, arxadan qorunub müstəqil olmaq, Cavid kimi yaşamaq həm şərəfli, həm də çətin və əzablı idi.

Ümumiyyətlə, Azərbaycanın ədəbi-nəzəri fikir tarixində XX əsrin əvvəlləri, 20-30-cu illəri xüsusi bir mərhələ təşkil edir. Hətta "bu epoxanın

tərəddüd etmədən ədəbi-tənqid epoxası hesab etmək olar. Bu dövrün nəzəri-tarixi prosesi ilə bağlı akademik Kamal Talıbzadənin, professorlar Ş.Salmanov və H. Şəmsizadənin, tədqiqatçı-mətnşünas R.Tağıyevin bir-birindən dəyərli monoqrafiyaları çap olunub”[122] (Oktay,2013:14). XX əsrin ikinci onilliyini ədəbi mübahisələr, ədəbi hücumlar epoxası adlandırmağımız bu dövrdə Mehdi Hüseynin yazdığı kitabını “Ədəbi döyüşlər”, görkəmli ədəbiyyatşünas Nizaməddin Şəmsizadə bu dövrün tənqid prosesindən bəhs edən monoqrafiyasını “Ədəbi mübahisələr” (1986), professor Cəlal Qasımovun “Ədəbi məhkəmələr” adlandırması kimi təsadüfi deyil. Bu dövr ədəbiyyatımz üçün ziddiyyətli bir dövr idi. Bu dövr ədəbiyyatda yeniliklə köhnəliyin (yəni proletar ədəbiyyatı ilə klassik irsin!) mübarizəsi dövrü idi. Milli respublikada milli nihilizm (inkarçılıq!) yayan proletkultçular –sırf proletar mədəniyyəti (dinsiz, imansız, millilikdən uzaq olan bir mədəniyyət)

[122] Oktay. Xalq qəzeti, 2013.- 9 fevral.- s.14.

yaratmaq iddiası ilə ortaya çıxmış adamların ilk hücumları ərəb dilində yazılan kitablara, məscidlərə, klassiklərin əsərlərinə, eyni zamanda kökünə, millətinə bağlı olanziyalılara idi. Yaradıcılığında "ümumtürk tarixinin dramatik mənzərəsini yaratmağa çalışan, İslam əxlaqı və milli düşüncədən, qərbləşmə meyarlarından çıxış edən" Hüseyn Cavid də bunların sırasında idi. Cavid "milli kimliyini aydınca bildiyinə, tanıdığına görədir ki, bu mövzuda yeni keyfiyyətli ədəbiyyat örnəkləri yaratmağa nail olurdu. Hüseyn Cavidin bu konseptual yaradıcılıq mövqeyini "Şahnamə"nin müəllifi Firdovsinin yaradıcılıq mövqeyi ilə müqaisə etmək olar"[123] (Vəliyev,1999: 285).

Keçmiş SSRİ xalqlarının baş qərargahı olan Moskvada, yazıçıların rəhbəri A.Fadeyevin "Doloy Şiller!?" - rədd olsun romantizm şüarından sonra ədəbiyyatda romantizmə idealizmin təzahür forması kimi baxılmağa başlanmış, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Hüseyn Cavid kimi milli sənətkarlar tənqidin hədəfinə çevrilmişdilər.

[123] Vəliyev Ş. "Fuyuzat" ədəbi məktəbi" Bakı, Elm, 1999,s.285

Azərbaycan ədəbiyyatşünaslığı və tənqidi fikrinin Hüseyn Cavidə münasibətini dəqiqləşdirmək və dövrləşdirmək baxımından əsas iki mərhələni dəyərləndirmək lazımdır:1) 20-30-cu illər mərhələsi; 2) 50-ci illərin axırlarından günümüzə qədər olan mərhələ.Əgər hər iki mərhələni səciyyələndirmək və fərqləndirmək lazım gəlsə, birinci mərhələni Hüseyn Cavid yaradıcılığına baxışın ziddiyyətli, mürəkkəb, bəzən qərəzli tənqid dövrü (bu dövr daha çox Hənəfi Zeynallı, Əli Nazim, Mehdi Hüseyn və Mustafa Quliyevlə təmsil olunurdu), (1936-1956-cı illərdə H.Cavidin adını anmağa kimsə cəsarət etməyib) ikinci mərhələni isə, Hüseyn Cavidi daha çox bu ziddiyyətlərdən, qərəzli tənqidlərdən təmizləmə, "bəraət" dövrü adlandırmaq olar. Çünki 1920-30-cu illərin Cavidşünaslığından sonra Azərbaycan ədəbiyyat-şünaslığında Hüseyn Cavidə bəraətdən sonra münasibət dəyişdi. Bundan sonra onun yaradıcılığına müraciət edən tədqiqatçılar (akademik Məmməd Cəfər Cəfərov, Məsud Əlioğlu, Zahid Əkbər, Əbülfəz İbadloğlu, İsa Həbibbəyli, Rafael Hüseynov, Yaşar Qarayev, Kamran Əliyev, Azər

Turan, Cəlal Qasımov və s.) ona yeni rakursdan yanaşaraq tədqiq etdilər. Bu tədqiqlərin nəticəsi olaraq mütəfəkkir sənətkarın şanına, şöhrətinə layiq sanballı əsərlər meydana çıxdı. 1980-ci illərin sonlarından başlayaraq həmin mövzuda yazılan elmi-bədii əsərlərin, məqalələrin, monoqrafiyaların ən dəyərli vədiqqətçəkən cəhəti "onların müəlliflərinin əsərlərində dövrün ədəbi-tarixi, siyasi-ideoloji proselərinə istiqlal ideologiyasına-azərbaycançılıq fəlsəfəsinə dayaqlanan metodoloji prinsiplərə daha çox dəyər və üstünlük verməléridir"[124] (Həsənova, 2016:191-197).

1990-cı illərdən sonra isə, demək olarki, Hüseyn Cavidə qayıdış başladı. Bu illərdə "Cavidşünaslığın problemləri, biri digərindən nə qədər asılı olsa da, iki səviyyədə özünü göstərir: birinci ümumi səviyyədə (böyük sənətkarın yaradıcılığına münasibət baxımından), ikincisi, xüsusi səviyyədə (yaradıcılığının, dünyagörüşünün ayrı-ayrı meyillərinin, bu və ya digər əsərlərinin

[124] Həsənova S. Cavidşünaslığın yeni inkişaf mərhələsi/Ədəbiyyat məcmuəsi.Bakı:Elm və Təhsil, 2016, XXVII cild, s. 191-197

dəyərləndirilməsi və s. baxımından”[125] (Hüseynova, 1997: 91). Sənətkarın yaradıcılığının yeni rakursdan, obyektivlik meyarından tədqiq edilməsi, gərək məzmun, gərəksə də forma baxımından bir-birindən dəyərli monoqrafiyalar, dissertasiyalar yazılaraq Cavidşünaslığa töhfə olundu. Sevindirici haldır ki, bu sanballı əsərlərin müəllifləri araşdırmalarında “sovet ədəbiyyatşünaslığının zəruri meyillərindən uzaqlaşaraq müasir dünya estetik fikrinin metodoloji prinsiplərinə söykənmişlər. Akademiklər; Məmməd Cəfər Cəfərov “Hüseyn Cavid”, Rafael Hüseynovun “Vaxtan uca”, “Əbədi Cavid”, görkəmli ədəbiyyatşünas Yaşar Qarayevin “Tarix: yaxından və uzaqdan”, “Realizm: sənət və həqiqət”, Kamran Əliyevin “Cavid möcüzəsi”, “Hüseyn Cavid: həyat və yaradıcılığı”, Azər Turanın “Cavid əfəndi”, “Cavidnamə”, Tural Hüseynlinin “Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatı”, Şamil Vəliyevin “Fuyuzat” ədəbi məktəbi” bunun bariz nümunəsidir. Əsərlərində dəfələrlə Cavid

[125] Hüseynova J. Hüseyn Cavidin “Topal Teymur“ pyesi. Nam.dissertasiyası. Bakı, 1997, s.91

yaradıcılığına müraciət edən görkəmli ədəbiyyatşünas Y.Qarayev, ədəbiyyatşünasların mütəfəkkir sənətkarın "sosialist realizminə keçməsi fikrinin əleyhinə çıxaraq onların "H.Cavid sovet dövründə yazdığı əsərlərdə romantizmdən sosialist realizmə keçməsi ilə bağlı mülahizələri ifratçılığın bir nümunəsi adlandırmışdır"[126] (Qarayev, 1980:247). Bir çoxları kimi, dövrün siyasi sifarişinə uyğun əsərlər yazmağa yanaşmayan, daha çox milli ruhlu əsərlər yaradan mütəfəkkir Cavidin şəxsiyyəti və yaradıcılığı uzun illər ideoloji meyllərdən yanaşılaraq araşdırılmış, hətta "50-ci illərin bir qədər demokratik mühitində belə bu "buz" əriməmişdir"[127] (Əhmədov, 2010:76). Cavidin bəraətdən həmən sonra böyük bir cəsarətlə Cavid yaradıcılğını araşdıran akademik M. C.Cəfərovun "Azərbaycan ədəbiyyatında romantizm" əsərində ədibi "ziddiyyətli dünyagörüşə malik yazıçı"[128] (Cəfərov,1963:7) adlandırması da bu səbəbdəndir. Qeyd edək ki, ADR-in qurucusu Məhəmməd Əmin Rəsulzadə

---

[126] Qarayev Y.Realizm:sənət və həqiqət. Bakı: Elm, 1980, s.247
[127] Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Qanun, 2010, s.76
[128] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.7

Sovet tənqidçilərindən fərqli olaraq Cavidin yaradıcılığına başqa bir rakursdan yanaşmış və onun "İblis", "Peyğəmbər" və "Səyavüş" əsərlərini yüksək qiymətləndirərək "Peyğəmbər"i "ideyaca müasir" əsər adlandırmışdır. Eyni zamanda "İblis" və "Səyavüş"dəki "hürriyyət", "türkçülük", "yürdsevərlik" kimi hisslərin təbliğini yüksək dəyərləndirmiş, alqışlamışdır. Şözsüz ki, hələ şairin sağlığından başlayaraq mütəfəkkir sənətkarın həyat və yaradıcılığı haqqındakı ədəbi tənqidi mübahisələr, yazılan məqalə və monoqrafiyalar uzun müddət ədibin tədqiqi ilə məşğul olanlar üçün mənbələr olmuşdur ki, bu mənbələrdə də araşdırılmalı mübahisəli məsələlər də yox deyil.

1921-ci ildə "Azərbaycan füqərası" qəzetində gedən yazıda deyilir: "H.Cavidin "Şeyx Sənan" pyesini tənqidə cəsarət edəməyiz. Çünki Cavidi tənqid üçün ikinci bir Cavid lazım gəlir ki, o da zənnimcə, bizdə yox kimidir"[129] (Məmmədli,1982:117). Mütəfəkkir sənətkarın

[129] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.171

yaradıcılığına "münasibətin məsuliyyət meyarı kimi" dəyərləndirilən bu mülahizəni sübhəsiz ki, dövrün bütün tənqidçiləri qəbul etməyib. Çünki "dövrün mürəkkəbliyi daxilində bədii zövqlərin müxtəlifliyi daha tez meydana çıxırdı və rəngarəngliyini qoruyub saxlayırdı. Lakin yuxarıdakı mülahizənin əsas aparıcı mahiyyəti onun tənqidçilər qarşısında qoyduğu məsuliyyət yükündədir. Yəni Hüseyn Cavidə münasibətdə elə-belə, ötəri mövqe tutmaq olmaz"[130] (Əliyev, 2009: 27-28). Təəssüf ki, Cavidşünaslıq tarixində obyektiv mülahizələrlə yanaşı, qeyri-ciddi, qərəzli, yanlış fikir və müddəalar daha çox irəli sürülmüşdür. Onun böyük əsərləri yanlış dəyərləndirilmiş, qəsdən, qərəzli şəkildə kiçildilməyə, qaralanmağa çalışılmışdır. Bu səbəbdən bəzən dövri mətbuatda eyni bir əsər haqqında müxtəlif, fərqli, bir-birini təkzib edən fikirlər səslənmişdir. Hüseyn Cavidin "İblis"i tamaşaya qoyulan zaman tənqidçi Xəlil İbrahim əsər haqqında "Kommunist" qəzetində yazırdı: "İblis ölməz və daima bərhəyat olan bir əsərdir ki, insanların təhzibi-əxlaqına dair

[130] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

bundan da nafe bir əsər ola bilməz”[131] (İbrahim, 2007:118). Az sonra X. İbrahim başqa fikir yürüdərək yazır: “Keçən məqaləmizdə söylədiyimiz üzrə “İblis”də müəllif yoldaş “Şeyx Sənan” qədər müvəffəq olmamışdır. Birinci səbəbi əsərdəki təzaddır. Biz keçən dəfə də yazmışdıq ki, “İblis”də təzad o qədər kök salmışdır ki, əsla təmizləmək olmaz”[132] (İbrahim, 2007:119). Ümumiyyətlə, Cavidi tənqid edənlər fikirlərində sabit olmamış, dövrana uyaraq gah Cavidə alqış demiş, gah da tənqid etmişlər. Eynilə Cəfər Cabbarlı, Əli Nazim, Xəlil İbrahim, Əkrəm Cəfər və s. kimi.

Hüseyn Cavidlə tanışlığı və dostluğu 1920-ci ildən başlayan Əkrəm Cəfər “Həqiqət şairi” adlı məqaləsində yazır: “1920-ci ildə Bakıya gəldim, darülmüəllimə qəbul olundum. Böyük şair Hüseyn Cavidlə tanışlığım da oradan başladı. Darülməllimin Respublika Əlyazmaları Fondunun indiki binasında idi. Tədris otaqları və yeməkxana birinci

---

[131] İbrahim X. Ədəbiyyat şərarələri / Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.118-119

[132] İbrahim X. Ədəbiyyat şərarələri / Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.118-119

mərtəbədə, yataqxana ikinci mərtəbədə idi, üçüncü mərtəbədə isə iki mənzil vardı. Birində darülmüəllimin müdiri, digərində Hüseyn Cavidin ailəsi yaşayırdı. Məndə Sabir təsirilə seir yazmaq həvəsi vardı. Cavidin tələbəsi olanda bu vurğunluq getdikcə artdı. Vəzni, qafiyəni öyrəndim. Hər ay, iki aydan bir yazdıqlarımı müəllimim Cavidə verirdim. Nöqsanlarımı düzəldirdi. Birinci şeirim 1923 -cü ildə hörmətli ədibimiz Şəfiqə xanım Əfəndizadənin yardımı ilə "Şərq qadını" jurnalının birinci nömrəsində "Bir xatirə" adı ilə çap olundu. Bu şeiri mən Cavidin "Bakıda" adlı şeirindən aldığım misra ilə tamamlayırdım:

Bu misran nə qədər doğrudur ki, ey şair,

"Xəyal içində bəşər daima səadət arar"[133] (Cavid, 2007: 173).

1924-cü ildə "Şərq qadını" jurnalının bir illiyi münasibəti ilə çap olunan yubiley nömrəsində şeirlərimiz və şəkillərimiz nəşr edilmişdir. Bu nömrəyə rəy yazmış tənqidçi Xəlil İbrahim Cavidin şeirini tənqid, mənim

---

[133] Cavid H. Əsərləri. 5 clddə, I c., Bakı: Elm, 2007,s.173

şeirimi  isə tərif etmişdi"[134] (Cəfər,1982).

Lakin bu qədər yaxın olan iki insanı: Hüseyn Cavidlə Əkrəm Cəfəri dövran zorla bir-birindən ayırmışdır. 1929-cu ildə Moskvaya gedən Əkrəm Cəfər oradan H.Cavidə "Açıq məktub" göndərmiş, yollarının ayrıldığını, "daha "Bahar şəbnəmləri"nin şeirlərinə bir şey demədiyini peyğəmbərlər və knyazlar şairinə" bildirməklə yanaşı, öz məramını "o dahinin qapısında bir süpürgəçi olacağını" "budur çarpışmadan ən böyük arzum mənim"[135] (Cəfər, 2007:89) – deyə bəyan etmiş, "hey köhnə şair", - deyə Cavidi də "proletar ədəbiyyatı cəbhəsinə" səsləmişdi:

Bu gün
Müzəffər bir döyüş nəşəsilə
Akınca alınlarının təri,
Şeirlərimə bir şey demir artıq
"Bahar şəbnəmləri"
Ey peyğəmbərlər və knyazlar şairi!
Mən bilirəm sənin xülyaların kimi gözləyir.

[134] Cəfər Əkrəm. Həqiqət şairi/Kommunist qəz.,8 iyul, 1984
[135] Cəfər Ə. Həqiqət şairi. 1929  / Cavidşünaslıq. Araşdırmalar toplusu. 10 cilddə, IV c., Bakı: Elm, 2007, s.88-89

Bilirəm, sən ya "adil bir Teymur"dan,

Ya xəyali bir "Peyğəmbər"dən umursan,

Hey köhnə şair![136] (Cəfər, 2007:88-89).

Cavid sənətinin vurğunu olan bir gəncin, Əkrəm Cəfərin şairə, "Hey köhnə şair" – müraciəti və ondan üz döndərməsi təbii ki sifarişli idi. Lakin gəl gör ki, açıqdan-açıq şəkildə yazılmış bu "Açıq məktub"u belə o zaman kəsərsiz sayanlar, Əkrəm Cəfəri H.Cavidə və Əhməd Cavada qarşı mülayim olmaqda suçlayanlar vardı. Şair və yazıçıları onlara qarşı daha amansız olmağa çağıran tənqidçi Mehdi Hüseyn Əkrəmin şeirindəki tək bu misralarıyla razılaşaraq: "Hey köhnə şair, Gözlərindən o köhnə gözlüyünü endir" – müraciətinin özünə aid olaraq qaldığını gözəlcəsinə anlaya bilərlər" – deyə "bunu Əkrəmin yaradıcılığında irəliyə doğru atılmış bir addım" – kimi dəyərləndirir. Çünki o, öz qələmi ilə özünü daha çox düzgün təsvir edir və öz simasındakı bütün və hər cür maskanı asanlıqla yırtmağa müvəffəq olur. İştə Əkrəmin bu

[136] Cəfər Ə. Həqiqət şairi. 1929 / Cavidşünaslıq. Araşdırmalar toplusu. 10 cilddə, IV c., Bakı: Elm, 2007, s.88-89

şeirdəki ən böyük "müvəffəqiyyəti"...[137] (Hüseyn, 1979:96).

Şeirin hansı məhrumiyyətlərlə yazıldığı, mənən məcbur edildiyi, özünümüdafiə məqsədi daşıdığı açıq-aşkardır. Əslində, Əkrəm Cəfər Cavidlə yollarının ayrıldığını bildirsə də, o, ruhən Caviddən ayrıla bilməmişdi. O dövrdə "İnqilab və mədəniyyət" jurnalında "Uyğunlaşma və xırda burjua mütərəddidliyi" adlı yazısı ilə çıxış edən Mehdi Hüseyn isə bu hadisəni öz-özlüyündə müsbət bir hadisə" kimi səciyyələndirirdi: "O, şeirinin başlarında:

"Dünən olmuş kimi yadında,
Qafiyələri unudaraq
Qafiyələrlə oynadığım günlər..." – deyir.

H.Caviddən büsbütün ayrıldığını bizə isbata çalışdıqda belə, onun misralarından göz yaşları damcılayır sanki:

"Gəl. Və çağır Cavadı da, Cəfəri də, Şaiqi də.

---

[137] Hüseyn M. Əsərləri. On cilddə. IX c., Bakı: Yazıçı, 1979,s.98

Hi... dəli də...ki də...

Bir zərbəçi dəstəsi kimi verək əl-ələ

Hamımız gələk dilə!”[138] (Məmmədli,1982: 241).

Həqiqətən də, Əkrəm Cəfərin Cavidə yazdığı “Açıq məktub”dakı “misralarından göz yaşları damcılayır. Bu yalnız Əkrəm Cəfərdə belə deyildi, “Poetik mühitə bir qədər geç, Moskvada universitet təhsilindən sonra (1929-1931) tam inteqrasiya olunan Səməd Vurğunda da belə idi. Qısa bir zamanda özünün əvvəlki yaradıcılığının davamı olmayan, yeni bir poetik yolun başlanğıcına qədəm qoyan S.Vurğun da yeni poeziyanın qanunauyğunluqlarına və sosialist məzmununa o qədər aludə olur ki, özünün “Ölən şeirlərim”i ilə yeni poetik proqramını elan edir. Zamanın poetik qatarına qoşulanlardan geridə qalmaq istəməyən gənc S. Vurğun “adının tarixə bolşevik yazılması” istəyini bəyan edir. Və “Adının tarixə bolşevik yazılması”nı istəyən şairin “Qızıl Şərq”, “Pambıqçılar”, “Oktyabr günləri”, “Hücum” və s. şeirlərində sosialist məzmunu, zamanın

[138] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, s.241

diktəsi aparıcı olur və şairin poetik məni dövrün hakim ideologiyasının ruporuna çevrilir”[139] (Əhmədov, 2015:254).

Siyasi hadisələrin tüğyan elədiyi 20-30-cu illər sovet cəmiyyətində isə məsələ ağlasığmaz dərəcədə mürəkkəb idi. Köhnəni darmadağın dağıdıb, onun xarabalıqları üstündə quruculuq işləri aparan bolşeviklər ədəbiyyata özlərinin təbliğat və təşviqat vasitəsi kimi baxırdılar, onlar verdikləri qonorar, vəzifə və imtiyazlar müqabilində yazıçılardan məhz bolşevizmi təbliğ edən alovlu, coşqun əsərlər tələb edirdilər. Cavan yazıçıları təbliğat işinə qoşmaqda elə bir çətinlik yox idi – cavanlar siyasi tələbə, o vaxtın dili ilə desək, ictimai sifarişə müsbət cavab verirdilər, çünki inqilab dalğası üstündə ağ günə çıxacağımızı zənn edib, fəhlə-kəndli hökumətinə qəlbən bağlanmışdılar və “dəstədən geridə qalmamağı”, mübarizənin “ən ön sıralarında olmağı” özlərinə borc bilirdilər. Lakin ədəbiyyatın məhək daşlarından olan Hüseyn Caviddə bu mümkün deyildi.

---

[139] Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı.Bakı:Elm və təhsil,2015, s.254

Dövrana qulluq göstərən tənqid istədiyini öyür, qaldırır, istəmədiyini mühakimə edir, məhv etməyə çalışırdı. Lakin bu illərin "mərəz" və "qərəz" qoxan tənqidində də Cavid haqqında gözəl sözlər, tariflər yer alırdı. Məsələn, A.Şaiqin "Cavidin "İblis" nam hailəsi haqqında duyğularım" məqaləsi... "Maarif və mədəniyyət" jurnalı A.Şaiqin həmin məqaləsini "nadir hadisə"lərdən biri hesab etmişdir. Şaiqə görə, "İblis" faciəsindəki Arifi inlədən, ürəyinin dərinliklərində qorxunc yaralar açan öz kədəri deyildir, cahan kədəri, iztirablarıdır: "Qaldır məni ta görməyim insandakı zülmü, Bax yer üzü inlər"- deyə nə acı hayqırır və ruhuna gömülmüş sızıyı nə acıqlı anladır"[140] (Şaiq,1977:183). Tənqidçi bu sözləri ilə "əsərin estetik dəyərini müəyyənləşdirir, romantik qəhrəmanın sarsıntılarını və əməllərini dövrün tələblərindən doğan zərurət kimi təqdim edir. O, əsərin ictimai həyatla təmasını diqqətə çəkərək yazır: "Arif X1X və qismən XX əsrin yetişdirmiş olduğu türk xalqının nümayəndəsi və tarixi

[140] Şaiq A. Cavidin "İblis" faciəsi haqqında duyğularım // Şaiq A. Əsərləri. 5 cilddə. 4 c., Bakı: Azərnəşr, 1977, s. 183

tipidir”[141] (Şaiq,1977:187). Onu da qeyd etmək lazımdır ki, məqalədə İblis obrazı ilə əlaqədar irəli sürülmüş mülahizələrə də münasibət göstərən tənqidçi İblisin təhlilini yalnız onun “zahiri keyfiyyətlərinə” görə etmir, əksinə “onun daxildə gizlədilmiş gizli hisslərinin mənasını açır, təhriklərinin real həyatda olan köklərini axtarır. İblisin “tikici deyil, yakıcı və yıkıcı” ehtirasının nəticələri onu narahat edir. Buna görə də A.Şaiq “İblis kəskin ağla və sarsılmaz iradəyə malikdir”, - deyərkən, “onu insanlar içərisində movcud olan varlıq kimi təqdim edəndə tam haqlı görünür”[142] (Əliyev, 2009:25-35).

Cavidin bir əsərinə iki, bəzən daha çox fərqli münasibəti görmək mümkündür. Dövrün tənqidçilərindən biri əsəri tərbiyəvi əhəmiyyətinə görə yüksək dəyərləndirdiyi halda, bir başqası “orada təzad axtarmağı və təzad tapmağı” qarşısına mühim vəzifə kimi qoymuş kimi görünür. Sözsüz ki, bir əsər haqqında yalnız bir tənqidçi yazmalı və yalnız bir tənqidi fikir söylənilməli

[141] Yenə orda, s.187
[142] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5, s. 25-35

fikrinə biz də qarşıyıq, lakin tənqid obyektiv olmalıdır.

Cavidin yalnız bir əsəri haqqında müxtəlif, təzadlı fikirlər söylənilməyib. Bütün əsərlərində bu faktı izləmək mümkündür. Ədibin "Afət" əsəri haqqında da bir-biri ilə heç cür əlaqəsi olmayan, bir-birini təkzib edən fikirlər çoxdur. Əgər, 1922-ci ildə, "Kommunist" qəzetində "Tamaşaçı" imzası ilə yazılan məqalələrin birində əsər haqqında "Əsər nəinki ilk dəfə oynanması, bəlkə mövzusu, tipləri, hətta üsuli-təhriri (qismən) cəhətdən səhnəmizdə yeni bir şeydir",- yazılırsa, az keçməmiş başqa bir məqalədə "Afət" öz müəllifinə yaraşmayan əsər"[143] (Hüseyn,2007:47), yenidən qurulan Cəfər Cabbarlının yazdığı məqalədə isə "əsər olmaqdan daha ziyadə bir şaşqınlıq" kimi dəyərləndirilir[144] (Cabbarlı, 2007:68). Bu cür ikili münasibəti Cavidin digər əsərlərinə yazılan tənqidlərdə də izləmək mümkündür. Hər halda bu da, "Cavid yaradıcılığında qüsurlar axtaran tənqidin ən zəif cəhəti elmi əsaslandırmaların olmaması idi. Bu isə eyni

[143] Hüseyn M. Əsərləri. On cilddə. IX c., Bakı: Yazıçı, 1979,s. 47
[144]Cabbarlı. C. Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, II-III c., Bakı: Elm, 2007,s.68

vaxtda sənətkarın bir əsəri barədə həm müsbət, həm də mənfi meydana çıxmasının bazisi olurdu”[145] (Əliyev, 2009:29).

Hər zaman xalqının milli yaddaşından və klassik söz xəzinəsindən güc alan, vətəninə, xalqına, ümumiyyətlə, insanlığa xidmət üçün çalışan Hüseyn Cavid “Sənət sənət üçündür” nəzəriyyəsi ilə yazıb-yaratmış, hər zaman sənətdə yaradıcılıq, sənətkar azadlığı ideyasını müdafiə etmiş, ədəbiyyata mənəvi tərbiyənin ən əlverişli, düzgün vasitəsi kimi baxmışdır. Cavidin dilini, üslubunu tənqid edənlər olduğu kimi, onu sevənlər, sənətini yüksək dəyərləndirərək öyənlər, “alqış, hörmət, təzim edənlər”, şeir həsr edənlər də olmuşdur ki, Əli Nəzmi bunlardan biri idi. Nəzmi “İqbal”da (1914) nəşr olunan “Qardaşım H. Cavid” sərlövhəli şeirində şairin şöhrətli sənətkarlığı ilə yanaşı, nəcib insanlığını da diqqətə çəkmişdir:

“Bir çöhrə durur pişi-xəyalımda didərgun
Ərz eyləyir alqış o simada təbiət.
...Bir çöhrə ki, sinəmdə onun sevgisi mədfun

[145] Yenə orda, s.29

Bir çöhrə ki, vardır ürəyimdə ona şəfqət.

Məndən ona alqış, ona təzim, ona hörmət”[146]

Göründüyü kimi, 1914-cü ilin sonlarında Tiflisdən (Tibilisi) Bakıya gələndə artıq tanınan Cavid hər kəsin diqqət mərkəzində idi. Şairin əsərlərinə mətbuat səhifələrində geniş yer verilməklə yanaşı, ona şeirlər həsr olunur, bu şeirlərdə şairin sənəti və şəxsiyyətinə münasibət - “təzim”, “alqış”, “hörmət” ifadə olunurdu. Gündüzün gecəsi olduğu kimi, tənqidin də ağ-qarası var. Əli Nəzminin göylərə qaldırdığı Hüseyn Cavidi Sank-Peterburq Şərqşünaslıq İnstitutunda oxumuş, Moskva Universitetinin aspiranturasını bitirmiş, 20-30-cu illərdə yaradıcılıqdan çox, tənqidçi kimi daha populyarlaşmış Əli Nazim isə kəskin tənqid edənlərdən biri idi. 1925-ci ildə şairə “Nemanın röyası” adlı şeir həsr etmiş Əli Nazim də Cavid yaradıcılığına birtərəfli yanaşmış, həm şairin yaradıcılığına həsr edilmiş, həm də Azərbaycan ədəbiyyatından bəhs olunan məqalələrində ədibi hər zaman tənqid atəşinə tutmuşdur; “Cavid öz sinfinin siyasi-

[146] Nəzmi Əli. / “Qardaşım H. Cavid”. “İqbal” qəz., 1914

pantürkist planlarının, onun milli şovinist görüşlərinin ifadəçisi olaraq qaldığından onun içərisində sosializm epoxasının tip və xarakterləri, göstərilən xalis şura dramları hələ ki yoxdur”[147] (heç bir zaman da olmadı) (Nazim, 1979:375).

Əslində, bu günün prizmasından baxıldıqda tənqidçi milli sənətkarı olduğu kimi dəyərləndirmişdir. Həqiqətən də, Cavidin “xalis şura dramı” yoxdur[148] (Nazim,1979:375). Amma o günün prizmasından yanaşıldıqda məqalədə yazılanlar Cavidi məhvə aparırdı, çünki ədibin milliliyi, türkçülüyü, turançılığı nişan verilirdi. 1930-cu ildə Moskvada çap olunmuş “Literaturnaya ensiklopediya”dakı “Hüseyn Cavid”[149] məqaləsinin müəllifi də Əli Nazim olub. 1931-ci ildə yazdığı “Bu gündən dünənə bir baxış” adlı məqaləsində şairin şeirini tənqid edən tənqidçi Əli Nazim bir il sonra, 1934-cü ildə “Gənc işçi” qəzetinin 23 aprel tarixli sayında dərc olunmuş başqa bir məqaləsində isə, ədibin “Səyavuş”

[147] Nazim Əli. Əsərləri.Bakı,1979, s.375
[148] Yenə orda, s.375
[149] Nazim A. Huseyn Cavid // Ədəbiyyat ensiklopediyası. Moskva, (1930). - t. III. s.233-34

əsərinə münasibət bildirərək “Səyavuş”u “sabiq burjua-qolçomaq ədəbiyyatının ölümünü ifadə edən bir əsər”[150] (Məmmədli,1982:65) kimi səciyyələndirib. Mütəmadi Cavidi tənqid edən tənqidçi 1935-ci ildə “Qızıl şəfəq” qəzetinin 28 aprel tarixli sayında gedən; “Bugünkü Azərbaycan Şura ədəbiyyatı haqqında bəzi qeydlər” - adlı məqaləsini isə, ümumilikdə Cavid yaradıcılığının tənqidinə həsr etmiş kimidir: “Cavid bu pyesdə (“Səyavuş”) faciənin tarixi tematikasından asılı olmayaraq özünü itirdiyini göstərir. “Kimlə olmalı, kimə etibar etməli” suallarına o hələ öz qəti cavabını verməmişdir”[151] (Nazim, 1979:265).

Hər bir ədəbi-ictimai hadisəyə yalnız hakim ideologiya, yalnız sinfi mövqedən izah vermək məhdudluğu 30-cu illər tənqidində bir çox haqsız ittihamlar, zorakı, ədalətsiz etiraflar, habelə nəzəri-estetik və elmi-metodoloji sapıntılar törədir, bu isə özlüyündə ədəbi-bədii inkişafı təbii yolundan döndərir, onu ciddi şəkildə ləngidirdi. Məsələyə məhz bu aspektdən - yalnız

[150] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.62
[151] Nazim Əli. Əsərləri.Bakı,1979, s.265

hakim ideologiya, yalnız sinfi mövqedən yanaşan Əli Nazim elə həmin ildə yazır: "C.Cabbarlının ölümündən sonra, tək bircə iri dramaturq Hüseyn Cavid qalmışdır ki, o da hələ ideyaca yenidən qurulmaq prosesindədir"[152] (Nazim,1979:375). Yazılanlardan da göründüyü kimi, tənqidin baş alıb getdiyi bir dövrdə Caviddən çox bunu yazanlar daha çox "özlərini itirmişdilər," çünki Cavid "yenidən qurulmaq" niyyətində deyildi. Təəssüf ki, Azərbaycanda ilk fəlsəfə dərsliyinin müəllifi olan Məmməd Kazım Ələkbərli də filosof şairi dərk etməmiş, ya da dərk etmək istəməmişdir. Digərləri kimi, ədibin yaradıcılığına qarşı eyni xətti Məmməd Kazım Ələkbərli də usanmadan davam etdirmişdir. 1934-cü il oktyabr ayının 6-da Azərbaycan sovet yazıçılarının plenumunda Yazıçılar İttifaqının sədri məruzəsində sənət adamlarının qarşısında duran ən başlıca vəzifənin "iqtisadiyyatda olduğu kibi insanların şüurundan da kapitalizm qalıqlarını süpürüb atmaqdan, proletariat, ümumuyyətlə, əməkçilər üzərinə olan burjua müzür təsirini rədd etməkdən, bir sözlə,

[152] Yenə orda, s. 375

insanların şüurunu dəyişməkdən ibarət olduğunu bəyan edən tənqidçi Məmməd Kazım Ələkbərli bu dəyişməyə nail olmağın nəzəri-fəlsəfi mənbəyini də konkret olaraq göstərmişdir; "Bunun üçün bizim əlimizdə ən mühim, ən böyük silah vardır. Bu silah isə marksizm-leninizm birliyidir"[153] (Nəbioğlu,1992:173). Məhz bundan sonra "Əski insan materialının yenidən qurulması" (M.Hüseyn) yolunda "can" qoyanlar işə başlamışdı. M. Ələkbərli "Ədəbiyyat və tənqidimiz haqqında ümumi qeydlər" məqaləsində bəhs etdiyi "əski yazıçılarımızdan şüurlu və şüursuz surətdə inad ilə yenidən qurulması məsələsinə soyuq baxan və bu uğurda əhəmiyyətsiz addımlar atan" Hüseyn Cavid bu işə yaramadı; "Rekonstruksiya" edə bilməyənlər hələ o vaxt-30-cu illərdə "perestroyka" edildi. Cavidlər, Müşfiqlər, Salman Mümtazlar, Yüsif Vəzirlər, Hacı Kərim Sanılılar, "əski insan materialı" kimi yaramadığından onları "yenidən qurmaq" mümkün olmadı, ona görə də çürük qoz kimi bir kənara atıb "sosializmin

[153] Nəbioğlu V. Yalanlar, həqiqətlər // Azərbaycan jur., 1991 №3, 1992, № 5-6, 112-127.

döyüşən övladlarını" yetişdirmək üçün "gənc beyinlərdən" yapışdılar. "Kolxoz qurun" dedilər, qurduq, qolçomaq qırın dedilər, qırdıq. Hələ bu az idi, çünki tənqid bu zaman "bədii ədəbiyyatda "sənaye və təsərrüfatla əlaqədar mövzu"ların azlığından şikayətlənir, bunu deyək ki, poeziyanın ən zəif cəhətlərindən biri hesab edirdi." "Tənqidin çubuğu əsasında getməyə məcbur olan ədəbiyyat isə, təbii ki, "bəşər tarixini o başından bu başına hayqıran ölməz xarakterlər yarada bilməzdi[154]" (Nəbioğlu, 1992:123).

Elə həmin il, M.K.Ələkbərli "Kommunist" qəzetində (1934-cü il 13 iyun) "Bədii yaradıcılıq qurultayı" adlı yazısında [155]Cavidi "Sənət sənət üçündür" nəzəriyyəsini dəstəklədiyi üçün və "yenidənqurma" məsələsinə etinasızlıq göstərdiyinə görə yenə tənqid etmiş, şairi "düzgün yol"a çağırmışdı. Tənqiddən usanmayan M.K.Ələkbərli Ümumittifaq Şura yazıçılarının 1-ci qurultayı münasibətilə yazdığı "Ədəbiyyat və tənqidimiz

[154] Nəbioğlu V. Yalanlar, həqiqətlər // Azərbaycan jur., 1991 №3, 1992, № 5-6, 112-127
[155] Ələkbərli M.K. Bədii yaradıcılıq qurultayı/"Kommunist" qəz., 13 iyun, 1934

haqqında ümumi qeydlər" məqaləsində "şairlərdən Cavidin və Sanılının yenidən qurulma məsələsinə soyuq baxdıqlarını", qurultay tərəfindən sosializmi təbliğ etmədikləri üçün tənqid olunduqlarını diqqətə çatdırmış, həmçinin, bu məsələyə öz münasibətini bildirmişdir. Cavid M.K.Ələkbərlinin "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuş "Aprel ədəbiyyatı"[156] (1935-ci il, № 10-12) adlı məqaləsində yenə tənqid edilmiş, "yaradıcılığında dönüş yaratmağa", "sosializmin tələb etdiyi əsərlər vermək uğrunda çalışmağa" dəvət edilmiş, hətta "mütləq bu yolu öyrənməlidir" - şəklində hökm vermişdir.

Göründüyü kimi, "Məzmunca sosialist ədəbiyyatının yaradılması uğrunda elan olunmuş ədəbi öhdəçiliklər yerinə yetirildikcə öz addımlarını böyüdən tənqid də ondan geri qalmırdı" və "bəlkə də, ağıllı "siyasətçilər" tənqidin özündən bu yeni ədəbiyyatın yaradılması işində daha səmərəli istifadə edirdilər. Bu tənqidin 20 ilə yaxın arasıkəsilməz "ifşa meyli" bir çox sovet yazıçılarında yeni

[156] Ələkbərli M.K. Aprel ədəbiyyatı/"İnqilab və mədəniyyət" jurn., 1935, № 10, s.2.

sosialist həyatı mövzularına inadkarlıqla həvəs də yaratdı. Amma nəzərə alınmırdı ki, sovet adamının formalaşmasına hər hansı bitkinin əkilib-becərilməsi kimi baxmaq olmazdı. Kənd təsərrüfatı işi ilə cəmiyyət həyatının mürəkkəblikləri arasında az qala bərabərlik işarəsi qoyan "elm" özünün ilk tərəfdarlarını ədəbiyyatda tapdı"[157] (Əliyev, 2013:13-33). "Kənd təsərrüfatı işi ilə cəmiyyət həyatının mürəkkəblikləri arasında az qala bərabərlik işarəsi qoyan "elm"in ədəbiyyatda tapdığı" "ilk tərəfdarları" idi qol çırmayıb tənqid meydanına girənlər. "İctimai həyatdakı gərginliyin ölçüyəgəlməz miqyasını və xarakterini dəqiq təhlil etməkdənsə, yaradıcı qüvvələri bir yerə toplayıb doğru nəticələrə gəlməkdənsə, "qarayaxdılar"ın daha böyük üstünlük qazandığı bir zamanda "əsl ədəbiyyat bunlara cavab vermək, yoxsa yeni bədii nümunələr yaratmaq dilemması qarşısında qaldı. Əslində isə hər iki istiqamətdə çəkilən zərər xalqın xeyrinə olmayan eksperimentlər

[157] Əliyev K. Mir Cəlal Paşayev –tənqidçi və nəzəriyyəçi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s. 13-33

doğurdu”[158] (Əliyev, 2013:13-33). ”Əsl ədəbiyyat” yaratmaqla məşğul olan Cavidin tənqid olunması təbii idi və Cavidi tənqid edənlər yalnız ədəbi müasirləri deyildi. Mütəfəkkir sənətkar ölkə başçısının belə tənqid hədəfində idi. Azərbaycan Yazıçılar İttifaqının adı keçən qurultayında Mir Cəfər Bağırov M.Müşfiq, Ə.Cavad, M.Rəfili və digər yazarları şiddətli tənqid etmiş, onları Azərbaycan K(b)P MK və BK ətrafında birləşməyə dəvət etmişdi. Tənqid olunanların içərisində Cavid də vardı. Cavidə qarşı çirkin bir kampaniya başladılmışdı. Bunu hiss edən şair hətta ona qarşı aparılan bu kampaniya barədə 1936-cı il oktyabr ayının 3-də M. C. Bağırova məktub yazıbmış. Onun məktubuna cavab olaraq M. C. Bağırov Cavidi dəvət edərək onun dinlənilməsini və MK Burosuna məlumat verilməsini H. Rəhmanov və Ruhulla Axundova tapşırmışdır. Ancaq təəssüf ki, bunların heç bir nəticəsi olmamış, əksinə, böhtan kampaniyası daha da qızışmış,qəzet səhifələrində ona ünvanlanan çirkin şeirlər

[158] Əliyev K. Mir Cəlal Paşayev –tənqidçi və nəzəriyyəçi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s. 13-33

çap olunmuşdur. Məsələn, "Ədəbiyyat" qəzetinin 1937-ci il 16 may tarixli sayında Cavidə unvanlanmış şeirdə yazılır:

Adına millətçilər dedi: "Böyük sənətkar"
Gəlin düz araşdıraq, sənin sənətinmi var?
Azərbaycan şairi olsa da murdar adın,
Soltanların, şahların sinisini yaladın.
O murdar arzuların torpaqlara gömüldü,
Sənin yaratdıqların özündən əvvəl öldü.[159]

(Ürək ağrısı ilə oxuduğumuz bu misraları, bu nataraz, üzqızardan sözləri sevimli sənətkarımızın hansı zorluqlar altında yazdığını hisss etməmək mümkün deyil). Keçən əsrin 20-30-cu illərinin ədəbi tənqidini izləyən AMEA-nın müxbir üzvü K.Əliyev haqlı olaraq yazır: "bir zamanlar H.Cavidin əsərlərinin təsiri ilə kitab yazanlar, H.Cavid sənətinin kölgəsini şeirlərinin ahənginə və ritminə qatanlar onun təsirini dandılar, kölgəsini qılıncladılar, özünə şəkk etdilər"[160] (Əliyev, 2013:225).

---

[159] Vurğun S. Səadət günəşi./ "Ədəbiyyat" qəz., 1937, 16 may
[160] Əliyev K. Ölüm cələsi (Cəlal Qasımovun "Əsrin qiyamət çağı" kitabını oxuyarkən) / Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s.225

Bu şeiri Cavidə ünvanlayanlar, şairin “kölgəsini qılınclayıb”, “özünə şəkk edənlər” bir şeyi dərk etmirdilər ki, Cavidin yaratdıqları əbədiyaşar, bəşəri mövzularda yazılmış əsərlərdir, günün hay-küyünə ünvanlanan əsərlər deyildir. Bir çoxları Stalinə, Partiyaya, Leninə, Oktyabra şeirlər yazıb vəsf edəndə, “dahinin qapısında süpürgə” olanda filosof şair yalnız “sənətkar vicdanı”nın səsini dinləyərək böyük ədəbiyyat yaradırdı. Sözsüz ki, bu da nə ölkə başçısını, nə də tənqidi qane etmirdi. Tənqidi qane edənlər, “Könlü Leninin bayrağından ilham alan”lar məhz bunun xatirinə yalnız H.Cavidə deyil, Məhəmməd Əmin Rəsulzadəyə də dil uzadır, Rəsulzadənin “Bir kərə yüksələn bayraq, bir daha enməz”,- fikrini ələ salaraq bolşevik qardaşlarına yaranmaq, yalnız “Stalinin yanında üz”lərinin “ağa çıxması”nı düşünərək yazırdılar:

Mənasını itirmişdir köhnə, çürük sözləriniz
O üçrəngli bayrağısa görməyəcək gözləriniz!
Firqənizlə bayrağınız torpaqlara gömülmüşdür,
Çürük, murdar firqəniz də özünüzdən tez ölmüşdür.
“Erginə qon, boz qurd” kimi əfsanələr sizin olsun,

İstanbulda qab yalayan divanələr sizin olsun...
... Yetər, yetər həyasızlıq, qıpqırmızı yalan yetər,
Siz hey hürün, nə eybi var: “İt hürsə də, karvan keçər.”

Qeyd edək ki, Cavid 1922-ci ildə “Peyğəmbər”i yazanda Azərbaycanda “İnqilab və Mədəniyyət” jurnalının da təməli qoyulurdu (1923). “İnqilab və Mədəniyyət” jurnalı Azərbaycan Şura Yazıçıları İttifaqının orqanı idi. Jurnala müəyyən zamanlarda M.K.Ələkbərli, Ruhulla Axundov redaktorluq etmişdir. Redaktor müavini Mehdi Hüseyn, məsul katibi Əvəz Sadıq, redaksiya heyyəti M.K.Ələkbərli, H.Nəzərli, T. Şahbazi, Ə.Əbülhəsən olan bu jurnalın ilk saylarından son sayına qədər ən çox yer verdiyi Leninə, Stalinə, inqilaba həsr edilən yazılar çoxluq təşkil edib. “Sonuncu 11-12-ci sayı 75 səhifədən ibarət olan jurnalın 45-səhifəsi yalnız Stalinə həsr edilib. S.Vurğunun “Azad ilham”, Aşıq Hüseyn Bozalqanlının “Stalin”, S.Rüstəmin “Stalin”, M.Müşfiqin “Azadlıq dastanı”, M.Rahimin “Stalin”, Aşıq Əsədin “Stalin”, Mirzə Səmədin “Stalin yoldaşa”, Şair Nəcəfin “Stalin”, Süleyman Staliskinin “Ulu Stalin yoldaşa” və s. Bax bu ifrat dərəcədə

məddahlıq deyil, bəs nə idi?).”

Redaksiya heyyəti də, yazarları da azərbaycanlılar - özümüzünkülər olan bu jurnallar özümüzə qənim kəsilmişdi. Burada yazıları gedən tənqidçilərin sözlərindən qan damlayırdı. Adı çəkilən yazıçı və şairlər “nişan” verilirdi; bizdən deyil! Məsələn, jurnalın 4-5-ci saylarında (aprel-may) Əvəz Sadığın “Mübarizə davam edir” sərlövhəli məqaləsində[161] Azərbaycan Şura Yazıçılar İttifaqında keçirilən müşavirədən bəhs olunur. Bildirilir ki, müşavirədə Cavid haqqında çox kəskin çıxışlar olub və qərar qəbul edilib. Buna baxmayaraq müşavirənin keçirilməsindən, orada söylənənlərdən cuşa gələn müəllif, Ə.Sadıq məqaləsində yazır: “Azərbaycan ədəbiyyatı tarixində hələ heç kəs bu qədər canlı bir müşavirəni xatırlamayır. Şura Yazıçılar İttifaqının salonu başdan-başa dolu, qapılar bütün gələnlərin üzünə açıq idi.” Ə.Sadığın böyük coşqunluqla bəhs etdiyi “Şura Yazıçılar İttifaqının salonu başdan-başa dolu, qapılar bütün gələnlərin üzünə açıq” olan müşavirə məgər, Hüseyn Cavidi “xalq düşməni”

[161] Əvəz Sadiq “Mübarizə davam edir”/ “İnqilab və Mədəniyyət” jurn., (aprel-may), № 4-5

çıxarmaq üçün toplanıbmış.

Müşavirədə çıxış edən, "bir neçə yazıçı vardır ki, hər hansı bir müşavirədə, iclasda mütləq onların adı çəkilməli və onlardan bəhs olunmalıdır. Bu yazıçılardan biri Caviddir" - söyləyən Ə.Sadıq məqaləsinin sonunda "müşavirənin qəbul etdiyi qəti hökmünü" qeyd edir: - "Öz yaradıcılığını əməkçi xalqın taleyi ilə bağlamayan, xalqının sevincilə gülməyən yazıçı böyük yazıçı ola bilməz. Xalq tərəfindən sevilmək istəyən yazıçı xalqını sevməli, ondan qaçmamalı..." "Hörmətli Ə.Sadıq bir zaman xalqını "sevən" adlandırdığı qələm əhlilərinin bugünkü halını görsəydi görəsən bu yazdıqları üçün xəcalət hissi keçirərdimi? Stalinin, Leninin, Marksın, Engilisin şərəfinə yazılan saysız-hesabsız o qalaq-qalaq kitablar görəsən indi haradadır? Xalq onları yaşatdı yoxsa Cavidi?" Qeyd edək ki, bu məqalədə Ə.Sadıq yalnız H.Cavidin adını çəkməyib, eyni sözləri Əhməd Cavad, Mikayıl Rəfili, Rəsul Rza, Seyid Hüseyn yaradıcılığı haqqında da söyləyib və sonda müşavirə iştirakçılarına sualla müraciət edib: "Rəfili şairdirmi, deyilmi? Rəsul şairdirmi, deyilmi?" Adı çəkilən

mətbuat orqanlarında gedən yazılar, eyni zamanda Ə.Sadığın böyük həcmli məqaləsi (8 səhifəlik) o dövrün ədəbi mühitinin mənzərəsini gözümüzdə açıq-aşkar canlandırır.

Təbii ki Cavidin də tənqidçilər tərəfindən qərəzli tənqid olunmasına, Şura Yazıçılar İttifaqından çıxarılmasına onun "Sosializmin döyüşən övladı" ola bilməməsi səbəb olmuşdu. Nə bolşevikləri, nə də onların gətirdikləri sosializmi qəbul etməyən, təpədən dırnağa milli olan şairi "sosializm bülbülü"nə çevirə bilməmişlər. O illərin tənqidi "sosializmin döyüşən övladlarını", erkək Tükəzbanların obrazını ədəbiyyatda "əbədiləşdirənlərə" alqış deyir, mədhiyyə oxuyurdu." Azərbaycan teatrının səhnəsində isə ərlə-arvad arasında "bərabərlik" davası gedirdi. Tənqid isə əl çalır, bərəkallah yağdırırdı"[162] (Nəbioğlu, 1992:26). "Azərbaycan teatrının səhnəsində ərlə-arvad arasında gedən bərabərlik davasına əl çalıb, bərəkallah yağdıran" tənqid Yusif Vəzirin "Qızlar bulağı" kimi bir romanını, Cavidin yazdığı tarixi faciələri qəbul

[162] Nəbioğlu V. Yalanlar, həqiqətlər // Azərbaycan jur., 1991 №3, 1992, № 5-6, 112-127

etmirdilər; “Bəzi yazıçılar hazırkı zamanın böyük sosializm quruculuğu dövrünün böyük quruluşumuzda davam edən hadisələrini yazmaqdansa, gedib köhnə tarixi şeylərə əl atırlar”[163] (Nəbioğlu, 1992: 25).

Daşın kimə atıldığı da, daş atanların nə istədikləri də bəlli idi, tarixi mövzulara nə qədər yanlış, səhv münasibət göstərmələri də. Yazılan əsərlərin “Erkək Tükəzban”, “firqə üzvü Qumru”, “bolşevik Tovuz”, “səsi alınmış Qulaməli”, “qolçomaq”, “qolçomaq quyruğu”, “bandit” yarlıqlı sözlərlə doldurulduğu bir zamanda, Peyğəmbər, Xəyyam, Əmir Teymur, Səyavüş obrazları yaradan Cavid iblisə uyanlara görə guya, “yaradıcılığında bir sıra pozuntular”a yol verirdi. Çox qəribədir; ədəbiyyatımızın “sal daşı”na, “iri” dramaturquna ilk daşı atanlar da onun qələmdaşları olmuşdu. Cavidə ilk daşın qələmdaşları tərəfindən atılmasını illər sonra Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin 8 fevral, 1956-cı ildə Cavidin barəsində Dövlət Təhlükəsizlik Komitəsinə göndərdiyi

[163] Nəbioğlu V. Yalanlar, həqiqətlər // Azərbaycan jur., 1991 №3, 1992, № 5-6, 112-127

məktubdan öyrənən Xalq şairi Nəriman Həsənzadə heyrətə düşür: "Cox qəribədir; Cavidə ilk daşı atanlar onun qələmdaşlar idi[164] (Həsənzadə, 2002:67). "Vaxtı ilə bir yerdə çalışdıqları, inandığı adamlar, qələmdaşları, Cavidə arxa çevirən üzüdönüklər" Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin Dövlət Təhlükəsizlik Komitəsinə göndərdikləri məktubda yazırdılar: "Cavidin inqilaba qədər və Sovet hakimiyyətinin ilk illərində yazdığı əsərlərin bir hissəsində ("Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum", "İblis" və b.) mücərrəd şəkildə olsa da, burjua cəmiyyətinə və milli müstəmləkəçiliyə qarşı etiraz ifadə etmişdir. Ancaq şair bu əsərlərində cəmiyyətin inkişaf qanunlarını düzgün dərk etməkdən xeyli uzaq idi. Bəşər həyatında Cavid yalnız iki qüvvəni ayıra bilirdi: güclü və gücsüz. Güclülər deyəndə Cavid hakim sinfin nümayəndələrini, hakim millətləri, müstəmləkəçi, imperialist dövlətləri nəzərdə tuturdu. Gücsüzlər - onun əsərlərində zəhmətkeşlər, yoxsullar kölə halına salınmış millətlər idi. Bu illərdə şair gücsüzlərin güclülər üzərində

[164] Həsənzadə N. Tariximiz taleyimiz. Bakı, 2002, s.67

qələbəsinə inanmır və əzilənlərin ağır vəziyyətini göstərməklə kifayətlənirdi.

Cavid burjua kapitalist münasibətlərinin əleyhinə çıxanda da feoadl keçmişi ideallaşdırır, dini mistikaya qapılır və çalışırdı ki, islam dinini moderinləşdirsin.

Cavidin poetik dilinin türk sözləri ilə zibillənməsini də qeyd etmək lazımdır.

Burjua udeolgiyasının, eklektizmin təsirini ifadə edən yaradıcılığında bir sıra pozuntulara və səhvlərə, dünyagörüşündəki ziddiyyətlərə baxmayaraq, Hüseyn Cavid Rasizadə Azərbaycan ədəbiyyatı yarixində müəyyən yer tutan şairdir".

Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyəti

8 fevral 1956-cı il

Yazılmasından yarım əsr keçməsinə baxmayaraq məktubu bu gün belə həyacansız oxumaq mümkün deyil. Digər tərəfdən də şairin özü də axınla deyil, axına qarşı gəlirdi. Ölümü, zülümü gözə alaraq yazıb, yaradan mücahid sənətkarın yazdıqları dövrana, rejimə qarşı gəlməkdi. Bu səbəbdən, ondan tələb olunan vəzifələri

yerinə yetirmək yerinə, bolşevizmin hökm-fərma olduğu bir dönəmdə ədəbiyyata “Peyğəmbər”, “Topal Teymur”, “Xəyyam”, “Səyavüş” kimi əsərlər bəxş etmiş Cavidin tənqidi bu qədər məşğul etməsi təbii idi.

Onu da qeyd etmək lazımdır ki, ədəbi tənqiddə sənətkar haqqında ədalətli çıxış edənlər də yox deyildi. Məsələn, ədibin “Peyğəmbər”i haqqında ən ədalətli sözü Hənəfi Zeynallı; “Cavidin ”Peyğəmbəri” haqqında mülahizələrim” məqaləsində dilə gətirirdi: “Cavid dəxi öz əsərinin, öz mühitinin gizlin bir surətdə tələb etdiyi cəhəti meydana qoyur, bu gözlüklə Peyğəmbərə baxır, onu adi bir bəşər halına endirir” [165] (Zeynallı, 1983:233). O dövrdə bu fikrin söylənməsi, adi fikir deyildi. Çünki əsərin yazıldığı dövrdə tənqid orada ancaq “dini təbliğin başlanğıc tellərini axtarırdı. Tənqidçilər əsərə Peyğəmbərin “bəşər halında” verilməsi, “dini baxımdan müəyyən limfaların əzilməsi” aspektindən yanaşırdılar. Lakin bu cür düşünülmüş etibarsız dayaqlar elə də uzun müddət davam edə bilməzdi. Əziz Şərifin fikrincə, “Cavid öz ədəbi icadı üçün köhnə

---

[165] Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s.233

mövzular axtarır və öz yaradıcılığı üçün “İblis”, “Peyğəmbər”, “Şeyx Sənan”, “Keçmiş günlər” kimi köhnə mövzuları intixab edir. Amma Hüseyn Cavid kimi böyük talant sahibi şairə bixüsus “Uçurum”a doğru getmək, bizcə, heç məsləhət deyildir.” Tənqidçi Cavidin “Peyğəmbər” kimi mövzulardan yazmasını belə “onun öz əsərinə istinadən “uçurum” kimi mənalandırırdı. Təbii ki, H.Cavidin bu kimi əsərlər yazması dövrün ümumi qaydalarına uyğun deyildi və ola da bilməzdi. Ədəbi tənqidin 20-30-cu illərdə H.Cavid yaradıcılığına göstərdiyi marağın əsl səbəblərini aydınlaşdırmaq üçün həmin dövrdə fəaliyyət göstərən tanınmış tənqidçilərdən biri də Mustafa Quliyev idi (təbii ki, Mustafa Quliyevin filosof şairə münasibətini ayrılıqda öyrənmək daha faydalı olar). Mustafa Quliyev 1930-cu ildə çap etdirdiyi “Oktyabr və türk ədəbiyatı” adlı kitabında Cavidi “söz sənətinin böyük rəssamı” adlandıraraq yazır: “Cavid yaradıcılığının yüksəlişində ən ciddi əsər “İblis”dir. Bu əsər Hüseyn Caviddə Gete, Lermontov, Bayronun təsirilə yaranmışdır. Əsərin baş qəhrəmanı İblis – Mefistofelin varlığında

onların təsiri görünməkdədir. Hüseyn Cavid söz sənətinin böyük rəssamıdır"[166] (Quliyev,1926). O, "söz sənətinin böyük rəssamı" kimi gördüyü Cavid yaradıcılığının "müsbət keyfiyyətlərini və təqdirəlayiq cəhətlərini qeyd etməklə yanaşı, "Topal Teymur", "Şeyx Sənan", "İblis" əsərlərindən söz açarkən  də ədibin yaradıcılığı haqqında birtərəfli mülahizələr yürütmür; əksinə, ədibin "keçdiyi yaradıcılıq yolunun mürəkkəbliyini nəzərdə tutaraq onun qarşısında yeni tələblər qoyurdu"[167] (Quliyev, 1926). M.Quliyevin fikrincə, Cavidin "Topal Teymur"u estetik ideyasız bir əsərdir… Hüseyn Cavidin əsərində meşşan məfkurəsindən başqa nə bir fikir var, nə ideya, nə də müasir məsələlərin həlli" (Quliyev, 1926) məsələsi yoxdur. Cavidin əsərlərində yalnız görmək istədiklərini axtaran tənqidçilər kimi, Mustafa Quliyevdə də ədibin sənətinə ikili; bəzən rəğbət, bəzən də qərəzli münasibət görülür: "… Bu il bizim türk teatrı yeni bir ədəbi əsərlə, Hüseyn

[166] Quliyev M. Hazırkı türk ədəbiyyatı haqqında / "Kommunist" qəz., 1926, 7 dekabr
[167] Quliyev M. Hazırkı türk ədəbiyyatı haqqında / "Kommunist" qəz., 1926, 7 dekabr

Cavidin “Topal Teymur”u ilə zənginləşmişdir. Azərbaycan inqilabının altıncı ilində H.Cavid tarixi bir pyes yazmış və bu əsərdə fəthlər yaparkən insan qafalarından ehramlar tikən Teymurləng kimi bir tipi idealizə etmişdir.”

Ədib 1926-cı ildə, ziddiyyətli bir zamanda yazdığı “Topal Teymur”u tədqiqatçı A. Turanının fikrincə, “əsərin yazılma tarixinə baxılırsa, bu tarix türk birliyinin rus müdaxiləsi hesabına zavala gəldiyi bir dövr”lə üst-üstə düşür və “bu müdaxilə dövlət siyasəti səviyyəsində olunurdu. Qarşı tərəfin isə müqaviməti Topal Teymurun güc fəlsəfəsinə söykənir, Milli siyasət Topal Teymurun dili ilə söylənilirdi. Belə ki, Şərqdən Qərbə barbarlıq, mədəniyyətsizlik aparıldığını iddia edən ideoloji dalğanın qarşısına Bakıda Hüseyn Cavid “Topal Teymur”la çıxmışdı”[168] (Turan, 2007:41).

Maraqlıdır ki, maarif komissarı Mustafa Quliyev üzdə Cavidi tənqid edənlərin, dırnaqarası “düz yola” dəvət edənlərin sırasında olsa da, ədibin “Topal Teymur”da ifadə etdikləri ilə razılaşırdı. Düzdür, onun üzdə söylədikləri ilə

[168] Turan A. Hüseyn Cavid. Bakı: Vektor, 2007, s.41

bağlı qapılar arxasında söylədikləri arasında zəmin asiman qədər fərq vardı. Aparılan siyasətin arxa tərəfini də görən M.Quliyev türk alimi İsmayıl Hikmətə  hələ o zaman belə deyibmiş: “Ruslar bizə ən böyük zərbəni dil məsələsində endirəcəklər. Rus dilinin və rusların əsarəti altına düşəcəyik.”

O dövrdə Cavidi tənqid edənlərin bəzilərinin belə bu əsərə dəyər vermələri diqqətədəyərdir. “Topal Teymur” Cavidin ən fəal tənqidçilərindən olan Əli Nazimin də diqqət mərkəzində idi. O, mülahizələrindən birində yazırdı: “Şübhəsiz ki, məmləkətin son hadisələrindən az mütəəssir olan bu ədəbiyyat zümrəsi, təəssüflə deməliyəm ki, kəndisini bitərəf bir cəbhəyə doğru çəkir. İlhamını ya əski Turan istilalarından (“Topal Teymur” - Hüseyn Cavid), ya əski ərəbistan çöllərindən (“Peyğəmbər” - Hüseyn Cavid) alar, yaxud da “Qız qalalarından” (Cəfər Cabbarzadə) və ya “Göy gölün” füsunkar və simfonik mənzərələrindən ruhlanır”[169] (Nazim, 1979:299), “məmləkətdə nə yapıldığı, yıxılan və qurulan işləri, yaradılan yenilikləri guya görmək

[169] Nazim Ə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979,s.299

istəmirlər”[170] (Nazim,1935:301). Əli Nazim və bir çoxları kimi, Xalq şairi Səməd Vurğun da eyni ittihamla Cavidi suçlayırdı: “Nədən şeirimizin baş qəhrəmanı, gah İrandan gəlir, gah da Turandan?” Bəzi sənətkarların üzərindəki töhməti götürmək və ya zəiflətmək məqsədi ilə professor B.Əhmədov məsələyə başqa bir aspektdən yanaşır: “Bir çox tədqiqatçılar repressiya olunmuşlar haqqında araşdırmalar apararkən bu məqalələrə istinad etmək və onu sonrakı istintaq materialları ilə əlaqələndirmək tendensiyasına daha çox üstünlük verirlər. Məsələn, Cavidin repressiyasının izlərini sənətkar yoldaşlarında axtarır və bu zaman S. Vurğunun:

Nədən şeirimizin baş qəhrəmanı.
Gah İrandan gəlir, gah da Turandan
Bəs mənim ölkəmin varlığı hanı
Böyük bir şairin yazdığı dastan
Gah Turandan gəlir, gah da İrandan – sətirlərinə diqqət yönəldirlər. Lakin unudurlar ki, bu sətirlər repressiyadan

[170] Nazim Ə. Bugünkü Azərbaycan Şura ədəbiyyatı haqqında bəzi, /”Qızılşəfəq” qız.,28 aprel,1935,s.301

bir neçə il əvvəl yazılmış və sırf yaradıcılıq baxışlarını sənət və sənətkar, sənət və mövzu kateqoriyalarını özündə ehtiva edir. Hətta bu misraların özündə belə gənc Vurğunun Cavidə olan sonsuz saygısını görməmək olmur ("Böyük bir şairin..."). Bu cür yanaşmalar o dövrün mətbuat səhifələrində çoxdur, sadəcə olaraq H.Cavid repressiya olunduğundan bu sətirlər də siyasi mahiyyət kəsb edir"[171] (Əhmədov, 2015:326).

Doğrudur, bu sətirlər repressiyadan bir neçə il əvvəl, repressiyaya hazırlıqlar dövründə yazılıb. "Repressiya olunan yazıçıların bir qısminin taleyi Azərbaycan Yazıçılar İttifaqının 1-ci qurultayında, həll olunub. Cavidin repressiyasından üç il əvvəl Azərbaycan Yazıçılar İttifaqının 1-ci qurultayında (1934) C. Cabbarlı tərəfindən edilmiş çıxış"la[172] (Əhmədov, 2015:327) Cavidə hökm oxunub. Hər kəsin "böyük qardaşımız"dan, Stalindən, partiyadan, pambıqdan, kolxozdan, traktordan yazdığı bir zamanda Cavidin tamamilə bu kimi mövzulara

[171] Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı.Bakı:Elm və təhsil,2015, s. 326
[172] Yenə orda, s. 327

yanaşmaması  dövrün təbil çalanlarına qəribə və “yersiz inad” kimi görünüb. Cavidin tarixə müraciətini yanlış anlayan tənqidçilər, qələm qardaşları bəzən onu “əski mövzular”a müraciət etdiyi üçün: “Bazı yazıçılar hazırkı zamanın böyük sosializm quruculuğu dövrünün böyük quruluşumuzda davam edən hadisələrini yazmaqdansa, gedib köhnə tarixi şeylərə əl atırlar”, - deyə suçlamış, yaradıcılığındakı türklük, türkçülük elementləri qabardılmışdır. Cavidşünaslığın əsasını qoyan və ədibin ən ədalətli tənqidcilərindən olan Hənəfi Zeynallı Cavidin sənətini, yaradıcılıq meyillərini xarakterizə edərək yazırdı: “Cavid bir “Şeyx Sənan” yazar, bir “Uçurum” açar, bir “Afət” doğurar, bir “İblis” rəqs etdirər, bir “Peyğəmbər” yaratmağa qayrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertesi gün də bir Lenin diriltməyə can atacaqdır”[173] (Zeynallı, 1983:34). Əslində, Hənəfi Zeynallı Çavidi doğru kəşf etmişdi. Cavidin mövzularını seçdiyi məkan da, coğrafiya da bəlli idi, marağında olduğu mövzular da. Bu bir həqiqət idi ki, Cavid vətən deyəndə bir

[173] Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983,s.34

tək doğulduğu regionu deyil, ümumilikdə, Şərqi, Böyük Türküstanı - Turanı nəzərdə tuturdu. Bu səbəbdən də, Cavid Peyğəmbərdən yazarkən “panislamist”, Turandan yazarkən “pantürkist” olmuşdur. Bu məsələdə onlara kömək edən başlıca məsələ isə Peyğəmbərin dini rəhbər, Əmir Teymurun isə fateh olması idi. Peyğəmbər və Əmir Teymurun sənətkar tərəfindən ideallaşdırılması fikrini uzun illər bir çox tədqiqatçılar qondarma dəlil-sübutlarla millətin beyninə yeritməyə çalışmışlar. Halbuki, Cavidin dininin müsəlman, milliyyətinin türk olmasını nəzərə alsaq, nə onun bu şəxsiyyətlərdən yazması, nə də ideallaşdırması “suç” deyildi. Əksinə, bir sənətkarın millətini, kimliyini unutması, onun taleyini düşünməməsi, tarixinə, keçmişinə biganə qalması “suç” və fəlakət sayılmalıdır.

Görünür, tənqidçilər Cavidin kimliyini unutduğu kimi, hər iki tarixi şəxsiyyətin; islam Peyğəmbərinin və Turan hökmdarı Əmir Teymurun tarixdəki rolunu da unutmuşlar. Bu səbəbdən də, 20-30-cu illərdə tənqidçilər sənətkarın yazıdığı əsərlərə obyektiv münasibət göstərməkdənsə, onu “gözdən salmağa”, nişan verilməsinə

xidmət etmişdi. Məsələn, “Qızıl qələm” imzalı tənqidçinin fikrincə: “Əsərin (“Topal Teymur”) adı özünə çox uyğundur. Əsər sənətcə topaldır.”

Düzdür, tənqid “Topal Teymur” əsərində “bir çox müsbət xüsusiyyətlər və keyfiyyətlər: “Əsgərlərin söhbətlərindəki etiraz notları, Şair Kirmaninin narazı mövqeyi” və s. görmüşdü. “Bəzi tənqidçilər isə bu məsələləri əsərin qabaqcıl mövqeyi, qabaqcıl dünyagörüşü ehtiva etmək kimi mənimsəmişlər. Lakin bütün bunlara baxmayaraq, əksər halarda və son dövrlərə qədər Topal Teymur obrazı zərərli bir obraz kimi tənqid olunmuşdur”[174] (Əliyev, 2009:26). “Topal Teymur” kimi bir əsərə “sənətcə topaldır”, - demək sənət anlayışından anlamamaq deməkdir.

Aydındır ki, bu qədər tənqidə və bu qədər tənqidçiyə stimul verən bir şey, bir səbəb olmalıydı. Bu səbəb isə, XVI qurultayda irəli sürülən, xüsusi bir qəddarlıqla bütün sahələrdə həyata keçirilən “Sosializmin bütün cəbhə boyu geniş hücumu!” - şüarı idi. Bu şüarla hərəkət etmək, bu

---

[174] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

şüara səs vermək  lazım idi. Cavidsə, nə bu cəbhədə vuruşanlardan, nə  bu şüara səs verməblərdən deyldi. ÜK (b) P-nin XVI qurultayının qərarlarndan sonra  milli məsələyə meylə qarşı mübarizə daha da güclənmişdı. "Bu sahədə başlıca təhlükə fövqəl-dövlətçi şovinizm olaraq qalırdı. Sosializmin bütün cəbhə boyu hücumunun başlanması ilə əlaqədar partiyanın bəzi üzvləri belə hesab edirdilər ki, vahid beynəlmiləl dil tətbiq etməyin vaxtı çatıb, siyasi, təsərrüfat və administrativ rəhbərliyi mərkəzləşdirmək tələb olunurdu, az qala respublikaları ləğv etmək təklif edilirdi"[175] (Şəmsizadə,2008:41). Digər bir keçərli səbəb isə, Şərqlə, xüsusilə, Türkiyə ilə bağlılıq məsələsi idi. Şərqlə, ən önəmlisi də Türkiyə ilə bağlılıq deyildiyi an Cavid ilk yada düşənlərdən idi (Maraqlıdır, o zaman sovet dövlətinin Türkiyə ilə mehriban münasibətləri olmasa da, rəsmi münasibətləri vardı, 1923-cü ildə  Moskvada Tofiq Fikrətin kitabının çap olunması da bunu söyləməyə imkan verir).

Beləliklə, partiyanın məlum qurultayından sonra, qurultayda qaldırılan məsələlərə münasibət bildirmək üçün

[175] Şəmsizadə N. İtmiş nəslin ardınca // Azərbaycan. Bakı, 2008, №1, s.41

daha da fəallaşıb yarışan tənqidçilər üçün geniş meydan lazım idi. Bu meydan “Ədəbiyyat cəbhəsində” qəzetinin “dövrün ruhuna uyğun olaraq iki həftədə bir çıxan “Hücum” jurnalına çevrilməsi ilə onlara sunuldu və tənqidçilər ədəbiyyat cəbhəsində dərhal opportunizmə qarşı hücuma keçdilər. “Hücum” jurnalının 1931-ci il, 9-10 sayında Azərbaycan proletar yazıçıları cəmiyyətinin gənclərindən biri yazdığı məqalədə kommunist tənqidinin vəzifələrinin “sinfi düşmənin proletar inqilabı əleyhinə hansı yollarla çıxdığını, nə kimi vasitələrlə ona qarşı dur-duğunu öyrənərək, bütün yabançı sinfi təmayüllərin kökləri-rini arayaraq tapmaqla, onları şiddətli bolşevik atəşinə tutaraq əzməkdən ibarətolduğunu”  göstərirdi. “Kommunist tənqidinin vəzifələrinə uymayan” Cavidin şiddətli bolşevik atəşinə tutulması bu səbəbdən idi. Bolşeviklərə etina etməyən Cavid bu ərəfədə tənqidi - nasir, dramaturq, tənqidçi Mehdi Hüseyni də çox məşğul etmişdi.

Mehdi Hüseyn dövrünün nüfuzlu, sözükeçən tənqidçilərindən idi. 40 illik yaradıcılığı dövründə ədəbi proseslə, ədəbiyyatın bu və ya digər məsələləri, şeir, nəsr

dramaturgiya ilə bağlı çoxlu məqalə yazıb dərc etdirmiş Mehdi Hüseyn 1934-cü ildə “Hüseyn Cavid haqqında bir-iki söz” adlı məqaləsi ilə Cavid yaradıcılığına münasibət bildirmişdir. 30-cu illərdən ən çox tənqidi məşğul edən yazıçılarından olan Hüseyn Cavid haqqında yazdığı məqaləsində “böyük sənətkarın yaradıcılığına dövrün yanlış baxışları konfliktindən yanaşmış” tənqidçi daha çox yanlışlar tapmağa qayət etmişdir. “Səyavuş” əsərinə nəzərən yazılmış bu məqalədə Mehdi Hüseynin Cavidə ümumi ədəbiyyat qanunları, gerçək ədəbiyyat prinsipindən deyil, dar çərçivədən, “yalnız məhdud siyasi baxışlar, bədii sözə daxil olmayan irad və tələblər çərçivəsindən” yanaşdığı görülməkdədir.

Qeyd edək ki, sovet dövrü tənqidçiləri romantizmi iki yerə bölərək: mütərəqqi və mürtəce romantizm adlandırmışdılar. “Yaradıcılıqlarındakı ara-sıra bədbin ruhlu şeirləri əldə bayraq edərək xalqını, vətənini, millətini daha çox düşünən, Çar Rusiyasının əsarəti altında yaşadıqları üçün tez-tez keçmiş günləri yada salıb heyifsilənən vətənpərvər şairləri-romantikləri mürtəce

romantizmin nümayəndələri adlandırmış, onları xalqın gözündə şər qüvvələr kimi təqdim etmişlər. Bu sıraya, yəni sovet ideologiyasının təbirincə desək, mürtəce romantiklər sırasına Əli bəy Hüseynzadə, Əlabbas Müznib, Səməd Mənsur, Ağadadaş Müniri və başqaları daxildirlər. Halbuki, bu şəxslər də romantik qəhrəman yaradarkən oxucuya millətini, dinini və keçmişini dəfələrlə xatırladır, bir sözlə, kim olduğumuzu başa salmağa çalışırdılar. Xalqın tapdalanmış, çeynənmiş, ayaqlar altına atılmış mənliyini özünə qaytarmağa çalışan ziyalılar Qafqazın, o cümlədən Azərbaycanın əldən çıxmasına heç cür razılaşmayan Çar Rusiyasının bu siyasətini dəstəkləyən sovet siyasəti tərəfindən ədəbiyyat siyahısından çıxarılmağa çalışılmışdır. Lakin bütün bunlara baxmayaraq, öz sənətkarlıqları ilə günəş kimi parlayan elə sənətkarlarımız var idi ki, sovet təbliğatı heç vaxt onların üstünə pərdə çəkə bilmədi. Onlar bədii ideallaşdırma əsasında yaratdıqları nəhəng obrazlarla, obrazların dili ilə söylədikləri fəlsəfə ilə daha da möhkəmləndilər, daha da

yüksək zirvələri fəth etdilər"[176] (Sadiq, 2011:37-40).

Bu baxımdan "Mürtəce sənətkarlar" ifadəsilə başlayan bu məqalənin niyə yazıldığı və hansı niyyətə xidmət etməsinin izahına lüzum yoxdur. Çünki məqalə bir qayda olaraq, 20-30-cu illərin "mürtəce baxışlarının stilində" yazılmışdır. Tənqidçiyə görə, guya həmin "Mürtəce şairlər", "fəhlə sinfini coşğun musiqi, gözəllik şeriyyət və sənətkarlıq düşməni hesab edirlər", guya fəhlə sinifinin "özünü və özünə yaxın geniş əməkçi kütlələrini böyük gələcək uğrunda mübarizəyə çağıran şeiri vardır", guya "öz şüuru ilə müasir burjuaziyadan ayrılaraq sosialist inqilabı cəbhəsinə keçən görkəmli sənətkarlar bu həqiqəti gözəlcəsinə anlamışlar"[177] (Əliyev, 2009: 29). Əslində isə, məqalədə "mürtəce sənətkarlardan" çox "mürtəce tənqidçi" fikri baş alıb getməkdədir ("Romantizmin bütün tərəfləri ilə birgə görünən mövzu, janr və obazlarının şərti sərhədləri məhz Məmməd Cəfər müəllim tərəfindən cızılıb. Ayrı-ayrı romantik sənətkarların - H.Cavidin, M.Hadinin

---

[176] Sadıqov Ş. Huseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyasi. Bakı:Hədəf, 2011, s.37-40
[177] Sadıqov Ş. Huseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyasi. Bakı:Hədəf, 2011,s.29

və başqalarının yaradıcılığında ehtiva olunan romantizmə aid ümumi səciyyəvi ideya-bədii xüsusiyyətlərin nədən ibarət olduğunu ədəbi-elmi fikrə ilk dəfə M.Cəfər müəllim elan etdi”[178] (Əliyev, 2013:116).

Məqalədə tənqidçi “mürtəce sənətkarlardan” saydığı Cavidi “öz şüuru ilə müasir burjuaziyadan ayıraraq sosialist inqilabı cəbhəsinə keçə bilməyən, bu həqiqəti anlamayan”ların sırasına daxil etməsi fikri mürtəce tənqidçinin Cavid sənətinə, Cavid şəxsiyyətinə “onun böyüklüyü dərəcəsindən deyil, lüzumsuz və ideoloji baxımdan zərərli” aspektən yanaşmasıdır. Yazılan tənqidi yazılardan da göründüyü kimi, “dövrün ictimai-siyasi təxribatı Cavidə qarşı ən sərt ittihamlardan yanaşmış, ona qondarma meylllər və ideyalar yapışdırmaq üçün hər cür yalançı və bayağı yazmalardan istifadə etmiş”, “əsərlərində böyük bəşəri problemləri qabardan Cavidə qarşı xırda və dəyərsiz miqyaslar vermək təzahürləri siyasi təbliğatların gündəlik qayəsinə çevrilmişdir.” Mehdi Hüseynin ədibi

[178] Əliyev K.Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013. 116

tənqid etməsi, bəzən də, “onun siyasi təxribat və hücumlardan yayındırmağa: Caviddə “gəncləşmə”, “proqressə doğru addım atma hallarını önə çıxarmağa” xidmət etmişdi.

Doğrudur, bu, “H. Cavid yaradıcılığını xarakterizə edən bir əlamət” olmasa da, sənətkarı tənqid etmək meyllərinin gücləndiyi bir vaxtda onun yaradıcılıq ideyalarına rəğbətli yanaşma səciyyəsi daşıyırdı: “Əvvəllər əski bədii yaradıcılıq yolunun izi ilə gedən və öz talantında dərin bir durğunluq hiss edən Hüseyn Cavid kimi yazıçılar az-çox inqilabi ideyalarla tənəffüs etmələri sayəsində birdən-birə gəncləşməyə, dünən özünün bədii əsər yaratmaq üçün enerjisi qalmadığından bəhs edərkən bu gün birdən-birə cürətlənərək (canlı əfsanələri tərənnüm vasitəsilə olsa da) irəliyə, proqressə doğru addım atmağa başlamışlar”, hətta Cavid guya bu əsəri ilə “keçmiş əsərlərində bədii şəkildə sistemləşdirdiyi ideyalarının çoxusuna ağır və sarsıdıcı zərbə endirmişdir”[179] (Hüseyn,1879:139).

[179] Hüseyn M. Əsərləri. On cilddə. IX c., Bakı: Yazıçı, 1979, s.139

Görünən budur ki, Cavid yaradıcılığına "bolşevik münasibətinin nəzərini yumşaltmaq", şairə qarşı güclənən sərt ittihamların qarşısına çəpər çəkmək üçün "yeni yanaşma tərzi" tələb edən müəllif, bir az da irəli gedərək Cavidə şura ədəbiyyatına çatmaq üçün "Bir qədər də Marks, Engels, Leninin şah əsərini oxumaq və həyata açıq gözlə baxmaq"[180] (Hüseyn,1922) tövsiyəsində bulunur. "Səyavuş" əsərini ədibin yaradıcılığının dönüş nöqtəsi hesab edən tənqidçinin fikrincə, "Səyavuş" əsəri istismarçıların "müasir kapitalist cəmiyyətində kök salmış qalıqlarına ölüm zərbəsi" endirməkdə xüsusi "kömək" edəcəkdir. Yəni tənqidçiyə görə "dünənki Hüseyn Cavid bu yolla getməmiş", "insan tarixinin səhifələrini ləkələmiş Topal Teymurlara qarşı çox mülayim və mehriban bir əlaqə bəsləyərək onu ədalət simvoluna çevirmiş"[181] (Hüseyn, 1979:139), "Uçurum"da Sultan Əbdülhəmid Türkiyəsinə qarşı amansız mübarizə edən inqilabçıları göstərməkdən imtina etmişdir.

[180] Hüseyn M. Sənət və ədəbiyyat /Zəhmət qaz., 1922.
[181] Hüseyn M. Əsərləri. On cilddə. IX c., Bakı: Yazıçı, 1979, s.139

Tənqidçinin fikirlərinin acımasız dövrün tələblərinin, istəklərinin ifadəsi olduğu aşikardır; “Bəşəri humanizmində faciənin və fəlakətlərin dərin məzmunu, Böyük əxlaq, Böyük millət və Böyük Turan idealizəsi yaşayan” (bax bu doğrudur!) Cavid yaradıcılığı üçün “bolşevizm, proletar dikturası idealizdən kənar və ona yabançıdır. Çünki bolşevik qafası dar məntiq içərisində qapanıb qalmışdır. Mehdi Hüseynin də Cavidə (və ya hər hansı bir klassizmə) bu dar və ölü məntiq sxematizmindən yanaşmasından dolayı Cavidin bəşəri böyüklüyünü, Böyük ədəbiyyatın böyük dahisi olduğunu ədəbi-elmi ictimaiyyətə açıqlaya bilməmişdir. Çünki Cavidi yalançı tələblər və düşüncələrlə qavramaq mümkün deyildir”[182] (Əliyev, 2009:35). Cavidin yaradıcılığına dar bir çərçivədən yanaşan tənqidçi onun fərqinə varmırdı ki, “Hüseyn Cavid qələmi Böyük ədəbiyyat yaratmaqla məşğuldur.” Böyük ədəbiyyat yaratmağınsa öz tələbləri, qanunları var. Sözsüz ki, Böyük ədəbiyyat “inqilabi üsyanı əks etdirmək, yaxud inqilab, üsyan hazırlamaq funksiyasını yerinə yetirmir” və

[182] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5, s.25-35

yetirə də bilməz, “bolşevik təcavüzkarlığının  gerçək sözü, ədəbiyyatı üstələdiyi tənqid obyektiv ola bilməzdi və deyildi də, çünki “belə bir yanaşma tərzi Böyük ədəbiyyat, Böyük humanizm, ədalət tələblərindən kənar olan qüvvələrin ittihamçılar mövqeyinin iradələrini diktə edirdi”, o isə ədəbi tənqid bu deyildi. Ədəbi tənqid bədii yaradıcılığa ədəbiyyatşünaslıq elminin tələblərindən yanaşmalı, fikir yürütməlidir.

Mehdi Hüseyn nəinki Cavidi tənqid etməklə qalmırdı, hətta tənqidin Cavidə münasibətinə “Tənqidimiz müasir sosializm quruluşu şəraitində köhnə Cavid yolunun onu bir sənətkar kimi uçuruma doğru apardığını göstərərkən, şübhəsiz ki, haqlı idi. Həmin tənqid bugünkü Cavidin fikri təkamülündə az rol oynamadı”- şəklində haqq qazandırırdı. Mehdi Hüseynin bəhs etdiyi sifarişli, həqiqətə heç bir yaxınlığı olmayan tənqidin kimə və nəyə xidmət etdiyi bəlli idi.

20-30-cu illər sovet tənqidi bu tələblərdən uzaqdı  və sovet  tənqidi ədəbi irsi belə burjuaziya irsi kimi rədd edirdi:  “Biz dünənki Cavidin bədii yaradıcılığını diqqətlə

nəzərdən keçirərkən Azərbaycan burjuaziyasının bütün məfkurə yoxsulluğunu, feodalizm quruluşu əleyhinə mübarizədə aciz qalıb miskin bir barışdırıcılıq yolu getdiyini anlayır və dərindən düşünərkən öz-özümüzə deyirik: "Ax, bu burjuaziya nə qədər alçaq bir sinifdir!"

Beləcə, dövrün siyasi qafasında, ədəbi simasızlığında "Burjuaziya" demək olan, "Azərbaycanın yavrusu" ola bilməyən Hüseyn Cavid Mehdi Hüseynə görə, "Proletar inqilabı romantikasından uzaq", "şura varlığını, bütün dünyanı məşğul edən sösializm ölkəsini, onun mahiyyətini düşünüb, heç olmazsa tarixi əsərlərində bu varlıq nöqteyi-nəzərindən həll etmək istədiyi problemlərə yanaşmağı bacarmayan", bəlkə də bunu "istəməyən yan bir sənətkar", "milli məhdudluğun, turançılıq məfkurəçiliyinin bir müməssili (təmsilçisi) idi"[183] (Hüseyn,1936). Əslində, burada Mehdi Hüseynin söylədikləri həqiqət olduğundan fikirlərinə irad tutmağa heç bir əsas yoxdur, çünki Cavid həqiqətən də, bolşevizmdən uzaqdı, "şura varlığını, bütün dünyanı məşğul edən sösializm ölkəsini, onun mahiyyətini

[183] H.Mehdi yoldaşın çıxışından/Ədəbiyyat qəz., 14aprel,1936

düşünüb, heç olmazsa tarixi əsərlərində bu varlıq nöqteyi-nəzərindən həll etmək istədiyi problemlərə yanaşmağı bacarmayan" deyil, bunu "istəməyən bir sənətkar", "milli məhdudluğun, turançılıq məfkurəçiliyin bir mümməssili (təmsilçisi) idi. Bu gün ədibin 30-cu illər yaradıcılığında "yalançı ideyalar"ın olmasından bəhs edməsi tənqidçinin sənətkara dövranla ehtiyatlı olmaq xəbərdarlığı kimi səslənir: "Proletar inqilabı dövründə yürüdülən yalançı ideyalar, böyük sənətkarı belə bir sənətkar olaraq ölümə doğru apara bilər və aparır da"[184] (Hüseyn,1922).

Göründüyü kimi, 30-cu illərdə böyük sənətkar H.Cavidə yanaşma qeyri- obyektiv, qeyri-səmimiydi, bu tənqiddə Cavid  sanki müttəhim, tənqidçilərsə ittihamçı – prokuror ədasındaydılar. Cavidin ittiham olunmasına ən böyük səbəbsə, milli sənətkar olması, bolşevizmi qəbul etməməsi, kimsəyə mədhiyyə yazmaması, Stalini, partiyanı öyməməsi idi. Aydındır ki, "dövrün ittiham və təzyiqləri hər hansı bir böyüklüyünün qarşısında dözümsüz idi. M.Hüseynin də  çıxışı o dövrün siyasi totalitarizminin

[184] Hüseyn M. Sənət və ədəbiyyat /Zəhmət qaz., 1922

dözümsüz və əsəbi "qanunlarına" dayanırdı. Mütəfəkkir sənətkar "hər hansı bir qrup partiya, mövqe üçün yazmırdı: hər hansı bir region, etnik-məhəlli, milli təəssübkeşlik ideyasından çıxış etmirdi; Ədalət, Azadlıq, İttihadı idealizə edirdi. Cavidə irad kimi söylənən aşağıdakı fikirlərin də bilavasitə Cavidin bir sənətkar kimi xarakterik xüsusiyyətlərini dilə gətirmiş olurdu: "Böyük sənətkarın oxucusu yalnız özü olarsa, onun əsərləri bir qrup əksinqilabçı burjuaziyanın malı olarsa, bu artıq sənətkarın mənəvi yoxsulluğuna dəlalət edir... H. Cavid məsələnin bu cəhətini düşünməyə bilməzdi. Çünki o, kiçik sənətkar deyildi. O, öz sinfi məramlarına xidmət edən alovlu sənətinin, coşğun musiqiyə malik romantik şeirinin həqiqi və yüksək pafosdan məhrum olmağa başladığını və hətta üslub gözəlliynin belə itirdiyini duymaya bilməz"[185] (Əliyev, 2009:27). Tənqidçinin fikrinə görə, "guya indiki halda Cavidin oxucusu yoxmuş" və onun əsərləri bir qrup burjuaziyanın malıymış. Vaxtı ilə S. Vurğun da "Səadət günəşi" şeirində eyni ittihamda bulunmuşdu şairə qarşı:

---

[185] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5, s, 25-35

“adına millətçilər dedi, böyük sənətkar”, “Gəlin düz araşdıraq, sənin sənətinmi var? Şahların , sultanların sinisini yaladın...” və s.

Maraqlıdır ki, mütəfəkkir sənətkarı nə qədər ittiham etsələr də, bu tənqidlər içində itib-batan Cavidin “böyük sənətkar”lığını görməyə bilmirdilər, yəni, tənqidçinin yanaşmasında şairi tənqidə cürətlə yanaşı, “təəssübkeşliyi” də vardır. Mehdi Hüseynnin Cavidlə bağlı ard-arda sıralanan sonrakı fikirlərində şairin “kiçik sənətkar” olmadığını vurğulayaraq onun “alovlu sənətinin coşğun musiqiyə malik romantik şeirinin”, “üslub gözəlliyinin etirafçısı”[186] (Hüseyn,1979:171) kimi dəyərləndirir. Əslində, Hüseyn Cavid böyüklüyü bu dar, məhdud düşüncələrin müstəvisinə sığmırdı. Cavid məhz “kiçik sənətkar” deyil, “böyük sənətkar” olduğuna görə “cəmiyyətə sığışmırdı”, çünki kiçik cəmiyyət də onu anlaya bilməzdi. Hüseyn Cavidi anlamayan, qəbul etməyənlər Mehdi Hüseynin bədii irsinin özəlliklərini

[186] Hüseyn M. Əsərləri. On cilddə. IX c., Bakı: Yazıçı, 1979, s.171

qəbul edə bilməzdilər”[187] (Əliyev, 2009:28). Sözsüz ki, bir gün tənqid edənlər də tənqid hədəfinə çevrilir və bəzən ittiham etdikləri kimi ittiham da olunurlar. Bu "qərəzli münasibət və yanaşmalar" sonralar M.Hüseynin özünə qarşı da ittihamlara çevrilib, 30 il boyunca bu cür yanaşmalar, tənqidlər, yersiz və qərəzli münasibətlər sonda onun da həyatını sona yetirib, amma Cavid kimi bir milli mücadilə qəhrəmanı kimi sürgündə deyil, eləcə öz iş otağında, infarktdan.

20-30-cu illər Cavidşünaslığında Hüseyn Cavid sənətinə birmənalı münasibət bəsləməyən tənqidçilərdən biri də mətbuatda ”Mimre”, “M.R.”, “R.Mikayıl”, “M.Rzaquluzadə” imzaları ilə tanınan yazıçı və tərcüməçi Mikayıl Manaf oğlu Rzaquluzadə olub. Onun da Cavid yaradıcılığı ilə əlaqəli yazıları tez-tez dövri mətbuat səhifələrində öz əksini tapıb. Belə ki, filosof şairin “Quzum, yavrum adın nədir - Gülbahar” şeirinin uşaq ədəbiyyatı və qiraət kitablarına düşməsi Mikayıl Rzaquluzadəni o qədər rahatsız edib ki, o, “Maarif işçisi”,

---

[187] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

№10-da yazdığı "Cocuq ədəbiyyatı və qiraət kitablarında üsul" adlı məqaləsində Cavidin şeirinin dərs kitabından çıxarılması haqqında məsələ qaldırılmasını istəyib: "… Fəqət doğrudan da, cocuqlar üçün yazılmış olan, məsələn: - Bu dünyada sənin ən çox sevdiyin kimdir, quzum, bilirmisən? – və i.a. kimi gəlincə, bu kimi yazılar cocuqlar üçün yazılan kitablardan çıxarılmalı, əvəzinə bu günün zehniyyətinə görə əsərlər qoymalıdır"[188] (Rzaquluzadə,1926). Nə idi M. Rzaquluzadənin altını cızdığı " günün zehniyyəti?"

Təbii ki, bolşeviklerin qurduğu Allahsızlar cəmiyyətində Gülbahar "günün zihniyyet"ini əks etdirmirdi. Onlara Allahını, Peyğəmbərini, "annə-baba"sını sevən çocuqlar gərək deyildi. Xüsusən də, Allahın, Peyğəmbərin unudulduğu, Allahın da, Peyğəmbərin də yerini Stalinin tutduğu  imansızlar cəmiyyətinə dininə, millətinə, dilinə, "annə-baba"sına sadiq Gülbahar gərək deyildi. Mütəfkkir Cavidin Gülbaharı sonralar sovetlər

[188] Rzaquluzadə M. "Cocuq ədəbiyyatı və qiraət kitablarında üsul"/ "Maarif işçisi", 1926 №10

dövründə yaranmış “baba”sı Lenin, vətəni keçmiş SSRİ, dinsiz-imansız-ateist “pioner” obrazının əksi idi. Şeirin güclü tənqidə məruz qalma səbəbi bu idi. Qəribədir ki, şair Ömər Faiq Nemanzadənin də (Cavid, dostu 1914-cü ildə bir müddət Aqarada Ömər Faiqin qonağı olmuşdu) tənqidinə tuş gəlmişdi. O, Azərbaycanda yaranmış ədəbiyyat dərslikləri haqqında yazdığı “Qiraət kitablarımızda mövhumat üsulu”[189](1926) adlı maqaləsində Cavid əfəndinin “Qız məktəbi”ndə şeirini Abdulla Şaiqin “Qiraət kitabında nəşr olunmasını tənqid etmişdi. Şeirə mənfi münasibət uzun zaman, hətta Cavid əfəndinin “bəraət”indən sonra da davam etmiş, şeirin üzərində dəyişikliklər edilmiş, ehtiyac olmadığı halda guya “tərcümə” olunmuşdu.

Şairin “günün zehniyyətini” əks etdirmədiyi “Qız məktəbində” şeirini tənqid edən “Mimre” istər sevər, istər döyərəm, fikri ilə növbəti dəfə; “İnqlab və mədəniyyət” toplusunun 6-7-ci sayında “İndiki ədəbiyyatda dil məsələsi” adlı məqaləsində; “... Cavid heç şübhə yoxdur

[189] Nemanzadə Ömər Faiq. Qiraət kitablarımızda mövhumat üsulu. 1926

ki, ən populyar sənətkar, ədəbiyyatımızda müəyyən yüksək mövqeyi olan yazıçılarımızdan biridir. Gənc yazıçılarımız ondan çox şey öyrənə bilərlər və öyrənməlidirlər..."[190] – şəklində münasibət bildirir.

Araşdırmalar göstərir ki, o dövrdə Cavid haqqında müsbət və ya mənfi söz deməyən elə bir tənqidçi, yazıçı, şair qalmayıb. Hətta hamımızın uşaqlıqda sevə-sevə oxuduğumuz "Budağın xatirələri" kitabının müəllifi Əli Vəliyev belə, 1930-cu ildə yazdığı "Nəsrə fikir verilməyir" adlı tənqidi məqaləsində Hüseyn Cavid yaradaıcılığına daş atmış, şairin əsasən, şeir yaradıcılığını tənqid etmiş, onun ədəbi təsir qüvvəsindən danışmış" bu zaman digərləri kimi, "sonda dramaturqun sənətkarlığını da etiraf etmiş" (Məmmədli, 1982:264), danışmaq xatirinə danışmışdı. Onu da unutmamaq lazımdır ki, Cavidə ən möhtəşəm abidəni qoyanlardan biri olan Məsud Əlioğlu Əli Vəliyevin oğlu idi.

Mətbuatda 50-dən artıq məqalənin müəllif olan

[190] Rz.Mikayıl.(Mimre). İndiki ədəbiyyatda dil məsələsi/ "İnqlab və mədəniyyət" jurn., №6-7,1934

Cabbar Əfəndizadə də dövrün tələbindən geri qalmamış, məqalələrində Cavid yaradıcılığından bəhs etmişdir. O, 1930-cu ildə "Yeni yol" qəzetində "Azərbaycanın on illik ədəbiyyatına bir nəzər",[191] "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Aprel və ədəbiyyat"[192] məqalələrində mütəfəkkir sənətkardan Azərbaycanda "şəkil və lisanca ən irəli gedən bir şair" kimi bəhs etmiş, Cavid yaradıcılğının aparıcı xəttinin isə estetizm olduğunu vurğulamışdır.

1923-cü ildən Hüseyn Cavidin də üzvü olduğu Nəriman Nərimanov adına klubun nəzdində gənc ədəbi qüvvələri birləşdirən "Ədəbiyyat" dərnəyinin əsas təşkilatçılarından olmuş yazıçı, publisist Böyükağa Talıblı "Cavidin Peyğəmbər"i və yaxud "Peyğəmbərin qadını"[193] (Talıblı.1924) adlı məqaləsində Cavidin bu əsəri haqqında dəyərli fikirlər söyləmiş, ideya-sənətkarlıq xüsusiyyətlərini yüksək qiymətləndirmişdir. Cavid sənətinə yüksək dəyər

---

[191] Əfəndizadə Cabbar. Cabbar Əfəndizadə/"Yeni yol" qəz.,30 aprel, 1930
[192] Əfəndizadə Cabbar. Aprel və ədəbiyyat/ İnqilab və mədəniyyət" jurn., 1930
[193] Talıblı Böyükağa. "Cavidin Peyğəmbər"i və yaxud "Peyğəmbərin qadını"/ Şərq qadını jurnalı, 1924-cü il, №8

verən Böyükağa Talıblı 1927-ci ildə Mustafa Quliyevin "Hazırki türk ədəbiyyatı haqqında"[194] məqaləsində Cavidin "Topal Teymur" əsərinin haqsız tənqid olunmasına isə aşağıdakı şəkildə etirazını bildirmişdir: "Bu məqaləni oxuyan şəxs sual edə bilər ki, əgər pyes pis idi, nə üçün "təb (nəşr) etdirdik." Dövrünün ən oxunaqlı mətbuat orqanı olan "İqbal"da isə, "H.Caviddən Qafqazın ən füsünkar mühərrir və şairlərindən biri" kimi bəhs edilirdi. Göründüyü kimi, Cavid üçün söylənmiş hər tərifinin yanında bir də tənqidi fikir, bir mülahizə yürüdülüb. Bəzi tədqiqatçıların fikrincə, guya "tənqidçi şairin xalq həyatı və gerçəkliyini öz yaradıcılığının mövzusuna çevrilməsinə işarə etmiş olurdu"[195] (Qarayev, 1980:21), "lakin məsələyə geniş və hərtərəfli yanaşma göstərir ki, hər hansı yeni dövrün, yeni epoxanın təşəkkülə başlamış ədəbi hərəkatı üçün tarixdən, tarixi şəxsiyyətlərdən bəhs edən, həm də sənətkarlıq cəhətdən qüvvətli olan əsərlər maneə ola bilməz. Yəni "yeni" adlandırılan ədəbi prosses üçün klassik

---

[194] Mustafa Quliyevin "Hazırki türk ədəbiyyatı haqqında"/" Maarif və mədəniyyət" jurn., avqust,1927,№8
[195] Qarayev Y.Realizm:sənət və həqiqət. Bakı: Elm, 1980, s.21

etalona uyğun gələn bədii nümunə heç vaxt əngəl deyildir"[196] (Əliyev, 2009:29).

Əslində, Cavidin keçmişə, tarixi mövzulara və tarixi şəxsiyyətlərə olan marağı danılmazdır. Bu baxımdan onun hələ 1913-cü ildə nəşr edilən kitabını məhz "Keçmiş günlər" adlandırması diqqətçəkicidir. Cavid üçün keçmiş tarixi yaddaşdır, "uzaq gələcəklə qarşılaşan, həm də uzaq gələcəyin əsası olan yaddaşdır." Əsl sənətkar üçün isə yaşanılan günlərin, hadisələrin nə dərəcədə əhəmiyyətli olduğunu nəzərə alsaq, o zaman Cavidin sənət məsuliyyəti barədə həqiqəti müəyyən etmiş olarıq"[197] (Əliyev, 2009:30).

Ədəbi tənqidin hədəflərindən biri də mütəfəkkir Cavidin yaradıcılığında bütövlüyü ilə boy göstərən coğrafi genişlik idi. Görkəmli alim Bəkir Çobanzadənin "Azəri ədəbiyyatının yeni dövrü" məqaləsində H.Cavidin "Uzaq mühitlər və mövzular ətrafında dolaşması"ndan əndişə etməsi də bu səbəbdən idi. Çobanzadənin bu fikrinə səs

---

[196] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

[197] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

verənlər də çoxdu. Məsələn, Seyfulla Şamilov da məhz Hüseyn Cavid yaradıcılığının bu cəhətini nəzərdə tutaraq yazırdı: “Cavid Azərbaycan şairidir. Lakin Azərbaycan həyatından çox az yazır”[198] (Şamilov,1936). Ümumiyyətlə, bir çox sənətkarda olduğu kimi, H.Cavid yaradıcılığında da, “zaman məhdudiyyəti olmadığı kimi, məkan məhdudiyəti də yoxdur. Bu baxımdan, Cavidi ”uzaq mühitlərdən” yazdığı üçün ittiham etmək nə qədər doğru sayıla bilər ki...? Bir tərəfdən də, Cavidin “Bən fəqət, hüsnü-xuda şairiyəm, yerə enməm də, səma şairiyəm” – misraları istinad nöqtəsi kimi tutunmuş tənqidçilərə şairi geninə-boluna tənqid etmələrinə “şərait yaratmış” olubsa, digər tərəfdən də, sevindirici haldır ki, 20-30-cu illərdə ədibin yazdığı bütün əsərlər ədəbi tənqidin diqqət mərkəzində olub, bu əsərləri “müsbət və real mövqedən mənalandıran, təhlil edən məqalələr” yazılıb. Yaradıcılığı dövründə Cavid ancaq tənqid olunmayıb, əksinə bu qədər tənqid bolluğunda yazıçı şöhrətini də yaşaya bilib. Şair, ən

[198] Şamilov S. ”...bir neçə kəlmədə Hüseyn Cavidin yenidən qurulması haqqınd a” / “Ədəbiyyat” qəz., 27 mart, 1936

gözəl tərifləri də, ən acımasız tənqidləri də sağlığında eşidib. Onu təqdir edənlər, bəyənənlər və sevənlər daha çox idi. O illərin ədəbi tənqidinə aid olan aşağıdakı bu sözlərə nəzər yetirmək şairin yükşəlisini seyr etməyə kifayyətdir: “Düz on il bundan qabaq “Ana” meydana çıxır. O zaman Hüseyn Cavid ancaq yüksələn ulduz idi. İndi isə axtarışlarının dərinliyi, şeirinin gözəlliyi və hisslərinin incəliyi etibarilə türk ədəbiyyatında özünə bərabər qüvvə bilməyən parlaq günəşdir”[199] (Məmmədli, 1982:141).

Göründüyü kimi, “Ana” mənzum dramı ilə “yüksələn ulduz” kimi meydana çıxan Cavidin “axtarışlarının dərinliyi, şeirinin gözəlliyi və hisslərinin incəliyi etibarilə türk ədəbiyyatında özünə bərabər qüvvə bilməyən parlaq günəşə dönüşünü” də tənqid görür və layiqincə dəyərləndirirdi. Bütün bunlar onu göstərir ki, 20-30-cu illərdə ədibin yaradıcılığına ədəbi tənqidin münasibəti mürəkkəb və ziddiyyətli olsa da, tənqidçilər tərəfindən Cavid sənəti hər zaman diqqət mərkəzində olmuş, uğur və

[199] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.141

dırnaqarası qüsurlarından da söz açmış, fikir və mülahizələr söyləmişlər. 20-30-cu illərdə yaranan Cavidşünaslığ bu illərdə yalnız məqalələrlə kifayətlənmiş, Cavid sənəti monoqrafik tədqiqatlar istiqamətində inkişaf edərək dərinləşməmişdir. Bütün bunlara baxmayaraq Hüseyn Cavid xoşbəxt sənətkarlardandır ki, Cavidşünaslıq o, həyatda ikən yaranmağa başlamışdı. 20-30-cu illərdə yalnız məqalələrdə təhlil olunan Cavid yaradıcılığı (Hənəfi Zeynallının məqalələri müstəsnalıq təşkil edir) XX əsrin 60-cı illərindən başlayaraq monoqrafik tədqiqata cəlb olunmuşdu. Cavidşünaslıqda romantik şair-dramaturq Hüseyn Cavid haqqında ilk fundamental tədqiqat əsəri akademik Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. “Müraciət etdiyi bütün sahələrdə professional olan akademik Məmməd Cəfər Cəfərov ədəbiyyatşünaslıq elminə aid olan sahələrlə; folklorşünaslıq, ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid, ədəbi əlaqələrlə yanaşı, həm də estetika, tarix, dilçilik, pedaqogika və sair kimi sahələrdə də öz sözünü demiş, “Məmməd Cəfər elmi məktəbi”ni yaratmışdır. Məmməd Cəfər Cəfərovun

yaratdığı bu məktəb “universal xarakterə malik olan, özündə ədəbiyyatşünaslıq elminin bütün sahələrini birləşdirən, bir çox digər elm sahələrini əhatə edən, həmişə müasir və aktual səslənən əsərlər “istehsal edən” xüsusi elmi məktəbdir. Öz elmi fəaliyyətlərinə Məmməd Cəfər məktəbindən başlayan neçə-neçə tanınmış ədəbiyyatşünas alim var. Bunlardan; Yaşar Qarayev, Əziz Mirəhmədov, Elçin, Arif Hacıyev, Şamil Salmanov, Zahid Əkbərov, Əbülfəz İbadoğlu, Kamran Əliyev, Əjdər İsmayılov, Məmməd Əliyev və başqalarının adını qürurla çəkmək olar. Bu ədəbiyyatşünasların hər birinin Azərbaycan elmində özlərinə məxsus xüsusi çəkisi, sanbalı var. Azərbaycan elmi fikrinin, ədəbiyyatşünaslıq elminin ən ciddi, müasir, vacib problemləri akademik Məmməd Cəfər və onun elmi məktəbinin təmsilçiləri tərəfindən həll olunmuşdur”[200] (Həbibbəyli,2007:407). Bu məktəbin müasir mərhələdəki təmsilçiləri yeni imkanlar və ideyalar hesabına elmimizi zənginləşdirir, Məmməd Cəfər elmi məktəbinə elmi töhfələr verməkdə davam edirlər. Ədəbi

[200] Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan. 2007, s.407

tənqidin mübahisəli məsələləri, sənətkarlıq problemləri haqqında ən sanballı, inandırıcı elmi sözü demiş Məmməd Cəfər Cəfərovun söylədiyi bu söz artıq "qəti hökmə çevrilmişdir", bir az da obrazlı desək, "rus ədəbiyyatında hekayə M.B.Qoqolun "Şinel"indən, Azərbaycan nəsri Mirzə Cəlilin "Poçt qutusu"nda çıxdığı kimi, romantizm poetikasına həsr olunan sonrakı tədqiqatlar Məmməd Cəfər müəllimin romantizm haqqında monoqrafiyasından doğmuşdur"[201] (Həbibbəyli, 2007:399).

Azərbaycan ədəbiyyatında romantizmin bir ədəbi cərəyan kimi ideya-bədii xüsusiyyətləri Məmməd Cəfərin tədqiqatlarına qədər açılmamış, mahiyyəti, ədəbiyyatımızda tutuduğu mövqeyi lazımınca aydınlaşdırılmamış, Azərbaycan ədəbiyyatında romantizmi realizmdən sonrakı bir mərhələ kimi göstərmiş və ona təsir göstərməkdən daha çox realizm ənənələrindən təsirlənmişdir. Məhz bunlar Azərbaycan romantizminin ideya-bədii istiqamətinə, onun estetik xüsusiyyətlərinə təsirsiz qalmamış və mürəkkəb ədəbi hadisə kimi onun

[201] Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan. 2007, s.399

elmi şəkildə tədqiq olunmasını zəruri etmişdir. Tədqiqatlarının ana mövzusu XX əsr Azərbaycan romantizmi və Hüseyn Cavid olan akademik Məmməd Cəfər "ilk dəfə olaraq romantizmin metod, cərəyan və üslub mahiyyətinin izahını verərək nəinki romantizm müstəvisində, hətta ədəbiyyat nəzəriyyəsi arealında metod-cərəyan-üslub strukturuna aydınlıq gətirdi", "romantizm və realizm məsələlərinə, onların fərqlərinə və qarşılıqlı əlaqələrinə gur işıq salındı"[202] (Əliyev, 2013:116). Onu da qeyd etmək lazımdır ki, ədəbiyyatşünaslığımızda kök salmış "mürtəce romantizm" terminindən ilk dəfə imtina edən də akademik Məmməd Cəfər Cəfərov olub və digərlərini də öz arxasınca aparıb"[203] (Əliyev, 2013:116) Eyni zamanda, "ədəbi tənqid və ədəbiyyatşünaslıq tariximizdə yeni təfəkkür hadisəsi olan M.C.Cəfərov ədəbiyyatşünaslığımızda romantizmə, H.Cavid yadıcılığına yaxınlaşmaq xofunu aradan götürən mütəfəkkir

[202] Əliyev K.Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013. 116
[203] Yenə orda,s.116

şəxsiyyətdir"[204] (Əliyev, 2013:116).

Akademik M.C.Cəfərovun 1960-cı ildə yazdığı "Hüseyn Cavid" monoqrafiyası sanballı tədqiqat əsəri olmaqla yanaşı, həm də ilkdir. Bu qiymətli əsər qüdrətli alimin elmi yaradıcılığının zirvəsini təşkil etdiyi kimi, Azərbaycan elmi miqyasında da, ədəbiyyat nəzəriyyəsi sahəsində də bənzərsiz bir zirvə fəth etmişdir. Yazıldığı tarixdən xeyli zaman keçməsinə baxmayaraq Hüseyn Cavid monoqrafiyası günümüzdə də xüsusi aktual və dərin elmi-nəzəri əsər kimi öz əbədiyaşarlığını qorumaqda davam edir. Bu baxımdan, yalnız qarşıya qoyulan problemi müvəffəqiyyətlə öyrənməklə kifayətlənməyən, bütünlükdə Şərq romantizmini fərqləndirən cəhətlər üzərində ətraflı dayanmış Məmməd Cəfər Cəfərovun əsərləri demək olar ki, "gələcək tədqiqatlar" üçün "aydın proqram", tədqiqatçılar üçün isə əvəzolunmaz mənbəyə çevrilmişdir. Özünəməxsus yaradıcılıq manerası olan akademik Məmməd Cəfər Cəfərov yeni tipli tədqiqatın-yazıçıların

[204] Əliyev K.Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013. 116

həyat və yaradıcılığı ilə yanaşı, şəxsiyyətinin də tədqiqinin əsasını qoymuş, hər hansı sənətkarı məfkurəsi, mühiti, dövrü və ona müasir cəmiyyətin ideologiyası, fikri, fəlsəfi təmayülləri ilə birgə təhlil etmişdir. "Hüseyn Cavid" monoqrafiyası demək olar ki, cəfakeş bir alim, əsl vətəndaş qeyrəti ilə və tam zamanında yazılmışdır.

Akademik "Hüseyn Cavid" monoqrafiyasında XX əsr Azərbaycan ədəbiyyatının mütəfəkkir şairi, sənət kredosunu "Mənim tanrım gözəllikdir, sevgidir" - deyə ortaya qoyan, ziddiyyətli, mürəkkəb, ziqzaqlı həyat və yaradıcılıq yolu keçmiş Hüseyn Cavidin həyatı və yaradıcılığının əsaslı şəkildə elmi təhlilini vermişdir.

Monoqrafiya, "H.Cavidin həyatı, ədəbi mühiti və ilk qələm təcrübələri", "Yaradıcılığının ikinci dövrü", "Məfkurəvi tərəddüd illəri", "Cavid yaradıcılığının yeni dövrü", "Cavidin dramlarında sənətkarlıq xüsusiyyətləri" adlı beş fəsildən ibarətdir: Fəsillərin adından da göründüyü kimi, akademik Məmməd Cəfər Cəfərovun məqsədi H.Cavidin həyatı və yaradıcılığı ilə bağlı bütün məsələləri ardıcıl şəkildə araşdırmaq olmuşdur. Monoqrafiyanın

təqdirəlayiq cəhətlərindən biri və birincisi, əsərin Cavid haqqında yazılmış ilk tədqiqat əsəri olması; ikincisi, əsərdə H.Cavidin bütün əsərlərinin vahid ideya istiqamətində təhlil edilməsi; üçüncüsü, Cavidin "Şeyx Sənan" faciəsinin və digər əsərləri ayrıca bölmələrdə təhlili; dördüncüsü, akademikin 20-30-cu illərdə Hüseyn Cavid haqqında ədəbi tənqiddə yer alan tənqidçi və ədəbiyyatşünasların fikir və mülahizələrini tədqiqata cəlb etməsi, onlara yeri gəldikdə müasir elmi-nəzəri mövqedən münasibət bildirməsidir. Məmməd Cəfər Cəfərov, Hənəfi Zeynallının, Mustafa Quliyevin, Hüseyn Mehdinin, İ.Cahangirovun, Cəfər Cəfərovun, Ə. Ağayevin və başqalarının Cavid haqqındakı elmi-nəzəri fikir və müddəalarına diqqətlə yanaşmış, onların diqqətədəyər yönlərini də göstərmişdir.

"Monoqrafiyada tədqiqatçı kəskin şəkildə H.Cavidə qarşı çıxan tənqidçilərin tədqiqatlarına nəinki toxunmamış, hətta onların adını belə çəkməyə ehtiyac duymamışdır"[205] (Əsgərzadə,2009:173). Çünki bu tənqidçilərin sırf

[205] Əsgərzadə L.Məmməd Cəfər yaradıcılığında Hüseyn Cavid /Məmməd Cəfər Cəfərov: Taleyi və sənəti. Bakı: Elm və təhsil, 2009, s.169-180

bolşevik tənqidinin çubuğu ilə görkəmli şairin yaradıcılığını alt-üst etməsi, ən kiçik detallarda belə böyük nöqsanlar aramaları, bəzən Cavid yaradıcılığına tənqidi deyil, düşməncəsinə bir qərəzlə yanaşılması, həm şairin yaradıcılığına dair, həm də ümumən, Azərbaycan ədəbiyyatı haqqındakı məqalələrində onu tənqid etmələri bəlli idi. Məsələn; Əli Nazim məqalələrində dəfələrlə Cavidin həm şeir, həm də dram yaradıcılığını tənqid atəşinə tutmuş, Cavidin; "hələ kimlə olmalı, kimə etibar etməli" - suallarına öz qəti cavabını vermədiyini vurgulamışdır. O dövrün tənqidi sənət adamları qarşısında müəyyən vəzifələr qoyurdu, onların fikrincə Cavid bu vəzifələri yerinə yetirə bilmirdi. Əslində isə, Cavid bu vəzifələri yerinə yetirə bilmir yox, yetirmək istəmirdi, çünki bu vəzifələr Cavidə görə deyildi. O, "sovet şairi", "sovet dramaturqu", "sovet adamı" ola bilmir yox, olmaq istəmirdi. Akademik Rafael Hüseynov "Əbədi Cavid" əsərində yazır: "Natanış XXI əsr gəldi"[206] (Hüseynov, 2007:501). Cavid üçün də bolşeviklər və onların özləri ilə

[206] Hüseynov R.Əbədi Cavid. Bakı,Nurlan,2007,s.501

gətirdikləri, millətə ekspansiya etmək istədikləri "natanış idi, yad idi."Düşüncədə, sənətdə, inanc və milli mübarizədə özünəməxsus təfəkkür üfüqünə sahib olan Cavid əfəndi sənətə, ədəbiyyata xidmət edirdi, rejimə yox. Bolşeviklərin "ölülərin belə yuxusunu pozduğu" o qorxunc illərdə belə o, "sənətkar vicdanına xəyanət etməyib", dönəm şairi olmayıb, inadla və gələcəyə inamla böyük ədəbiyyat yaradıb. Bu gün müəyyən bir dönəm üçün yazanların adı tarixin üzqaraları, utancları kimi xatırlanırsa, ədəbiyyatımızın Allahsızlığı ilə qürurlandığı, Peyğənbərə dil uzadıldığı məlum 30-cu illərdə Cavid, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə baxa-baxa "Peyğəmbər"də Peyğəmbər, "Seyx Sənan"da Şeyx Sənan, "Topal Teymur"da Əmir Teymur, "Xəyyam"da Xəyyam,"Səyavüş"də Səyavüş, "Azər"də Azər yaradaraq düşüncələrini və fəhmlə duyduqlarını yaratdığı obrazların vasitəsi ilə bəyan edib"[207] (Əsgərzadə, 2020:57).

Sovet şairi olmaq sovet ideologiyasına xidmət

[207] Əsgərzadə L. Mühit, sənətkar, zaman üçbucağinda Hüseyn Cavid/Türk dünyasi, cild: 1, say: 1s.53-61

etməkdən başlayırdı. Bu səbəbdən, sovet şairlərinə "böyük vəzifələr" verilir, onlardan qarşılarına bu vəzifədən irəli gələn məsələlərə itaət etmək  tələb olunrdu. Qarşıya qoyulan məsələyə əməl etməkdə birincilik uğruna yarışanların əksinə,  Hüseyn Cavid "bəşər tarixində bolşevizmin "unikal eksprimenti-insan şüurunda rekonstruksiya" aparılması", "əski insan materialının yenidən qurulması" işinə (M.Hüseyn) qoşulmadı.  Çünki "bədii ədəbiyyatda "sənaye və təsərrüfatla əlaqədar mövzu"ların azlığından şikayətlənən, bunu poeziyanın ən zəif cəhətlərindən biri hesab edən tənqidin çubuğu əsasında getməyə məcbur olan ədəbiyyat yaratmaq Cavidin işi deyildi. Cavid sənət üçün sənət yaradırdı. Bunu dövrün tənqidçiləri də anlayır və dilə gətirirdilər. Məsələn, M.Quliyev "Maarif və mədəniyyət" jurnalında nəşr olunan "Hazırkı türk ədəbiyyatı"  adlı məqaləsində Əli bəy Hüseynzadə və  Hüseyn Cavidin  "sənət sənət üçündür" nəzəriyyəsinin tərəfdarı olduğunu vurğulayaraq əlavə edirdi: "Cavid ondan sovet quruluşunu təbliğini tələb edənlərə cavab şəklində yazdığı məktubunda: "məncə

ədəbiyyat başqa, siyasət və təbliğat başqadır. Təbliğat mənim işim deyildir”[208] Sovetlərin təbliğat alətinə çevrilmədiyi üçün “hünərvər şair, kəlam ustadı və sənətkar Hüseyn Cavid” dövrün ədəbi tənqidində “məhdud görüşlü bir insan”[209] kimi dəyərləndirilmişdir. Tənqidin “bədii ədəbiyyatda “sənaye və təsərrüfatla əlaqədar mövzu”ların azlığından şikayətləndiyi bir zamanda, “təbliğat mənim işim deyildir”, - deyən, yalnız “sənətkar vicdanının səsini dinləyərək” yazıb-yaradan filosof şair-dramaturq “Peyğəmbər”də Peyğəmbər, “Seyx Sənan”da Şeyx Sənan, “Topal Teymur”da Əmir Teymur, “Xəyyam”da Xəyyam yaradır, mövcud quruluşla üz-üzə dayanırdı. Yeni dövrün özünəbənzər tənqidçiləri “köhnə tarixi şeylərə əl atan” Cavidin yazdıqları qane etmirdi. Cavid, tənqidin dediyi ilə oturub-dursaydı, bəlkə 20-25 il artıq yaşaya bilərdi, amma ölməz xarakterlər, kolxozsuz, pambıqsız, mazutsuz, partiyasız ədəbiyyat - böyük ədəbiyyat yarada bilməzdi. Adını mücahid sənətkar kimi ədəbiyyat tariximizə yaza

[208] Quliyev M. “Hazırkı türk ədəbiyyatı” /“Maarif və mədəniyyət” jurn., avqust 1926, №8
[209] Yenə orda

bilməzdi. Yəni tənqid öz işində; “yaradıcılığında dönüş yaratmalı”, “sosializmin tələb etdiyi əsərlər vermək uğrunda çalışmalı”, “mütləq bu yolu öyrənməlidir” xəbərdarlığında, H.Cavid isə öz işində idi. Tənqid unudurdu ki, Caviddə sosializm quruculuğu dövrünün keçmiş, dırnaqarası böyük quruluşumuzda davam edən hadisələrini yazmaq, mədh etmək yox idi və ola da bilməzdi. Çünki o, kimin üçün və nəyinsə xatirinə yazmırdı. Akademik Kamal Abdulla aşağıdakı sözləri ilə o dövrü o qədər gözəl xarakterizə edir ki... “Yuxarı da vardı, aşağı da, Cavid yuxarıda bərqərar oldu.” Doğrudur, dövrana qulluq edənlərin, məddahlarin, yenidən qurulanların baş alıb getdiyi sovet cəmiyyətində “yuxarıda bərqərar olmaq” Cavidə çox ağır başa gəldi, ancaq mütəfəkkir sənətkara “ədəbiyyatımızın vicdanı” kimi müqəddəslik də bəxş etdi”[210] (Abdulla, 2007).

Mirzə Fətəli Axundov kimi, Cavid də “Şərqi mübarizlikdən məhrum edən” mədhiyyəçiliyin barışmaz düşməni idi və mədhiyyəçiliyin əsrlər boyu Şərqi, o

[210] Abdulla K. Ədəbiyyatımızın fikir və söz zadəganı

cümlədən Azərbaycan ədəbiyyatını ictimai məzmundan, mübarizlikdən məhrum edən başlıca səbəblərdən biri olduğunu”, bu cür ədəbiyyatın istər-istəməz istisimarçı təbəqələrin hakim sinfi ideologiyasına xidmət etdiyini bilirdi. Buna görə də o, mədhiyyəçiliyə nifrət edirdi. Cavidin həyatı və yaradıcılığı bütövlükdə, şairin mədhiyyəçilikdən nə qədər uzaq olduğunu qətiyyətlə təsdiqləməkdədir. “Hüseyn Cavid” monoqrafiyasında isə tədqiqatçının özünün yazdığı kimi, “Məqsəd mümkün qədər Cavid yaradıcılığını bütün ziddiyyətləri ilə bərabər tədqiq etmək, onun ədəbiyyat tariximizdə tutduğu mövqeyi müəyyənləşdirmək, xüsusilə, şeirində müasir ideyalarla səsləşən cəhətləri aydınlaşdırmaqdı”[211] (Cəfərov, 1960:17). Akademik zamanına görə demək olar ki, qarşısına qoydugu məqsədinə nail olmuşdur. “Hüseyn Cavid” monoqrafiyasının “H.Cavidin həyatı, ədəbi mühiti və ilk qələm təcrübələri” adlanan birinci fəslində görkəmli şairin həyatı, ilk ədəbi təcrübələri, ilk dramları və “Şeyx Sənan” faciəsindən bəhs olunmuş, geniş ədəbi-elmi təhlili verilsə

[211] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.17

də, Cavidin həyatı mümkün qədər xronoloji ardıcıllıqla izlənilməyə çalışılsa da, verilən xəbərlərdən bəzisi bu gün bir az səhih görünmür. Monoqrafiyada Hüseyn Cavidin həyatının 1912-ci il mərhələsi barədə yazılır: "1912-ci ilin axırlarında Cavid yenidən bir iş yeri axtarmaq məqsədi ilə Gəncəyə gedir. Burada bir neçə aylığa müəllimlik yeri tapsa da, az sonra şair işdən çıxarılır. Şair əlacsız qalıb Gəncə dəmiryolunda mühasiblik edir"[212] (Cəfərov, 1960: 34). Öncə də qeyd etdiyimiz kimi, Cavidin repressiya zamanı şəxsi arxivi məhv edilsə də, rəsmiliyini nəzərə alsaq, bu gün Cavidin istintaq materialları bəzi tarixləri (1912-ci ildə Gəncədəki "Mədrəseyi-ruhaniyə"də müəllimlik etməsi, İstanbula 1903-cü ildə deyil, 1905-ci ilin aprel ayında getməsi, İstanbuldan 1910-cu ilin əvvəllərində dönmə tarixi və s.) dəqiqləşdirməyə imkan verir.

H.Cavid bütün yaşamı boyu müharibələrə nifrət bəsləmiş və onun bu duyğuları lirik şeirlərində də öz geniş əksini tapmışdır. Monoqrafiyanın I fəslində bu məsələ

---

[212] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.34

üzərində də dayanılaraq şairin müharibə əleyhinə yazdığı "Məzlumlar için", "Qüruba qarşı" şeirləri incələnmiş, bu qənaətə gəlinmişdir ki, "Qüruba qarşı" şeiri bizi şairin yeni düşüncələri ilə tanış edir"[213] (Cəfərov,1960:100).

Cavidin 1915-ci ildə qələmə aldığı "Qüruba qarşı" şeirində şeytana uymuş adəm övladının pul, sərvət düşkününə, seçilmiş başçıların isə "iyirminci əsrin müstəbid övladı"na çevrilməsi şairdə böyük narahatlıq və üsyan yaratmışdı:

Böyük başlar dumanlanmış, atəş püskürür hər an
Qılınclar, süngülər, toplar, tüfəklər gürlayıb parlar.
Nə istər bir-birindən anlaşılmaz, sayğısız insan!?
Olur məmurələr viran, qopar atəşli tufanlar.
Fəqət bunlar bu dəhşətlər, bu vəhşətlər niçin bilməm?
Əcəb xalimi insafü - mürüvvətdən bütün aləm!? [214] (Cavid,2007: 94).

Burada romantik şair vacib bir missiya ilə çıxış edirdi, çünki dünya başçılarının sərvət mənbələrini ələ

[213] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.100
[214] Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.94

keçirmək üçün dəridən-qabıqdan çıxdıgı bir dönəmdə insan atributu unudulmuşdu, ölən də, öldürən də insan idi. Belə mürəkkəb tarixi bir şəraitdə ədəbiyyatın vacib missiyasının ortaya çıxması təbii idi.

"Cahan bir qətlgah olmuş, aman yox, zülmü vəhşətdən" - deyə heyrətlənən şair eyni motivləri "Hərb və fəlakət"də də davam etdirir;

Nədir şu qəhri fəlakət? Nədir bu qəhri fila?

Nədir bu kinu ədavət? Nədir bu dərdi bəla?

Təməddüdün sonu vəhşətmidir, nədir əcaba?[215] (Cavid, 2007: 63).

Şeirdən də göründüyü kimi, şair artıq yeni tarixi cinayətlərin başlıca icraçısının "XX əsrin müstəbid övladları"nın olduğu qənaətində idi. Ədalət, insaf, haqq və vicdan sözlərinin isə, yalnız məzlumların gözlərindən pərdə asmaq üçün işlədilən gəlişigözəl sözlər olduğu qənaətində idi. Cavid birinci imperialist müharibəsini "qanlı kitab" adlandıraraq bu nəticəyə gəlirdi ki, "XX əsrin müstəbid övladları daha qəddar, daha yırtıcı, daha

[215] Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.63

amansızdır. O, bu yırtıcılardan qorunmaq və məzlunları daha qüvvətli olmaq üçün birliyə çağırır, "Cahanda haq da, həqiqət də həpsi qüvvətdir" - qənaətinə gələrək imperialist müharibələrinin törənmə səbəblərini göstərirdi. Akademikin fikrincə, əksinə, "bu sətirlər hələ imperialist müharibəsini törədən əsl səbəbləri Cavid düzgün dərk etmir, bu sözlər, bu fikirlər nə qədər ürəkdən gəlsə də, nə qədər gözəl, təmiz, xeyirxah niyyətlə deyilsə də, məzlumları müdafiə məqsədi daşısa da mücərrəd mühakimələrdən ibarət olaraq qalırdı. Bu mühakimələrin özünün də tarixi şəraitə görə müəyyən müsbət əhəmiyyətə malik olduğunu qeyd edən müəllif yazır: "Cavidin haqqında bəhs etdiyimiz şeirləri xırda burjuaziyanın müharibəyə münasibətini əks etdirirdi[216] (Cəfərov, 1960:101). Hər misrasında pak bir həqiqət çırpınan şairin əsərlərində insanın saf duyğularına təmas edilir, insanlığa xidmət missiyası daşıyırdı. Bu baxımdan, romantik şairin hər bir beyti, hər bir misrası önəmlidir. Onun poetik sənət taleyi də dünya romantizmi poeziyanın bir sıra görkəmli

[216] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.101

şəxsiyyətlərinin sənət taleyinə bənzərdir. Cavid "öz üsyankar şəxsiyyəti, işıqlı idealı, odlu həyat ehtirası ilə insanı alçaldan bütün mənəvi və ictimai qanuna, əxlaqa qarşı çıxarkən həmişə sələflərinin müdrikliyindən və sənət döyüşkənliyindən də öyrənmişdir"[217] (Tağıoğlu, 1991:210).

Heç bir partiya və qurumda olmasa belə, öz mövqeyini, münasibətini yeri gələndə açıq-aşkar bildirən H.Cavidin yaradıcılığında "mübarizlik, insan, onun hüquqları və onların pozulması, bütövlükdə, sosial ədalətsizlik bir problem olaraq təqdim olunur"[218] (Tağıoğlu, 1991:224). Şözsüz ki, bütün bunlar; "Yeni janr, yeni mövzu, yeni qəhrəman, bütövlükdə, yeni poetika müəllifi" və "XX əsr Azərbaycan romantizminin taleyi" olan romantik şair Hüseyn Cavidin böyük ideyaları geniş və çoxcəhətli yaradıcılığa malik olan, Azərbaycan ədəbiyyatında romantizm problemlərinin tədqiqi sahəsində çox böyük və əhəmiyyətli işlər görmüş akademik Məmməd

[217] Tağıoğlu Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi.Bakı: Elm, 1991, s. 210

[218] Tağıoğlu Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi.Bakı: Elm, 1991, s. 210, s.224

Cəfər Cəfərovun diqqətini çəkmişdir.

Bu fəsildə həmçinin rəngarəng yaradıcılığında insan, onun taleyi çağdaş mühitimizin istəkləri sorağında romantik üsulda ortaya qoyulan, bu sahədə həmfikirlərindən geri qalmayaraq mübarizəni əsas vasitə hesab edən fövqəladə təfəkkürə malik olan Cavidin müstəqillik, qadın azadlığı məsələlərini özündə əks etdirən "Qadın", "Pənbə çarşaf" əsərlərinin də üzərində geniş dayanılmışdır. Sözsüz ki, H.Cavidi düşündürən məsələlərdən biri də, Şərqin həlli ən çətin problemlərindən sayılan qadın məsələsi idi. Qadının ictimai həyatdakı rolu və fəaliyyəti, daha doğrusu dövr üçün fəaliyyətsizliyi şairdə hər zaman narahatlıq yaratmışdır.

Ümumiyyətlə, qadınların təhsilə cəlb olunması, günün vacib sayılan elmlərinə yiyələnmələri üçün böyük ideoloji tədbirlərə böyük ehtiyac vardı. Bu ideya tərəfdarlarının fikrinə görə, Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Azərbaycan qadınları guya "ağ günə" çıxmışdılar. Halbuki, kollektiv təsərrüfatları inkişaf etdirmək üçün qadınlar ciddi istismara məruz qalır,

ən çətin iş şəraitində; daha çox əkin və iş heyvanlarının saxlanılmasında, taxıl tədarükündə böyük əzablara düçar məruz olmuşdu. Ədəbiyyatımızda Cəfər Cabbarlı yaradıcılığı vasitəsi ilə Sevillərin, Almazların timsalında Azərbaycan qadınının azad yaşayışı reklam olunurdusa da, əslində, çadradan "xilas" olmuş bəşəriyyətin ən zərif, incə məxluqları sayılan qadınlar daha ağır, əzablı bəlalara düçar olmuşdu. 1927-ci ilin payızında Oktyabr inqlabının 10 illiyi təntənələrində iştirak etmək üçün Moskvaya gələn və 77 günlük səfəri zamanı Bakıda olmuş Amerika yazıçısı Teodor Drayzer bu ağır bəlalara düçar olmuş qadınları – Əli Bayramov adına Müsəlman Qadınlar klubunda, onların iş və məişəti ilə, müxtəlif dərnəklərdə çalışan qadınları yaxından görmüş və heyrətlənmişdir. Qadınlardan biri xalça toxuyur, başqaları paltar tikir və s. "Hamısı arıqdan-arıq, çuxura düşmüş gözləri zorla işıldayan qız-gəlinlər idi. Yerli məmurlardan biri Drayzerin onların işinə tamaşa etməsini görərkən sosialist rejminin üstünlüklərini hörmətli qonağa yetişdiyini hiss edərək fəxrlə bildirir: "Gördüyünüz bu qadınlar əvvəllər çadra altında inləyirdilər. Sovet

hökuməti onları çadradan azad etmişdir, indi isə, gördüyünüz kimi sənət öyrənirlər" (İsmayılova, 2008:188). Gördüyü mənzərədən dəhşətə gələn Drayzer isə ona belə cavab verir: "Belə çöhrələr, elə çadra altında qalsaydı, daha yaxşı olardı..."[219] (İsmayılova, 2008:188).

Deməli, sosializm cəmiyyətində də, qadın problemi həll olunmamışdı. Bu problemin optimal həlli baxımından H.Cavidin qadına münasibəti daha diqqətçəkən və düşündürücüdür. Müəllifin, demək olar ki, bütün əsərlərində qadına münasibət, cəmiyyətdə onların yeri və rolu məsələlərinə yetərincə toxunmuşdur. Hələ "Şeyx Sənan" yazılana qədər Cavidin şeirlərindən; "Qadın!", "Şərq qadını", "Şeir məftunu" və s. əsərlərində qadının fövqəladə gözəlliyi önə çəkilməklə yanaşı, onun ictimai-sosial zəmində əzilməsi, təhqir olunması da öz əksini tapmışdır.

Yaradıcılığında qadına daha çox "qadın, ey sevgili həmşirə", "qadın, ey nazlı mələk" ifadələri ilə müraciət

---

[219] İsmayılova S. Azərbaycan dünyanın gözü ilə // Azərbaycan, 2008, № 11, s.188

edən Cavid anasız millət öksüz sayır:

Ana övladını bəslər, böyüdür,

Anasız millət, əvət, öksüzdür[220] (Cavid, 2007:52).

Şairin fikrincə, göz yaşı, ah-nalə mübarizə deyil, əksinə, gücsüzlük və acizlikdir. Maraqlıdır ki, mədəniləşmədə qadınlara xüsusi əhəmiyyət verən H.Cavidin yaradıcılığına total yanaşaraq təhlil etdikdə belə bir aksiomanın alındığını görmək olur: "Çalış", "öyrən", "ara", "bul", "haqqını al!"[221] (Cavid,2007:, 53).

Sabahın anaları olacaq qızların da təhsilə cəlb olunmasının vacibliyini qeyd edən Cavid; "Erkək qisminin maddi surətdə doğulub böyüməsinə qadınlar səbəb olduğu kimi, mənəviyyatca da münəvvərəl fikir, tərəqqipərvər olmalarına yenə yeganə vasitə qadınlardır, demək tərəqqinin ilk vasitəsi qadın və qız məktəbləridir" (Cavid,2007:143)[222] - deyərək qızların təhsilə cəlb olunmasının zəruriliyini vurğulayır, qadınlığın uca məqamını çox dəqiq qiymətləndirir, bəşər cəmiyyətinə

[220] Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.52
[221] ~~Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.53~~
[222] ~~Yenə orda, s.143~~

övlad verən, onu bəsləyib böyüdən bu varlığı Ay və Günəşlə müqayisə edərək kainatın yüksəliş və dirçəlişi naminə qadınlara xüsusi diqqət iştəyirdi. H.Cavidin qadın hüquqsuzluguna olan etirazları geniş mənada bir insan olaraq qadınlara olan sosial ədalətsizlikləri, bir sözlə, bu incə məxluqun təhdidlər altında qalmasına səbəb olan amilləri islah etməyə cəhd göstərmişdi...

Azərbaycan romantizmində "H.Cavidin sənətkar diqqəti ilə yeni zirvə qazanmış" "Şeyx Sənan" əfsanəsini təhlil edən akademik yazır: "Qabaqlar həqiqətə tamamilə zidd olaraq Cavidin görüşlərinin guya Azərbaycan ictimai fikri, varlığı ilə əlaqədar olmadığından danışanlar olmuşdur. Bu mülahizələrin uydurma və qeyri-elmi mülahizələr olduğu təkcə "Şeyx Sənan" əsəri ilə də sübut edilə bilər. Əsərin indi də sevilməsinin bir sirri bundadır". "Şeyx Sənan"da bizə Nizami və Füzulinin "Leyli və Məcnun"unu, Xaqani və Nəsiminin aşiqanə lirik qəzəllərini xatırladan cəhətlər çoxdur"[223] (Cəfərov,1960:97). "Leyli və Məcnunun adı ilə bağlı olan əfsanədən heç də əhəmiyyətsiz

[223] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.97

olmayan "Şeyx Sənan" əfsanəsi Azərbaycan romantizmində H.Cavidin sənətkar diqqəti ilə yeni zirvə qazanmışdır"[224] (Əliyev, 2007:185-186) - qənaətində olan görkəmli cavidşünas alim Kamran Əliyev akademik M.C.Cəfərovla həmfikir olduğunu ifadə edərək yazır: "Cavid eyni əfsanənin mayasında olan reallığa yeni bir məzmun vermiş, əfsanəni təbliğ etmək istədiyi fikrə böyük insan məhəbbəti qarşısında milli və dini təəssübkeşlik heçdir, gücsüzdür ideyasına tabe etmişdir[225] (Əliyev, 2007:185-86). Akademik M.C.Cəfərova görə, "Şeyx Sənan" hər şeydən əvvəl dini təəssübkeşliyə qarşı yazılmış bir əsər idi. Dini təəssübkeşlik, millətçilik təbliğatına qarşı hərə özünəməxsus ideya cəbhəsindən çıxış edərkən, H.Cavid də, demək olar ki, ilk əsərlərində öz sənətinə, üslubuna məxsus və öz görüşlərinə uyğun yol ilə dini təəssübkeşliyi pisləyirdi. "Şeyx Sənan" faciəsi də bu əhval-ruhuyə ilə yaradılmış", "insanları əsl mahiyyətindən uzaqlaşdıran dinə, mollaların dindən yaratdıqları

[224] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008,s.185-86
[225]Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008,s.185-86

cəfəngiyata qarşı yazılmışdır"[226] (Cəfərov, 1960:78).

Əslində, Allahı tapmaq, varlığını təsdiqləmək və tanıtmaq vasitəsi olan din, bəzən öz missiyasını yerinə yetirə bilmir, əksinə, Allah haqqında şüurumuzu yoxluğa çıxardan bir sistem kimi mövcudlaşır. Bütün varlıqların yaradılması mahiyyətində duran yeganə həqiqətə - Allaha inanmaq inamdan və etiqaddandır. Nəsiminin, Səbüstərinin, Miyanəçinin, Mövlananın, Füzuli, Həllac Mənsurun, Cavidin aradıqları, inandıqları və tapındıqları kimi. Çünki bunlar eşq-məhəbbət, vahid inam hesabına Allaha çatmaq onun dərk etmək və ona qovuşmaq, ondan yox olmağın yolunu təqdim edirdilər. Akademikin "dini təəssübkeşliyə qarşı yazılmış"[227] (Cəfərov, 1960:78) əsər kimi səciyyələndirdiyi "Şeyx Sənan"da Cavid insanları haqdan qaçmağa deyil, əksinə haqqa tapınmağa, haqqı dərk etməyə, özünüdərkə səsləyirdi. Bu barədə ən ötkəm sözü tədqiqatçı Azər Turan söyləmişdir: "Şeyx Sənan" "Hüseyn Cavidin universal irfan bilgilərinin toplusudur"[228] (Turan,

---

[226] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.78
[227] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.78
[228] Turan A. Hüseyn Cavid. Bakı: Vektor, 2007, s.77

2007:77) və mütəfəkkir sənətkar bu əsərlə "təsəvvüf zehniyyətini təkkədən teatra gətirməyi bacara bildiyini təsdiqləmişdir"[229] (Turan, 2010:77).

"Yaradıcılığının ikinci dövrü" adlanan ikinci fəslidə şairin müharibə əleyhinə olan ilk çıxışları, eyni zamanda "Şeyda", "Uçurum", "İblis" əsərləri tədqiqat obyekti kimi seçilmişdir. Əsərin üçüncü fəsli "Məfkurəvi tərəddüd illəri" adlanır. Bu fəsildə şairin "Peyğəmbər", "Afət" və "Topal Teymur" əsərləri tədqiqata cəlb olunmuşdur.

Məlumdur ki, sovet hakimiyyəti qurulduqdan sonra da yeni həyatdan yazmaq istəməyən H.Cavidin tarixi keçmişə dair əsərlər yazıb-yaratmasına münasibət bildirən tədqiqatçının fikrincə; "Bu illərdə Cavid sosialist inqlabının mahiyyətini başa düşməmişdir. Caviddə yeni həyat, bu həyatın böyük mənası və gələcəyi haqqında aydın bir təsəvvür yox idi; onda proletar inqlabının xilaskar roluna qəti bir inam da yox idi"[230] (Cəfərov, 1960:141) və bu illərdə "ədəbiyyat, sənət başqa, təbliğat başqadır" -

---

[228] Yenə orda,s.77

[230] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.141

Cavidin siyasətdən uzaqlaşması, romantik şairin keçmişdən yazması təbiidir" - deyib bəhanə gətirməsi, tarixi mövzulara, uzaq və yaxın keçmişə əl atması da buradan irəli gəlirdi"[231] (Cəfərov, 1960:141). Mütəfəkkir sənətkar həqiqətən də, proletar inqlabının xilaskar roluna heç zaman inanmamışdır.

Bu fəsildə adı çəkilən hər bir əsər təhlil olunmuş, görkəmli alim bu əsərlər haqqındakı özündən əvvəlki tənqidlərə münasibətini bildirməklə yanaşı, öz fikirlərini də ifadə etmişdir. Akademikin fikrincə, Cavid "Peyğəmbər"də Məhəmməd surətini yaradarkən çox sərbəst hərəkər etmişdir"[232] (Cəfərov, 1960:50). Halbuki, Cavid Məhəmməd Peyğəmbəri mötəbər qaynaqlarda olduğu kimi təsvir etmişdi və buna beş il Təbriz və Urmiya kimi bir şəhərdə yaşamış, "Əmsilə", "Sərfi-Miri", "Təfsir", "Şərhi-Amil"i oxumuş, "İslam tarixi"nə yaxından bələd olmuş, Hacı Molla Abdulla kimi bir din adamının ailəsində böyümüş şairin elmi dünyağörüşü yetirdi, çünki

[231] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.141
[232]Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.150

bunlar “ana südü, ata öyüdü” ilə onun ruhuna hopmuşdur. M.C.Cəfərov yazır: “Cavid Məhəmmədi yoxsul ərəblərin müdafiəçisi, ədalət, hüquq bərabərliyi, ideyanın təbliğatçısı, əsarət, köləlik əleyhinə çıxan bir qəhrəman, qadın azadlığı tərəfdarı, hər cür mövhumat, xurafat, cəhalət əleyhinə mübarizə aparan, elm, mədəniyyət aşiqi, sülh təbiətli, sülhpərvər bir insan və nəhayət, panteist bir mütəfəkkir kimi göstərmişdir ki, Məhəmmədə verilən bu sifətləri tarixi həqiqətə uyğun hesab etmək olmaz və bunlar əsərin zəif, mənfi cəhətlərindəndir”[233] (Cəfərov,1960:145) və “Peyğəmbəri adi bir insan, öz zamanının vəziyyət və tələbatını düşünən və eləcə də öz şəxsi ehtiyaclarını həyata keçirmək uğrunda müdarizə aparan bir fərd kimi təqdim edilmişdir”[234] (Cəfərov, 1960:37). Əslində isə, Hüseyn Cavid bu mövzuya müraciət edərkən “Peyğəmbər”ə tamamilə başqa aspektdən; İslam tarixindən bəhs edən kitablarda Məhəmməd Peyğəmbər tanıdıldığı kimi; vəhşi ərəb adətlərinə acizanə boyun əyən, bir heç sayılan

[233] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.145
[234]Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s. 37

qadınlara azadlıq bəxş edən, doğulan qız uşaqlarının diri-diri basdırılmasının əleyhinə çıxan, humanist görüşlü, bütün insanlara eyni gözlə baxan, bir sözlə, bir əlində kitab, bir əlində dini-fəlsəfi görüşlərini təbliğ etmək, bütpərəstliyi məhv etmək üçün qılınc tutan, qul alıb-satmağın pis əməl olmasını söyləyən, qulla bir süfrədə yemək yeyən, yoxsulların da, qulların da, qadınların da sonucda hamı kimi bir insan olduğunu söyləyən, elm və mədəniyyətə qiymət verən Məhəmməd kimi yanaşmışdır... Dini inancımızda da Məhəmməd Peyğəmbər aqil, şəfqətli, rəhmdildir, məzlumun və kasıbın pənahı, qulların dostu, qızların və qadınların himayədarı kimi formalaşıb. Ona pislik edənələrə qarşı belə ədalətlidir. Tədqiqatçı isə, əksinə, sübut etməyə çalışır ki, əslində "Tarixdə heç yerdə Məhəmməd qadın azadlığı haqqında belə yüksək fikirdə olmamışdır. Bu ancaq Cavidin fikri idi. Məhəmməd ərəb qadınlarına münasibəti az-çox yaxşılaşdırmaq üçün müəyyən tədbirlər görmüşdür. Məhəmməd, yoxsul ərəblərə öz uşaqlarını diri-diri yandırmağı qadağan etmişdir. Lakin Məhəmməd ərəblər arasında mövcud olan vəhşilik dövrü

qalığı poliqamiyanı (çoxarvadlılığı) nəinki ləğv etmiş, əksinə onu bir qədər qanuniləşdirmişdir, dörd arvad almağa icazə vermiş, hətta özü daha çox arvad almışdır"[235] Lakin İslam tarixində Məhəmməd Peyğəmbər ən mütərəqqi fikirli, elmə, savada qiymət verən, "sənə bir hərf öyrədənin 40 il qulu ol" - deyən, bütün insanları Allah nəzərində bərabər görən, qul azad etmənin savab olduğunu söyləyən, qul ticarətini pisləyən adil bir şəxs kimi göstərilir. Əsərdə bütün bunlarla yanaşı, yəni Peyğəmbər həm olduğu kimi, həm də Peyğəmbərin dili ilə təbliğ olunan bəzi məsələlər, yəni köləlik, mövhumat, hüquq bərabərliyi kimi fikirlərin Cavidin öz fikirləri, qənaətləri kimi təqdim oluması, ideologiyanın tüğyan etdiyi bir dövr üçün doğru sayılmalıdır.

Keçən əsrin 20-30-cu illərində yazılmış bu əsərləri təhlil edən tənqidçilər Hz.Məhəmmədi Cavidin gördüyü kimi görmək, dövrün tələbindən kənara çıxmaq istəməmişdilər. Çünki o dövrdə, nə qədər sözdə din azadlığımız olsa da, bu cür sözlər söyləmək yasaqdı.

[235] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960,s.137

Çoxlarının cibində “Allahsız” kitabçası daşıdığı dövrdə, kim əsl proletardırsa, əsl bolşevikdirsə “gözünü qırpmadan məscidlərə od vurub yandırandır,” “düşmən atan belə olsa ona aman verməməli”, əqidəsizliyin cəmiyyətdə aparıcı mövqedə olduğu, Pavlik Morozovdan gənclərimizin örnək götürdüyü bir dövrdə, Cavidin əsərləri, sözsüz ki, əsl qiymətini ala bilməzdi. “Peyğəmbər”in əsl qiymətini vermək dini təbliğ etmək sayıla bilərdi.

Elm bu gün “Quran”da yazılanların həqiqətən də vəhy olduğu qənaətinə gələrək bildirir ki, bunlar bir insan ağlına sığa biləcək şeylər deyil. Bu gün bir çox xristianlar öz dinini atıb, İslamı qəbul edirlər, çünki İslam dini dinlərin ən humanistidir. Hz.Məhəmməd belə bir humanist dinin peyğəmbərdir. Cavid bu əsərində islam Peyğəmbərini “idealizə etməkdən uzaq olsa da, əksinə, peyğəmbəri adi bir bəşər şəklinə salaraq onu mistiklikdən çıxarmış, lakin özünün humanist dünyagörüşü və fəlsəfi fikrini onun vasitəsilə təbliğ etmişdir”[236] (Cəfərov, 1960:136). Halbuki müəllif, islam Peyğəmbərini tarixdə olduğu kimi vermiş,

[236] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.136

əsərin səhnələşdirilməsini istəməməklə, mistiklikdən də çıxarmamışdır.

Monoqrafiyanın "Cavid yaradıcılığının yeni dövrü" adlanan dördüncü fəslində Cavidin "Azər", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı" əsərlərindən müfəssəl bəhs edən tədqiqatçı onlar haqqında düzgün elmi fikir yaratmağa çalışmışdır. "Cavidin dramlarında sənətkarlıq xüsusiyyətləri" adlanan beşinci fəsildə, əsasən ədibin dramlarının xarakterik xüsusiyyətləri açıqlanmış, yaratdığı obrazlar xarakterlər üzrə qruplaşdırmışdır. Fəslin sonunda ədib məhdud və zəif cəhətləri ilə bərabər "Cavid dramaturgiyası tarixindəki xüsusi, original bir mərhələ" oldugunu göstərən müəllif, Cavidin "zəif, məhdud cəhətləri", "məfkurəvi səhvləri" hansılardır? - sualına da konkret, o illər üçün ənənəvi olan cavablar vermiş, Cavid romantizmində qüvvətli, mütərəqqi cəhətlər hansılardır? - sualını ortaya qoymuş və konkret müşahidələr və faktlara əsaslanaraq bunları belə müəyyənləşdirmişdir: dinlə və dini etiqadla elm, fəlsəfə arasında kəskin ziddiyyəti görməsi, dini təəssübkeşliyi tənqid etməsi ("Şeyx Sənan" və "Bir

xatirə" əsəri), kapital hökmranlığını pisləməsi, fəhlələrin burguaziya tərəfindən ağır istismar edildiyini görməsi, zəhmətkeşləri, məhkum xalqları, kölə millətləri öz adi insani hüquqları uğrunda mübarizəyə çağırması ("Şeyda", "Məsud və Şəfiqə", "Nil yavrusu", "Bir insanpərvərin insanlara xitabı" əsərləri), sadə insanları məhəbbətə təsvir etməsi, hər cür mühafizəkarlığa, avamlığa, cəhalətə düşmən olan adamlar arasında qəhrəmanlar axtarıb tapması: (Cəlil, Humay, Şeyda, Alagöz, Xəyyam, Anton və digər surətlər), yüksək əxlaqi ideyaları müdafiə etməsi, bu cəhətdən mənfi əxlaqa və ailə münasibətlərinə qarşı üsyanı ("Afət", "Uçurum"), müxtəlif millətlərdən olan müsbət adamları eyni məhəbbətlə göstərməsi, 1936-cı ildə yazdıgı "İblisin intiqamı" əsərində alman, italyan və yapon faşistlərini ifşa etməsi, faşizmin bəşəriyyət üçün böyük təhlükə olduğunu dərk etməsi, qüdrətli bir sənətkar olması, Azərbaycan ədəbiyyatına mənzum dramın ilk gözəl nümunələrini verməsi, Azərbaycan şeirini janr, mövzu, vəzn və başqa cəhətlərdən zənginləşdirməsi, özünəməxsusluğu və s. Akademik M.C.Cəfərovun realist

və romantik ruhda yazdıgı əsərləri qəti sərhədlərə ayırmaq mümkün olmadığı kimi, onun əsərlərini də “müasirlik” və “tarixilik” bölğülərinə sığdırmaq da çox çətindir. Bu gün onun Azərbaycan ədəbiyyatının digər görkəmli nümayəndələri haqqındakı mülahizə və qənaətləri bələdçi, açar funksiyasına malikdir. Bütünlükdə ədəbi tənqidin Hüseyn Cavidə münasibətini elmi şəkildə ümumləşdirən akademik Məmməd Cəfərin H.Cavid irsinə münasibəti çox səciyyəvidir: “Hüseyn Cavid Azərbaycan xalqının oğludur. Onun poetik yaradıcılığı Azərbaycan xalqının milli sərvətləri xəzinəsinə daxildir. Bizim borcumuz Hüseyn Cavid irsinin düzgün qiymətini verməkdən ibarətdir. Biz bu irsə ehtiyat və qaygı ilə yanaşmalıyıq”[237] (Cəfərov, 1960: 15), çünki Cavid dramaturgiyası “bütün məhdud və zəif cəhətləri ilə bərabər, Azərbaycan dramaturgiyası tarixinndə xüsusi, orijinal bir mərhələ təşkil edir.”

H.Cavid irsinə “ehtiyyat və qayğı ilə” yanaşan akademik M.C.Cəfərovun “Hüseyn Cavid” monoqrafiyası bu gün də ədəbiyyat tariximizdə Azərbaycan

[237] Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960, s.15

drammaturgiyasının ideya-sənətkarlıq xüsusiyyətləri, obrazlar aləmi haqqında mötəbər, önəmli bir mənbədir. Şairin yaradıcılığının bu gün geniş şəkildə tədqiqata cəlb edilməsi, H.Cavid irsinin araşdırılması və düzgün qiymətləndirilməsi baxımından yüzlərlə namizədlik və doktorluq işlərinin yazılması Cavid irsinə ehtiyat və qayğı ilə yaynaşmanın bunun bariz nümunəsi olmaqla yanaşı, həm də akademik Məmməd Cəfər Cəfərovun cavidşünaslara həmişəlik məsləhəti və tövsiyəsidir.

Əsərləri "bütün zamanlarda vətənə və xalqa, inkişafa xidmət etmək imkanına malik"[238] (Həbibbəyli, 2007:14) olan Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" (1960) monoqrafiyasını yüksək dəyərləndirən akademik İsa Həbibbəyli yazır: "Hüseyn Cavid" monoqrafiyası sərt ideoloji tələblər dövründə yazılsa da, müəyyən nüansları çıxmaq şərti ilə indi də ədəbiyyatımızın romantik korifeyinin həyatı və yaradıcılığı haqqında ədəbiyyat tarixi baxımından yazılmış ən sanballı əsərdir. Hüseyn Caviddən

[238]Həbibbəyli İ. Hüseyn Cavid sənəti / Taleyi və sənəti (tərtib edən və toplayan: İ. Həbibbəyli). Bakı: 2007, 141 s. 3-36

yazan müəlliflərin heç biri, hələlik, Məmməd Cəfər aşırımını aşa bilməmişdir", "Məmməd Cəfər Cəfərovun əsərləri hər zaman gələcək tədqiqatların aydın proqramıdır" [239] (Həbibbəyli,2009:19). "Hüseyn Cavid" monoqrafiyası Cavidşünaslığın həm ilkin, həm müasir mərhələsinə nəzər baxımından mühim əhəmiyyətə malikdir, çünki bu monoqrafiyada nəinki "özündən əvvəlki ədəbi tənqidə ümumi yekun vurulmuş və eyni zamanda yeni-yeni tədqiqatlara ciddi təkan verilmiş", nəşr olunmasından yarım əsrdən çox zaman keçməsinə baxmayaraq bu monoqrafiyada qoyulan və həll edilən problemlər gələcək elmi tədqiqatlar; Əli Sultanlı, Abbas Zamanov, Əbülfəz İbadoğlu, Zahid Əkbərov, Məsud Əlioğlu və s. üçün də yeni imkanlar yaratmışdır. Əli Sultanlı (1906-1960) və Abbas Zamanov Cavid haqqında monoqrafiya yazmasalar da, bir-birindən dəyərli məqalələr yazmış, obyektiv fikirlər söyləmişlər. Azərbaycan dilində Antik, Orta əsrlər və Renessans dövrü ədəbiyyatına dair ilk dərsliklərin,

[239] Həbibbəyli İ. Hüseyn Cavid sənəti / Taleyi və sənəti (tərtib edən və toplayan: İ. Həbibbəyli). Bakı: 2007, 141 s. 3-36

Azərbaycan dramaturgiyasına dair qiymətli əsərlərin müəllifi olan Əli Sultanlı Cavid yaradıcılığını geniş təhlilə cəlb edərək yüksək qiymətləndirmişdir. 1936-cı ildə orta məktəblərdə VII siniflər üçün nəzərdə tutulan və nəşr olunan ədəbiyyat müntəxabatında Cavid haqqında yazılmış bioqrafik oçerkin müəllifi də Əli Sultanlıdır. Əli Sultanlının "Hüseyn Cavidin faciələri" adlı məqaləsi Hüseyn Cavid irsinin öyrənilməsində ən etibarlı, möhtəbər mənbələrdən biri sayıla bilər. Məqalədə Cavidin dramaturji yaradıcılığını, xüsusən də, "Uçurum", "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur" əsərlərini təhlilə cəlb etmiş Əli Sultanlı məxsus da, "Peyğəmbər" dramını ciddi şəkildə təhlil etmişdir. Bütün bunlarla yanaşı, görkəmli ədəbiyyatşünas alim, bəzən də Cavidi əsassız yerə tənqid etmişdir. Çünki mövcud rejimin qorxusu hər kəsin gözünü elə qorxutmuşdu ki, tənqidçilər bəzən həqiqəti də, yalana qatıb söyləmişdilər.

Mütəfəkkir sənətkarın "Topal Teymur" əsərini təhlil edərkən Teymur haqqında Avropada və Şərqdə yazılmış

əsərlərə istinad edərək dəyərləndirmiş, Cavid yaradıcılığının məziyyətlərini səciyyələndirmiş Əli Sultanlı 1969-cu ildə "Hüseyn Cavid faciələri" adı altında məqalə şəklində "Azərbaycan" jurnalının 7-ci nömrəsində çap etdirmişdir. Məqalə sonralar, 1982-ildə "Cavidi xatırlarkən" kitabına salınmışdır. "H.Cavid orijinal təbiətə malik", "bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün olmayan", hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edən"[240] (1982: 86) şair kimi dəyərləndirmiş Əli Sultanlının sözlərində böyük həqiqət var. Doğrudan da, Cavidin bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi. Söz sənətinin sərrafı Əliağa Vahid belə buna çəsarət etməmişdir. Bu məsələ akademik Teymur Kərimlinin 525-ci qazetdə **(**139**)** yayınlanan "Vahiddən böyük zahid" məqaləsində bir daha qabardılaraq önə çıxarılmış, Cavid irsinə hörmət və ehtiramla yanaşı, həm də xüsusu ehtiyyatla yanaşmaq tövsiyə olunmuşdur. Cavid irsinə hörmət, ehtiram və

[240] Sultanlı Ə."Hüseyn Cavid faciələri" / "Azərbaycan" jurn., 1969, №-7

ehtiyyatla yanaşmaq tövsiyəsi məqalənin adında belə özünü hiss etdirir: "Vahiddən böyük zahid"[241]

Ümumiyyətlə, Hüseyn Cavidin böyüklüyü, bənzərsizliyi, toxunulmazlığı, "nə sələflərinə, nə də xələflərinə bənzəmədiyi" ədəbiyyatşünas alimlər tərəfindən dəfələrlə vurğulanmışdır. Görkəmli ədəbiyyatşünas Abbas Zamanov da Hüseyn Cavid sənəti və şəxsiyyəti haqqında çox dəyərli fikirlər söyləmişdir. Ən önəmlisi də odur ki, Abbas Zamanov bu fikirləri o zaman söyləmiş ki, onda hələ Caviddən yazmağa bir çoxları cəsarət etmirdi. Keçən əsrin 37 fırtınası təzə-təzə səngiməyə başladığı 50-ci illərin sonlarında iki görkəmli alim milli qeyrət hissi, böyük cəsarət və etiramla Hüseyn Cavid yaradıcılığından bəhs etməyə başlamışdısa, bunlardan biri akademik Məmməd Cəfər Cəfərov, digəri isə professor Abbas Zamanov idi. 1937-ci ildə elmi publisistik fəaliyyətə başlayan Abbas Zamanov 1956-ci ildə, yəni Cavid bəraət alar-almaz "Şeyx Sənan" tamaşası haqqında ilk məqaləsini yazmış və bu məqaləsini ən populyar qəzetlərdən birində: "Bakinski

---

[241] Kərimli T. Vahiddən böyük Zahid. 525-ci qəz., 28 fevral, №035

raboçi"də, rus dilində cap etdirmişdi. Məqalə daha çox teatrşünaslıq janrında yazılsa da, ilk səhifələrində Cavid yaradıcılığı haqqında yığcam məlumat verilmiş, "Şeyx Sənan" faciəsinin süjeti, kompozisiyası, müəllifin əsəri yazmaqda məqsədi, əsas obrazların səciyyəsi yığcam şəkildə oxucuya təqdim edilmişdir. Məqalədə, Hüseyn Cavidi "böyük şair və dramaturq" adlandıran Abbas Zamanov yazır: "H.Cavidin dramları və faciələri Azərbaycan teatrının səhnəsində daimi uğurla gedərək tamaşaçıların dərin məhəbbətini qazanmışdır. Azərbaycan artistlərinin bir neçə nəsli onun dramatik əsərləri zəminində tərbiyə almışdır. Çoxsaylı poemaları və şeirləri həqiqi poeziya örnəkləri kimi oxucuların dilinin əzbəri olmuşdur."

Məqalədən də göründüyü kimi, Abbas Zamanov, "özünəməxsus cəsarət və elmi obyektivliklə" bəraət alar-almaz Cavid sənətinin əsl qiymətini verməkdən çəkinməmiş, onu layiq olduğu şəkildə dəyərlndirmiş, , böyük sənətkar kimi təqdim etmişdir.

Məqalənin davamı kimi, Abbas Zamanov 28 il sonra yenidən "Şeyx Sənan" faciəsinin səhnə təcəssümünə

qayıtmış və əsərin rus dilində ilk tamaşası barədə dəyərli resenziya yazmış və bu yazısını yenə "Bakinski raboçi" qəzetinin 1984-cü il 28 fevral tarixli sayında "Əbədi sevgi nəğməsi" adı ilə dərc etdirmişdir. Məqalədə, "Şeyx Sənan" tamaşasınını "respublikanın mədəni həyatında hadisə kimi dəyərləndirmişdir"[242] (Zamanov, 1984). A.Zamanov Cavidin yalnız "Şeyx Sənan"ı haqqında deyil, "Xəyyam" faciəsinin də ilk tamaşası haqqında məqalə yazıb (1970), nəşr etdirmişdir. Məqalədə, "Xəyyam" əsərinin taleyi, uzun müddət itmiş sayılması, onun əlyazmasının İrəvandan tapılmasında Turan Cavidin gərgin axtarışları xüsusi vurğulanmışdır. Abbas Zamanovun mütəfəkkir Cavid haqqında ən dəyərli əsəri isə, böyük sənətkarın 1982-ci ildə Ümummilli lider Heydər Əliyevin qəbul etdiyi qərarla keçirilmiş 100 illik yubileyi münasibətilə yazdığı "Tənqidi realistlərlə bir cəbhədə"[243] (Zamanov,1982) adlı məqaləsidir.

Abbas Zamanov "bilavasitə Cavid sənətinin

[242]Zamanov A. "Əbədi sevgi nəğməsi" / "Bakinski raboçi" qəz., 28 fevral 1984
[243] Zamanov A. Tənqidi realistlərlə bir cəbhədə /"Ədəbiyyat və incəsənət" qəz., 29 oktyabr 1982

səciyyələndirilməsi ilə başladığı" məqaləsində yazır: "Onun sənətdə öz səsi, öz nəfəsi, öz dəst-xətti vardır. Poeziyada da, dramaturgiyada da o orijinaldır, heç kəsi təkrar etməmiş, heç kəsin təsirinə qapılmamışdır"[244] (Zamanov,1983). Bu məqalə, elə həmin ildə nəşr olunan və redaktorlarından birinin Abbas Zamanov olduğu "Cavidi xatırlarkən" kitabına ön söz kimi verilmişdir. Cavid haqqında yazılan məqalə və xatirələri kitab şəklində çap etdirən A. Zamanovun "Ön söz"ü yazarkən Cavd sənətinə, Cavid yaradıcılığına xüsusi qayğı və ehtiramla yanaşması görülməkdədir. "Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir" - deyən Cavidin bütün yaradıcılığı boyu həqiqətə sadiq qaldığını, yalnız onu tərənnüm etdiyini, ona qovuşmaq arzusu ilə yaşadığını və yaratdığını da vurğulamışdır: "Şairin zəngin yaradıcılıq pafosu göstərir ki, bu müddəa tamamilə doğrudur. Son dərəcə mürəkkəb bir həyat və yaradıcılıq yolu keçən Cavidin ilham pərisi daim həqiqət eşqi ilə qanad çalmış, həqiqət eşqi ilə

[244] Zamanov A. Tənqidi realistlərlə bir cəbhədə. "Ədəbiyyat və incəsənət" qəz., 1982, 29 oktyabr

alovlanıb yaşamışdır. Həqiqəti axtarıb tapmaq, ona qovuşmaq yollarında bəzən şübhələr, tərəddülər keçirən şairin ilham pərisi bəzən əngin səmalarda, tarixin dərinliklərində qanad çalsa da, o, heç bir vaxt öz idealından - həqiqətdən ayrılmamış, bütün yaradıcılıqları boyu onu insanlara aşılamağa, həqiqətin çətin yollarını insanlara göstərməyə çalışmışdır[245] (Zamanov,1982:59).

Məlumdur ki, XX əsrin əvvəllərində istər tənqidi realistlərin, istərsə də mütərəqqi romantiklərin yazıb-yaratdıqları dövr inqlablar dövrü idi və o dövrün ən başlıca xüsusiyyətlərindən biri çarizmin, kapitalist və mülkədar cəmiyyətinin siyasi, mədəni-mənəvi buxovundan xilas olmaq uğrunda mübarizə aparması idi. Tənqidi realistlərin və mütərəqqi romantiklərin "yaradıcılıq metodları" müxtəlif olsa da, bu mübarizədən kənarda dayanmamışdılar, əkisinə, bu mübarizədə onların qabaqcıl nümayəndələri qələmləri ilə fəal iştirak edirdilər. Görkəmli alim bu məsələdə Sabirlə Cavid əfəndini müqayisə edərək onların eyni amala xidmət etdiklərini vurğulayır, hər

[245] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70

ikisinin də qəlbinin vətən eşqi ilə çırpındığının altını cızırdı.  Göstərirdi ki, əgər Sabir:

Vətən uğrunda, millət eşqində

Bəzli can et xülusi niyyət ilə!

İş apar, baş gedərsə qoy getsin...

Ad qalır bəs deyilmi millət ilə?![246] (Zamanov,1982: 60) –  yazırdısa,

Cavid əfəndi:

Mayeyi iftixarı həp kişinin

Vətən uğrunda bəzli xidmətdir![247] (Zamanov, 1982:61) – deyə hayqırırdı.

Realist Sabirlə romantik Cavidi qarşılaşdıran Abbas Zamanov "bu misralar hər iki şairin yaradıcılığı üçün epiqraf, hətta manifest sayıla bilər" – fikrini ifadə edirdi, çünki eyni amala xidmət edən, "eyni məqsəd daşıyan bu iki sənətkar bu arzunu bədii həqiqətə çevirib oxucunun şüuruna, hissinə, duyğusuna aşılamağa çalışırdı, ilhamlarını bu məqsədə doğru yönəltmişdilər"[248] (Zamanov, 1982: 61).

---

[246] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70
[247] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70
[248] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 60

Sabir kimi, romantik qəlbi hər zaman vətən və xalq üçün eyni nəcib, işıqlı  əməllərlə çırpınan Cavid də "ayaq altında pamal olmuş" vətəninin dərdlərinə dərman tapmaq istəyi ilə alışıb yanır, onun acılarına ağrıyır, fəryad qoparırdı. Abbas Zamanovun da vurğuladığı kimi, "romantik Cavid də real aləmdə hökm sürən rəzalətlərlə barışmamış, "birər zəncir olan əski adətlərə, dünyada hökmranlıq edən ölmüş duyğulara", bir sözlə, istismar üzərində qurulmuş cəmiyyətə qarşı çıxmış, onu didməyə, yıxmağa çağırmışdı:

İştə bir meydan ki, istər qəhrəman,

Hər kimin var meyli etsin imtahan![249] (Zamanov, 1982:61).

Azərbaycan romantizminin "baniye-kar"larından olmasına baxmayaraq, Hüseyn Cavddə realist yön də güclü idi. Onun həmişə inkişafda olmuş; "daim qol-budaq atmış, zamanın ictimai siyasi hadisələrinə, müasir qələm yoldaşlarının səsinə həmişə öz bədii metodu, dünyagörüşü

[249] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 61

cəbhəsindən səs vermiş" yaradıcılığını diqqətlə izləyəndə bunu görməmək mümkün deyil.

Ötən əsrin onuncu illərində mütərəqqi Azərbaycan yazıçıları, xüsusən, inqilabi- demokratik "Molla Nəsrəddin" jurnalının ətrafında birləşən yazıçılar xalqı geri çəkən feodal - patriarxal adətlərə, cəhalət dünyasının əxlaq normalarına qarşı ölüm-dirim mübarizəsi apararkən Hüseyn Cavid də bu mübarizəyə biganə qalmamış, o da realistlərin tənqid hədəflərinə romantik cəbhədən atəş açmışdı. "Ana" (1910) və "Maral" (1913) pyesləri buna ən yaxşı misaldır. O zaman "Ana" və "Maral" Cavid yaradıcılığında müsbət bir hadisə idi. Bu əsərlərin ümumi pafosu Cavidi tənqidi realistlərlə daha yaxından bağlayırdı. Cavid romantikasının demokratizmi məhz bu əsərlərdə özünü açıq göstərdi"[250] (Zamanov,1982: 63). Ədib "Maral" faciəsini qələmə alarkən Azərbaycan mətbuatında "Təcəttüri-nisvan" ətrafında gedən mübahisə son dərəcə kəskinləşmişdi. Bu zaman qadın azadlığı məsələsində Azərbaycan ziyalıları bir-birinə zidd olan iki cəbhəyə-

[250] Zamanov A. Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70

mütərəqqi və mürtəce cəbhələrə bölünüb mübarizə edirdilər. “Molla Nəsrəddin” jurnalının başçılıq etdiyi mütərəqqi cəbhə qadınların qara çadra altından çıxıb maarif və mədəniyyətə qovuşması, azad sevgi, mədəni ailə uğrunda, qadının şəxsiyyətini alçaldan şəriət ehkamlarına qarşı çıxır, mürtəce cəbhə isə islamiyyətin köhnəlmiş normalarını inadla müdafiə edirdi. Bu zaman Cavidin mollanəsrəddinçilərin mövqeyinə keçməsi, mühim müasir əhəmiyyəti olan bir məsələdə realist Azərbaycan yazıçılarına yaxınlaşıb, onlarla bir cəbhədə durması, heç şübhəsiz ki, onun yaradıcılığında yeni, mütərəqqi bir addım idi”[251] (Zamanov,1982:63). Cavidin “Maral” faciəsinin xüsusi əhəmiyyət kəsb etidyini, müasir həyata, müasir ictimai hadisələrə münasibəti baxımından isə “Şeyda“ əsərinin müstəsna əhəmiyyəti olduğunu vurğulayan Abbas Zamanov yazır: “bu əsərində real həyata daha yaxın gələrək, istismarçı siniflərin vəhşi təbiətini sonsuz nifrət hissi ilə təsvir etmişdir. Ədibin yaradıcılığında azadlığa, ədalətə çağırış motivləri bu əsərdə artıq sentimental və

[251] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70

mücərrəd deyil, konkret məna daşıyır, kəskin səslənirdi. Tədqiqatçı əminliklə bildirir ki, vaxtı ilə “Cavid öz xalqı ilə bağlı olmamışdır, Azərbaycan həyatından yazmamışdır” - deyənlər səhv edirlər”[252] (Zamanov,1982: 9). Digər tərəfdən, Abbas Zamanov Hüseyn Cavidin tez-tez tarixə müraciət etməsini mənfi bir hal kimi qiymətləndirənlərə də münasibət bildirmiş, onların yanıldığını vurğulamışdı: “Əgər Cavid Şərqin qədimdən bəri dillərdə gəzən “Şeyx Sənan” əfsanəsini öz yaradıcılıq laboratoriyasının süzgəcindən keçirib gözəl bir məhəbbət dastanı yaratmışdırsa, heç bir qəbahət iş görməmişdir. Eyni sözü onun müasirliklə səsləşən “Knyaz”, Səyavuş” və nəcib, ümumbəşəri duyğular tərənnüm edən “Xəyyam” pyesləri haqqında da demək olar. Bu cəhət humanist sənətkarın coğrafi sərhəd və milli məhdudiyyət bilməyən yaradıcılıq üfüqlərinin genişliyini, bədii təxəyyülün əhatəli və dərinliyini göstərir ki, biz buna ancaq sevinməliyik. Axı Cavidi Cavid edən, onu böyük sənətkarlar sırasına çıxaran

[252] Zamanov A. Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 67

da “Şeyx Sənan”, “Səyavuş”, “Xəyyam” kimi sənət inciləridir. Ədəbiyyatımızın qızıl fonduna möhkəm daxil olmuş bu əsərlərlə biz haqlı olaraq fəxr edirik. Cavidin bəzi tədqiqatçıları çox vaxt unudurlar ki, Cavid tarixə müraciət edərkən hadisələrə bu günün gözü ilə baxmış, onları müasirlik baxımından mənalandırmışdır” [253] (Zamanov, 1982:10).

Ədibin yaradıcılıq taleyi elə gətirmişdir ki, vulqar sosiologiya və şəxsiyyətə pərəstişin hökm sürdüyü illərdə qərəzli tənqidin hədəfi olmuşdur. Özü də elə tənqid ki, onu adam bu gün ortaya çıxarmağa belə utanır. Halbuki, XX əsrin ilk illərindən başlayaraq, 30-cu illərin birinci yarısınadək davam edən dövrdə Azərbaycan ədəbiyyatını, xüsusən Azərbaycan teatrını Cavidsiz təsəvvür etmək mümkün deyildir. Cavidin Azərbaycan ədəbiyyatı tarixində tutduğu mövqeyi qiymətləndirərkən nəzərə almaq lazımdır ki, müəyyən ictimai-mədəni inkişaf yolu keçən hər hansı bir xalqın ədəbiyyat tarixində Sabirlərlə yanaşı Hadilər də

[253] Zamanov A.  Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 69

olmuşdur. Cabbarlılarla yanaşı Cavidlər də olmuşdur.

Hüseyn Cavid mənalı həyat və yaradıcılıq yolu keçmiş, həqiqət, məhəbbət, insanpərvərlik, ədalət, gözəllik. sədaqət, mərdlik kimi yüksək bəşəri keyfiyyətlər tərənnüm edən "bənzərsiz" bir sənətkar, dahi söz ustadıdır. O, ədəbiyyatımıza bir-birindən dəyərli, gözəl səhnə əsərləri, "ölməz faciələr" bəxş etmişdir. XX əsr Azərbaycan ədəbiyyatına on dörd sanballı əsər bəxş etmiş "hünərvər şair" Hüseyn Cavidin yaradıcılığı iki dövrü, Oktyabr inqilabından əvvəlki və Oktyabr inqilabından sonrakı sovet dövrünü əhatə edir. H. Cavidin dram əsərləri istər ictimai mündərəcəsinə görə, istərsə də milli və bəşəri məzmununa görə xüsusi çəkisi, sanbalı olan əsərlərdəndir. Cavid yaradıcılığını, əsərlərinin səhnə təcəssümünü tədqiqatlarında hər zaman böyük bir uğurla və diqqətlə izləyən Abbas Zamanov "Afət" pyesi 1983-cü ildə Hüseyn Ərəblinski adına Sumqayıt Dram Teatrında səhnəyə qoyulduqdan sonra tamaşa haqqında məqalə yazmış və tamaşa haqqındakı dəyərli fikirlərini "Bakinski raboçi" qəzeti vasitəsiylə oxucuları ilə paylaşmışdır. Elə həmin

ildə, bu dəfə “Kommunist” qəzetində “Cavid sənətinin qələbəsi” adlı məqaləsi ilə çıxış edə alim Cavidşünaslıq üçün çox böyük maraq doğuran maraqlı bir tarixi faktı açıqlamışdır  Onun açıqladığı bu sənəddən belə məlum olur ki, hələ  1921-ci ilin yanvar ayında tamaşaya qoyulan “İblis” faciəsi böyük uğur qazanmış və tamaşanın qazandığı böyük uğur münasibətilə Xalq Maarif Komissarlığı kollegiyasının (1921-ci il 13 yanvar protkol №66) qərara almışdır ki, “şair Hüseyn Cavidin, orijinallıq və bədiilik cəhətdən müsəlman aləmində yeganə olan pyesinə tarif üzrə müəllif haqqı verilsin. Bundan əlavə Hüseyn Cavid yoldaşa mükafat olaraq 150 min manat verilsin.”

Abbas Zamanovun “Bir kitabın taleyi, yaxud Vəli Məmmədovun Amerika səfəri” adlı məqaləsi Cavidşünaslıq fəaliyyətinin “son akkordları” sayıla bilər. Ömrünün sonlarında yazdığı,  1992-ci ildə çap olunan bu məqalədə  Abbas Zamanov əslən şuşalı olan, ancaq Amerikada yaşayan ədəbiyyatşünas Mustafa Haqqı Türkəqulun “Azərbaycan türk şairi Hüseyn Cavid”

monoqrafiyasını ilk dəfə Azərbaycanda cavidsevərlərə tanıdıb, əsəri dəyərləndirib. Bu “məqalədə qərib azərbaycanlıların keçirdiyi niskil duyğuları, onların tükənməz vətən sevgisi xüsusi bir tərənnüm qaynağı kimi oxuculara təqdim olunmuşdur.

Çətin, bulanıq bir dövrdə həqiqi sənət, həqiqi ədəbiyyat uğrunda mübarizə aparan, “həqiqət istərəm, yalnız həqiqət”,- deyə amalını bəyan” edən, “milli düşüncə əfəndisi” (M. Ələkbərzadə) Hüseyn Cavid “təkcə ilhamına söykənmiş dahi sənətkar deyil, həqiqətlər barədə öz konseptual baxış tərzi olan, bəşərin əhvalını, millətinin istiqbalını və istiqlalını düşünən, milli məfkurəvi məsələlərdə dürüst nəticələrə gələn böyük filosof”dur. Eyni zamanda “əqidəsi və məramı” uğruna ölümü seçən bir mücahitdir. Azərbaycan ədəbiyyatında özünəməxsus bir zərvədə qərarlaşan “əqidəsi və məramı” uğruna ölərək yaşamağı seçən mücahit sənətkar Hüseyn Cavid sənətinə, Hüseyn Cavid şəxsiyyətinə böyük ehtiram bəsləyən, onun əsərlərinin tədqiqi, təbliği və nəşri sahəsində misilsiz işlər görən insanları da ədəbiyyat mücahitləri adlandırmaq

doğru olar ki, bu mücahitlərin də ən öndə gələnlərindən biri də Abbas Zamanov idi.

60-cı illərdə M.C.Cəfərovun "Hüseyn Cavid" monoqrafiyası ilə Cavidə qayıdış başlasa və "romantizmin ruhu elmi-realistik üslubda tam açıla bilməsə"[254] də (Xəlilov, 2009:7) Əbülfəz İbadoğlunun "bəraət" dövründə yazılmış "Hüseyn Cavidin "İblis" faciəsi" (1969), Məsud Əlioğlunun "Hüseyn Cavidin romantizmi" (1975), Zahid Əkbərovun "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi" (1977), Yaşar Qarayevin "Realizm:sənət və həqiqət" (1980), Rəfiq Zəka Xəndanın "Cavid sənəti" (1981) monoqrafiyalarının yazılması birbaşa Cavidşünaslığın təkamülünə xidmət idi. Hüseyn Cavidin "İblis" və "Şeyx Sənan" faciələrinin obrazları, süjet və kompozisiyası, ideya istiqamətləri ətraflı şəkildə təhlilə cəlb olunmuş bu tədqiqat əsərlərində diqqəçəkən məsələlərdən biri də tədqiqatçıların izah və şərh etdiyi məsələlərə Cavid yaradıcılığı kontekstində yanaşmalarıdır. "Bu da, bir tərəfdən hər bir

[254] Xəlilov S. Məsud Əlioğlunun yaradıcılığında fəlsəfi meyl haqqında. 525-ci qəz., 2009. 3 mart. s.7

əsərin orijinal xüsusiyyətlərinin meydana çıxarılmasını təmin etmiş, digər tərəfdən isə, dramaturqun ümumi yaradıcılıq xüsusiyyətlərinin təsdiqinə imkan yaratmışdır”[255] (Əliyev, 2009:33).

Cavidşünaslıqda özünəməxsus yeri olan “Hüseyn Cavidin romantizmi” adlı monoqrafiyasının müəllifi Məsud Əlioğlu da Hüseyn Cavid yaradıcılığını yeni rakursdan araşdıralardan biridir. Ədəbiyyatşünaslıq fikrinin romantizmə olan marağın geniş vüsət aldığı bir zamanda yaranmış monoqrafiyada Cavidin yaradıcılığı aşağıdakı başlıqlar ətrafında ümumiləşdirilmişdir: “Qəhrəmanlıq idealı və qəhrəman şəxsiyyətlər” (“Ana”), “Darıxan adamlar” (“Maral”, “Şeyda”, “Afət”, “Uçurum”), “Eşq və ülviyyət” (“Şeyx Sənan”), “Məhəbbətdir ən böyük din” (“Peyğəmbər”, “Təkliyin faciəsi” (“Səyavuş”), “Axtarış” (“Xəyyam”, “Azər»”, “Şəxsiyyət və zaman” (“Knyaz”), “Fatehin faciəsi” (“Topal Teymur”). Aparılan ümumiləşdirmədən də göründüyü kimi, monoqrafiyada tədqiqatın istiqaməti problemlərə doğru yönləndirilmişdir.

---

[255] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35

Monoqrafiyada müəllifin yeni bir baxış bucağından yanaşaraq "20-30-cu illər ədəbi tənqidindən heç bir söz açmadan böyük sənətkarın əsərləri barədə özünəməxsus, yeni fikir və mülahizələr" söyləməsi diqqətçəkicidir. Xüsusən də, 20-30-cu illər tənqidinin "Peyğəmbər" və "Topal Teymur" əsərləri ilə bağlı subyektiv, qərəzli fikirlərin üzərindən xətt çəkərək ilk dəfə olaraq Cavidşünaslıqda bu əsərlərin əsl dəyərini verib: "Peyğəmbər"ə islamçılıq fikirlərini yayan və bununla da guya din birliyi ideyasını müdafiə edən bir əsər kimi yanaşanların əksəriyyəti ciddi səhvə yol verirlər. Bu haqda mülahizə yürüdənlər dramın başlıca məfkurəvi-bədii qayəsini, ideya məzmununu olduğu kimi şərh etmədiklərindən, elmi məntiqlə hər cür uzlaşmayan yanlış və birtərəfli fikirlər söyləmişlər"[256] (Əlioğlu,1975:122). Az öncə bəhs etdiyimiz kimi, "20-30-cu illər ədəbi tənqidinin belə yanlışlıqları çox idi və ən başlıcası budur ki, o yanlış fikirlər H.Cavid sənətinin düzgün dərkinə mane olmuş, bu

[256] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s.122

sənətə müəyyən mənada kölgə salmışdır"[257] (Əlioğlu, 1975:126). 20-30-cu illər tənqidindən fərqli olaraq M.Əlioğlunun "Peyğəmbər" haqqında düşüncəsinə görə: "pyesdəki Peyğəmbər, Cavidin həqiqət və ədalət axtaran ənənəvi qəhrəmanlarından biridir və onunla tarixi islam peyğəmbəri arasında eyniyyət işarəsi qoymaq doğru deyildir"[258] (Əlioğlu, 1975:200). Tədqiqatçının "Peyğəmbər"lə yanaşı, "Topal Teymur" haqqındakı mülahizələri də yenidir, obyektivdir. M.Əlioğlunun fikrincə, H.Cavidin bu mövzunu seçməsi doğrudur: "Teymur surətində ziddiyyətli şəkildə birləşən bu iki halın səciyyələndirilməsi H.Cavidə nə mənada lazım olmuşdur? Cəmiyyətin həyatını sülh, asayiş və bərabərliyə çatdırmaq naminə nə kimi tədbirlərin vacib, zəruri olduğunu tapmaq axtarışları Cavidin belə bir surətə marağını təbii etmişdir"[259] (Əlioğlu, 1975:201).

Bir çox elmi tezis və nəticələri ilə hər zaman dəyərli olan monoqrafiyada "Cavid poeziyası timsalında ideal və

[257] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s.126
[258] Yenə orda, s.200
[259] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s.201

varlıq problemini araşdıran Məsud Əlioğlu bununla əlaqədar Hegelin “Tarix fəlsəfəsi” əsərinə müraciət edir. O dövrdə ancaq marksizm-leninizm klassikləri ilə kifayətlənən rəsmi fəlsəfə professorlarından fərqli olaraq Məsud Əlioğlu “ideal” problemini idealizmin ən böyük nümayəndəsi Hegelin təqdimatı kontekstində araşdırıb. Cavid yaradıcılığını tədqiq edən müəllif yazır: “Şairə görə bəşər həyatı yaşayışı gözəlləşdirmək üçün yaranmışdır. Gözəl olan bir şey isə yüksəkdir, ülvidir, real varlıq isə bu səviyyəyə qalxmamışdır. Demək, böyük ideal ülviyyətə, gözəlliyə yüksəlmək üçündür” (Əlioğlu,1975: 33). Maraqlıdır ki, müəllif Cavidin idealist mövqedə durduğunu gizlətmir. Lakin bunu o dövrün tələblərinə uyğun olaraq tənqid etmək fikrinə də düşmür. Məhz həmin mövqedən çıxış edən müəllif yazır: “H.Cavidin həyatın mənasını, yaşayışın məğzini, maddi real aləmin cövhərini, mənəvi-ruhi aləmini daim pak və gözəl, fərəh dolu hisslərlə coşub-daşan bir səviyyədə görməyi arzulaması qüdrətli və böyük insan idealının real aləmdəki fənalıqlara qələbə çalacağına

bəslədiyi tükənməz inamını bildirir, ifadə edir"[260] (Xəlilov, 2009:7). Eyni fikirlər onun "Sən nəsən? Kimsən?" şeirinə münasibətində də özünü göstərir: "Fəlsəfi-idealist məzmunda yazılmış bu şeirdə H.Cavidi mütəfəkkir sənətkar olaraq düşündürən, onun mənəvi aləmini məşğul edən ixtişaşlı və böhranlı fikirlərin təbliği mühim yer tutur. Şair bu əsərində, hər şeydən əvvəl, özünü dərk etməyə çalışır; qəlbini didən və dilləndirən suallara cavab axtarır..."[261] (Xəlilov,2009:7).

20-30-cu illərdə daha çox "köhnə mövzular"dan yazdığı üçün tənqid obyektinə çevrilsə də, Cavid sənəti hər zaman yenidir, düşündürücüdür, və əbədidir. Cavid yaradıcılığına maraq daha güclüdür. Və daima mütəfəkkir sənətkarın "zəngin ədəbi irsini bütün çalarları ilə işıqlandıran, şəxsiyyətini dolğun müəyyənləşdirən yeni-yeni əsərlərin meydana çıxması da bu səbəbdəndir. Cavid sənətini sevən və obyektiv dəyərləndirən, sənətşünaslıq doktoru, professor Mehdi Məmmədovun (1918 - 1985) H.Cavid irsinə həsr

[260] Xəlilov S. Məsud Əlioğlunun yaradıcılığında fəlsəfi meyl haqqında. 525-ci qəz., 2009. 3 mart. s.7
[261] Yenə orda,s.7

olunmuş “Acı fəryadlar, şirin arzular” kitabı (“Gənclik”, Bakı, 1983-cü il) xüsusi maraq doğurur. Ədibin yaradıcılığını sevmiş, öyrənmiş, onun ədəbi və səhnə təbliği ilə uzun illər məşğul olmuş Mehdi Məmmədov Cavidə həsr edilmiş “Acı fəryadlar, şirin arzular” kitabının müəllifi olmaqla yanaşı, həm də Hüseyn Cavidin “Xəyyam” (1970) və “İblis” (1982) əsərlərinə səhnə quruluşu vermiş rejissordur. Kitabda böyük Cavidin poeziyasına və dramaturgiyasına, habelə Cavidşünaslığın aktual məsələlərinə dair özünün düşüncələrini və xatirələrini toplayıb oxuculara təqdim edən müəllif Cavidin şəxsiyyəti və sənətini belə səciyyələndirir: “Elə adlar vardır ki, onları eşidəndə təqdim və tərif gərək olmur. Onlar nə əlavə izahata, nə köməkçi bir əlamətə, nə də fəxri ada, nişana, təmtəraqlı ünvana möhtac görünürlər. Rütbələr, vəzifələr, mənsəblər də onları bildirmir, bəzəmir. Əksinə, bəlkə onlar tutduqları yeri, mənsəbi, daşıdıqları rütbəni bəzəyir, ucaldırlar. Belə adların, bu cür adamların şöhrəti təbii, hörməti qanuni olur. Belə şəxsiyyətlərin qazandıqları məhəbbət sonsuz, etimad isə misilsizdir. Onlara qarşı

xalqın rəğbəti az qala pərəstiş rəsminə çevrilir. Onların yazdıqları, dedikləri insanı saflaşdıran, ucaldan, nəcibləşdirən təsir və təlqin qüvvəsi kəsb edir”[262] (Məmmədov,1983:6). Böyük sənətkar haqqında yazan tənqidçi və tədqiqatçıların əksəriyyəti zamanından, dövründən asılı olmayaraq, onun yaradıcılığının mürəkkəbliyi və təhlil çətinliklərindən bəhs etmişlər. Bunu M.Məmmədova da aid etmək olar. Cavid yaradıcılığının mürəkkəbliyini “Acı fəryadlar, şirin arzular” kitabında etiraf edən M.Məmmədov yazır: “Cavid əsərlərinin təhlilini çətinləşdirən bir cəhət də var: bütün klassik əsərlər kimi onların da müxtəlif ideyası həmişə göz qabağında, üzdə olmur, düstur və deklarasiya tərzində dərhal və aşkar təqdim olunmur. İdeya hadisələrin axarından, xarakterlərin inkişafından, əsərdən bütünlüklə alınan təəssüratdan hasil olur”[263] (Əliyev,2013:178). Əslində, “bu həqiqət Cavid sənətinə yanaşmanın düzgün elmi-nəzəri metodu kimi müəllifin özünün də irəli sürdüyü fikirlərin istinad

[262] Məmmədov M. Acı fəryadlar, şirin arzular. Bakı: Gənclik, 1983,6
[263] Əliyev K.Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: Elm, 2013, s. 178

nöqtəsidir. Müəyyən dövrlərdə Cavid yaradıcılığına münasibətdə tənqidin mövcud olan qüsurlarını və səhvlərini təhlildən keçirmək, vulqar sosioloji mülahizələrə təshihlər və düzəlişlər vermək, ayrı-ayrı tənqidçilərin subyektiv mövqelərini araşdırmaq bütün kitab boyu davam və inkişaf edən təqdirəlayiq cəhətdir"[264] (Əliyev, 2013:178). Real faktlara və müxtəlif materiallara əsaslanaraq, Cavidşünaslığın son mərhələsində nəzərə çarpan nöqsanları göstərməyi də unutmayan müəllif bəzi etiraflar da edir, "vaxtı ilə özünün "Azərbaycan dramaturgiyasının estetik problemləri" kitabında irəli sürdüyü bir çox hökmlərin yanlış olduğunu dilə gətirir. "Kitabda sənətkarla şəxsən yaxınlığına, müəllim-tələbə rəftarına əsasən H.Cavidin mübarizə həyatının yeni səhifələrini yazan" M.Məmmədov, "Cavidin mühazirələrinə istinad edərək, onun ədəbiyyat nəzəriyyəsinə və tarixinə, ayrıca romantizmə, ədəbiyyatın ideyalılığı və bədiiliyinə dair mülahizələrini aydınlaşdırmasını və ümumiləşdirməsini və bu zaman

[264] Əliyev K.Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: Elm, 2013, s. 178

H.Cavid lirikasının xarakterik xüsusiyyətlərini bu lirikanın özündən çıxış edərək müəyyənləşdirməsini yüksək dəyərləndirir. Bu qənaətə gəlir ki, "alimin təqdimində Cavid lirikasının inkişafı, ciddi novatorluq keyfiyyətləri qazanması sənətkarın əqli və fikri inkişafının nəticəsi kimi dəyərləndirir"[265] (Əliyev, 2013:178).

Monoqrafiyada mütəfəkkir şairin lirik yaradıcılığında "irəli sürülən problemlər, fikir və düşüncələr, hətta bir sıra suallar, həyacanlar belə o dövrün narahat insanlarının psixologiyasını əks etdirən bədii nümunələr kimi səciyyələndirilir"[266] (Əliyev,2013:180). Tədqiqatda M.Məmmədov H.Cavidin faciələrindən "ayrı-ayrılıqda danışsa belə, onlar bir xətt üzərində qərarlaşır və bütövlükdə sənətkar idealının və sənətkarın həyat konsepsiyasının ifadəsinə çevrilir. O, öz axtarışlarını "Cavid teatrı" problematikasının şərhinə doğru yönəldir. Bir sənətkarın adı ilə məşhurlaşan teatrdan danışmaq isə ilk növbədə bənzərsizliyin meydana çıxarılması deməkdir.

[265] Əliyev K.Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: Elm, 2013, s. 178
[266] Əliyev K.Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: Elm, 2013, s. 181

Məhz bunun nəticəsidir ki, şübhəçilik Şeyx Sənanın xarakter cizgisi kimi deyil, daha artıq dərəcədə onun dünyagörüşü səviyyəsinə qaldırılır. "İblis obrazı fövqəltəbii qüvvədən təbii qüvvəyə, simvoldan həqiqətə, şeytandan sanki insana çevrilir və bu çevrilmə Cavid sənətinin özünəməxsusluğu kimi görünür.

Ümumiyyətlə, "Hüseyn Cavidi ədalət sorağında olan sənətkar-mütəfəkkir kimi görən və göstərən" Mehdi Məmmədovun "Acı fəryadlar, şirin arzular" monoqrafiyasında H.Cavidin sovet dövrü yaradıcılığı hərtərəfli şəkildə izah edilir. Uzun müddət "Afət", "Peyğəmbər", "Topal Teymur" əsərlərinin yarandığı illərə verilmiş "böhran dövrü" adı "barlı-bəhərli illər" kimi dövrləşdirilir. "Yeni həyata həsr olunmuş iri pyeslərin rus dramaurgiyası tarixindəki kimi Azərbaycan ədəbiyyatında da 20-ci illərin sonlarına yaxın yazılması faktı və beləliklə, həyat həqiqəti ilə bədii həqiqətin arasındakı əlaqənin çıxış nöqtəsinə çevrilməsi H.Cavidə qarşı yönəldilmiş "müasir həyatdan yazmamaq" ittihamının əsl elmi bəraətinə çevrilirsə, "bədii əsərlərin müasirliyini onların idrak

əhəmiyyətində axtarmaq isə tarixə üz tutan Cavidə düzgün baxışın yolunu işıqlandıran alim tapıntısı olur”[267] (Əliyev, 2013:180).

Kitabın “Peyğəmbərin və Topal Teymurun şərikli qılıncı” adlanan hissəsində müəllif, hər şeydən öncə, tarixi hadisələrə və şəxsiyyətlərə münasibət məsələsini, “tarixi faktlara müti olmaq, onlara pedant dəqiqliyi ilə riayət eləmək” prinsipini, daha doğrusu, prinsipsizliyini aydınlaşdırır. Bir sözlə, H.Cavidin yalnız ayrı-ayrı əsərlərini, obrazlarını deyil, onun bütöv yaradıcılığını və bu yaradıcılığın inkişaf meyillərini araşdıran M.Məmmədov Cavid dramaturgiyasında “Knyaz” faciəsi yeni bir mərhələnin başlanğıcı”, “Azər” poemasını “Cavid romantizminin yüksək zirvəsi” kimi qiymətləndirməsi” həm M.Məmmədovu H.Cavid yaradıcılığına xüsusi münasibəti olan nəzəriyyəçi-tədqiqatçı kimi tanıdır, həm də “Hüseyn Cavidi yalnız həqiqəti dərkin deyil, həmçinin bundan daha çox həqiqətin dərindən kəşfinin müəllifi kimi tanıtdırır.” Sözsüz ki, kitab müəyyən qüsurlardan da xali

[267] Əliyev K.Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: Elm, 2013, s. 180

deyil, xüsusən də, Cavidin ilk yaradıcılıq dövründə yazdığı şeirlərindəki bədbinlik və ümidsizlik motivlərinin sənətkarın zəifliyi kimi izah olunması və s. Bu kimi qüsurların olmasına baxmayaraq Abbas Zamanovun redaktorluğu ilə nəşr olunan "Acı fəryadlar, şirin arzular" kitabı mütəfəkkir sənətkarın sənət qüdrətinin möhtəşəmliyini açmaq baxımından Cavidşünaslığa sanballı töhfədir.

Qeyd edək ki, ədəbi tənqid və ədəbiyyatşünaslıq Cavidin əsərlərini təhlilə cəlb edərkən, bəzən onlara pyes kimi, bəzən faciə kimi, bəzən də "XX əsrin əvvəllərinin və həmin əsrin 20-ci illərinin bədii məsulu kimi, gah teatr əsəri kimi, gah da romantizm nümunələri kimi yanaşmışlar. Şübhəsiz, bunların hər biri müxtəlif istiqamətlərin nişanəsi olduğu üçün sənətkar haqqında da müxtəlif səciyyəli mülahizələr söylənilmişdir. Lakin hansı istiqamətdə olursa-olsun, Huseyn Cavid yaradıcılığına romantizmin prinsipləri və tələbləri ilə yanaşmaq daha vacib və daha

zəruridir"[268] (Əliyev,2009:32). Bu baxımdan görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayevin "Faciə və qəhrəman"[269] (Qarayev,1965: 94) monoqrafiyası müstəsna bir əhəmiyyət kəsb edir. Monoqrafiyanın Cavidin əsərlərinin təhlilindən bəhs edən fəslinin "Romantik faciələr" adlandırılması təsadüf sayıla bilməz. Monoqrafiyada öz fikirlərini, əsasən, "Şeyx Sənan", "İblis", "Maral", "Uçurum", "Afət", "Şeyda" və "Səyavuş" əsərləri üzərində qurmuş, Cavidin romantizmdəki mövqeyini müəyyən edən Y.Qarayev yazır: "Cavidin faciələri süjetin əsasında qoyulan tragik konfliktin, fəci ziddiyyətlərin ifrat ölçüləri ilə də realist faciədən fərqlənir. Romantik faciədə tragik konflikt, adətən, "mən və dünya", "mən və varlıq" arasında ziddiyyətləri əhatə edir, əbədiyyət və kainat ölçüləri miqyasında baş verir"[270] (Qarayev, 1965: 99). Ədibin "romantik faciələri arasındakı əlaqələri, bağları müəyyənləşdirməyə daha çox səy göstərən və bu yolla dramaturqun əsərlərini vahid xətt üzrə inkişaf edən,

---

[268] Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35
[269] Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr, 1965, s.94
[270] Yenə orda, s. 107

haradasa bir-birini tamamlayan əsərlər kimi götürən" Yaşar Qarayevin mülahizəsi çox səciyyəvidir: "Şeyx Sənan"dakı idrak eşqi, həqiqət axtarıcılığı motivi "İblis"də daha geniş bir miqyasda davam və inkişaf etdirilir. "İblis"də həqiqət və ədalət axtaran, saxta ehkama, etiqada aldanan başqa bir filosofun mənəvi və əxlaqi faciəsini təsvir edir. Cavidin bu əsərində də məkan konkretliyi yoxdur. Hadisələr qeyri-müəyyən bir yerdə, harada isə Şərqdə cərəyan edir"[271] (Qarayev,1965:107). Ədəbiyyatşünaslıqda Cavid romantizmini xarakterizə edən Y.Qarayev yazır: "Orta əsr romantikasından, onun panteistvari "daxili təmizlənmə" ideyasından fərqlənir. Cavid "ümumi məhəbbətə" fərdi "daxili təkamül" yolu ilə yox, həyatda birlik və cəmiyyətdə mübarizə yolu ilə nail olmağa çağırırdı." Eyni zamanda Cavid romantizmi gözəllik və eybəcərlik arasında barışdırıcı rol oynamır. Onun romantizmində "İblis qəhqəhəsi və Mələk fəryadı həmişə bir yerdə, vəhdətdədir" (Qarayev,2002:69). Görkəmli ədəbiyyatşünas "Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər" (Bakı, "Elm", 2002)

[271] Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr, 1965, s.99

kitabında Hüseyn Cavid yaradıcılığından bəhs edərkən diqqəti daha çox şairin əsərlərindəki son, absurd problematikasına yönəldir. Əsərlərində dəfələrlə Cavid yaradıcılığına müraciət edən görkəmli ədəbiyyatşünas Y.Qarayev  ədəbiyyatşünasların mütəfəkkir sənətkarın “sosialist realizminə keçməsi”, fikrinin əleyhinə çıxaraq onların “H.Cavid sovet dövründə yazdığı əsərlərdə romantizmdən sosialist realizmə keçməsi ilə bağlı mülahizələrni ifratçılığın bir nümunəsi adlandırmışdır”[272] (Qarayev,1980:247).

Ümumyyətlə, Azərbaycan ədəbiyyatşünaslığında, H.Cavid sənəti haqqında söz deməyən çox az tədqiqatçı, şair, jurnalist və s. tapılar. Lakin bunların içərisində elə bir ad var ki,  Hüseyn Cavidin həyat və yaradıcılığından söz açarkən o adı unutmaq böyük qəbahət olar. Bu tədqiqatçı jurnalist Qulam Məmmədlidir (1897-1994). Müasir Azərbaycan Ədəbiyyatı tarixində ilk dəfə Təbrizdə Fədainin “Bəxtiyarnamə”sini (1945), Heyran xanımın (1951), Mirzəli Möcüz Şəbüstərinin, İran Azərbaycanı

[272] Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr, 1965, s.247

şairlərinin şerlərini (1946), Səttarxan şerlər toplusunu, Əliağa Vahidin əsərlərini (1975) toplayıb çap etdirmiş, "Xiyabani" (1949), "Molla Nəsrəddin", "Hüseyn Ərəblinski" (1967), "Cahangir Zeynalov" (1968), "Azərbaycan teatrının salnaməsi" (iki cilddə, 1975, 1983), "Üzeyir Hacıbəyov" (1982) salnamələrinin tərtibçisi olan Qulam Məmmədli "Azərbaycan teatrının salnaməsi" kitabında Hüseyn Cavidin bütün dram əsərlərinin səhnələşmə tarixini dəqiqliklə araşdırmışdır. "Ömrü boyu əlyazmalarla, kitablarla, arxivlərlə bağlı olmuş salnaməçi alim, "özü də qədim bir əlyazmaya bənzəyən" Qulam Məmmədlinin "dəmir yaddaşına hopub qalmış saysız-hesabsız surətləri içərisibdə ulu Cavidin şəfqətli siması da cilvələnir"[273] (Hüseynov,2007:561).

Onun Hüseyn Cavidin anadan olmasının 100 illiyi ərəfəsində nəşr olunmuş "Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi"[274] (Bakı,Yazıçı, 1982) kitabı böyük zəhmət və xüsusu həssaslıqla mətbuatdan, arxiv

---

[273] Hüseynov R. Əbədi Cavid.Bakı, Nurlan,2007, s.501

[274] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı:Yazıçı, 1982

materiallarından, xatirələrdən toplanmış zəngin sənədlər və faktlar toplusudur. Hüseyn Cavidin həyat və sənət yolunu əks etdirən yeni faktlar, ümumilikdə, Cavid yaradıcılığına orjinal baxış oxuculara ilk dəfə məhz bu salnamədə təqdim olunub, bəzi tarixlər dəqiqləşdirilib. Hər zaman özünün Hüseyn Cavid dühasının təsirində hiss edən Qulam Məmmədlini "Cavid yaradıcılığına bağlayan" onun əsərlərindən aldığı yüksək təsir olub: "Altmış ildir bu təsir altında yaşayıram. Hər dəfə onun əsərlərini oxuyarkən Sənanın Xumara dediyi; "Məni xatırlayıb da gəlmisən, Görünür bivəfa deyilmişsən!" - sözlərindəki lətafəti duyur, ətrini alıram"[275] (Məmmədli,1982:6). Bir sözlə, Hüseyn Cavid sənətinin heyranı olan müəllifin adı keçən əsərində şairin dünyagörüşü, şəxsiyyəti və sənəti haqqında hərtərəfli, mükəmməl məlumat verən bu kitab Cavidşünaslıqda mühim bir mənbədir.

Mütəfəkkir sənətkarın zəngin irsinə yazılan monoqrafiya və məqalələrin içərisində professor Əkbər Ağayevin "Hüseyn Cavid və "Şeyx Sənan" əsəri" adlı

[275] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı:Yazıçı, 1982, s. 6

məqaləsinin də öz yeri var. Cavid yaradıcılığına fərqli baxış bucağından yanaşan professorun araşdırmalarında Cavidin inqilabdan əvvəlki əsərlərində və görüşlərində olan ziddiyyətlərdən bəhs edilmiş, bu ziddiyyətlər o dövrün həyatında, real ictimai münasibətlərində olan ziddiyyətlərlə əlaqələndirilmiş, şairin görüşlərindəki mücərrəd insanpərvərlik, qurtuluşu ümumi məhəbbət ideyasında görmək meylini bədii dildə xəlqiliyin diqqətindən yayınmasına gətirdiyini qeyd etmişdi. Əkbər Ağayevin fikrincə, dövrünün ictimai-siyasi ziddiyyətlərinin Cavid yaradıcılığında inikası təbii idi. Məqalədə qoyulan mühim problem - Hüseyn Cavidin yaradıcılıq yolu və əsərləri tamamilə yenidən və əsaslı surətdə tədqiq edilib öyrənilməlidir, - diqqəti cəlb edir. O yazır: "Hər şeydən əvvəl onu yadda saxlamaq lazımdır ki, ədəbiyyat tarixində düz bir xətlə, ziddiyyətsiz, bütün ömrü boyu bir istiqamətlə irəliləyən, yaradıcılıq tərəddüdü və şübhələri keçirməyən böyük bir sənətkar olmamışdır. Nə rus, nə Şərq, nə Qərb ədəbiyyatından elə bir şəxsiyyətin adını çəkmək olmur"[276]

[276] Ağayev Əkbər. Hüseyn Cavid və onun "Şeyx Sənan" əsəri, "Ədəbiyyat və incəsənət", 4

(Ağayev,1956). Cavid yaradıcılığındakı ziddiyyətlərlə əlaqədar fikirlərini qəzetin ("Ədəbiyyat və incəsənət") 4 noyabr tarixində dərc edilmiş, ikinci eyni adlı məqaləsində davam etdirən Əkbər Ağayev yazırdı: "...Cavidin yaradıcılığı ona görə ziddiyyətli və ziqzaqlıdır ki, bir tərəfdən onun yetişdiyi və yaradıcılığa başladığı dövrün özü ziddiyyətli idi, digər tərəfdən Cavidin uşaqlığı və gəncliyi müxtəlif, bir-birinə zidd mədəni təsirləri özündə birləşdirən bir mühitdə keçmişdir"[277] (Ağayev,1956). Doğrudan da, şairin uşaqlığı və gəncliyi müxtəlif mühitlərdə: Naxçıvan-Təbriz-İstanbul kimi mədəniyyət mərkəzlərində keçmişdir, lakin bu mühitlər bir-birinə çox da zidd mühitlər deyildi. Digər tərəfdən Cavid bir neçə ictimai formasiyada doğulmuş, böyümüş, formalaşmışdır. Çarlıq Rusiyasında Naxçıvanda dünyaya gələn Hüseyn Cavid Oktyabr inqlabına da, Cümhuriyyətin qurulmasına və bolşeviklər tərəfindən işğalına da şahidlik etmişdir.

noyabr 1956
[277] Ağayev Ə. Hüseyn Cavid və onun "Şeyx Sənan" əsəri, "Ədəbiyyat və incəsənət", 28 oktyabr 1956

Təhsil mühitləri Naxçıvan-Təbriz-İstanbul şairin dünyagörüşünün formalaşmasında önəmli rol oynamışdır. Fəlsəfi görüşlərini, romantik ideallarını, təsəvüfü, gördüklərini, öyrəndiklərini, yaşadıqlarını yaradıcılığında əks etdirən sənətkarın yaradıcılığına, "ziddiyyətli", "ziqzaqlı" kəşməkəşli həyat yoluna ikili münasibət uzun zaman davam etmişdir. Lakin akademik Rafael Hüseynov kimi, heç kəsin deyə bilmədiklərinin (o dövr üçün) bir çoxunu özünəməxsus bir şəkildə qələmə alaraq Hüseyn Cavid yaradıcılığı ilə yanaşı, "ziddiyyətli", "ziqzaqlı" bir sözlə, kəşməkəşli həyat yolunu gündəmə gətirərək işıqlandıran, Cavid sənətinə, Cavid şəxsiyyətinə sevgi, məhəbbət aşılayanlar, şairin şəxsi arxivindəki bəzi "mübhəm"ləri, "gizlin"ləri, Azərbaycan oxususuna bəlli olmayan bir çox yarımyamalaq əlyazmalarını, qeydlərini zərgər dəqiqliyi ilə incələyərək "Vaxtdan Uca" kimi abidə əsər yaratmışdır. "Zaman həmişə öz hökmünə söykənib"[278] (Əhmədova,2015:229). Əsərin yazılması da zamanın

[278] Əhmədva Salatın.Soykökümüz,milli-mənəvimədəniyyətimiztariximiz. Bakı:Uniprint,2015.s 229

hökmü idi. “Cahillərin görmədiyi sahillərə” üz tutulan” “Vaxtdan uca” əsəri demək olar ki, Hüseyin Cavid haqqında bioqrafik yazıların ən dəyərlisidir. Bioqrafik bədii əsər janrını xatırladan bu kitabda müəllif bizi təsirli və qüdrətli, sadə Azərbaycan dilində özünə tabe edir”[279] (631). “Müəllif heç də şəxsləri ittiham etmir. Onun ittiham etdiyi Vaxtdır” (Quliyev,1988).

Cavidşünaslıqda zirvə fəth etmiş ədəbiyyatşünaslardan olan akademik Rafael Hüseynovun 70-ci illərin sonunda nəşr edilən “Vaxtdan uca” kitabı o qədər oxucu şöhrəti qazanıb ki, kitab 1988-ci ildə ikinci dəfə, təkrar nəşr olunub. Xalq yazıçısı Anarın “Vaxt və baxt haqqında düşüncələr”[280] adlı ön sözündə oxuyuruq: “Ağıllı kitab hökmən oxucusunu düşüncələrə qərq edir, onun maraqlı müsahibinə çevrilir. Rafael Hüseynovun “Vaxtdan uca” kitabını mütaliə edərkən həyəcanlanırsan, kövrəlirsən, kitabın qəhrəmanlarıyla birlikdə fərəhli saatları, acı günləri

[279]Quliyev V. Vaxtında yazılmış ”Vaxtdan uca”/ R.Hüseynov. Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.631-636

[280] Anar. Vaxt və baxt haqqındadüşüncələr/ Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.3; Hüseynov R Əbədi Cavid. Bakı:Nurlan,2007, s.602-608

yaşayırsan, sevinirsən, dərdlənirsən, bəzən də yanıb-yanıb yaxılırsan. Ancaq bütün bu hissləri keçirə-keçirə fikrə dalırsan. Vaxt haqqında, vaxtın içində ömür sürən İnsan haqqında, onun baxtı haqqında düşünürsən. "Görəsən kimin baxtına nə çıxacaq" ifadəsini ara-sıra işlədirik. İnsanın baxtına çıxan ən vacib şey – Vaxtdır. Çox şey insanın özündən, iradəsindən, əzmindən asılıdır.Amma mühimdən-mühim, vacibdən-vacib üç şey insanın özündən asılı deyil: valideynləri, daha geniş götürsək – soyu, kökü, milləti – bu bir. Vətəni, doğulduğu, üstündə boya-başa çatdığı torpaq, el-oba – bu iki. Yaşadığı, ömür sürdüyü Vaxt – bu da üç"[281] (Anar,1988:3).

"Vaxtan uca" kitabı "ağıllı kitab"dır, "oxucusunu düşüncələrə qərq edir", onun maraqlı müsahibinə çevrilir. Bir haşiyə çıxaraq qeyd edim ki, "oxucusunu düşüncələrə qərq edən" "ağıllı kitab"ın bir oxucusu olaraq özüm "Vaxtdan uca"nı neçə dəfə oxuduğumu unutmuşam. Həm Cavidi tanımaq, həm də olduğu kimi tanımaq baxımından əvəzsiz olan bu kitabı mütaliə edərkən nə qədər

[281] Anar. Vaxt və baxt haqqındadüşüncələr/ Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.3

həyəcanlanmışam, kövrəlib ağlamışam, kitabın o mühitin övladı olduğum üçün mənə bir köynək yaxın olan “qəhrəmanlarıyla birlikdə fərəhli saatlar, acı günlər yaşamışam”, sevinmişəm, qəmlənmişəm, “dərdlənmişəm”, anamdan duyduğun Ərtoğrolun Naxçıvanda geçirdiyi son günlərini düşünüb, “yanıb-yanıb yaxılımışam.” Xalq yazıçısı Anarın da dediyi kimi, “ancaq bütün bu hissləri keçirə-keçirə fikrə dalmışam”, məhz “bu hissləri keçirə-keçirə fikrə dalmalar” mənim gələcək taleyimi də müəyyənləşdirdi –desəm yanlış olmaz. Bu gün məni Hüseyn Caviddən yazmağa sövq edən, bu cığıra salan məhz çox gənc yaşlarımda,18 yaşında oxuduğum “Vaxtan uca” kitabı olub. Qara cildi olan bu kitabın oxumaqdan rəngi bozarsa da, bir o qədər də dəyəri artmışdı. Bu illərdə oxuduğum kitablar içində ən “şah əsər”im “Vaxtdan uca” idi (bunları “Vaxtan uca” kitabının oxucusunun fikirləri kimi qəbul edin. Unutmayaq ki, əsərin gücü oxuculara təsir gücü ilə ölçülür-L.Əsgərzadə).

Hüseyn Cavid haqqında ilk monoqrafik əsəri akademik M.C.Cəfərov yazıb, ancaq Cavidi televiziya

vasitəsi ilə kütləyə təqdim edən, sevdirən akademik Rafael Hüseynov olub. "Vaxtdan uca" böyük şairimiz Xəlil Rza Ulutürkün yazdığı kimi, "hətta qeyri-ədəbi mühitdə öz sənətkar müstəqilliyinin qoruyub saxlamağı bacaran Cavid kimi nadir, sanballı, ağır çəkili sənətkarın"[282] (Hüseynov,2007: 615) şəninə yaraşan bir şəkildə yazılıb. "Cavidlər" romanının doğuluşu zamanı alim və tədqiqatçı Rafael şair və yazıçı Rafaelin yardımına gəlmişdir. Müəllif Cavid irsini yalnız 20-30-cu illərin deyil, ümumən Azərbaycan mədəniyyətinin böyüklüyü fonunda öyrənə, mənimsəyə bilmişdir. Bu mənimsəmə elə bir dərəcəyə çatmışdır ki, Rafael Cavidin nəinki oxuculara məlum əsərlərini, hətta onun hansı bir qeyd dəftərçəsində karandaşla cızılmış, zorla oxunan yetim bir misrasını da yazı zamanı imdada çağırmışdır. "Yorğun gözü həsrətli buludlar kimi dalğın." Bu yetim misra başqa araşdırcıya çətin ki nə isə deyə. Lakin "Cavidlər" romanının müəllifi üçün bu misra ən ciddi mətləblərdən birini demək üçün

[282] Ulutürk X.R. "Vaxtdan uca dayanmağı bacaranlar" / Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.610-630

ipucudur”[283] (Hüseynov,2007:615). Əsərdə R.Hüseynov sözlə Cavidin portretini yaradır: “İlk gəncliyindən gözləri zəif görürdü. Bəlli olan erkən fotosu 1907-ci ildə çəkilib- orada eynəklidir Cavid. O zəif, ağrılı, tez-tez müalicəyə möhtac gözləri nə qədər iti, nə qədər həssas, nə qədər nurluymuş. Eynəksiz baxanda ətrafı duman içində, tor görən o zəid gəzlər, insanı, dünyanı, hadisələrin iç qatını, duyğuların təkini, düşüncələrin həm tərsini, həm avandını nə qədər dəqiq, aydın görə bilirmiş. Daha artıq görə bilmədiyimiz çox həqiqətlərə bizim də gözlərimizi açmağa qadir imiş. Çünki o, yaşadığı günlərə, içərisində olduğu vaxta gələcəkdən baxa bilirmiş”[284] (Hüseynov,2007: 308).

Xəlil Rza “Vaxtdan uca” kitabı haqqında yazdığı “Vaxtdan uca dayanmağı bacaranlar” məqaləsində kitabı “ilham və zəka aktı” adlandırır, əsərin sənətkarlıq xüsusiyyətlərindən də bəhs edərkən monoloji dialoquna, mühakiməsinə, təhkiyəsinə görkəmli natiqlərdən Fuad

[283] Ulutürk X.R. “Vaxtdan uca dayanmağı bacaranlar” / Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.615
[284]Ulutürk X.R. Vaxtdan uca dayanmağı bacaranlar /Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.308

Qasımzadə, riyaziyyatçı Ələddin Mahmudlu, oxucu Hacağa Nəcəfli, elmlər doktoru Yılmaz Əsədoğlunun çıxışlarından qeydlər əlavə edib[285] (Hüseynov, 2007: 610-630). "Vaxtan uca" kitabı hər nə qədər "ən çətin çağlarda belə sönməyən insan ümidi, insan dözümü haqqında əzəmətli bir nəğmə" olsa da, R.Hüseynovun Cavid haqqında deməyə hələ çox sözü vardı. Ədibin ömrünün gizlinlərinə ayna tutan, mütəfəkkir Cavidin keşməkeşli həyatı və zəngin poetik irsinə yeni baxış bucağından tədqiqinə həsr etdiyi "Ədəbi Cavid" kitabı (redaktorları: Xalq yazıçısı Anar, akademiklər Bəkir Nəbiyev və Fuad Qasımzadə) Cavidşünaslıq üçün dəyərli töhfədir. Kitabın filosof şair dramaturq H.Cavidi vətənə qaytaran ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ithaf olunması da diqqətçəkicidir, qədirşünaslıqdır. "Tanrının yaratdığı, dövranın məhv etdiyi" Cavidə ikinci ömrü verən, şairin nəşini Sibirin buzlaqlarından tapıb vətəninə gətirən, Cavidi xalqına, yurduna yenidən bəxş edən məhz ümummili lider Heydər Əliyev olub. Bu tarixi hadisəni unutmaq, üstündən

[285]Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.610-630

sükutla keçmək olmazdı”[286] (Əsgərzadə,2014:2).

Filosof şairin ömür və sənət yolu ilə bağlı bir sıra maraqlı faktlar, indiyədək nəşr edilməmiş bəzi əsərlərindən parçalar, şəxsiyyətinin az öyrənilmiş ayrı-ayrı məqamlarını işiqlandıran yazıların yer aldığı, zəngin arxiv materialları, Cavidi yaxından tanımış insanların xatirələri, şairin mövcud məlum irsinin, həmçinin, xilas olmuş əlyazmaları üzərində aparılmış dərin araşdırmalar və təhlillər əsasında yazılmış monoqrafiyada “Cavid mühiti, zəmanəsi, sənət təbəddülatları, ziqzaqları, Cavid ocağı və faciəsi ilə ətraflı tanış oluruq”[287] (Əsgərli, 2010:390).

Cavidşünaslıqda öz sanbalına görə seçilən bu kitab “Cavid pəncərəsi” bölümü ilə başlayır. Mütəfəkkir Cavidin mükəmməl tarixi obrazını yaratmağa müvəffəq olan monoqrafiya müəlifi “kitab boyu publisistika dili və təhkiyəsi ilə danışsa” da eyni zamanda, “hər cür fikir və düşüncəsində poetikliyi də gözləyir, məcazlı danışıb fəlsəfi mənalandırma yolu ilə gedir. Onun təsvir və təhkiyəsindəki

[286]Əsgərzadə L. Hüseyn Cavidi Tanrı yaratdı, dövran məhv etdi. Şərq qapısı qəz., 23 oktyabr, 2004, s.2
[287] Əsgərli Əlizadə/ Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988,s.390

nasiranə nəqletmə ahəngi güclü üslub keyfiyyətidir.” Kitab haqqında öz dəyərli fikirlərini oxucularla bölüşən professor Əlizadə Əsgərli “mətn təhkiyəsi”ni müəllifin üslub fərdiyyəti kimi dəyərləndirək yazır: “R.Hüseynovun mətn təhkiyəsi təkcə nəqletmə intonasiyasında deyil, həm də mühakiməlidir, müdaxiləli, münasibətli və analizlidir. Bu da alimin üslub fərdiyyəti kimi dəyərlidir”[288] (Əlizadə, 2010:390). Əsər (“Vaxtdan uca”) boyu - təhkiyəni, hadisələri Cavid, Mişkinaz xanım, Ərtoğrol və Turan xanım arasında bölüşdürən müəllif, gəzişmələr edir; “ekran, mənzərə, lövhə tez-tez dəyişir... “Mən buraya, bu binaya tez-tez gəlirəm. Respublika Əlyazmaları İnstitutu burada yerləşir. Zəngin ədəbiyyatımızın, qədim mədəniyyətimizin onlarca nadir incisi burada sonsuz qayğıyla qorunur. Və hər dəfə bu yaraşıqlı binanın geniş pillələriylə qalxarkən istər-istəməz düşünürəm ki, 20-30-cu illərdə Cavid hər gün bu pillələrlə enirmiş, qalxırmış. O illərin cavanlarının, şeir həvəslilərinin əl-əl gəzdirdikləri,

[288] Əsgərli Ə. “XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları” (Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Bakı: Elm, 2010, 390

əzbərlədikləri, Cavid əsərləri burada doğulurmuş. Cavid bir əsərin üzərində illərlə işləyirdi. Dönə-dönə üzünü köçürürdü. Özü istədiyi kimi tamam hazır olmayınca üzə çıxarmazdı. Əlyazma nə qədər qatmaqarışıq olurdusa, üzünü köçürəndə o qədər təmiz, o qədər səliqəli olardı ki, elə bil çapdan çıxıb. Dəftərin üstünə suçəkən kağız qoyardı ki, ləkə düşməsin. Çox vaxt gecə işləyirdi. Gündüzlər gecə yazdıqlarının üzünü köçürərdi"[289] (Hüseynov, 2007:393). "Kitabda detallar sıxdır - Hüseyn Cavid hər tərəfdən: ailə-məişət, gündəlik qayğılar, böyük sənət bahadırı olmaq planında görünür" eyni zamanda. H.Cavidin, Ərtoğrolun yaradıcılığı ilə bağlı səmimi fikir və düşüncələr var ki, bütün bunlarda həm tarix müasirləşir, həm obrazlar həyat dinamikası qazanır, həm də əsərlər yaşarılıq tapıb canlanır"[290] (Əlizadə 2007:70). Eyni zamanda kitabda "Xəyyam" ilk dəfə Turan xanım tərəfindən 1957-ci ildə Yerevandan tapılması, "Xəyyam"ın qapalı müsabiqə keçirilib, mükafat alması, rus dilində olan rəylərinin Turan

[289] Əlizadə. /Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007:393
[290] Əlizadə Ə./Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007,70

xanım arxivində saxlamasından" [291](Hüseynov, 2007:73-74) bəhs edilir, eyni zamanda "20-30-cu illərin ab-havası, marksist tənqidçilərin kredosu, ədəbi prosesə təsiri, vulqar sosioloji təzyiq üsulu" yeri gəldikcə işıqlandırılıb. Kitabda professor Abbas Zamanovun dəyərli fikirlərinin, S.Vurğunla H.Cavidin dialoqunun yer alması da oxucu diqqətini çəkir; "30-cu illərdə S.Vurğunun və H.Cavidin öz platformaları olub. H.Cavidə aludə olanlar az sonra ona qarşı çevrilib. R. Hüseynov sanki H.Cavidin poeziya və dramaturgiyada özünüifadəsini xatırladırmış kimi, sənətkarın şeir parçalarını təsvir etdiyi vəziyyətə, əhval-ruhiyyəyə uyğun olaraq tapıb yerinə elə qoymuşdur ki, mətn sözü, söz mətni kifayət qədər təbii tamamlayıb. Bu, kitab üçün səciyyəvi xüsusiyyətdir"[292] (Hüseynov, 2007:75). Kitabı "Sənədli toplu" adlandıran professor Əlizadə Əsgərli, eyni zamanda kitabın həyacanlanmadan oxumağın mümkün olmadığının xüsusi olaraq qeyd edir, "çünki monorafiyada Cavidin sürgündən - Maqadandan

[291] Yenə orda,s.73-74
[292] Əlizadə/Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007,s.75

yazdığı məktubların əlyazma surətləri, Kolıma şəhərinin fonu və s. özünəməxsus şəkildə təsvir olunduğu "Əbədi Cavid"də "müəllif kompozisiyanı elə qurub ki, mətn boyu gah Cavid, gah Mişkinaz, gah Ərtoğrol, gah da Turan xanım haqqında arxiv bilgiləri, xatiratlar bir-birini əvəz edir, bir-birini tamamlayır", bir sözlə "yazıçı-alim təhkiyə boyu obyektivlik naminə detallara, xırdalıqlara varıb, istəyib ki, nə kimi məlumat, bilgi varsa, hamısını mətn təhkiyəsinə ötürsün, heç nə mümkün qədər kənarda qalmasın." Akademik "Sənədli toplu"da "obyekt" kimi Cavidlər ailəsini götürsə də, yeri gəldikcə bu ailənin dostları, ünsiyyətdə olduğu qonşularından; Əsəd Verdiyev və onun arvadı Qərənfil xanımdan da ətraflı bəhs edib. Eyni zamanda nakam Ərtoğrolun dahi Üzeyir bəyə, anası Mişkinaz xanıma yazdığı "ümidsizliyin ifadəsi" saydığı məktublarına da yer verib. Kitabda "monoloji nitqdən, daxili monoloqlardan da geniş istifadə edən" R.Hüseynov özü ilə də həsbi-hal edir: "Kim dedi ki, bu şəkli göstərəsiniz mənə Turan xanım? Axı getmir o şəkil

gözümün qabağından”[293] (Hüseynov, 2007:342). Tədqiqatçının Cavid ömründən, Cavid taleyindən 1924 və 1981-i “məxsusi” ayıran və bunlar üzərində təfsilatlı, daha çox məxəzli dayanması da diqqətədəyərdir. Tarixi faktlara görə 1924-cü ilə qədər ədəbi inkişafı yüksələn, parlayan xətlə keçən Cavidin əsl parlayış dövrü 1920-26-cı illərdir. Ədibin faciəsi “Topal Teymur”un 1926-cı ildə çap olunmasından sonra başlayıb: Ruhi Əkbər, Mustafa Quliyev, Əli Nazim, Əsəd Əyyubinin tənqid hücumları güclənib. R.Hüseynovun təqdimatında H.Cavid əsərlərinin nəşri ilə bağlı faktlar da maraq doğurur. Uzun illərdən bəri Cavidşünaslıqla məşğul olan Rafael Hüseynovun “H.Cavid” planetini kəşf edəndən sonra “Göy adamı”nı yazması da təsadüfi deyil. “1978-ci ildə “H.Cavid” planetini Krım astrofizika rəsədxanasının göy bilicisi Nikoloy Çernıx kəşf etmişdi. Bu planet Marsla Yupiter arasında hərəkətin asteroidlər qurşağına daxil olan planet idi. Bu adsız səyyarənin adlandırılmasına fizika-riyaziyyat elmləri doktoru, Şamaxı rəsədxanasının direktoru Əyyub

[293] Əlizadə/Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, 342

Quliyev təşəbbüs edib. O, bu təklifi Nyu-York akademiyasının həqiqi üzvü, Taras Şevçenko adına Kiyev Milli Universitetinin astronomiya rəsədxanası kometlərin fizikası laboratoriyasının müdiri Klim Çuryumova çatdırıb. Həmin planetə görə Nikoloy Çernıxa müraciət edilib. Xahiş olunub ki, aşkar edilən planetə Cavid adının verilməsi ilə əlaqədar olaraq Beynəlxalq Astronomiya İttifaqı qarşısında məsələ qaldırılsın. Turan xanım atasının rusca nəşr olunmuş kitablarını Nikoloy Stepanoviçə yollayıb. 1997-ci ildə məsələ konkretləşib. 1997-ci ilin 20 iyununda "Kiçik planetlər Sirkulyarı"nın 30098 sayında 6262 saylı kiçik planetə Cavid adının verilməsi barədə məlumat verməklə yanaşı, "hüsnü xuda" şairinin Marsla Yupiter arasında hərəkət edən asteroidlər qurşağına daxil olan "Cavid planeti"ndəki yerinə də münasibət bilirilib "O da qalxdı göylərdəki Öz yerinə, əbədi məkanına. Dikəldi cəbərüata - əzəmətli, cəlallı yüksəlliyə. Dikəldi ki, məlakut – ilahi səltənətdəki mələklər onu daha da yaxından dinləsinlər. Dikəldi ki, "hüsnünün dəli pərvərdəsi" olduğu

Allaha bir az da yovuqlaşsın”[294] (Hüseynov, 2007:339-403). Allaha - həqiqətə yaxınlaşmaq, Həqiqətə qovuşmaq... Həqiqətdə yox olmaq... Cavidin də istəyi bu deyilmiydi? .

Kitabın Cavidin istintaqı ilə bağlı sənədlər verilən, “225 vərəq” adlanan hissəsində də maraqlı, diqqətçəkən epizodlar var; “Bu qovluq canlı Cavidin son yadigarıdır. Səhifələrində onun sözləri, imzaları, Cavid haqqında ömrünün axır günlərini yaşayan dostlarının, məsləkdaşlarının, qələm adamlarının şəhadətləri”[295] (Hüseynov,2007:409). “Qardaş yükü” hissəsində (Hüseynov,2007:445-477) isə, şairin qardaşı Şeyx Məhəmməd Rasizadə və onun övladlarından söhbət açılır; “Vəsiyyətin unudulmuş yarısı və ... acısı” hissəsində Kerç döyüşlərində 34 yaşında həlak olmuş gənc Tahir Rasizadənin ömürlüyü: Gəncə Kənd Təsərrüfatında oxumuş belçikalı qız Tamara xanımla evlənməsi, Arturun və Tamillanın dünyaya gəlməsi, Tamara xanımın övladlarını təkbaşına böyütməsi, evləndirməsi, nəvə-nəticə

[294] Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.339-403
[295] Əlizadə/Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.409

sahibi olması oxucuya təqdim edilir. Sənətkarın Naxçıvandakı məqbərəsinin açılışından, xatirəsinin əbədiləşdirilməsi üçün MK-nın 1981-ci il tarixli qərarından, Cavidin millətçi kimi təqdimatından, Cavid məqbərəsinin açılışı münasibətilə R.Hüseynovun “Ən uca sərhəd dirəyi” adlı 29 oktyabr 1996-cı il tarixli çıxışının mətnindən, Naxçıvanda keçirilən üçgünlük Cavid bayramından və s. “Cavid dalğası” bölümündə bəhs edilir. “Beşinci Cavid” bölümündə isə (Hüseynov, 2007: 599-722) “Vaxtdan uca” kitabına Anarın “Vaxt və baxt haqqında düşüncələr” (12 noyabr 1986-cı il) adlı məqaləsində Rafael Hüseynovun “Cavidlər” və “Yaşıl yarpaq” adlı əsərlərinin janr tipindən söhbət açılır: “R.Hüseynov bir çox sənədləri, məktubları, xatirələri və söhbətləri, o sıradan Mişkinaz və Turan xanımın xatirə və söhbətlərini təqdim olunur. “Görüşlər və məktublar” bölümündə (Hüseynov,2007:729) “mühakiməli oxucu sözü”, onların “könül duyğuları” olan məktublarından, “Mükafat” (Hüseynov, 2007:729-770) bölümündə Rafael Hüseynova “Vaxtdan uca” əsəri üçün verilmiş H.Cavid

mükafatından (24 oktyabr 1997), "Cavid uğrunda" bölümündə (Hüseynov,2007:779-814) isə tədqiqatçının H.Cavidin haqları uğrunda mübarizəsindən, "Cavid şamı" bölümündə (Hüseynov,2007:825), Cavid əbədiyyətindən bəhs olunur. Kitab müəllifin bu sözləri ilə tamamlanır: "Cavid şamı yanır..."[296] (Hüseynov, 2007: 825). Əbədiyyən yanan "Cavid şamı" cavidsevərlərin ruhunu işidir, unudulmağa qoymur. Bu da yeni-yeni monoqrafiyaların, kitabların yazılmasına vəsilə olur. Damaturgiyada romantizm probleminin tanınmış tədqiqatçısı, professor Timuçin Əfəndiyevin "Hüseyn Cavidin ideyalar aləmi" (1985) adlı monoqrafiyası da bunlardan biridir.

Cavidşünaslıqda xüsusi əhəmiyyət kəsb edən, giriş və yeddi fəsildən ibarət olan bu monoqrafiyaya yazılan annotasiya müəllifin məram və məqsədini ortaya qoyur: "Cavid dramaturgiyasının estetik problemlərindən bəhs olunur. Monoqrafiyada Cavid romantizminin ideya-bədii prinsiplərinə əsaslanan müəllif, mövzunun tələblərinə uyğun olaraq, bu dramaturgiyanın janr və üslub

---

[296] Əlizadə/Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.825

xüsusiyyətləri üzərində də ətraflı dayanır”[297] (Əfəndiyev, 1985:29). Annostasiyada da qeyd edildiyi kimi, müəllif romantizmin tarixi vəzifəsi, ictimai idealları, xüsusilə, milli-regional spesifikası üzərində xüsusi olaraq dayanır, “Giriş” hissəsində Cavid haqqında özündən əvvəlki tədqiqatlara münasibət bildirilir, Cavid romantizminin novatorluğu və onun vahid ümumdünya romantizminin ideya-estetik qanunauyğunluqları ilə səsləşməsi vurğulanır. Monoqrafiya müəllifi “Tədqiqata bir nəzər” başlığında Cavidin tədqiqatçıları: İsrafil Cahangirov, Hənəfi Zeynallı, Mustafa Quliyev, Xəlil İbrahim, Mehdi Hüseyn, Əli Nazim, Abdulla Şaiq, Əli Sultanlı, Məmməd Arif, Cəfər Xəndan, Cəfər Cəfərov, Mehdi Məmmədov, Zahid Əkbərov, Əbülfəz İbadoğlu və digərlərini tədqiqata cəlb edərək onların fikirlərinə münasibət bildirir. Timuçin Əfəndiyev həmçinin, akademik M.C.Cəfərin “Hüseyn Cavid”, Məsud Əlioğlunun “Hüseyn Cavidin romantizmi”, Yaşar Qarayevin “Faciə və qəhrəman”, Qulam

[297] Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi.Bakı, 1985, s.29

Məmmədlinin “Cavid – ömür boyu” əsərləri üzərində xüsusi olaraq dayanır, bu əsərlərin Cavidşünaslıqda tutduqları yeri dəyərləndirməklə yanaşı, Azərbaycan KP MK-nın H.Cavidin anadan olmasının 100 illiyi münasibətilə qəbul etdiyi qərar müsbət hal kimi qiymətləndirilir. Monoqrafiyada “Romantik faciənin ilk nümunələri” başlığı altında isə Cavidin “Ana” və “Maral” əsərləri təhlil olunaraq, bu əsərlərin milli dramaturgiyamızın tarixində tutduğu yer müəyyənləşdirilir. Tədqiqatın “Humanist ideyalar mövqeyindən” adlanan fəslində “Şeyx Sənan” və “İblis”, “Dövrün hadisələrinə fəal müdaxilə” fəslində “Şeyda” və “Uçurum”, “İctimai və əxlaqi münasibətlərin vəhdəti” fəslində “Afət”, “Tarixi mövzu və müasir ideya” fəslində “Peyğəmbər” və “Topal Teymur”, “Yeni sənət zirvələri” fəslində isə “Azər”, ”Şəhla”, “Telli saz”, “Knyaz”, “Səyavuş”, “Xəyyam”, “İblisin intiqamı” əsərləri geniş təhlilə cəlb edilir. Monoqrafoyanın sonuncu fəslində isə, Cavidin sovet dövrü yaradıcılığını geniş işıqlandırılır. Bir sözlə, “konseptuallığı və bitkinliyi” ilə seçilən “Hüseyn Cavidin ideyalar aləmi”

monoqrafiyası Cavidşünaslığa dəyərli ərmağandır. “Hüseyn Cavidin ideyalar aləmi” (1985) monoqrafiyası ilə yanaşı, “Romantik dramaturgiyada tarixilik və bədiilik” (1999), “Azərbaycan dramaturgiyasında metodlar” (2002), 2Azərbaycan mədəniyyəti və incəsənəti” (2003), “Azərbaycan teatr tarixi" (2009), “Mədəniyyətdə tarixilik və müasirlik” (2011) kimi sanballı kitabların müəllifi olan professoor Timurçin Əfəndiyevin Cavidşünaslığa töhfələri bununla da bitmir. Onun Cavidşünaslığa növbəti töhfələrindən biri də “Hüseyn Cavid: ideal həqiqət axtarışı” (Bakı, Proqres, 2013). Elmi yaradıcılığı daha cox Cavid irsinin araşdırılmasına həsr olunan professor Timuçin Əfəndiyevin çağdaş Cavidşünaslığın dəyərli nümunələrindən sayılan “Hüseyn Cavid: ideal həqiqət axtarışı” monoqrafiyası da bəhs etdiyimiz “Hüseyn Cavidin ideyalar aləmi” (1985) əsasında hazırlanıb. Bu zaman müəllif, vaxtilə kiril əlifbası ilə çap olunmuş monoqrafiyanın yeni nəşr üzərində böyük səylə işləyib, təkmilləşdirib və maraqlı əlavələr edib.

Monoqrafiyanın əvvəlki halında əsasən, Hüseyn Cavidin dramaturji irisi ədəbiyyatşünaslıq kontekstində təhlil olunurdusa, yeni nəşrində "ədibin əsərlərinin səhnə təcəssümü, onların rejissor və aktyorların yaradıcılığına təsiri kimi mühim teatrşünaslıq problemləri də nəzərdən nəzərdən keçirilir." Kitabın əvvəlində, professor Gülşən Əliyeva-Kəngərlinin "Tarix Cavidə xidmət edir" başlıqlı yazısında Cavid irsinin işıqlandırılmasında, onun dərin elmi-nəzəri təhlilinin verilməsində monoqrafiyanın rolundan, elmi dəyərindən, müasirliklə səsləşməsindən ətraflı bəhs edilir[298] (Əliyeva-Kəngərli,2013:4) Professor bu fikirləri ümumiləşdirərək müddəa şəklində; monoqrafiyanın müxtəlif, çox zaman əlçatmaz mənbələrdən qaynaqlanması, Cavid yaradıcılığının dünya romantizmi kontekstində nəzərdən keçirilməsi, Cavidin novator sənətkar kimi səciyyələndirilməsi və s. təqdim edir.

[298]Əliyeva-Kəngərli G. Ön söz. Tarix Cavidə xidmət edir/ T. Əfəndiyev "Hüseyn Cavid: ideal həqiqət axtarışı" (Bakı, Proqres, 2013,s.4

T.Əfəndiyevin yeddi fəsildən ibarət olan monoqrafiyasında tədqiqatın elmi-nəzəri mahiyyəti, mütəfəkkir sənətkarın yaradıcılığında romantik faciənin ilk nümunələri, humanist ideyaların ifadəsi, dövrün ictimai-siyasi hadisələrinə şairin fəal münasibəti, Cavidin mənəvi-əxlaqi görüşləri kimi problemlər araşdırılır. Monoqrafiyanın məziyyətlərindən biri onun Cavidşünaslığın tarixini layiqincə işıqlandırılması, dəyərləndirilməsi və elmi-metodoloji baxımdan təhlil edilməsindədir. Azərbaycan ədəbiyyatşünaslığında Cavid irsini araşdıran görkəmli ədəbiyyatşünas alimlər çox olmuşdur. "Çavidşünaslığı ərsəyə gətirən əsas meyar"[299] (Zeynalov,2013:7) məhz bu tədqiqatçıların elmi-nəzəri görüşləri, onların Cavid irsinə verdiyi obyektiv qiymət olmuşdur. Professor Timuçin Əfəndiyev monoqrafiyada Azərbaycan tədqiqatçılarının çətin, eyni zamanda da şərəfli əməyini yüksək dəyərləndirərək yazır: "Hüseyn Cavid yaradıcılığı bir sıra görkəmli alimlərimizin diqqət mərkəzində olmuşdur. Akademik Məmməf Arif,

[299] Zeynalov X. Ədəbi mövzunun yeni qatları/ Ədəbiyyat qəzeti.- 2013.- 11 oktyabr, s.7

professorlar; Əli Sultanlı, Cəfər Xəndan və başqaları Hüseyn Cavid yaradıcılığını, Cavid istedadını yüksək qiymətləndirmişlər. Xüsusilə, Əli Sultanlının Cavid dramları haqqındakı mülahizələri obyektiv elmi xarakter daşıyır” [300] (Sultanlı, 1964) Bu zaman Dünya ədəbiyyatını, Şərq və Qərb dramaturgiyasını dərindən bələdliyi Əli Sultanlıya Hüseyn Cavid dramaturgiyası barəsində yeni, orijinal mülahizələr yürütməyə imkan vermişdir. Görkəmli ədəbiyyatşünas alim Əli Sultanlı, eyni zamanda Hüseyn Cavid irsinin yeni aspektdən və metodoloji prinsiplər əsasında öyrənilməsinin əsasını qoyanlardan biridir. X.Zeynalov monoqrafiya haqqında yazdığı məqalədə (Zeynalov, 2013:7) tədqiqatçının “yeni nəşrinın üstün və fərqli cəhətlərindən” bəhs edərkən buradakı “unikal fotoların” olmasını; “kitabın sonunda yerləşdirilmiş bu fotolar Cavid yaradıcılığının səhnə təcəssümünün olduqca maraqlı görüntülərini göz önünə gətirməsini, bu tarixi fotolarda görkəmli sənətkarlarımızın

[300] Sultanlı Ə. “Hüseyn Cavid faciələri” / “Azərbaycan” jurn., 1969, №-7

Cavid qəhrəmanları simasında canlandırdığı möhtəşəm, unudulmaz rolların öz əksini tapmasını, eyni adlı əsərlərdə əsərlərdə Abbas Mirzə Şərifzadənin İblis, Səyavuş, Ülvi Rəcəbin Səyavuş, Rza Təhmasibin Knyaz, Ağadadaş Qurbanovun, Hacı Murad Yegizarovun Şeyx Sənan, Mehdi Məmmədovun Xəyyam, Hamlet Xanızadənin Topal Teymur, İblis, eyni zamanda Ələsgər Ələkbərovun Gərşivəz ("Səyavuş"), Rafael Dadaşovun Orxan, Amaliya Pənahovanın Olqa ("Topal Teymur") rolları bu fotolarda gərgin, dramatik məqamlarda əks olunması"[301] ( Zeynalov, 2013:7) xüsusilə vurğulanır.

Bütün bunlarla yanaşı, tədqiqatda mütəfəkkir sənətkarın tarixi mövzularının çağdaş təfəkkür işığında təhlili də maraq doğurur. Böyük ədibin müraciət etdiyi tarixi mövzuların məhz müasirlik nöqteyi-nəzərindən təfsir edildiyi üçün aktuallıq kəsb etdiyi, inqilabın ilk illərində ədibin dini və tarixi mövzularda yazdığı "Peyğəmbər" və "Topal Teymur" pyeslərini

[301] Zeynalov X. Ədəbi mövzunun yeni qatları/ Ədəbiyyat qəzeti.- 2013.- 11 oktyabr, s.7

təsadüfi yazılmadığı" kimi, bu "əsərlərin yazıldığı illərdə də ədəbi tənqid Hüseyn Cavidin bu mövzuları işləməsini "təsadüfi" hesab etmədiyi" vurğulanır. Həmçinin bu "təsadüfü" dramaturqun tamamilə başqa ideya mövqelərində dayanmasının təzahürü" kimi, mənalandırılır.

Mütəfəkkir Cavidin həyatı, yaradıcılığı, poetikası 30 ildən artıq bir zaman kəsimində Azərbaycan ədəbiyyatı, romantizm, xüsusən də Cavid romantizmi ilə məşğul olan görkəmli ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Kamran Əliyevin tədqiqatlarında da diqqətlə araşdırılaraq təhlil olunur, qənaətbəxş nəticələrə gəlinir. Onun tədqiqatlarında Azərbaycan romantizmi ilə Cavid romantizmi vəhdətdə aparılır, çünki Azərbaycan romantizmi onun əsas hissəsini təşkil edən Caviddən kənarda təhlil oluna bilmir, "bütövün təmin olunması və tamın təşkili üçün romantizm Cavidlə birlikdə aydınlaşır"[302] (Kəngərli,2013:22).

AMEA-nın müxbir üzvü Kamran Əliyev Azərbaycan

---

[302] Əliyeva-Kəngərli G. Ön söz. Tarix Cavidə xidmət edir/ T. Əfəndiyev "Hüseyn Cavid: ideal həqiqət axtarışı" (Bakı, Proqres, 2013,s.22

ədəbiyyatşunaslığında romantizmin təşəkkül və formalaşma mənbələrini ilk dəfə sistemləşdirmiş və Azərbaycan romantizminin poetikasını elmi-nəzəri cəhətdən tədqiqata cəlb etmiş, "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Azərbaycan romantizminin poetikası" (2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (2006), "Romantizm və folklor" (2006), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008), "Ədəbiyyat tarixinə bir baxış" (2013), "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" (2013) kitablarında və məqalələrində Azərbaycan romantikləri, xüsusən də H.Cavid romantizmini araşdırmışdır. K.Əliyevin həm namizədlik, həm də doktorluq dissertasiyasını Azərbaycan romantizminin aktual problemlərinə həsr etməsi də təsadüfi deyil, əksinə Azərbaycan romantizminə, mütəfəkkir Cavid sənətinə olan tükənməz sevgi və marağının nəticəsidir.

Cavidin şəxsiyyəti və yaradıcılığının poetikası

arasındakı mənəvi-psixoloji bağlılığı ilk dəfə tədqiq edən Kamran Əliyevin əsərləri müasir Cavidşunaslıq elminə dəyərli töhfədir. Bununla yanaşı, tədqiqatçının “Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri”, “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər”, “Azərbaycan romantizminin poetikası” və romantizm ədəbi cərəyanından bəhs edən digər monoqrafiyaları da Hüseyn Cavidin ədəbi-estetik görüşlərinə güzgü tutmaqda əvəzsiz bir mənbədir.

Azərbaycan romantizm ədəbiyyatı və Cavid romantizminin öyrənilməsində böyük xidmətlər göstərmiş K.Əliyevin romantizmlə bağlı tədqiqatlarında üç əsas istiqamətin olduğu müəyyənləşdirilmişdir: 1) milli təfəkkürün romantizmdə nəzəri-estetik xüsusiyyətləri aşkara çıxarılmışdır; 2) romantizmin bədii sisteminin bu xüsusiyyətlərlə bağlılığını səciyyələndirən prinsiplər təsbit edilmişdir; 3) milli romantizmin ümumdünya romantizminin orijinal forması olması aydınlaşdırılmışdır. K.Əliyev bu istiqamətlərin hər birini geniş şəkildə araşdırmış, dərin təhlillər aparmışdır.

Tənqidin nüfuzu məsələsi barədə dəfələrlə danışılmış və gələcəkdə də danışılacaqdır. Vaxtilə "Tənqidin sözünə qulaq asmaq"[303] (Cəfər,1975:152) çağırışının müəllifi akademik Məmməd Cəfər Cəfərov, "Elə etmək lazımdır ki, yazıçı nüfuzu tənqidçi nüfuzuna mane olmasın, əksinə, bu iki yaradıcılıq sahəsi bir-birini tamamlasın, biri digərinin nüfuza minməsinə kömək etsin"[304] (Talıbzadə,1974:85) - deyən professor Kamal Talıbzadə, "Tənqid yazıçının ardınca getməməli"[305] (Nəbiyev,1976:7) - fikrini müdafiə edən professor Bəkir Nəbiyev kimi, professor Kamran Əliyev də tədqiqatlarında  məhz bu fikirləri izləmişdir. Görkəmli ədəbiyyatşünasın yubleyinə həsr olunan "60 yaşın poetikası" adlı məqaləsində professor Cəlal Qasımov məhz bu fikri vurğulamışdır: "Kamran Əliyevin tədqiqatlarının əhatəliliyi, elmi-nəzəri yükü və yenillikləri ilə Azərbaycanın görkəmli romantizm tədqiqatçılarından olan Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Mir

[303]Cəfər M. Sənət yollarında. Gənclik, Bakı, 1975, s.152
[304] Talıbzadə K. Ədəbi irs və varislər. Azərnəşr, Bakı, 1974 , s.85
[305] Nəbiyev B. Tənqid və ədəbi proses. Azərnəşr, Bakı, 1976, s.7

Cəlal Paşayev, Vəli Osmanlı, Yaşar Qarayev, Arif Hacıyev, Əbülfəz İbadoğlu, Məsud Əlioğlu kimi alimlərin sırasında dayana biləcək ciddi bir iddiaçının ədəbiyyata gəldiyini sübut etdi. Ona qədər romantizmin tarixi, prinsipləri, üslub xüsusiyyətləri barədə tədqiqatlar aparılsa da K.Əliyev romantizmə dair mövcud tədqiqatları öyrənmək, onlara yüksək qiymət verməklə yanaşı, özü də tədqiqatlarında "zəngin filoloji fakta, konkret ədəbi materiala istinadən romantizmin milli xüsusiyyətlərini, təşəkkülünü, obrazlar sistemini, romantik qəhrəmanın fövqəltəbiəti və tənhalığı, qəhrəmanların düşdüyü zamanı və məkanı, romantik ədəbiyyatdakı qarşıdurmaları (Qərb və Şərq, yaxın və uzaq, həyat və ölüm), romantiklərin folklora münasibətini həm poeziya, həm nəsr, həm də dramaturgiyada araşdıraraq maraqlı elmi nəticələrə gəlir."

"Hər hansı bir problemə "bir nəzər" prinsipi ilə yanaşmayan, onu sistemli şəkildə öyrənməyə və ümumiləşdirməyə üstünlük verən tədqiqatçının apardığı araşdırma və tədqiqatlar, yazdığı monoqrafiya və elmi məqalələr təsdiq edir ki, Kamran Əliyev

“ədəbiyyatşınaslığın, ədəbi tənqidin, folklorun, bütövlükdə ədəbiyyatın çətin, mürəkkəb aləminə (dünyasına) məişət təfəkkürü ilə deyil, mükəmməl, sistemli, konseptual, elmi-nəzəri hazırlığı, erudisiyası və ədalətliliyi ilə daxil olur”[306] (Qasımov,2013). Bu da ona tədqiqata cəlb etdiyi problemə daha qlobal müstəvidən yanaşmaq, prosesləri elmi-nəzəri yöndən dəyərləndirmək imkanı verir. “Təfəkkürü, xarakteri, tipologiyası, davranış tərzi etibarı ilə istedadlı ədəbiyyatşünas” K.Əliyevin tətqiqatlarında Azərbaycan romantizminin həm janr, həm üslub, həm mövzu çalarlarını genişləndirən, mükəmməl ədəbi cərəyan kimi formalaşmasında mühim rol oynayan cahanşümul sənətkar Hüseyn Cavidin həyat və yaradıcılığının yeni təfəkkür işığında tədqiqi həmişə olduğu kimi, bu gün də aktualdır.

“Həyatda olduğu kimi, sənətdə və ədəbi düşüncədə də “öz istək və arzularını ifadə edən Cavid, daha çox sistemin və rejimin diqtəsi ilə sinfi və partiyalı mövqedən tədqiq olunmuş, hətta tarixin müəyyən zaman kəsiyində “vətən

[306] Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 may, 2013

xaini", "xalq düşməni" elan edilmiş, reablitasiya olunduqdan sonra isə şəxsiyyəti və yaradıcılığı sosializm keyfi altında təhriflərə məruz qalmışdır. Bu gün bolşevik tənqidinin süni surətdə ikiləşdirdiyi H.Cavidi professor Kamran Əliyev araşdırmalarında "əsl qədirşünaslıq yanğısı ilə ona yapışdırılmış təhrifləri təshih etməyə çalışmışdır"[307] (Qasımov,2013). Cavidin şəxsiyyət və yaradıcılıq bütövlüyünü, milli-fəlsəfi özünəməxsusluğunu və bəşəriliyini təhlil edən tədqiqatçı "Peyğəmbər"lə bağlı bir mübahisəyə (H.Zeynallı) belə yekun vurur: "H.Cavidin "Lenini Peyğəmbər simasında, movzaleyi Məkkə timsalında" verməsini iddia edənlər açıq-açığına yanılırdılar. Ən azı ona görə yanılırdılar ki, H.Cavid "Peyğəmbər" pyesini qələmə alanda (1922-1923) bolşevik rəhbəri sağ idi və adamlarda movzaley təsəvvürü yaranmamışdı. Lakin vulqar sosiologiya nə qədər yanlışlıqlara yol versə də, H.Cavid yaradıcılığında Peyğəmbərin bədii əhyasını görür və təşvişə düşürdü" [308]

[307] Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 may, 2013
[308] Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 may, 2013

(Qasımov,2013). Və ya Mustafa Quliyevin "H.Cavid "Knyaz" əsəri ilə bizim inqilab trenimizə oturdu, lakin dayanacaqların birində sonuncu vaqonun dal qapısından düşüb qaçdı" - fikrinə haqlı olaraq etiraz edən Kamran Əliyev qətiyyətlə  Hüseyn Cavid adı və şəxsiyyəti ilə "qaçmaq" anlayışının təzad və əksilik təşkil etdiyini, Hüseyn Cavidin heç vaxt bolşevizm qatarına əyləşmədiyini bildirir. Yəni K.Əliyev yalnız polemika xatirinə elmi polemikaya qoşulmur, əksinə "Cavidin şəxsiyyət bütövlüyünü və dəyişməzliyini göstərmək, onun sabit xarakterə malik olduğunu sübut etmək və yaratdığı obrazlarda da buna sədaqətin ifadəsini üzə çıxarmaq naminə polemikaya geniş meydan verir."

Görkəmli tədqiqatçı professor Cəlal Qasımov "romantizmin köynəyindən çıxan müəllifin, K.Əliyevin bu kitablarında yalnız gümandan həqiqətə gedən ədəbi yolun üzərinə işıq salmaqla kifayətlənmədiyini, eyni zamanda H.Cavidin yaradıcılığına yeni elmi baxışı, görkəmli dramaturqun Azərbaycan və dünya romantizmindəki yeri və mövqeyi ilə bağlı yürütdüyü tezis və elmi mülahizələrilə

də yadda qaldığını vurğulayır", "H.Cavidlə bağlı oturuşmuş və daşlaşmış fikirlərə ehkam kimi yanaşmır, əksinə, bir çox məqamlarda bu ehkamları yıxıb-dağıdır"[309] (Qasımov, 2013).

XX əsr Azərbaycan romantizmini Hüseyn Cavidsiz təsəvvür etmək mümkün olmadığı kimi, XX əsr Azərbaycan romantizmini araşdıran tədqiqatçıların da yaradıcılığını Hüseyn Cavidsiz təsəvvür etmək mümkün deyil. Məsələn, Azərbaycan elmi ictimaiyyətinin çoxsaylı tədqiqatların müəllifi kimi tanıdığı, filologiya elmləri doktoru, professor Himalay Ənvəroğlunun (Qasımov) çağdaş Azərbaycan şeirində süjetli lirika, roman janrlarının poetika və tipologiya problemlərinə həsr olunmuş tədqiqatlarında  da Cavid yaradıcılığı, xüsusən də dramaturgiyası təhlilə cəlb olunur. Onun müəllifi olduğu "Azərbaycan ədəbiyyatının yaradıcıdıq problemləri" monoqrafiyasının ayrıca bir fəsli məhz Hüseyn Cavidin dramaturgiyasına həsr edilib. Bu fəsildə "Şeyx Sənan" və "Peyğəmbər" pyesləri təhlilə cəlb edilərək ədibin mənzum

[309] Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 may, 2013

romantik dramaturgiyasının özünəməxsus xüsusiyyətləri açıqlanır və təhlil zamanı "Şeyx Sənan"da yer alan bir sıra məqamların "Peyğəmbər"də hansı miqyasda və necə inkişaf etdirildiyi meydana çıxarılır. Fəsildə, ayrıca "Şeyx Sənan"da vurğulanan, - "Din bir olsaydı əgər, daha məsud yaşardı əhli-bəşər", "Peyğəmbər"də yer alan "Məhəbbətdir ən böyük din", yaxud "Kəssə hər kəs tökülən qan izini, Qurtaran dahi odur yer üzünü" - misralarının fəlsəfi mahiyyətinə də işıq tutulur. Eyni zamanda, Şeyx Sənan və Peyğəmbər aparıcı personajlar olaraq tipoloji təhlil predmetinə çevrilir. Müəllifin, "Hüseyn Cavidin lirikası və dramaturgiyası" kitabında isə filosof şairin daha çox poeziyası tədqiqat obyektinə çevrilir. Dərs vəsaiti kimi çap olunan bu araşdırmada filosof şairin lirik qəhrəmanının inkişaf istiqamətləri və tale yolları izlənilir, dramaturji personajlarla səsləşən cəhətləri elmi-nəzəri düşüncə predmetinə çevrilir. Kitabda bunlar diqqət mərkəzinə çəkilərkən, həm də H.Cavid romantik Azərbaycan ədəbiyyatında mənzum dramın banisi kimi səciyyələndirilir. Himalay Ənvəroğlunun (Qasımov)

akademik Nərgiz Paşayevanın "Ön söz"ü ilə işıq üzü görən "Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik" (2008)[310] kitabında dramaturgiyamızın müxtəlif dövrlərinin yaradıcılıq problemləri araşdırma müstəvisinə çıxarılır. "Monoqrafiyada dramaturji əsərlərə orijinal tədqiqatçı düşüncəsilə təhlil verməklə yanaşı, dramaturgiyamızın bəzi yaradıcılıq problemlərini çağdaş ədəbiyyatşünaslıq təfəkkürü əsasında araşdırma predmetinə çevirmiş Himalay Ənvəroğlunun dramaturgiyamızın inkişaf problemləri ilə bağlı konseptual açıqlamalarında həmçinin tədqiqata cəlb olunan əsərlərin janr poetikası haqqında da dolğun elmi təsəvvür yaradılır"[311] (Paşayeva,2008:5). "Milli dramaturgiyamızın müxtəlif yaradıcılıq məsələlərinə dair araşdırmalar sərgilənmiş", tədqiqatda eyni zamanda, "dramaturji sənətin H.Caviddən Anara qədərki inkişaf yolunun müəyyən məqamları geniş təhlil edilir. Tipoloji təhlillərlə dramaturji sənətin

---

[310] Ənvəroğlu H. (Qasımov). Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik. Bakı, Nurlan, 2008

[311] Paşayeva N. Ön söz. Himalay Ənvəroğlu (Qasımov). Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik. Bakı, Nurlan, 2008, s. 4-6

mahiyyətinə varılması, ədəbi irs və varislik kontekstində müasir Azərbaycan dramaturgiyasının inkişaf meyllərinin tarixi düşüncə axarında çözülməsi Himalay Ənvəroğlunun tədqiqatının yüksək elmi dəyərindən soraq verir”[312] (Paşayeva,2008:5). Araşdırmada həmçinin H.Cavidin “Şeyx Sənan” və “Peyğəmbər” pyeslərinin tipoloji təhlili əsasında böyük dramaturqun yaradıcılıq prinsiplərinin bir sıra özəl keyfiyyətləri aşkarlanır, şairin romantik bədii düşüncə axarında sərgilədiyi sənət konsepsiyasının önəmi barədə elmi qənaətlər ortaya qoyulur.

Monoqrafiyada tarixiliklə müasirliyi konkret dramaturji əsərlərin tədqiqi müstəvisində bir araya gətirən Himalay Ənvəroğlunun sənətin ruhiliyini tədqiq predmetinə çevirməsi təqdirəlayiqdir. Qeyd etmək lazımdır ki, professor monoqrafiyada tarixi dramın nəzəri-estetik əsaslarından bəhs edərkən tarixiliyi yalnız gerçək tarixlə məhdudlaşdırmır, onu birbaşa sənətkarın bədii konsepsiyası ilə əlaqələndirir. Hüseyn Cavidin “romantik

[312]Paşayeva N. Ön söz. Himalay Ənvəroğlu (Qasımov). Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik. Bakı, Nurlan, 2008, s. 4-6

İnsan konsepsiyasının reallaşmasında dramaturji əsərlərinin nə kimi önəmli rol oynadığı konkret örnəklər əsasında səciyyələnir, Sənanın tragik taleyi mühitin günahı kimi yorumlanır. Peyğəmbərin tale yolunun dönüm və döngələrindən çıxış edilərək belə bir fikrə gəlinir ki, məhz ilahi eşq, rəbbinə qovuşmaq istəyi ona "qadağaların" fövqünə qalxmaq iqtidarı vermişdir"[313] (Paşayeva, 2008:5-6).

Qeyd edək ki, Cavid haqqında yazılan yazılarda ən çox irast gəlinən söz budur; H.Cavidin adını 1937-1956-cı illər arasında kimsə çəkməyə cəsarət etməmişdir. Düşünülməsin ki, bəraətdən sonra Caviddən yazmağa hər kəs özündə cürət tapmışdır. Bəraətdən sonra da Hüseyn Cavid adını çəkmək, romantizm problemlərindən yazmaq bir fədakarlıq, cəsarət tələb edirdi. Bu cəsarət sahiblərindən biri də akademik İsa Həbibbəylidir. Keçən əsrin 70-ci illərində Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunda akademik Məmməd Cəfər Cəfərovun başçılıq

[313] Paşayeva N. Ön söz. Himalay Ənvəroğlu (Qasımov). Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik. Bakı, Nurlan, 2008, s. 4-6

etdiyi şöbənin aspirantı olmuş İsa Həbibbəyli “XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası” mövzusunda namizədlik dissertasiyası yazmışdır. “Romantik lirikanın həm ümumi, həm də ayrı-ayrı sənətkarlara məxsus fərdi xüsusiyyətlərini araşdırmaq, romantik bədii fikrin həyatla, gerçəkliklə əlaqələrini müəyyənləşdirmək, onların dünya romantizm sistemində yerini aydınlaşdırmaq və elmi-nəzəri ümumiləşdirmələr aparmaq kimi məqsəd və vəzifələr layiqincə yerinə yetirilmiş” tədqiqat işi, bütünlükdə XX əsrin əvvəllərində Azərbaycan romantik lirikasının poetik forma axtarışlarını əhatə edən “Romantik lirikanın imkanları”[314] (Bakı,Yazıçı,1984) adlı kitab ilə nəticələnmişdir. Kitabda Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq lirikasının dil, təsvir vasitələri, üslub baxımından novator bədii keyfiyyətlər ehtiva etdiyini xüsusi olaraq qeyd edən akademik İsa Həbibbəyli kitabın “Bir neçə söz” adlı girişində “çoxəsrlik Azərbaycan poeziyasının, o cümlədən XX əsrin əvvəllərində Azərbaycan romantik şeirinin ədəbi təcrübəsinin sistemli

[314] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, 167 s.

şəkildə umumiləşdirilməsinin mühim elmi əhəmiyyətə malik olduğunu”[315] vurğulayaır (Həbibov, 1984: 4). Qeyd edir ki, “XX əsrin əvvəllərində Hüseyn Cavid, Məhəmməd Hadi və Abdulla Şaiq müxtəlif janrlarda dəyərli sənət əsərləri yaratmış, romantik poemalar, faciə və dramlar yazmış, hətta bədii tərcümə ilə də romantik lirikanın inkişafına köməklik etmişlər“[316] (Həbibov,1984:4).

Abdulla Şaiqin haqlı olaraq qeyd etdiyi kimi, romantik şairlər sənətdə köhnəlmiş yolla getməyi məqbul saymırdılar. Romantiklər üçün “hələ 50 il əvvəl M.F.Axundzadənin epiqonçu şeirə qarşı mübarizə çağırışları günün vacib estetik tələbinə çevrilmişdi. Bu yol çətin olsa da romantiklər öz amallarına çatmağa çalışırdılar. Bu ideyaların tərənnümü üçün isə lirika münasib idi. Tədqiqatçının qənaətinə görə “lirik şeir həmişə mövcud olandan “yeniliyə”, bu “yenilikdən” daha artıq “yeniyə”, daha doğrusu “ən yeniyə” doğru can atır”[317] (Həbibov,1984:10). Ədəbiyyatda bu meyli F.Köçərli də

[315] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s. 4
[316] Yenə orda, s.4
[317] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984,s.10

müşahidə edərək yazırdı; “gözəlləri bir dəbdəbəli dillə tərənnüm edən əldəqayırma şairlər epiqonçuluq edib şeiri nüfuzdan salırdılar”[318] (Həbibov,1984:11). Romantik A.Səhhət isə “Təzə şeir necə olmalıdır” adlı məqaləsində qələmdaşlarını “İnsan üçün mərifət və ibrət... hüsula” gətirən, “hissiyatı-tərbiyə” üsulu ilə yaranan “oxucuların qəlbinə təsiri olan”[319] (Həbibov,1984:12) şeirlər yazmağa səsləyirdi ki, ümumilikdə bu fikirlər, “dövrün, zamanın ədəbiyyat qarşısında qoyduğu tələblər idi. Bu tələb isə akademik M.C.Cəfərovun göstərdiyi kimi həm tənqidi realizmdə, həm də mütərəqqi romantizmdə özünü göstərirdi.” Həcmcə kiçik, çəkisinə, sanbalına görə böyük olan tədqiqatında bütün bunları ümumiləşdirən tədqiqatçı yazır: “Milli ədəbiyyatın inkişafının yeni mərhələsi və istiqaməti olan romantizm cərəyanı ədəbi fikrin digər sahələri ilə birlikdə lirikaya yeni mövzu və ideyalar gətirmişdir”[320] (Həbibov,1984:12) və “lirikada yaranan yeni mövzular içərisində vətənpərvərlik ideyası daha

[318] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s.11
[319] Yenə orda, s.12
[320] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s.12

diqqətə layiqdir. Lirikanın aparıcı mövzularından biri maarifçilik ideyaları idi. Eyni zamanda romantik poeziyada qadın azadlığı mövzusu da aktuallıq kəsb edirdi. Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan romantik lirikası novator keyfiyyəti ilə diqqəti cəlb edir. Azərbaycan romantiklərinin yaradıcılığında məhəbbət lirikasının da mühim yer tutduğunu vurğulayan İ.Həbibbəylinin nümunə olaraq Hüseyn Cavidin aşağıdakı misralarını verməsi də təsadüf deyil:

Həp sevgidir gözəlliyi insana sevdirən,
Məhrumi-eşq olunca gözəllik də can sıxar.
Dünyada varsa dövləti Cavid o, eşqdir,
Olmaz sevib-sevilməyən ömründə bəxtiyar[321] (Cavid, 2007:74).

Tədqiqatda eyni zamanda, romantik lirikada lirik qəhrəmanın daxili aləmini mənalandırmaq üçün bayatının bədii vasitəyə çevrilməsindən, xüsusən də, "Hüseyn Cavidin bu formadan səmərəli şəkildə istifadə etməsindən bəhs edərək "XX əsr Azərbaycan romantik lirikasında

[321] Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, s.74

klassik şeir formaları da mühim yer tutur. Burada tədqiqatçı yeri gəldikcə klassik üslubda yazan bəzi epiqonçu şairlərin köhnəlmiş formalara aludəçiliyini də tənqid etmişdir. Azərbaycan romantikləri bununla bərabər klassik şeir formalarının əsas janrları olan qəzəl, qəsidə, rübai və. s. yeri gəldikcə istifadə etmiş, onu daha da zənginləşdirmişlər“ – deyə qeyd edir.

XX əsr Azərbaycan romantik lirikasını novator şairlərin sayəsində yeni şeir formaları ilə; sonet, marş, şərqi və s. zənginləşdirməsindən, poeziyamıza gətirilən sonet, marş, şərqi kimi janrlardan söz açan tədqiqatçı nümunə kimi Hüseyn Cavidin sonetlərini verir və Azərbaycan romantik poeziyasında yaranan şərqilərdən və onların sənətkarlıq xüsusiyyətlərindən bəhs edir: “Beləliklə, 1905-1917-ci illər Azərbaycan romantik lirikasının poetik forma baxımından yeni keyfiyyətlərə malik olduğu, novatorluq istiqamətində inkişaf etdiyi aydın olur”[322] (Həbibov, 1984: 99). Eyni zamanda, araşdırmada Azərbaycan romantiklərinin hər birinin özünəməxsus fərdi

[322] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s.99

üslublarını da “Romantik metod və bu yaradıcılıq metodunu şərtləndirən bədii üslub romantiklərin çoxçeşidli fərdi üslubunun təzahürü vasitəsi ilə yaranır, məna tapır”[323] (Həbibov,1984:108) – deyə diqqətə çəkilir. Bu qənahətə gəlinir ki, “A.Səhhətin fərdi üslubu lirik-romantik səciyyədədir. Hüseyn Cavidin fərdi üslubu isə romantik fəlsəfi mahiyyət daşıyır. M.Hadinin şeir yaradıcılığında romantik publisist üslub aparıcıdır; “Hadi yaradcılığında romantik-publisist üslub ümumi romantik üslubun fərdi təzahür forması kimi meydana çıxır”[324] (Həbibov,1984:141). Tədqiqatçı Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq lirikasının dil, təsvir vasitələri, üslub baxımından novator bədii keyfiyyətlər ehtiva etdiyini də xüsusi qeyd edir.

Mütəfəkkir Cavidin “arzu və xəyal içərisində gizlənən və gələcəyə istiqamətlənən amal və qayəsini, onun poeziyasının təmtəraqlı ritmindən doğan mübarizliyini” aydınlaşdıran akademik İsa Həbibbəyli “eyni zamanda,

[323] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s. 108
[324] Yenə orda, s..141

həmin poetik nümunələr dramatik əsərlər olmasa belə, tədqiqatçı gözlənilmədən (bəlkə də, gözlənilən formada!) onlardakı monoloq və dialoqları da qabardır”[325] (Həbibov, 1984:43), Cavidin “Məyus bir qəlbin fəryadı”, “Məzlumlar için”, “Neçin”, “Uyuyur”, “Sevinmə, gülmə, quzum” şeirlərini monoloq, “Qız məktəbində”, “Öksüz Ənvər”, “Çiçək sevgisi” şeirlərini isə dialoqun mükkəmməl nümunələri kimi dəyərləndirir.  AMEA-nın müxbir üzvü, professor Kamran Əliyev ümumilikdə,  XX əsrin əvvəllərində Azərbaycan romantik lirikasının poetik forma axtarışlarının bütün incəliklərini əhatə edən “Romantik lirikanın imkanları” tədqiqat işinin, bütövlükdə XX əsr Azərbaycan ədəbiyyatşünaslığında romantizmin tədqiqi sahəsində özünəməxsus yeri olduğunu vurğulayır: “Dissertasiyada eyni zamanda, tədqiqatçının “gələcək ədəbiyyatşünaslıq tədqiqatları üçün səciyyəvi olan bir elmi maraq da özünü kifayət qədər qabarıq şəkildə göstərmiş oldu: romantik lirika üçün ilk və yeni olanları müəyyənləşdirib təqdim etmək! Beləliklə, alimin qələmi ilə

[325] Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984, s.43

Azərbaycan romantik lirikasının özünəməxsus janrlarına tam vətəndaşlıq hüququ qazandırıldı və poetik formalarda novatorluq statusu da elan edildi: marş, himn, şərqi, sonet! Romantik lirikanın bu janrları insanın özünə hərəkət verən və onun qəlbini riqqətə gətirən janrlardır"[326] (Əliyev, 2013: 42-47).

Akademik İsa Həbibbəyliyə görə, "həm yazıçı sözünə, həm də tənqidçi fikrinə inanmaq və bununla kimisə inandırmaq əlyazmaya, arxiv materialına, tarixi fakta diqqət və həssaslıqla yanaşmaqdan başlayır. Çünki bir əlyazma nümunəsi, naməlum qalan bir arxiv sənədi, yaddan çıxan və əhəmiyyətsiz görünən bir fakt həqiqəti başa düşməyə kömək edir"[327] (Əliyev,2013:177). Bu sözlərdə həqiqət payı çoxdur. Cəfakeş, elm fədaisi, professor Cəlal Qasımovun tədqiqatlarında "bir çox pərdələrin qaldırılıb səhnəarxası mətləblərin aşkarlanmasına" işıq tutan məhz arxiv sənədləri deyilmi?

---

[326] Əliyev K. Yeni ədəbiyyatşünasliq konsepsiyası/Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslarlar. Bakı:Elm,2013, s, 42-47
[327] Əliyev K. Yeni ədəbiyyatşünasliq konsepsiyası/Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslarlar. Bakı:Elm,2013, s.177

Tədqiqatçı alimlər sırasında öz yeri, öz mövqeyi olan Cəlal Qasımovun Azərbaycan elmi üçün çox əhəmiyyətli sayılan "Yaddaşın bərpası", "Əsrin qiyamət çağı", "Məhbus tərcümeyi-halı", "Ədəbi məhkəmələrdə", "Cavidi məhbəsə aparan yol", "Vəli Xuluflu" və s. kimi monoqrafiyaları bütövlükdə arxiv materialları əsasında yazılmışdır. Tədqiqatçının vurğuladığı kimi, "Heç kimə sirr deyildir ki, müstəqilliyə qədərki mərhələdə elmi-ədəbi mühitdə Azərbaycan ziyalılarının həyatı və yaradıcılığı müəyyən obyektiv  və subyektiv səbəblərdən birqütblü – sinfi, partiyalı mövqedən tədqiq edilmişdir. Ona görə də həmin dövrün ictimai-siyasi hadisələrinin, eyni zamanda mütəfəkkir ziyalıların həyat və yaradıcılığının yenidən", "arxiv materiallarına, istintaq qovluqlarına və xatirələrə" əsaslanaraq" öyrənilməsinə və çağdaş elmi-nəzəri tələblər səviyyəsində araşdırılmasına böyük ehtiyac vardır"[328] (Qasımov,2016:12-13). Professor C.Qasımovun bütün tədqiqatları məhz bu boşluğun doldurulmasına xidmət edir. Araşdırmalarında "repressiyalara start verən, onu doğan və

---

[328] Qasımov C. Vəli Xuluflu. Bakı, 2016, s.12-13

bəsləyən imperiyanın - iblisin, təpəgözün, totalitar rejmin və totalitar mühitin özünü göstərmək" olan tədqiqatçının yanaşması diqqəti cəlb edir: "Çalışmışıq ki, Vəil Xuluflunun simasında güllələnmiş ziyalılarımızı, xüsusilə də güllələnmiş kommunistləri yenidən güllələməyək, əksinə onları bütün dərdləri və ağrıları ilə birlikdə dərk edək. Ona görə də 1920-1950-ci illərin repressiya qurbanlarına bolşevik müstəntiqi (tənqidçisi) mövqeyindən deyil, milli ziyalı mövqeyindən yanaşaraq qiymət verməyə çalışmışıq"[329] (Qasımov,2016:12). Tədqiqatçının "Əsrin qiyamət çağı", "Məhbus tərcümeyi-halı", "Yaddaşın bərpası", "Cavidi məhbəsə aparan yol", "Ədəbi məhkəmələr" adlı monoqrafiyaları da məhz bu bu tendensiya ilə aparılan araşdırmaların nəticəsidir. Tədqiqatçının böyük zəhmət bahasına ərsəyə gələn elmi araşdırmalarının yüksək dəyərləndirilməsi bu səbəbdəndir; "o, başqaları kimi öz şəxsi kitabxanasındakı rəflərə düzülmüş hazır kitablara deyil, ərəb, latın və kiril əlifbalarında çap olunan mətbuat səhifələrindəki faktlara,

[329] Qasımov C. Vəli Xuluflu. Bakı,2016, s.12

arxiv künclərində gizlənib qalan və əldəyməmiş materiallara əsaslanaraq yazılmış tədqiqatları ilə tanınır. Ona görə də “Ədəbi məhkəmələr” kitabına həmin tədqiqatların davamı kimi baxdıqda təsadüfdən yox, məhz zərurətdən doğan yeni bir ədəbi-elmi faktın təbiiliyinə inanırsan.” C.Qasımovun H.Cavidin məhbəsə qədərki və məhbəsdəki faciəvi həyatından, bəraət dövründəki ədəbi taleyindən bəhs edən “Ədəbi məhkəmələr” kitabı ilk öncə fakt zənginliyi ilə diqqəti cəlb edir. Təqdim edilən faktlar 20-30-cu illər dövri mətbuatı və sovet dövrünə aid arxiv sənədlərindən götürülüb.

Siyasi hadisələrin tüğyan elədiyi 20-30-cu illər sovet cəmiyyətində isə məsələ ağlasığmaz dərəcədə mürəkkəb idi. Köhnəni darmadağın dağıdıb, onun xarabalıqları üstündə quruculuq işləri aparan bolşeviklər ədəbiyyata özlərinin təbliğat və təşviqat vasitəsi kimi baxırdılar, onlar verdikləri qonorar, vəzifə və imtiyazlar müqabilində yazıçılardan məhz bolşevizmi təbliğ edən alovlu əsərlər tələb edirdilər. Cavan yazıçıları təbliğat işinə qoşmaqda elə bir çətinlik yox idi – cavanlar siyasi tələbə, o vaxtın dili ilə

desək, ictimai sifarişə müsbət cavab verirdilər, çünki inqilab dalğası üstündə ağ günə çıxacağımızı zənn edib, fəhlə-kəndli hökumətinə qəlbən bağlanmışdılar və "dəstədən geridə qalmamağı", mübarizənin "ən ön sıralarında olmağı" özlərinə borc bilirdilər. Dərd ədəbiyyata sovet dövründən qabaq gələnlərin, özünəməxsus yaradıcılıq yolu keçib müəyyən ədəbi mövqe qazananların dərdi idi. "Ölülər", "Şeyx Sənan" və "Aydın" müəlliflərini öz yolundan döndərmək asan məsələ deyildi. Bu məqamda maddi həvəsləndirmə üsulu kara gəlmirdi. Konkret olaraq H.Caviddən danışsaq, qeyd etməliyik ki, nə dövlət səviyyəsində təşkil olunan "Cavid axşamı", nə fərdi təqaüdün verilməsi, nə Almaniyaya müalicəyə göndərilməsi, nə əsərlərinin dalbadal çap olunması və Azərbaycan, həmçinin Zaqafqaziya və Orta Asiya şəhərlərində tamaşaya qoyulması H.Cavidi bolşevik ideologiyasını təbliğ etmək səviyyəsinə endirə bilmədi. Sözsüz ki, 1937-ci il repressiyaları qəfildən baş vermədi. Hadisələrə hazırlıqlar bir xeyli öncədən başlamışdı. Bu tədbirlərin başında ictimai rəyi formalaşdırmaq dururdu kim dostdur, kim düşmən?

Professor C.Qasımov haqlı olaraq ədəbi məhkəmələri ictimai rəyi formalaşdırmaq tədbirləri sırasında xüsusi olaraq qeyd edir. Buradakı məhkəmə bir çox mətləblərə işıq salınır. Kimin yolu məhkəmədən keçirsə, bu məhkəmə "ədəbi məhkəmə" olsa da, o günahkardır. Bu məhkəmələr qapalı keçirilmirdi, hər kəsə açıq idi və bununla yanaşı, mətbuatda öncədən məhkəmənin keçiriləcəyi yer və tarix anons edilirdi. Məhkəmələr geniş şəkildə mətbuatada; "Kömmunist"də, "Zəhmət"də işıqlandırılırdı. "Kommunist" qəzeti ədəbi məhkəmələrin keçirilmə səbəbinin "şura quruluşunun möhkəmlənməsinə və qabağa getməsinə cürbəcür yollar və hərəkətlər ilə maneçilik göstərən şəxsləri mühakimə etmək" olduğunu açıq-aydın bəyan edirdi. Ədəbi məhkəmələrin "Kommunust" və "Zəhmət" qəzetində gedən anonslarından da göründüyü kimi, ədəbi məhkəmələrdə daha çox dram əsərləri mühakimə edilirdi. Bunun da səbəbi 20-30-illərdə teatrın daha kütləvi xarakter daşıması ilə əlaqədar idi. Bu səbəbdən ədəbiyyat ideoloqları ədəbi məhkəmələr keçirib "şura quruluşuna maneçilik törədənləri" geniş kütlələrə

tanıtmaqda teatrı əvəzsiz vasitə sayırdılar: “Dekabrın 12-də “Kommunist” qəzeti tərəfindən “Şeyx Sənan” üzərində ictimai-ədəbi mühakimə qurulur. Bu münasibətlə ayın 11-də Dövlət Akademik teatrda “Şeyx Sənan” pyesi tamaşaya qoyulacaqdır. Mühakimə ilə teatr tamaşasının çox mərbut olması və bir-birinə nə qədər yardım etməsi qabaqkı təcrübəmizdən görünmüşdür. Ona görə bütün maraqlıların həm teatra, həm mühakiməyə gəlməsi ayrıca tövsiyə olunur”. C.Qasımov 37-ci il repressiyasına siyasi hazırlıq tədbirlərindən biri kimi ədəbi məhkəmələrin harada və necə keçirilməsini araşdıraraq yazır: “Açıq şəkildə, klub-larda və teatr binalarında keçirilən Ədəbi məhkəmələr elə təşkil olunurdu ki, ora gələnlərin sayı klub və teatr binasında yerləşdirilən oturacaqların sayından qat-qat çox olurdu. Məhkəmə heyəti əhalinin çoxluğunu nəzərə alaraq ədəbi mühakimələrin daha geniş binalarda keçirilməsi haqda qərar qəbul edirdi.” Hətta H.Cavidin “Şeyx Sənan”ın mühakiməsində iş o yerə çatdı ki, camaatın salona sığışmadığını görən məhkəmə heyəti “xalqın bu həvəs və arzusunu” nəzərə almalı və iclası Əli Bayramov klubundan

Türk Tənqid-Təbliğ Teatrına keçirməli oldu." Ədəbi məhkəmələrə kütlənin bu qədər böyük həvəs göstərməsi bir tərəfdən təccüb doğurursa, bir tərəfdən də normaldır, çünki "tarix boyu kütlə günahkar kimi ittiham olunan adamın boynunun vurulmasına, dərisinin soyulmasına, dar ağacından asılmasına, daşlanmasına böyük maraqla tamaşa eməyibmi"? Ədəbi məhkəmələrdə ittihamçı da, ittiham olunan da tanınmış yazıçı və ədəbiyyatşünaslar idi. Özümüz və özümüzü kəsənlər üz-üzə buraxılmışdı. Mühakimə edənlər – ittihamçılar mühakimə edilənlərdən daha güclü, sözləri daha ötkəm idi, çünki onların arxasında duranlar, əlinə daş verənlər hökümət yanında daha nüfuzlu, daha sözü keçən, daha inanılmış adamlar (sovet ideologiyasına qulluq göstərənlər) idi. Məsələn, H.Cavidin "Şeyx Sənan" əsərinin mühakiməsində (halbuki "Şeyx Sənan" sovetlərdən öncə yazılmışdı) baş ittihamçı kimi çıxış edənlər C.Cabbarlı, C.Cabbarlının "Od gəlini" əsərinin mühakiməsində isə H.Zeynallı idi.

37-ci il repressiyasına hazırlıq işlərinin görülməsində baş rol ədəbi tənqidə verilmişdi. H.Cavidin sovet

dövründən əvvəl yazdığı əsərləri ilə yanaşı, sovetlərin ilk illərində Peyğəmbər", "Topal Teymur", bir az sonra yazdığı " "Knyaz"ı, hətta şairin özü ədəbi tənqidin kəskin, sərt hücumlarına məruz qalırdı: "Cavid bütün ədəbi yaradıcılığı boyu öz ölkəsinin (Azərbaycanın) yavrusu deyildir. O, tarixə, əfsanələrə, mistik burjua romantizminə qaçdığı üçün, canlı həyatı görmək qabiliyyətindən məhrum olduğu üçün bu vaxta qədər şura varlığını, bütün dünyanı məşğul edən sosializm ölkəsini, onun mahiyyətini düşünüb... həll etmək istədiyi problemlərə yanaşmağı bacarmamışdır. Bəlkə də bunu istəməmişdir" ( çox doğru!). Ədəbi tənqidin mətbuat səhifələrində bu sərt, amansız, "mərəz" və "qərəz" qoxusu gələn ittihamları, onların sayəsində 30-cu illər mətbuatında yaranan, öz ölkəsinin (Azərbaycanın) yavrusu ola boilməyən sənətkar obrazı Cavidi repressiyaya götürürdü.

Bu problemlər - "totalitar sistem dövründə millətin gözünün ağı-qarası olanların mənəvi və fiziki məhvi ilə yaddaş varisliyinin tar-mar edilməsi", bolşevizm Azərbaycanda inam və etiqadımıza vurduğu zərbə"

“Yaddaşın bərpası” monoqrafiyasında da ələ alınır və professor C.Qasımov tam aydınlığı ilə sübut edir ki, “İblisin gəzişmələri altında baş verən repressiya və deportasiya məhz inamın və imanın itirildiyi məqamdan başlamışdır. O qanlı faciələri törədənlər daha çox mənəvi təbəddülatlar zəminindən su içmişdilər. Ona görə də cəmiyyətin harmoniyası pozuldu, insan öz məhvərindən çıxdı”[330] (Qasımov,2007:19). Cəlal Qasımov “sürgün”, “güllələmə”, “məhkum etmə”, “xalq düşməni”, “vətən xaini”, “pantürkist”, “panistamist” və s. kəlmələri və söz birləşmələrinin hər şeyi üstələdiyi” bir dövrdə  - 20-30-cu illərdə dinə qarşı hücumların yeni quruluşu möhkəmlətmək üçün vasitəyə çevrilməsini tarixin böyük səhvi hesab edir. Tarix boyu Tanrıdan güc alan, həmişə “Allahı-Tanrısı yoxdur” - ittihamını ən ağır ittiham hesab edən bir millət Tanrı ilə üz-üzə qoyulur, onun imanına şəkk yaradılır. “Din xalq üçün tiryəkdir” - şüuarı ilə millətin imanına “tula bağlanılır.” Böyük Füzulinin “Ya rəbb” xitabı ayaq altına

[330] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.19

salınır”[331] (Qasımov,2007:19).

Azərbaycanda “siyasi repressiyaların sovetləşmədən əvvəl başlamasını” vurğulayan tədqiqatçının fikrincə, “siyasi repressiyaların ilk qurbanı ayrı-ayrı fərdlər deyil, bütöv bir respublika - Azərbaycan Demokratik Cümhuriyyəti olmuşdur. Həmin cümhuriyətin və millətin tarixi taleyində mühim rol oynamış şəxslər uzun müddət qabağa çəkilməmiş, dərin bir layın, qatın altında dəfn edilmişdilər. Həm də təkcə cumhuriyəti quranlar deyil, onun ideoloqları da totalitar sovet rejminin qadağaları ilə üzləşərək mürtəce, təcavüzkar, irticaçı, “xalq düşməni”, “vətən xaini” adlandırılmışdır. 1930-cu ildə isə şübhəli bilinən hər kəs-imza yerinə barmaq basandan görkəmli və mütəfəkkir şəxsiyyətə qədər təqib və təzyiqlərə məruz qalmış, anılanda da şarlatan, vətən xaini, zinovyevçi, trotskiçi, pantürkist və panislamist kimi anılmışdır“[332] (Qasımov, 2007:19).

Bu baxımdan, professor “Repressiyaların tüğyan

[331] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007,s.19

[332] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.19

etdiyi 1920-1950-ci illəri şərti olaraq üç dövrə bölür. Birinci dövr özünüdoğrultma və bolşeviklərə xidmət mərhələsidir” ki, bu dövr ADR məhv edib yeni qurulan hökməti alqışlamaqdan, mədh etməkdən, şüarlar söyləməkdən; “İkinci dövr şübhə və məhvetmə mərhələsidir. 1930-1940-ci illəri əhatə edən bu mərhələnin əsas xarakrerik xüsusiyyəti  Sovet hökumətini mədh etməyənlərə, yeni sovet adamına çevrilməyənlərə, Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda mübarizə aparanlara qarşı amansız olmaq, onları fiziki cəhətdən məhv etməkdən ibarətdir”[333] (Qasımov, 2007: 4) ki,  məhz bu dövrdə Azərbaycan ədəbiyyatının “vicdanı” sayılan “mücahid”  Hüseyn Cavid, Vətən, millət aşıqi Əhməd Cavad,  gənc Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz və başqaları bu rejmin qurbanı olmuşdu. “1930-cu illəri Azərbaycan ziyalılarının soyqrımı, onlarla haq-hesab çəkmək illəri” kimi səciyyələndirən C. Qasımova görə,  “əvvəlki illərə nisbətən bu illərdə Sovet cəlladları daha amansız olmuş”, bağışlamaq, əfv etmək

[333] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.4

anlayışları unudulmuş"[334] (Qasımov,2007:5), "Sosialist mülkiyyətinə" çevrilmək istəməyən sənət adamları müxtəlif dərəcədə fiziki və mənəvi repressiyalara məruz qalmış, onların ailə üzvləri, tanışları sürgün olunmuş, əsərləri isə zərərli ədəbiyyat kimi yasaq və ya məhv edilmişdir"[335] (Qasımov, 2007: 6). "Faktlar göstərir ki, siyasi repressiyalara yalnız ayrı-ayrı fərdlər, "vətən xainləri", şahidlər, üzləşmədə iştirak edənlər, danos yazanlar yox, bütövlükdə xalq məruz qalmışdı"[336] (Qasımov, 2007: 6). "Üçüncü dövrü günahsızlığın təsdiqi, bəraət dövrü" adlandırmaq olar. Monoqrafiyada bir incə məsələni də diqqətə çəkən Cəlal Qasımov yazır: "H. Cavid, Ə. Cavad, M. Müşfiq, S. Mümtaz, V. Xuluflu və onlarca başqaları böyük təəssüflə anıldığı halda, S. Vurğun, S. Rüstəm, M. Rahim, R.Rza, M. Hüseyn və başqaları XDİK orqanları tərəfindən ittiham olunmamaqda günahlandırılırlar. Deməli, biz eyni anda həm əzən, fəlakətlər gətirən imperiyanı, həm də imperiyanın məhv

[334]Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.5
[335] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.6
[336] Yenə orda, s.6

etmədiyi şəxsləri ittiham edirik. Belə çıxır ki, həqiqətən də, Azərbaycanda vətən xainləri olmuş və bunlar ölənlər deyil, qalanlar imiş”, “əslində isə, siyasi repressiya yalnız məvh edilənlərin deyil, bütövlükdə xalqın içindən keçib, yəni məhv olunanlar kimi, sağ qalanlar da repressiya olunub, hər gün yüz dəfə ölüb-diriliblər. Bu mənada, istər öldürülən, istərsə də sağ qalan sənət adamlarından, onların şəxsiyyətindən, həyatından, yaradıcılığından bəhs edərkən, mütləq zaman və mühit amilini yaddan çıxarmamaq lazımdır.” Əlbət ki, hər kəs “inqilab epoxasının sənətkarı” ola bilmirdi və “zaman və mühit amilini yaddan çıxarmamaq lazımdır” - sözlərini əldə tutaraq deyə bilərik ki, “inqilab epoxasının sənətkarı” ola bilməyənlər adlarını tarixə yazdıqları üçün ola bilənlərdən daha xoşbəxtdirlər. Belə xoşbəxtlərdən biri də o dövrdə yaranan “sovet ədəbiyyatından - sinfi, partiyalı mövqedən uzaq olan” ədəbiyyatın başında dayanan Cavid idi. Əslində, “yaradıcılığında türk ruhu, türk düşüncə tərzi, islami dəyərlər olduqca güclü olan Cavidin “qaldırdığı ideyalar sovet rejminin qadağan etdiyi mövzular idi. İblisi

göylərdən yerə endirən və "hər türlü xəyanətlərə bais olan insan" olduğunu vurğulayan Cavidin anlatdıqları hər zaman üçün aktualdır. "Romantizmin əsas xüsusiyyətlərindən olan uzağı görmə, zamanı qabaqlama bəşəriyyətin iblisə uyduğu, "dağlarda çaqqal, meşədə tülkü, cəhənnəmdə İblis qalmadığı, hamısının insanların arasına səpələndiyi" bir vaxtda çox qorxulu və təhlükəli idi. Belə bir zamanda Cavid "iblis"i, həm də iblis mələyi deyil, iblis insanı (elə həm də iblis imperiyanı) yaratdı. Onları göydə deyil, yerdə dolaşdırdı. Bu illərdə bütün xalq və millət İblisin cəginə keçmişdi"[337] (Qasımov,2007:19), o cümlədən də Cavid. Böyük iblisin kiçik başları Cavidi nişanlayaraq bəzi qəzet və jurnallarda tənqid atəşinə tutur, "yolunu azmış" Cavidi düz yola çağırırdılar. "Sosialist inqilabından az keçməmiş" Leniniana" yazmağa, "həyatın nəbzini tutmağa" çağırırdılar. Halbuku Cavid nə "sosialist inqlabı" deyilən şeyi qəbul edirdi, nə də onun bizi xoşbəxt edəcəyinə inanmırdı. Qəbul etmədiyi və inanmadığı, əksinə bizi məhkumluğa götrdüyünü hamıdan və hər kəsdən əvvəl

[337] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.19

gördüyü bir quruluşdan necə yaza, mədh edə bilərdi. Cavid Haqqın, Həqiqətin, Ədalətin peşində idi.

“Könlünün diktəsi ilə” yazan Cavid bu zaman “Leniniana” deyil, “Teymurnamə”ni yazırdı, “Topal Teymur da şair Kirmaniyə “Teymurnamə” yazdırırdı. Fərq ondadır ki, XIV əsrin Teymurunun “Sənin kimi dəyərli simaların qiyməti anlaşılsaydı, mənim kimi topallar soldakı sıfır qədər mənasız qalardı - deyə qiymətləndirdiyi şair Kirmani XX əsrin Teymuru (Stalini, Mir Cəfər Bağırovu…) məhv edirdi. XX əsrin Teymurunda tiranlığın, topallığın, “məğrurları əzmək üçün yaradılmış bir Allah bəlası” olmağın etirafı və acı dərki, XX əsrin Teymurunda insanı öldürməyin, qan tökməyin böyük həvəs, ehtiras və qüruru duyulurdu. Hətta “Teymurnamə” müəllifi şair Kirmani Teymur haqqında həcv yazanda belə ondan mükafat alırdı. Cavidlər isə XX əsrin Teymuruna kiçik bir eyham edəndə belə yalnız hakimlərin və müstəntiqlərin deyil, bolşevik tənqidçilərinin də qəzəb və kini ilə rastlaşırdı.”

Cavid türkçü idi, Cavid turançı idi. Cavidin ölənə qədər məfkurəsinə sadiq qaldığı Turançılığın mahiyyətini

Ziya Göyalp ”Türkçülüyün əsaslar” kitabında (Bakı,1991) belə açıqlayır: “Turan” sözü “turlar”, yəni türklər demək oluğu üçün, sadəcə türkləri içinə alan bir türk topluluğunun adıdır. Deməli, “Turan” sözünü bötün türk boylarını içinə alan böyük Türküstan üçün işlətməyimiz lazımdır. Çünki “türk” sözü bu gün yalnız Türkiyə türklərinə verilən bir ad olmuşdur. Türkiyədəki türk kültürünə - harsına daxil olanlar təbii ki, yenə bu adı alacaqdılar. Mənim inamıma görə, bütün oğuzlar yaxın bir zamanda bu ad altında birləşəcəklər. Ancaq tatarlar, özbəklər, qırğızlar, ayrı kültürlər - harslar ortaya çıxardıqları zaman, ayrı-ayrı millətlər halını alacaqlar. O zaman bütün bu əski qohumları, qövmi bir topluluq halında birləşdirən ortaq bir ada ehtiyac duyulacaqdır. Bax, bu ortaq ad “Turan” sözüdür. Türkçülərin uzaq ülküsü - məfkurəsi Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda və kültürdə-harsda birləşdirməkdir”[338] (Köprülü, 1991:38). Ziya Göyalpla eyni düşüncənin, eyni məfkurənin daşıyıcısı olan Hüseyn

[338] Ziya Göyalp. Türkçülüyün əsaslar. Bakı, 1991, s.38

Cavidin də turançılığı  bütün türk xalqlarının mənəviyyat, mədəniyyət, əqidə, ədəbiyyat, din və dil bürliyinə-bütövlüyünə xidmət edirdi: “Onun “Turançılıq fəlsəfəsinin məzmununda və mahiyyətində, mündəricəsində və siqlətində də yalnız bunlar dayanır və estetik  amala çevrilirdi”[339] (Qasımov,2007:23). Yəni amalına xain çıxa bilməyən Cavid özü bilərəkdən repressiya olunmasına şərait yaradırdı, obrazlı desək;  “ölümə qənşər” gedirdi. Bu fikri vurğulayan professor Cəlal Qasımov yazır: “1997-ci ildə Turan xanımla görüşərkən o, Cavidlə bağlı yazıma irad tutaraq bildirdi ki, “bəs babam haqqında danos yazanlar haqqında danos yazanlar barədə niyə yazmayıbsan?! Mən zarafatla dedim ki, Turan xanım, mənə elə gəlir ki, Cavid haqqında ən böyük “donos”un faktlarını elə Cavidin özü yazıb”[340] (Qasımov, 2007: 66).

Özü haqqında ən böyük “donos” faktlarını elə özü yazan Cavid repressiyadan öz nəsibini alıb. “Bədii düşüncə və ədəbi prosesdə siyasi repressiyalar vahid ssenari

---

[339] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.23
[340] Yenə orda,s.66

əsasında müxtəlif yollarla həyata keçirilirdi, qarşı-qarşıya qoyma, üzləşdirmə, dövri mətbuatda, qurultay və plenumlarda ifşa bu ssenarinin əsasını təşkil edirdi" və "üç üsul daha qabarıq görünürdü: dövrü mətbuatda və yığıncaqlarda tənqid, ədəbi məhkəmələrdə gözdən salmaq, hüquq-mühafizə orqanlarının əli ilə fiziki məhvə nail olmaq." Bütün bu üsulların hamısı Hüseyn Cavidə tətbiq olunmuşdur. Həm də bir tək Cavidə yox, yaddaşında milli azadlıq ideyalarını yaşadan hər bir ziyalıya tətbiq edilirdi.

Professor Cavidi "məhbəsə aparan yolun donoslardan və donosçulardan çox Cavidin özündən, ədəbi əsərlərində qaldırdığı milli ideyalardan, toxunduğu problemlərdən, türkçülüyündən, turançılığından, bəşəriliyindən, islami dəyərlərə sərvət kimi yanaşmasından, milliliyindən keçdiyini"[341] (Qasımov,2007:67) vurğulayaraq yazır: "ictimai həyatdakı maskasının və kaskasının səhnədə yırtıldığını görən İblis-İmperiya tez və ya gec Cavidi məhbəsə aparmali idi", çünki, bolşeviklərə milli şair lazım deyildi. Qərbədir ki, əvvəllər daha çox "türkçü" "türançı"

[341] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.67

kimi ittiham olunanları “1950-ci illərdən sonrakı ədəbiyyatşünaslıqda sübut etməyə çalışmışlar ki, repressiyaya məruz qalan şəxsiyyətlərin heç bir günahı olmamış, onlar sovet cəmiyyətinin təbliğatçıları olmuşlar”[342] (Qasımov, 2012:6). Məsələn, bu 1967-ci ildə nəşr olunan II cildlik “Azərbaycan sovet ədəbiyyatı”nın I cildində[343] (Azərbaycan sovet ədəbiyyatı.Bakı, Maarif, 1967, II cilddə 1c) Hüseyn Cavid haqqında yazılan oçerkdə daha kəskin şəkildə görünür: “Şairin son dramı “İblisin intiqamı”dır. Bu əsər faşizmin ifşasına həsr olunmuşdur. Dramın yazıldığı 1936-37-ci illərdə faşizm taunu bütün Avropanı bürümüşdü, hətta Şərq ölkələrinə də yayılmaqda ldi. Biz bu əsərdə “İblis” faciəsində gördüyümüz İblis, Arif, Rəna və digər surətlərlə yenidən qarşılaşırıq. Əsərdə müəyyən simvolik səciyyə daşıyan İblis, I Şeytan, II şeytan, III şeytan IV şeytan və Sülh pərisi və s. kimi surətlərlə yanaşı, konkret obrazlar da verilmişdir.” “Şair qəhvəyi taunun bütün birləşmələrini, onların ittifaqlarını,

[342] Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007, s.6
[343] Azərbaycan sovet ədəbiyyatı. 2 cilddə 1c., Bakı, Maarif, 1967

bəşəriyyət üçün dəhşətli təhlükə olacağını duymuş və onu ifşa etməyə başlamışdır. Əsərdə alman, italyan, ispan və yapon faşistləri şeytanın, imperialism isə İblisin simasında verilmişdir. İblis onları dünyanın müxtəlif yerlərinə göndərir. Bütün bunlara qarşı şair sovet vətəndaşı Tüncəri qoymuşdur" ki, Tüncərin də mənası torpağa səpilən toxum deməkdir ki, bu da bütün dünyada sülhün, əmin-amanlığın, ədalətin, tərəqqi və təkamülün, yoxsulların pənahı, arxa və dayağı qadir Sovet ittifaqının qüdrət və əzminin bədii publisistik ifadəsindən ibarətdir" (1967:74). Oçerkin müəllifi yazısını bu sözlərlə bitirir: "Göründyü kimi, H.Cavid sovet dövrü yaradıcılığı ilə nəinki sovet ədəbiyyatınıı ideya istiqamətlərində dayanmış, o, həmçinin öz yeni əsərləri ilə sovet ədəbiyyatının əməli yaradıcılıq həyatında iştirak etmiş, sosialist realizmi ədəbiyyatının böyük amalına səmimi xidmət etmişdir"[344] (1967:74). Etmişdirmi? Məqalə müəllifinin bu sözləri ilə razılaşmaq qətiyyən mümkün deyil, çünki yaşamı və yaradıcılığı ilə "mən türkəm", - deyə özünü təqdim etməsi, qətiyyətlə

[344] Azərbaycan sovet ədəbiyyatı.Bakı, Maarif, 1967. II cilddə 1c. s.74

“sovet adamı” olmaq istəməməsi Hüseyn Cavidin “özü haqqında yazdığı ən böyük danos”u idi. Şükürlər olsun ki, 80-ci illərdən sonra yazılan monoqrafiyalarda Cavidə bu cür yanaşmalar, bəzi istisnalar olmaqla təkrarlanmır. İndi şairin zəngin bədii iris getdikcə daha dərindən tədqiq edilir, elmi-nəzəri səviyyəsi ilə seçilən, sanballı monoqrafik tədqiqatların aparıcı mövzusu olur. Günümüzdə Cavidşünaslıq, H.Cavid yaradıcılığının tədqiqi xüsusi bir sahə kimi inkişaf edərək yüksək səviyyəyə çatmışdır.

XX əsr Azərbaycan ədəbiyyatşünaslığında ədəbi məhkəmələr, repressiyalar dövrünə nəzər salanda nədənsə Əmir Teymurla bağlı bir rəvayət yada düşür. Teymur Azərbaycana ilk səfərində dördüyü dağın adını soruşur. Deyirlər – Ağrı dağı. Sonra rastına çıxan çayın adını soruşur. Deyirlər – Əyriçay. Bir az sonra gördüyü kəndin adını soruşur. Deyirlər – Oğrukənd. Deyir, - “qayıdaq, bu məmləkətin ağrısı da, əyrisi də, oğrusu da öz içindədir.” Düşünürük ki, bu rəvayətin şərhə etiyacı yoxdur, amma əlavəyə etiyacı var. Bu məmləkətin qorxaqı, yaltağı, satqını öz içində olduğu kimi, Stalinə, M.C.Bağırova “qafa tutan”

qəhrəmanı da, “mücahidi” də, mübarizi də, “milli vicdanı” da öz içindədir. “Mücahid” Cavidin dərya yaradıcılığına qəvvas olan hər kəsin baş vurması da bu səbəbdəndir.

Xalq yazıçısı, professor Elçinin 1982-ci ildə yazdığı “Sübh şəfəqinin işığı” məqaləsində İntibah - “Sübh şəfəqi” (Hegel) ilə adekvat bir anlayış kimi alınır. Avropa İntibah humanizmi nümayəndələrinin əsərlərindən nümunələrə diqqət yetirilir, xüsusilə, İtaliyanın Ferrar zadəganlarından olan, Ferrar hersoqu II Erkolenin katibi olmuş Cambatista Ciraldi Çintio (1504-1573) və onun “Ekatommiti” kitabına daxil olan altıncı dekada – altıncı novella ilə səsləşən Hüseyn Cavidin “Ana” dramı müqayisə olunur. Hər iki əsəri müqayisə edən Elçin bu qənaətə gəlir ki, əsərlərin fabulaları eynidir. Elçin Cavidin həmin süjetdən xəbərdar olub-olmamasını iddia etmədən “Ana” faciəsinin orijinal və fərqli xüsusiyyətlərə malik olmasını vurğulayır. Müəllifin fikrincə: “Cavid dramaturgiyasının surətlər qalereyası etnoqrafik təsvirlərin, mənşə və məişət koloritinin fövqündədir, bu qalereya ilk növbədə insan xislətinin ən dərin qatlarındakı hiss-həyəcanların

ifadəçisidir, bu surətlərin daxili aləmləri, ənənəvi ibarə ilə desək, mənfiliyindən, yaxud müsbətliyindən asılı olmayaraq heç vəchlə birmənalı yox, mürəkkəb və ziddiyyətlidir, mənəvi tərəddüdlərlə doludur. Cavid fitri istedadı sayəsində insanı bütün mürəkkəbliyi və ziddiyyəti ilə ehtiva etməyi bacarırdı və Cavid sənətinin bu cəhəti Böyük Ədəbiyyat dediyimiz anlayışın çox mühim tərkib hissəsidir. Azərbaycan ədəbiyyatında Cavid qədər ciddi, onun qədər şakadan, yumordan, adicə zarafatdan belə uzaq bir söz sahibi tapmaq çətindir və yəqin elə buna görə də Azərbayjan teatrında romantik-fəlsəfi estetik məktəbin yaranması biləvasitə onun dramaturgiyası ilə bağlıdır”[345] (Elçin,1982:8-9).

Professor onu da qeyd edir ki, H.Cavidin həm poeziyası, həm də dramaturgiyası ideya-fəlsəfi baxımdan təhlil olunsa da, poetika cəhətdən dərindən araşdırılmayıb: “Halbuki, əksər əsərlərini mənzum dram formasında yazıb, ədəbiyyatımızda mənzum dram janrının banisi səlahiyyətini qazanıb. Bəzi istisnalarla demək olar

[345] Elçin. “Sübh şəfəqinin işığı”/1982, s.8-9

ki, H.Cavidin şeir və dram əsərlərinin poetikası, onun poetik konstruksiyaları lazımi dərəcədə tədqiq olunmayıb. Hüseyn Cavidin poetikası, onun bədii sirlərini monoqrafik miqyasda açan tədqiqat əsəri hələ yazılmayıb. Bu baxımdan, Hüseyn Cavid Füzulidən üzü bəri Orta əsrlər Azərbaycan ədəbiyyatının poetik qaynaqlarını öz yaradıcılığında əks etdirən, xüsusilə əruz ehkamlarına yenidən can verən qüdrətli söz ustasıdır." Xalq yazıçısı, professor Elçinin 1988-də "Literaturnaya qazeta"da çıxan, romantik şairdən bəhs edilən "Pravda, tolko, pravda"[346] məqaləsində Cavidlə Bulqakov qarşılaşdırılır və bu nəticəyə gəlinir ki, Cavid və Bulqakov eyni müstəvidə günahlandırılıb – biri panislamizmi, o biri xristianlığı müdafiədə.

Hüseyn Cavidin anadan olmasının 125 illiyində etdiyi çıxışda (Elçin,2007) "Hüseyn Cavidin XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardan olmasından və onun ilham qaynağını milli mədəniyyətin ən dərin qatlarından

[346] Elçin. "Pravda, tolko, pravda"/Literaturnaya qazeta,1988

almasından, Hüseyn Cavid yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizim ənənələri ilə sıx bağlı olmasından, Prezident İlham Əliyevin sərəncamı ilə qeyd edilən bu yubileyinin xalqımızın dahi Hüseyn Cavidə olan məhəbbətinin göstəricisi olduğunu vurğulayaran professor Elçin Əfəndizadə, Cavidi "Sübh şəfəqi"nə bənzədərək deyir: "Azərbaycan poeziyasında fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Cavid ümumibəşəri problemləri humanizm mövqeyindən işıqlandıran mənzum faciələri və tarixi dramları ilə dramaturgiyamızda yeni bir mərhələ açmışdır. Milli bədii düşüncə tarixini mövzu baxımdan və bir-birindən parlaq xarakterlərlə zənginləşdirən Hüseyn Cavid sənətkar şəxsiyyətinin bütövlüyünü nümayiş etdirən ibrətamiz həyat yolu keçmişdir. Keçmiş SSRİ-də totalitarizmin hökm sürdüyü bir zamanda Hüseyn Cavid sosializmin "nailiyyətlər"indən yazmağı özünə rəva bilməmiş, ona görə də Sibirə sürgün edilmiş və orada faciəli surətdə həlak olmuşdur", lakin "o elə bir "sübh şəfəqi" idi ki, işığı əsrlərin süzgəcindən süzülüb gəlir və həmişə də öz ilkin ehtirası ilə, ilkin şövqü ilə parıldayır.

Əsrlər bir-birini əvəz edir, o İşıq isə həmişə İstedadı özünə çəkir. Çünki o İşığı da, İstedadı alovlandırırdı"[347] (Elçin, 2007:6-9). Həqiqətən də, nə 37-nin repressiyaları, nə totalitar sovet rejimi mütəfəkkir Cavidin işığını, "şəfəqini", ehtirasını söndürə bilmədi. Əksinə daha da alovlandırırdı" Çünki "bu işıq İstedaddan, bu istedad isə Tanrıdan gələn ruh idi. Yer allahlarının bu işığı söndürməyə gücü çatmazdı" və çatmadı. Bu işığın sayəsində, "İşığı əsrlərin süzgəcindən süzülüb gələn" Cavidin sehrinə düşməyən qlmamışdır. Bu işığın sehrinə düşənlərdən biri də XX əsr Azərbaycan romantizm ədəbi cərəyanı tədqiqatçısı professor Vəli Osmanlıdır. Onun "Azərbaycan romantikləri" əsərində bu cərəyanın nümayəndələrinin: Hüseyn Cavidin, Abdulla Şaiqin, Cəfər Cabbarlının romantik yaradıcılığı geniş əhatə olunması, Cavidin romantizmi: "Romantik yolun başlanğıcı", "Cavid romantizmində platonik məhəbbət", "Sənət ocaqlarına səyahət və romantik sənət amalı", "Gözəlliyə biganəlik və onun intiqamı" "Munislik və İblislik" bölmələri üzrə

[347] Elçin. Hüseyn Cavidin anadan olmasının 125 illiyində etdiyi çıxışdan, 2007

tədqiqata cəlb edilməsi bu işığın sehrinə düşməsinin təsdiqidir. Vəli Osmanlı “Azərbaycan romantizmi - Təsvir sahələri və bədii aləm” kitabında bütünlükdə, Hüseyn Cavidin romantizmini bu cərəyanın problemləri konteksində təhlilə cəlb edir.

Cavid sənətinin işığına, Cavid sənətinin sehrinə düşənlərdən, bu sənətə hər zaman yüksək etiramla yanaşanlardan biri də Rəfiq Zəka Xəndandır. O, pərəşrişkarı olduğu şairin; Hüseyn Cavidin100 illik yubleyi münasibəti ilə 1981-ci ildə “Cavid sənəti” adlı kitab nəşr etdirmişdir. Cavid yardıcılığı, üslub və sənətkarlıq xüsusiyyətləri araşdırılan, şəxsiyyəti və sənətinin səciyyəvi xüsusiyyətlərindən bəhs edilən bu kitabda ədibin dramlarının türk ədibi Əbdülhəq Hamidin əsərləri ilə müqaisəli təhlilə cəlb edilmiş və sonda, müəllif, əminliklə bu qərara gəlmiş ki,“bugünkü və sabahkı gənclik minillik ədəbiyyatımızdan ilham alaraq, şeirimizin min ildə görünməmiş yüksəkliklərə səsləyən böyük şair və dramaturq Hüseyn Cavidin layiqli sənətinə layiqincə yanaşaraq çağdaşlarının görə bilmədiyi aləmlərə nüfuz

edəcək, onun yeniliklərini, incəliklərini bircə-bircə araşdıracaq, incə-incə mənimsəyəcəkdir"[348] (Xəndan, 1981: 83).

Rafiq Zəka Xəndan 100 illik yubleyi münasibəti ilə ulu Cavidə üz tutaraq deyir:

Vətən, xalq oldu vicdanın, məramın, məsləkin, andın,
Umulmaz kəhkəşanlardan şəfəqləndikcə aylandın.
Üfüqləndin, genişləndin, oyandın, parladın, yandın.
Hünər meydanı göstərdin, yenilməz qüdrətin ustad,
Azərbaycanımız durduqca parlar sənətin, ustad![349] (Xəndan,1981:83).

"Vicdanı vətən, xalq olan" Hüseyn Cavid irsinin tədqiqatçıları da, mütəfəkkir sənətkarın düşüncəsinin daşıyıcılarıdır, desək yanlış olmaz. Filiologiya elmləri doktoru, Cavidlər ailəsinin mənəvi övladı, Cavidin qızına verərək məfkurəsini yaşatdığı Turan ismini mahlas olaraq ləyaqətlə daşıyan Azər Turan, Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına böyük heyranlığı ilə seçilən, sədaqətli və

[348] Xəndan R. Z. Cavid sənəti. Bakı: birlik,1981, s.83
[349] Xəndan R. Z. Cavid sənəti. Bakı: birlik,1981, s.83

ardıcıl tədqiqatçılardandır. Əsasən, iki böyük türkçünün: Əli bəy Hüseynzadənin və Hüseyn Cavid yaradıcılığının ardıcıl şəkildə tədqiqata cəlb edən Azər Turan Cavid yaradıcılığında Turan, irfan və zaman məsələləri ilə yanaşı, həmçinin, Cavid irsinin ədəbi, elmi, dini, tarixi, məfkurəvi qaynaqlarını da araşdırır. “Hüsni-Xuda şairi”, “Əbədi Turan”, “Cavid əfəndi”, “Tahir Rasizadə”, “Turan Cavidin son söhbəti… Son yaşantıları… Son günü”, “Hüseyn Cavid”, “Əli bəy Hüseynzadə”, “Cavidnamə” və digər kitabların müəllifi olan Azər Turan, həm də Ərtoğrol Cavidin “Yazıları, rəsmləri, bəstələri, məktubları”, Mişkinaz Cavidin “Cavid haqqında xatirimdə qalanlar”, M.Səidin “Zurubi Əmsal Türkiyə və Atalar sözü” (T. Cavidin transliterasiyası ilə) və s. kitablarının və ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Hüseyn Cavid haqqında 2003-cü ildə çəkilmiş “Səma şairi” sənədli filminin ssenari müəllifidir. Tədqiqatları Azərbaycan Cavidşünaslığında yeni hadisə olan A.Turanın Cavid haqqındakı hələlik ən son əsəri olan “Cavidnamə”nin Çavidşünaslıqda xüsusi çəkisi və yeri var. Kitabın ən

qiymətli cəhətlərindən biri, bütövlükdə burada çox geniş şəkildə Rasizadələr və Cavidlər ailəsinin taleyinin öz əksini tapmasıdır. Yüksək səviyyəli poliqrafiyası ilə də seçilən bu kitab "Azərbaycan ziyalılığını ortaq məxrəcə gətirən dəyərlərdən biri", "Ədəbiyyatımıza, milli kimliyimizə olan böyük bir sevginin ifadəsidir. Bu kitab çox dəyərli bir iş, hərəkətdi və Cavid haqqında yazılmışların uğurlu yekunudur"[350] (Şəmsizadə, 2008: 6).

Cavid düşüncəsinin, Cavid ruhunun adamı olan Azər Turanın Cavidin irsinin əxlaqının da, düşüncələrinin ehtiva olunduğu Vətən triadasının - türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq düsturunun fonunda araşdırmalarının dəyərli nəticəsi olan "Cavidnamə"si, digərlər əsərləri kimi mükəmməldir. Cavid irsinin qaynaqlarını geniş şəkildə ilk dəfə tədqiq edən müəllifin fikrincə, "Hüseyn Cavidi mənsub olduğu məfkurə sistemindən təcrid etmək, yaradıcılığını yalnız bədii-estetik yönlərinə istinadən araşdırmaq dahi sənətkarın ədəbi şəxsiyyətinin hüdudlarını məhdudlaşdırır. Ona görə də Hüseyn Cavidin yaradıcılığını

[350] Şəmsizadə N. İtmiş nəslin ardınca // Azərbaycan. Bakı, 2008, №1,s.6

tədqiq edərkən, XIX yüzilliyin sonu, XX əsrin əvvəllərində təkcə Azərbaycanda deyil, eyni zamanda, Türkiyədə baş verən ədəbi-məfkurəvi prosesləri nəzərə almaq zəruridir” [351] (Şəmsizadə, 2008:6).

Hüseyn Cavid yaradıcılığının və şəxsiyyətinin milli-siyasi mahiyyəti ilk dəfə yeni istiqamətdən təhlil olunan “Cavidnamə” həm də yeni elmi-tarixi faktların zənginliyi ilə diqqəti cəlb edir.

Sənətkarın istedadının demonik-yaradıcı gücü onun romantizminin zənginliyində təcəssüm tapmış və şairin dünya romantizm poeziyasında aşkarlamaq üçün bu romantizimdə tam yeni bir dövr açmış Cavid poeziyasının ilkin müxtəlif sənət - estetika telləri içərisində başlıca olaraq demonizm poeziyası cavidşünas Əjdər İsmayılovun araşdırmalarında tədqiq edilmişdir. Professor Əjdər İsmayılov, əsasən, Cavid yaradıcılığında dünya romantizmində demonizm ənənələrinin davamı və inkişafı məsələlərinin araşdırmaya cəlb etmiş, ədibin yaradıcılığının ideya-fəlsəfi və bədii-mifoloji köklərini

[351] Şəmsizadə N. İtmiş nəslin ardınca // Azərbaycan. Bakı, 2008, №1,s.6

göstərmiş, yazıçının milli və ümumbəşəri cəhətlərini tədqiq etmişdir. Tədqiqat "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" adlı monoqrafiya ilə nəticələnmişdir. Dünya ədəbiyyatında demonizm ənənələrinin Hüseyn Cavidin bədii-estetik irsində davamı və inkişafı məsələləri araşdıran tədqiqatçı bu istiqamətdə H.Cavid estetikasının ideya-fəlsəfi, bədii-mifoloji qaynaqları üzərində dayanır, şairin bədii dünyagörüşünə xas olan milli və beynəlmiləl cəhətləri də tədqiqata cəlb edir. Kitabın "Ön söz"nün müəllifi vaxtı ilə Əjdər Tağıoğlunun rəsmi oponenti olmuş Moskvalı professor A.L.Şteyndir. Monoqrafiya haqqında düşüncələrini ifadə edən professor A.L.Şteyn "Müəllif haqqında söz"də yazır: "Bu monoqrafiya romantizm tarixinin ümumi konsepsiyası ilə əlaqədar olan biliyimizi genişləndirir və dərinləşdirir. Aydın olur ki, romantizm öz klassik forması ilə, Qərbi Avropada olduğu kimi, ancaq XIX əsrin I yarısı ilə məhdudlaşmır. Əksinə, bu klassik məktəb mütəfəkkir romantik şair Hüseyn Cavidin poetik şəxsində öz hüdudlarını genişləndirir və dünya mədəniyyətinin

inkişafında yeni mərhələyə - XX əsrin inqilablar epoxasına qədəm qoyur” [352] (Tağıoğlu, 1991:3).

Monoqrafiyada Cavid yaradıcılığı paralel olaraq Esxil, Milton, Şekspir, Kalderon, Bayron, Şelli, Göte, Şiller, Puşkin, lermontov və bu sıradan olan dünya ədəbiyyatının başqa korifeyləri ilə təhlilə çəkilir. Eyni zamanda, zəngin elmi, tarixi, bədii və mifoloji materiallar əsasında vahid Azərbaycan ölkəsində Atarpatendə (Odlar ölkəsi) Azərbaycan türklərinin və onların bir xalq olaraq təşəkkülündə və formalaşmasında iştirak etmiş Ön Asiyanın başqa qohum türk tayfalarının mənəvi və mədəni inkişafında Zərduşti dünyagörüşün müstəsna rol oynaması elmi-nəzəri ümumiləşdirmələrlə diqqətə çəkilir. Bu baxımdan “Azərbaycan”, “Atar/Ata” sözünün açımı, “Demon”, ”Satana”, ”İblis” mifik adlarının yaranmasında tarixi əhəmiyyət kəsb edən Azərbaycan türklərinin ilk təfəkkür işığı “Div” (“Çan”) kəlməsinin araşdırılması, habelə bu sözlərin etomoloji təhlili kitabın elmi-nəzəri

[352] Tağıoğlu Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi.Bakı: Elm, 1991, s.3

sanbalını, dəyərini artıran,  onun monumentallığını artıran cəhətlərdəndir.

Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsini araşdıran  professor Əjdər İsmayılovdan fərqli  olaraq filologiya üzrə fəlsəfə doktoru Nəzakət Əzizovanın  araşdırmalarında "H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "İblis", "Peyğəmbər") kitabında bəşəri problemləri həll etmək istəyən XX əsrin ən görkəmli romantiki Huseyn Cavidin "Şeyx Sənan", "İblis", "Peyğəmbər" bədii – fəlsəfi üçlüyü filoloji, psixoloji və fəlsəfi aspektlərdən araşdırılır. Mütəfəkkir Cavidin daima "aktual, muasir; İnsan, İblis, Tanrı ilə bağlı fikirləri, bu fikirlərlə bağlı tədqiqatcı, alim mulahizələri bir sistemli konsepsiya halında umumiləşdirilmişdir. Eyni zamanda, böyük Cavidin mikrodünyası makrodunya ilə əlaqələndirilərək sadələşdirilib, konkretləşdirilmişdir." Sözsüz ki, Huseyn Cavidin sənəti "İnsan, İblis, Tanrı konsepsiyasının özünəməxsusluğu ilə secilir və diqqəti cəlb edir. Hər şeydən əvvəl Cavid dramturgiyası, Cavid poeziyası, İnsanı

dərk etmək, onun mənəvi-fikri imkanlarını tədqiq və kəşf etmək pafosu ilə aşılanmış bir dramaturgiya və poeziyadır. İnsan, İblis, Tanrı haqqındakı bu fikirlər bu poeziyanın böyük, daxili quvvəsi və mahiyyətidir. Və Cavid sənətinin, Cavid poeziyasının belə bir yaradıcılıq hadisəsi olaraq meydana cıxması təsadufi deyildir. Bu hər şeydən əvvəl, Cavidin sənətində onun fəlsəfi və estetik görüşlərində, Dünya miqyasında, əsr miqyasında, İnsanın yeni dəyərlər axtarışı dövrünün əks olunması ilə bağlıdır"[353] (Sadiq,2011:231). Tədqiqatda "İnsan, İblis, Tanrı" üçlüyü ilə bağlı dramların vahid bir konsepsiyasının bədii təsdiqi, bədii təfsiri kimi təhlilinə təşəbbüs göstərməsini "düzgün və yeni bir tədqiqat yönümü" kimi dəyərləndirən professor Şamil Salmanov "Bir neçə söz" hissəsində yazır: "İnsan həyatının, insan gercəkliyinin cox mühim, qlobal, dramatik və böhranlı bir məqamını Cavid öz poetik dramaturgiyasında müstəqil bir dərinliklə əks etdirmişdir

[353] Sadıqov Ş. Huseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyasi. Bakı:Hədəf, 2011, s.231

və Cavid sənətinin, poeziyasının bu xüsusiyyəti baxımından onun demək olar ki, butun əsərlərini qeyd etmək olar. Lakin üc əsərində Cavid sənətinin, poeziyasının bu bədii tendensiyasının təcəssumu daha qabarıq, son dərəcə dolğundur. Həmin əsərlər H.Cavidin "Şeyx Sən'an", "İblis", "Peyğəmbər" dramlarıdır. Möhtəşəm, mürəkkəb, bununla belə daxili, bədii-fəlsəfi struktur etibarilə vahid İnsan konsepsiyası onun bir silsilə təşkil edən bu əsərlərində yüksək poeziya dili ilə öz bədii fəlsəfi tədqiqini tapmışdır. Buna görə həmin dramların vahid bir üçlük əsasında silsiləsi, xüsusi bir janr səpgisi kimi tədqiqi özünü doğruldur"[354] (Salmanov, 2007:4). Monoqrafiya müəllifi, daha çox bu əsərlərin baş qəhrəmanlarına – Şeyx Sənan, İblis və Peyğəmbərə diqqəti yönəltməklə bu obrazların simasında Cavidin İnsan konsepsiyasının qloballığını, əsərin genişliyini və aktuallığını açıb göstərmişdir. Böyük sənətkarın böyük sənətində "İnsan böyük, dramatik bir varlıqdır" və "bu

[354] Salmanov Ş. Ön söz. N. Əzizova H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər"). Bakı: Elm, 2007. s.3-5

böyük varlığın daxilində daima xeyir və şər, nəfs və ideal, muharibə və sülh, qılınc və qələm arasında mubarizə gedir. Ən əsas cəhət də odur ki, bu mubarizədə yuksələn, qələbə calan da İnsandakı insanilikdir. Məhz buna görə İnsan öz inkişafında, tərəqqisində səmaya, Tanrı yuksəkliyinə can atır, Peyğəmbər Tanrı mərtəbəsinə yüksəlir. H.Cavidin dram əsərlərindəki bədii İnsan konsepsiyasının əsasını belə nikbin fəlsəfə təşkil edir. Böyük H.Cavidin dram əsərlərindəki bədii İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "İblis", "Peyğəmbər") konsepsiyasının ideyası onun "Peyğəmbər" dramındakı bu sözləridə ifadəsini tapır:

Mən məhəbbət əsiriyəm hər an,
Hər zaman özlərəm bir öylə cahan
Ki, bütün kainata eşq olsun.
Könül uçduqca etila bulsun.
Rəqs edib, orda möhtəşəm bir hiss,
Yasa batsın da, ağlasın iblis.
Qəmdən əsla görünməsin də əsər,
Saçsın al qoncələr şəfəqli səhər,
Orda iz qoymasın işgəncə, kədər,

Oxşasın ruhu pənbə royalar.
Mənə gülsün də həp o nazlı xəyal,
Ah o, yalnız o, qayeyi-amal… [355](Cavid,2007:178 ).

Əslində, N.Əzizovanın monoqrafiyasının əsas tədqiqat ideyasını məhz Peyğəmbərin bu sözləri, bu idealı təşkil edir. Tədqiqatçının əsas məqsədi "Cavid dramlarında İnsan, İblis və nəhayət Tanrı mövzusunu işləməkdə tədqiqatçının başlıca məqsədi də, bu mövzunun, onun sənətinin əsas pafosunu, əsas janr - üslub istiqamətini təyin etdiyini açıb göstərməkdi"[356] (Əzizova,2007:8). Monoqrafiyada sənətkarın yaşadığı dövrə və dövrün tədqiqatçılarına da münasibət bildirilmişdir: "Romantizm cərəyanının yarandığı dövrdə həmin cərəyanın tədqiqatcıları da ədəbiyyatşunaslıq sahəsində fəaliyyət gostərirdilər. Həmin murəkkəb zamanda yazıcıların ziddiyyətli fikirləri olduğu kimi onların tədqiqatcılarının da, tənqidcilərinin də muxtəlif səpkili, əksər hallarda barışmaz mövqeləri hiss edilirdi ki, bu da romantizmdəki

[355] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.178
[356] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər"). Bakı: Elm, 2007

ədəbi-bədii hadisələrin dərkinə öz təsirini gostərmişdir”[357] (Əzizova,2007:8).

Məlumdur ki, “tədqiqatcılar əksər hallarda H.Cavid dramaturgiyasını Cavidin nəzərdə tutduğu zamana görə deyil, onu öz yaşadıqları dövrə, zamana uyğun təhlil etmiş, Cavid sənətinə ürəklə yanaşmamış onu dərindən mütaliə etməmiş və bu yaradıcılığa məxsus mürəkkəb, təzadlı, polifonik rəngarəngliyi dərk etməkdə çətinlik çəkmiş, üstəlik onu vulqar sosializm mövqeyindən tənqid etmiş və təbii olaraq yanlış nəticələrə gəlmişdilər[358] (Нур,1928:6). Tədqiqatçının fikrini möhkəmləndirmək üçün yazdığı bəzi fikirlərlə; “Ədəbiyyat tarixində H.Cavid kimi təftiş olunan ikinci bir sənətkar yoxdur” (bu doğru). “Fikrimizcə Cavidin ən mükəmməl tədqiqatçısı Məmməd Cəfər” (bu da doğru), ən amansız tənqidcisi isə Hənəfi Zeynallı olmuşdur”[359] (Əzizova, 2007:8) - fikri ilə razılaşmaq olmur.

---

[357] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “Iblis”, “Peyğəmbər”). Bakı: Elm, 2007. s.8
[358] Нур. А. Джавид и его критика // Новый Восток, 1928-№22. и.т., s.6
[359] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “Iblis”, “Peyğəmbər”). Bakı: Elm, 2007. s.8

Fikrimizcə, ədibin ən amansız tənqidçisinin Hənəfi Zeynallı olması fikiri doğru deyil, əksinə, H.Zeynallı Cavidin ən ədalətli və ən obyektiv yanaşan tədqiqatçılarındandır. Cavid haqqında ilk monoqrafik əsərin müəllifi akademik M.C.Cəfərov bunu xüsusi qeyd edir; "Cavidin yaradıcılığı ilə məşqul olan ilk ilk sovet tənqidçisi Hənəfi Zeynallıdır. Tənqidçinin xüsusən, "Şeyx Sənan"[360], "Şeyda"[361] və "Maral"[362] haqqında mülahizələri, təhlilləri çox maraqlı idi."

Doğrudur, bu tədqiqatlar bir sovet tədqiqatçısının qələmindən çıxdığı üçün ideologiyanın təsiri ilə yazılıb. Onun "Şeyx Sənan"ı ruhaniliyi, fanatizmi, bütün köhnəlmiş din və təriqətləri rədd edən bir əsər hesab edilməsi bu səbəbdəndir (tədqiqatçı A.Turan haqlı olaraq H.Zeynallının təsəvvüfü bilmədiyini vurğulayır. Aydındır ki təsəvvüfü bilməyən tənqidçi "Şeyx Sənan"ın əsl mahiyyətinə vara bilməzdi). Tənqidçi "Şeyda"

---

[360] Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106

[361] Zeynallı H. "Şeyda" xüsusunda qısa bir mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. – s. 28 – 30

[362] Zeynallı H. "Maral" xüsusunda qısa mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 31 – 35

faciəsində şairin inqilabçılara rəğbət bəslədiyini”, “Maral”da “feodal zülmünü və əxlaqını ittiham etdiyini, qadın hüququnu müdafiə etdiyini” göstərirdi. H.Zeynallı Cavidin Şeyda kimi romantik qəhrəmanlarında olan zəif cəhətləri, ziddiyyətləri, tərəddüdləri də meydana çıxarır, tənqid edirdi”[363] Hənəfi Zeynallı hər şeydən öncə Hüseyn Cavidin müasiri idi. Hənəfi Zeynallı nə qədər ədalətli və obyektiv olursa-olsun bir sovet tədqiqatçısı idi. Cavidşünaslığın yaranmasına vəsilə olan məqalələrin yazılma tarixləri də göz önündə tutularsa, əksinə, bir sovet tədqiqatçısı olan H.Zeynallıdan bundan artığını gözləmək ədalətsizlikdir. Ayrıca, onun “bu böyük dramaturq və romantik filosof haqqında yazdıqları inandırıcı, kəsərli, sanballı idi. Ən əsası da, H.Zeynallı H.Cavid haqqında tənqid, “hədyan” deyil, elmi fikirlərini yazmışdı”[364] (Oktay,2013:14). Hənəfi Zeynallı bəzi məsələlər xaric, Cavid sənətinə obyektiv yanaşan, Cavidşünaslığın əsasını qoyan ilk sovet cavidşünası idi. Qeyd etmək lazımdır ki,

[363] Zeynallı H. “Şeyda” xüsusunda qısa bir mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. – s. 28 – 30
[364] Oktay. Xalq qəzeti, 9 fevral, 2013, s.14

Zeynallının H.Hüseyn Cavidin "Şeyx Sənan" haqqında mülahizələrim"i[365], "Maral" xüsusunda qısa mülahizə"si[366], "Şeyda" xüsusunda qısa bir mülahizə"[367] və "Peyğəmbər"i haqqında mülahizələrim"[368] hər biri kiçik monoqrafik tədqiqatlardır.

Konseptual səciyyə daşıyan "Peyğəmbər" haqqında mülahizələrim" məqaləsinin "Başlamazdan əvvəl", "Həqiqi ədəbiyyat", "Şair və ədiblərimiz", "Ədəbiyyatdakı həyati dövrlər" adlı bölmələrində ədəbiyyatın spesifikasına, ədəbi tənqidə və ədəbiyyat tarixinə dair nəzəri metodoloji görüşlərini də şərh edən H.Zeynallının əsas müddəalar bunlardır: qüvvətli ədəbiyyat meydana gəldikdə özü ilə bərabər qüvvətli tənqid yaradır; bizdə tənqid yoxdur və mən də "Cavid kimi ümumun sevimlisi olan şairimizin hələ mürəkkəbi qurumamış "Peyğəmbər" əsərini bir tənqidçidən daha ziyadə bir müəllim kimi təhlil edirəm;

---

365 Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 80 – 106
366 Zeynallı H. "Maral" xüsusunda qısa mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 31 – 35
367 Yenə orda, s. 28 – 30
368 Zeynallı H. Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 36 – 79

biz hamımız sağlam bir gələcəyin təməl quranlarıyıq: bir millətin başqa bir millətə təsiri və nüfuzu dil və ədəbiyyat vasitəsi ilə mümkündür; tənqid ədəbiyyata millət içindəki nüfuza və fərdləri təsvirə görə yox, tipləri yaratmaq imkanına görə qiymət verməlidir. Doğrudur, Hənəfi Zeynallının araşdırmasında ziddiyyətlər də var, lakin H.Zeynallı Cavidin romantizmini, onun estetik idealını doğru müəyyən etmiş, Cavidşünaslığın təməl daşını qoyanlardan biri olmuşdur. Sözsüz ki, Cavidi tənqid edənlərlə təqdir edənlərin arasında ikibaşlı mövqe tutanlar; "Cavid həm humanistdir, həm də "türkçüdur", daha doğrusu pantürkistdir, həm dinsizdir, həm də islamçıdır. Bu ziddiyyətlər xüsusən onun "Ucurum", "İblis", "Peyğəmbər" və "Topal Teymur" əsərlərində öz ifadəsini tapmışdır"[369] (Cəfərov,1959:166) kimi ziddiyyətli fikir yürüdənlər də var idi.

Qəribədir, bu fikirlər türk şeirinə məzmum və formaca yenilik gətirmiş, "Sənət həyat üçündür" prinsipini həm əməldə, həm də nəzəriyyədə tətbiq edən ilk türk şairi,

---

[369] Cəfərov C. Azərbaycan dram teatrı. Bakı: Azərnəşr, 1959,s.166

inqilabi ruhlu şeirlərində zülm, fanatizm və istibdadı qətiyyətlə qamçılamış, humanizm və azadlıq ideyalarını, xalqlar dostluğunu tərənnüm etmiş, həyatı və fəaliyyəti ilə çox böyük mübahisələr doğuran Tevfik Fikrət üçün söylənənləri xatırladır: "Tevfik Fikrət dinsiz-peygəmbər; vətənsevər-kozmopolit (bəşəri, dünyəvi); cəmiyyəti sevən-cəmiyətdən üz çevirən; diğərgam-bəncil (qeyd edək ki, diğərğamlıq cömərtliyin bir üst dərəcəsi və hətta ondan da daha büyük bir fəzilət və davranış, bəncil yalnız özünü və ya öncəliklə özünü düşünən deməkdir); cəsur-qorxaq, əxlaqlı-əxlaqsız; mələk-şeytan; dərin surətdə həssas-çox sığ həssasiyyətli və s."[370] (Kaplan,1993:64). Azərbaycan tənqidçilərinin araşdırmalarında bu cür fikirlərə az da olsa rast gəlinir. Tənqidci Məmmədkazım Ələkbərlinin fikrincə də "Cavid öz əsərlərində panislamizm və pantürkizm ideyalarının nəğməkarı kimi tanınmışdır." Tədqiqatçı qeyd edir ki, "sonrakı dövrlərdə həmin əsərlərə bu cür münasibət Azərbaycan ədəbi fikrini razı salmamışdır. Həmin dövrdə Məsud Əlioğlunun qənaəti təəssuf doğurur: "Peyğəmbər"ə

[370] Kaplan M Kültür ve Dil, İstanbul, Dergâh Yayınları. 1982, s. 64

islamçılıq fikirlərini yayan və bununla da "Din birliyi" ideyasını müdafiə edən bir əsər kimi yanaşanların əksəriyyəti ciddi səhvə yol verirlər"[371] (Əlioğlu, 1968:48), çünki "Cavidi dinsiz adlandırmaq onu mövhumatçı fanatik hesab etmək qədər yanlışdır"[372] (Əzizova,2007:8). "Şeyx Sən`an" faciəsinə düzgün qiymət verməsi ilə diqqəti cəlb tənqidci Əkbər Ağayev yazır: "Ən çox diqqətəlayiq xüsusiyyəti bundadır ki, müəllif, yüksək eşq ilə din və cürük təriqətlər arasında başlanan gərgin dramatik mübarizəni axıra qədər ustalıqla inkişaf etdirərək həqiqət naminə, yüksək eşq naminə "can nisar" edən Sənanı və Xumarı bu mübarizədən qalib çıxardır və onların faciəsinə böyük həyati məna verir"[373] (Ağayev,1962:143); Cavidin dinə münasibəti haqda Vəli Osmanlının qənaətləri təqdirəlayiqdir: "Dinə ateist münasibəti ilə romantik Cabbarlı öz sələfi M.F.Axundov ilə müqayisə edilə bilər.

[371] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s.48
[372] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər"). Bakı: Elm, 2007. s.8
[373] Ağayev Ə. Sənətkarlıq məsələləri. Bakı: Azərnəşr - 1962,s.143

Cavidin dinə münasibəti ateist münasibət deyildir”[374] (Osmanlı, 1989: 237). Hüseyn Cavid nə dinsiz deyildi, nə dindar, o dindəki (şəriət) gözəllikləri də alaraq şəriətdən təriqətə adlamış, üzü Haqqa, Həqiqətə olan, hətta öz təriqəti –Sevgi təriqəti olan bir mütəfəkkirdir. Bu isə başqa bir kitabın mövzusudur.

1914-1926-cı illər bir tərəfdən, Azərbaycanda mədəni yüksəliş illəri, teatr və maarifin çiçəkləndiyi dövr idisə, digər tərəfdən, mürtəcə və mütərəqqi qüvvələr arasındakı çəkişmələrin artığı bir dövr idi. Bu illərdə gərgin yaradıcılıqla məşğul olmuş Cavid də “İblis”, “Afət”, “Peyğəmbər” əsərlərini yazmışdı. Müstəqil Azərbaycanda dinə, ədəbiyyata, sənətə və siyasətə münasibətin büsbütün dəyişdiyi bir zamanda Cavid yaradıcılığına baxış da dəyişilmiş, yeni aspektdən araşdırmalara cəlb edilmişdir. H.Cavidin əsərlərində İnsan, onun şəxsiyyəti, insanın mənəvi yüksəlişi, onun öz daxili mübarizəsi kimi məsələləri ön plana çəkilmişdir: “indi dinə, islam tarixinə

---

[374] Osmanlı V. Azərbaycan romantiklərinin bədii-estetik özünəməxsusluğu problemi: mövzu tipologiyası. Doktorluq dissertasiyası. Bakı: 1989, s.237

və milli mədəni dəyərlərə münasibət, daha elmi və obyektiv məzmun almışdır ki, bu da H.Cavid dramaturgiyasındakı problemlərin yenidən tədqiqini tələb edir", çünki "bundan əvvəlki tədqiqatlarda şairin "Şeyx Sənan", "İblis" və "Peyğəmbər" dramlarının ideya-bədii və fəlsəfi mündəricəsinə verilmiş təfsir və təhlil bu baxımdan cağdaş, milli ədəbi-nəzəri düşüncəni təmin etmir. H.Cavid hər yerdə İnsanı öyrənir. Bədxah insanda İblisin, xeyirxah insanda Peyğəmbərin, Tanrının izlərini görən, ən böyük məqsədi İnsanın xoşbəxtliyini təmin edəcək yolları axtarıb, tapmaq olan" Hüseyn Cavid "bütov yaradıcılığı boyu Azərbaycan xalqının soy-kökünə arxalanaraq ədəbi-bədii axtarışlarda olmuş öz beynəlmiləl ideyaları ilə dünyada – Şərqdə, millətinə, öz xalqına şərəf, ehtiram, tanrısevərlik, xeyirxanlıq hissləri bəxş etməklə onu öz daxilindən oyatmağa çalışılmışdır"[375] (Əzizova,2007:12-14). Mütəfəkkir sənətkarın "Din birliyi" ideyası ilə bağlı böyük bir planı olduğundan bəhs edən tədqiqatçının yazdığı "O,

---

[375] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər"). Bakı: Elm, 2007. s.12-14

bütöv yaradıcılığının nəticəsi olacaq bir əsər haqqında da danışırmış ki, "İblis"i, "Peyğəmbər"i yazmışam, indi isə onların hamısından dini baxımdan yüksəkdə duran "Allah"ı yazmaq istəyirəm. Hətta onun planının da xəyalında hazır olduğunu söyləyirdi" (Bağırov, 1988) - fikri ilə qətiyyən razılaşmaq olmur.  Bu yanlış fikirdir, çünki Cavid kimi bir mütəfəkkirin "Allah"ı yazmaq istəməsi inandırıcı deyil. Cavidin məqsədi Allaha qovuşmaq, Allahda yox olmaq idi, Allahdan yazmaq yox. Cavid haradan gəldiyini və haraya gedəcəyini bilən  bir  mütəfəkkir idi. Cavidin "bütöv yaradıcılığı boyu "həqiqət axtardığını, əsl həqiqətin isə bütün din və təriqətlərdən yuksək olması fikrini ifadə etməsi"[376] də (Əkbərov,1977:78) bunun təsdiqidir. Cavid şəriətdən təriqətə, təriqətdən mərifətə, mərifətdən üzünü Həqiqətə tutmuşdu. Həqiqətdən isə ötəsi yoxdur. Özünü dərk etmiş Hüseyn Cavid, bütün dinlərdən, təriqətlərdən yüksəklikdə dayanırdı.

Sözsüz ki, hər hansı sənətkarı doğru başa düşmək üçün onu "yetişdirən ictimai-siyasi şəraiti, onun

---

[376] Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, s.78

təsirləndiyi və əhatə olunduğu ədəbi-mədəni mühiti, qidalandığı bədii estetik və ideya-nəzəri qaynaqları, bir də sənətkarın istedadına, fitrətən ona xas olan psixi-fizioloji xüsusiyyətləri tədqiq edib, aydınlaşdırmaq çox vacibdir”[377] (Əzizova,2007:14).

Cavid hər şeydən öncə şərqli idi və onun bir sənətkar kimi formalaşmasında Şərqin Naxçıvan-Təbriz-İstanbul kimi üç böyük mədəniyyət mərkəzinin böyük rolu olmuşdur. Bu səbəbdən “Cavid deyəndə istər-istəməz Şərq sözü, Şərq mikroaləmi, Şərq əsrarəngizlikləri”, Şərq fatehi, Şərq şairi, Şərq mütəfəkkiri və Şərq aşiqi canlanır. Şərq ecazkarlıq deməkdir, Şərq rəngarənglik, əlvanlıq deməkdir, Şərq möcüzə və mübhəmlik deməkdir. Şərq deyəndə “iç dünyamızda qapalı olan bir aləm və bu aləmdə hissin, duyğunun yaratdığı ecazkarlıqlar düşünülür” və “Şərqli həmişə gercəkliyi təxəyyülünün qüvvəsiylə bəzəyir. O, hər bir predmeti obraza buruyur”[378] (Hegel,1972:216).

Çavidin qəhrəmanları – Şeyx Sənanı, Peyğəmbəri, Əmir

[377] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “Iblis”, “Peyğəmbər”). Bakı: Elm, 2007. s.14

[378] Гегель. Работы разных лет. В 13-х томах. Т.1, М., 1972, с. 216

Teymuru, Səyavuşu, Xəyyamı, Azəri də şərqlidir. Və onun "qəhrəmanları bir qayda olaraq öz məqsədlərinə təbii yolla can atmışlar. Şeyx Sənan düz yolla, İblis dolayı yolla, hiylə ilə, Peyğəmbər açıq-aşkar təbliğatla –siyasətlə, öyrədə-öyrədə yaşatmaqla, Əmir Teymur güclə. Qəhrəmanlar keçdikləri yolun necəliyindən asılı olmayaraq gördükləri işin nəticəsi ilə, öz niyyətlərini gerçəkləşdirə bilmiş, öz əməlləri ilə, öz məramlarını təsdiq etmişlər. Şeyx Sənan əməlləri ilə öz kamilliyini, bəşərə məxsusluğunu təsdiq etmiş, İblis insanı iblisləşdirə bilmiş, Peyğəmbər ən böyük ideallarını həyata keçirməklə, özünün "Din birliyi" ideyası ilə, amalı ilə, tanrı dərganına ucalmışdır." Tədqiqatçının fikrincə, "Hüseyn Cavidin mütərəqqi ideyalarını çox vaxt səhvən keçmişlə bağlayırlar. Bu gün dünya səviyyəsində "Din müharibəsi" ilə bağlı dünyanın böhran içərisində olması sirr deyil. Yerdə Bəşər Göydə isə Günəş bir olduğu üçün zamanın tələbi kimi insanlığı düşündürən "Din birliyi" - Allaha inam ideyasının çiçəklənməsi də mütləqdir. Bu baxımdan Cavid həm bu günün, həm də bütün zamanların eşqiylə, amalıyla yaşayan ən uca, ən

bəşəri simadır”[379] (Əzizova, 2007:141-42). Cavid gələcəyin keçmiş üzərində bərqərar olunması arzusunda idi, çünki keçmişsiz gələcək, köksüz ağac kimidir, “çabuq” qırılır. Digər tərəfdən, Cavid sənət uğruna sənət yaradırdı, yəni “sənət sənət üçündür” nəzəriyyəsini əsas tutaraq yazırdı; “ədəbiyyatın estetik gözəlliyini, estetik kamilliyini sənətin bədii yaradıcılıqda mükəmməl ifadəsində görürdü” və “təsadüfən demirdi ki, mən sənətdən aldığım zövqü heç bir şeydən almıram. Sənət əsərini zümrələr üçün deyil, insanlar, dünyanı sevənlər üçün yazmaq lazımdır”[380] (Orucəliyev,20011:8). Sənətkarın bu xüsusiyyətini Mehdi Hüseyn belə qiymətləndirirdi: “Cavidin qəlbi böyük sənət yaratmaq eşqiylə çırpınır.” Cavidi “hünərvər şair”, “kəlam sahibi” adlandıran ır Mustafa Quliyevsə, onu Rus poeziyasının günəşi Puşkinlə müqayisə edir, hər ikisini “sənət sənət üçündür” nəzəriyyəsinin tərəfdarı sayırdı; “Dəf olun! Dinc şairin sizinlə nə işi var” - deyən Puşkin də, “Topal Teymur”da şair Kirmaninin ağzıyla danışan

---

[379] Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “Iblis”, “Peyğəmbər”). Bakı: Elm, 2007. s.141-42

[380] Orucəliyev İ.(Atilla).Hüseyn Cavidin mənzum dramları.III hissə,Bakı:Adiloğlu, 2011, s.8

Cavid də "sənət sənət üçündür" nəzəriyyəsinin tərəfdarlarıdırlar"[381] (Quliyev,1926). İ.Orucəliyevə görə isə, "Əli bəy Hüseynzadənin ədəbi-nəzəri və fəlsəfi görüşləri ilə tanış olan Hüseyn Cavid, Tenin sənət nəzəriyyəsini, "Sənətin fəlsəfəsi" əsərini də lazımınca öyrənmişdir. O, həmin nəzəriyyə ilə İstanbulda təhsil alarkən tanış ola bilərdi. Çünki o zamanlar Tenin əsərləri və nəzəriyyəsi türk ədəbiyyatşünasları, filosof və yazıçıları arasında geniş yayılmışdı. İstanbulda nəşr edilmiş "Nəzəriyyati-ədəbiyyə" kitabında Tenin elmi-nəzəri fikirlərindən geniş istifadə edilmişdir. Hüseyn Cavid və Abdulla Şaiq Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Ədəbiyyat dərsləri" dərsliyini yazarkən həmin kitabdan bəhrələnmişlər"[382] (Orucəliyev,2011:8). Seyid Hüseyn 1919-cu ildə "Azərbaycan" qəzetində çap etdirdiyi "Ədirnə fəthi" məqaləsində çox güman ki, "Nəzəriyyati-ədəbiyyə"yə istinad etmişdir. Çünki məqaləsində Tendən

[381] Quliyev M. Hazırkı türk ədəbiyyatı haqqında / "Kommunist" qəz., 7 dekabr, 1926

[382] Orucəliyev İ. (Atilla). Hüseyn Cavidin mənzum dramları. Üçüncü hissə, Bakı: Adiloğlu, 2011, s.8

çoxlu misallar gətirmişdir. “Sənət nədir?” - sualına onun fikrini vurğulayaraq cavab vermişdir: “İppolit Ten deyir: “Sənət – bir şeyin əsas sifətlərini meydana çıxarmaqdır” [383] (Talıbzadə, 1966: 464). Lakin “sənət sənət üçündür” nəzəriyyəsi ilə yazmaq nəinki bəyənilmirdi, hətta güclü tənqid edilirdi. “Azərbaycan sovet tənqidçi və yazıçılarının, demək olar ki, hamısı Cavidi “Sənət sənət üçündür” nəzəriyyəsinin tərəfdarı olduğuna görə ittiham etmiş”, “məsələnin şərhində ziddiyyətli və birtərəfli mövqe tutmuşlar. Bəziləri həmin nəzəriyyənin gah tərəfdarı, gah da əleyhdarı kimi çıxış etmişdir. Məsələn, Cabbarlı məqalələrindən birində yazırdı: “Sənət oxuculara, seyrçilərə və dinləyicilərə həzzi-mənəvi, həyəcani-bədii təmin etməkdir. “Sənət sənət üçündür” mücərrəd deyil, eyni halda həyat üçün də olursa, həyata xidmət edə bilirsə, daha gözəl və mükəmməl olur”[384] (Cim,1922). İ.Orucəliyevin fikrincə, “Cabbarlının bəzi ziddiyyətli və

[383] Talıbzadə K. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966,s.464
[384]“Cim” Ədəbi mübahisələr // Zəhmət qəz., 1922/Cavidşünaslıq. Araşdırmalar toplusu. Tərtib edəni G.Babaxanlı.10 cilddə, II-III c. Bakı:Elm, 2007, s.56-76

birtərəfli fikirlərini nəzərə almasaq, o, prinsipcə həmin nəzəriyyənin tərəfdarı olması və Sovet dövründən qabaq və sovet hakimiyyəti illərində Azərbaycan ədəbiyyatşünasları və yazıçıları Tenin nəzəriyyəsi ətrafında mətbuatda ədəbi mübahisələrin açılması", "bu mübahisələrin yaranması və qızışmasına səbəb, Cavidin dramatik əsərləri, xüsusilə "Uçurum" və "Afət" faciələrinin olmasını" qeyd edir. Daha çox Seyid Hüseyn və Cabbarlı arasında gedən mübahisədə Seyid Hüseyn ədəbiyyatı "ali" və "adi" qismə bölənlərlə razılaşmamış, "Ədəbiyyat cəmiyyətin ifadeyi-halıdır", -fikrini qəbul etməmiş, İ.Tenin nəzəriyyəsinin əleyhinə çıxmışdır: "Fəqət "sənət sənət üçündür" nəzəriyyəsi qarşısında bu gün daima qüvvətli, daima əsaslı bir həqiqət vardır. O da hər şey həyat üçün olduğu kibi, sənət də həyat üçün olmalıdır. Əvət, "sənət həyat üçündür"[385] (Kazımoğlu, 1922). Həyat üçün yaranan ədəbiyyat müəyyən bir dövr üçün qəbuledilən olsa da, zamanı keçdikdən sonra lüzumsuz ola bilər. Amma sənət üçün yaranan sənət əbədidir. Əslində hər ikisi də sənətdir,

[385] Kazımoğlu, Ədəbi mübahisələr/ "Kommunist" qəz., 6 iyun,1922

amma sənət üçün yaranan sənət" əbədidir. Ədəbi mübahisələrdə sənətin spesifik xüsusiyyətləri və mahiyyətinə aydınlıq gətirməyə çalışan və buna, əsasən, nail olan C.Cabbarlı və Seyid Hüseynin "fikirlərində mübahisəli və ziddiyyətli məqamlar"ın olduğunu diqqətə çəkən İ.Orucəliyevin fikrincə, "Tenin nəzəriyyəsini tamamilə inkar etmək olmaz. Sənət həm sənət üçündür, həm də həyat üçündür. Yəni, bu iki anlayış arasında dialektik əlaqə mövcuddur. Bu iki anlayış vəhdətdədir və bir-birini tamamlayır. Hüseyn Cavid yaradıcılığında, ədəbi - nəzəri görüşlərində bunu nəzərə almışdır. Hansı bir ağıllı ədəbiyyatşünas deyə bilər ki, Cavidin əsərlərində nə sənət var, nə də həyat? Sənət və həyat Cavid yaradıcılığında vəhdətdədir",-deyə hökm verən tədqiqatçı, Cavidi tənqid edənlərin fikirlərində həqiqət olduğunu dilə gətiriri: "O, öz əsərlərini gerçəkdən sənət və gözəllik qanunları əsasında yaratmış, həmin nəzəriyyənin məhdud cəhətlərini bir tərəfə buraxmış, müsbət cəhətlərini öz yaradıcılığında nəzərə almışdır. Cavid, sözün həqiqi mənasında, sənət və sənət əsərləri yaratmışdır. Bu, bir tərəfdən, onun yazıçılıq

təbiətindən, ədəbi-nəzəri görüşlərindən, sənətin fəlsəfi-estetik mahiyyətini düzgün qiymətləndirməsi və dərk etməsindən irəli gəlirdisə, digər tərəfdən, sənət nəzəriyyəçiləri və filosofların, o cümlədən İppolit Tenin pozitiv fəlsəfəsi və nəzəriyyəsindən irəli gəlirdi. Məncə, həmin məsələ ilə bağlı Cavidin bəzən ittiham edilməsinin kökündə bizim ədəbiyyatşünaslığımızda Tenin nəzəriyyəsinin əsaslı şəkildə öyrənilməməsi, adına "burjua nəzəriyyəçisi" damğası vurulması və inkar edilməsi olmuşdur. Bu işdə marksist-leninçi metodologiya və ədəbiyyatşünaslıq da az rol oynamamışdır. Buna görə də hesab edirəm ki, Avropa və rus ədəbiyyatşünasları və nəzəriyyəçilərinin Azərbaycan ədəbiyyatşünas və yazıçılarına təsirini yenidən öyrənmək və daha dərin araşdırmalar aparmağa ehtiyac vardır. Azərbaycan sovet ədəbiyyatşünasları bu sahədə müəyyən işlər görmüş və tədqiqatlar aparmışlar. Lakin onların əksəriyyətinin tədqiqatı birtərəfli aparılmışdır. Avropa nəzəriyyəçilərinə "burjua" damğası vurulmuş, əsərləri və fikirləri təhrif

olunmuşdur”[386]

Cavid sənətinə daima ehtiramla yanaşan ədəbiyyatşünas İsgəndər Orucəli Atilla 1985-ci ildə yazdığı “Hüseyn Cavid yaradıcılığı Azərbaycan sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığında” adlı dissertasiyasında ilk dəfə olaraq Hüseyn Cavid yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi, qiymətləndirilməsi və təhlili problemi daha geniş, elmi və sistemli şəkildə araşdırmış, şairin əsərlərinin tədqiqi, Cavidşünaslığın yaranması və formalaşması məsələlərini tədqiqata cəlb edərək diqqətə çəkmişdir. İsgəndər Orucəlinin müqayisəli-tarixi metoda üstünlük verilmiş tədqiqat işində “1920-30 illər Azərbaycan ədəbi tənqidi və Cavid” probleminə xüsusi yer ayrılmışdır. Seyid Hüseyn, Hənəfi Zeynallı, Əli Nazim, Mustafa Quliyev, Cəfər Cabbarlı, Əziz Şərif, İsrafil Cahangirov, Məmməd Kazım Ələkbərli, Hüseyn Mehdi, Səməd Vurğun və digər tənqidçilərin Cavid sənətinə münasibəti, bədii ədəbiyyat sahəsində kommunist

[386] Orucəliyev İ. (Atilla). Hüseyn Cavidin mənzum dramları. I hissə. Bakı: 2011

partiyasının siyasətinə əsaslanmaları, çox zaman qərəzli mövqe tutmaları, obyektivlikdən uzaq olmaları, bunun əksinə olaraq özlərinin subyektiv mülahizələrini obyektiv həqiqət kimi oxuculara təqdim etmələri ədəbi faktlar əsasında izah edilmiş və qiymətləndirilmiş, mütəfəkkir sənətkarın təbirincə desək: "Hər kəsin haqqı kəndinə" – verilmişdir. Tədqiqatçı Cavid irsinin araşdırılmasında 1960-70-ci illəri yeni mərhələ hesab etmiş, Cavidşünaslığın məhz həmin mərhələdə formalaşmağa başladığı fikrinin, üzərində durmuşdur. Buna görə də o, Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid", Əbülfəz İbadoğlunun "Hüseyn Cavidin "İblis" faciəsi", Məsud Əlioğlunun "Hüseyn Cavidin romantizmi", Zahid Əkbərovun "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi" monoqrafiyalarını, Məmməd Cəfərin, Yaşar Qarayevin, Mehdi Məmmədovun, Cəfər Cəfərovun, Vəli Osmanlının, Kamran Əliyevin və digərlərinin araşdırmalarını əsas götürmüşdür. Azərbaycan sovet tənqidçiləri və ədəbiyyatşünaslarının Cavid sənəti haqqında formalaşmış yalan - yanlış fikir və konsepsiyalardan uzaqlaşmış, Cavidi olduğu kimi təhlil

etməyə səy göstərilmişdir. Tədqiqat işinin "Azərbaycan sovet ədəbiyyatşünaslığında "Cavid irsinin öyrənilməsində yeni mərhələ" adlanan bölməsi məhz bu məqsədə xidmət edir.

Bununla yanaşı, tədqiqatda elmi ədəbiyyata və mətbuata "Cavid teatrı" və "Cavidşünaslıq" terminlərinin nə zaman və kim tərəfindən gətirilməsinə də işıq tutulmuşdur. Göstərilmişdir ki, "Cavid teatrı" termininini teatrşünas İsrafil Cahangirov ilk dəfə 1932-ci ildə "Azərbaycan Dövlət Bədaye Teatrosu" kitabında[387], "Cavidşünaslıq" termini isə fəlsəfə elmləri doktoru İzzət Rüstəmov tərəfindən "Cavidin fəlsəfi irsi" məqaləsində[388] işlədilmişdir. Yalnız bundan sonra bu terminlərdən Azərbaycan sovet ədəbiyyatşünaslığında və teatrşünaslığında müxtəlif müəlliflər: Cəfər Cəfərov, Mehdi Məmmədov, Yaşar Qarayev və başqaları da yararlanmışlar.

Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığında

[387] Cahangirov C. Azərbaycan Dövlət Bədaye Teatrosu. Bakı,1962
[388] Rüstəmov İ.Cavidin fəlsəfi irsi // "Ədəbiyyat və incəsənət"qəz., 25 yanvar 1969

Hüseyn Cavidin daha çox əsassız tənqidlərə məruz qalmış əsərləri "Peyğəmbər" və "Topal Teymur" tarixi dramları olmuşdur. Bu əsərlər barədə Əli Nazim, Mustafa Quliyev, Mehdi Hüseyn, İsrafil Cahangirov, Mehdi Məmmədov və başqaları da bəzən obyektivlik göstərə bilməmiş, birtərəfli mülahizələr söyləmişlər. Adları çəkilən bu müəlliflərin də fikir və mülahizələri eyni zamanda tədqiqata cəlb edilmiş, onlarla polemikaya girilmişdir. Tədqiqatçının gəldiyi nəticəyə görə, bəzi tənqidçilər Cavid əsərlərinə yanaşmada qeyri-obyektiv, qərəzli, qeyri səmimi mövqe tutmuş, obyektiv olmayan mülahizələr yürütmüş, Cavid dramlarının bədii-estetik mahiyyətini dərk etməmiş, tarixilik və müasirlik problemi baxımından sənətkar mövqeyinə səthi yanaşmışlar. İsgəndər Orucəliyev, həmçinin Cavidin qəbrinin Sibirdən axtarılıb tapılması, vətənə gətirilməsi, Bakıda xatirə muzeyinin yaradılması ilə əlaqədar Azərbaycan KP MK-ya, Azərbaycan Yazıçılar İttifaqına məktub və ərizələrlə müraciət etmişdir. Cavidin anadan olmasının 100 illiyi münasibəti ilə görkəmli ədəbiyyat və teatr xadimlərindən toplandığı xatirələri və

məqalələri 1982-ci ildə kitab şəklində çap etdirmiş, 26 oktyabr 1982-ci ildə şairin Sibirdən Bakıya gətirilmiş cənazəsinin qarşılanması və dəfni tədbirlərində yaxından iştirak etmişdir. Hüseyn Cavidin şəxsi arxivinin ilk araşdırıcılarından, Cavidlər ailəsi və ocağına yaxın sayılmış biri kimi, şairin qızı Turan Cavid tərəfindən "Cavidin mənəvi övladı və cəfakeşi" adını almışdır. O, Mustafa Haqqı Türkəqulun "Azərbaycan türk şairi Hüseyn Cavid"[389] monoqrafiyasını dramatruqun Bakıdakı ev muzeyinə təqdim etmiş, Hənəfi Zeynallının 1923-cü ildə yazdığı "Ədəbi parçalar", Abdulla Şaiqin "İblis" nam hailəsi haqqında duyğularım"ını ərəb qrafikasından rus qrafikasına transfonlitrasiya etmişdir. Həmin məqalələr "Cavidi xatırlarkən" kitabında və "Cavidşünaslıq" araştırmalar toplusunun II-III cildində çap edilmişdir. Bununla yanaşı, Milli Dövlət Arxivinin Ədəbiyyat və İncəsənət bölməsində mühafizə edilən "Əziz Şərif fondu"nda araşdırmalar aparmış, bu fondda Cavidin sovet dövründən əvvəl və sovet dövründə (1910-75) nəşr edilmiş

---

[389] Türkəqul M.H. Azərbaycan türk şairi Hüseyn Cavid.Bakı:Nirlan,2002.

kitab və bir neçə şeirini müəyyən etmişdir. Bu şeir kitabları Hüseyn Cavid tərəfindən Əziz Şərifə aşağıdakı avtoqraflarla hədiyyə verilmişdir: “Sevimli və qiymətli qardaşım Şərifzadə Əziz əfəndiyə kiçik və dəyərsiz bir yadigar. Hüseyn”, “Dəyərli qardaşım Əzizə dəyərsiz bir yarpaq. Hüseyn Cavid”[390] (Şərif, 1986:121).

Tədqiqatçı həmçinin arxivlərdə araşdırmalar apararkən Cavidin mətbuatda müxtəlif illərdə çap etdirdiyi “Zavallı qadın” faciəsini, “Həsbi-hal”, “Müharibə və ədəbiyyat” (“Açıq söz”, 25 və 26 oktyabr 1915) kimi publisistik məqalələrini, “Qoca bir türkün vəsiyyəti” şeirini (“Həqiqət”, 19 aprel, 1910), 1924-cü ildə Bakıda nəşr edilmiş Abdulla Şaiqin Cavidlə birlikdə hazırladığı “Qiraət kitabı”nı aşkar etmiş və surətini çıxararaq şairin qızı Turan Cavidə vermişdir. Şairin “Qoca bir türkün vəsiyyəti” şeirini üzərindən 80 il keçəndən sonra 19 oktyabr 1990-cı ildə “Azərbaycan müəllimi” qəzetində çap etdirmişdir. Ümumiyyətlə, Cavid irsinə ehtiramla yanaşan müəllif apardığı araşdırmalarla yanaşı, həm də mətbuatda çap

[390] Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986, s.121

etdirdiyi məqalələrində ədibin zəngin irsi ilə oxucuları tanış etməyə, onlarda bu irsə yüksək məhəbbət aşılamağa çalışmışdır. Diqqətini Cavidşünaslığın ən aktual problemlərinə cəlb edən müəllif, eyni zamanda “Hüseyn Cavid Azərbaycan sovet ədəbiyyatşünaslığında” monoqrafiyasını, “Əsrin şairi” kitablarını çapa hazırlamışdır. Bununla yanaşı, müəllif “Əsrin şairi, yaxud peyğəmbər şair”, “İnqilabdan əvvəl Hüseyn Cavid yaradıcılığının tənqidinə dair bəzi qeydlər”, “Hüseyn Cavid yaradıcılığının tədqiq tarixinə qısa bir nəzər”, “İblis” mənzum faciəsi və onun tədrisi”, “Cavid məclisi”, “Hüseyn Cavidi şagirdlərə necə öyrədirik”, “Həqiqət dəqiqlik sevir”, “Hüseyn Cavidin sovet dövrü yaradıcılığı”, “Yanar ürək”, “İstiqlaliyyət, yoxsa” , “Qoy kişnəsin türkün atı”, “Cavid və Şeyx Şamil”, “Yeni fikir” qəzeti və Hüseyn Cavid”, “Türkçülük, turançılıq və Cavid”, “Tale dönüksə”, “Cavid unudula bilməz”, “Dahi mütəfəkkir şair və dramaturq”, “Diqqətsizliyin nəticəsi”, “Hüseyn Cavid gəmisi”ndə görüş”, “Firdovsi və Cavid”, “Firdovsi və Cavid əsərlərində İran-Turan müharibələri”, “Ədibin (Cavidin)

əsərlərində Zərdüşt və zərdüştilik", "Peyğəmbər" pyesi və onun taleyi", "Bən başımdan keçərəm… (Məhəmməd Əmin Rəsulzadə və Hüseyn Cavid)", "Cavid yaradıcılığında hərb mövzusu", "Şeyx Sənan" neçənci ildə yazılmışdır", "Bir daha "Şeyx Sənan"ın yazılma tarixi haqqında" kimi  məqalələrində də Cavid irsinə yanaşmada obyektivlik göstərmiş və özünəməxsus mülahizələr yürütmişdür.

Cavidin fəlsəfi dünyasına baş vuran Heydər Səfərov Ələkbər Quliyevlə birlikdə "Hüseyn Cavidin fəlsəfi dünyası" (1998) adlı elmi-publisistik kitab nəşr etdirib. H.Cavidin əsərlərinin təhlilinə həsr olunan kitabda oxuculara "Topal Teymur", "Knyaz". "Səyavuş", "Xəyyam", "Şeyx Sənan", "İblisin intiqamı", "İblis", "Peyğəmbər" əsərlərindən seçmələr təqdim edilib. "Əsrimizin yaşıdı H.Cavid haqqında" adlı yazıda Cavidin tələbəsi olmuş Lətif Hüseynzadənin Cavid haqqında xatirələri, son 20 səhifəsi isə "Tarixi sənədlər və materiallar" başlığı altında Hüseyn Cavid haqqında çap edilmiş  rəsmi materialların, o cümlədən, ümummilli lider

Heydər Əliyevin müxtəlif vaxtlarda etdiyi çıxışlar mətbuatdan götürülərək bəzi ixtisarlarla cavidsevərlərə çatdırılib.

Müasir Cavidşünaslıqda mütəfəkkir Cavidin lirikasında Avropa poetik ənənələrini araşdıran, yaradıcılığının əsas tədqiqat obyektinin mühim bir hissəsini XX əsrin birinci rübündə nəşr olunan mətbu orqanlar, həmin dövrün ədəbi simaları və cərəyanları təşkil edən Əməkdar elm xadimi, professor Hüseyn Həşimli "Azərbaycan poeziyasında sonet və terset", "Səid Səlmasi", "Əli Məhzun və "Ədəbiyyata dair" əsəri", "Əli Səbri", "Azərbaycan mənsur şeirinin təşəkkülü", "Türk xalqlarının ədəbiyyat ilişkilərinə dair araşdırmalar", "Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi"ndə ədəbi-elmi fikir", "Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı" və s. kimi sanballı və fundamental tədqiqatların müəllifidir. Böyük zəhmət bahasına başa gələn bu tədqiqat əsərlərini professor H.Həşimli təvazökarlıq edərək "klassik ədəbi-mədəni irs qarşısında mənəvi borcun ödənilməsi yolunda atdığı kiçik addımlar" – kimi qiymətləndirsə də, əslində bu

tədqiqat əsərləri Azərbaycan ictimai-mədəni fikir və mətbuat tarixinin yaddaşlarında həkk olunacaq əhəmiyyətli mənəvi mədəniyyət nümunələridir. H.Həşimlinin 2012-ci ildə işıq üzü görən "Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri"[391] (Həşimli,2012:92) adlı kitabında mütəfəkkir Cavidin lirikasında poetexnik vasitələr və janrlar səviyyəsində Avropa ədəbi ənənələrinə müraciət məsələləri diqqət mərkəzinə çəkilmiş, novator şairin anjanbemandan istifadə etməsi ilə şeirimizə gətirdiyi yeni qafiyələnmə modelləri; marş, sonet, qlossa, terset kimi janrlarda yazdığı əsərlər obyektiv şəkildə təhlilə cəlb edilmişdir. Kitabın "Ön söz"ündə yazılır: "Mütəfəkkir ədibin yaradıcılığı dünya romantizm ənənələri ilə möhkəm sürətdə bağlıdır və Azərbaycan, ümumən Şərq ədəbiyyatı ilə yanaşı, Qərb söz sənəti də  də onun bəhrələndiyi əsas qaynaqlar sırasındadır. Böyük söz üstasının əsrarəngiz sənət dünyasında mənşəcə klassik Şərq poeziyası  və xalq şeiri ilə bağlı olan çoxsaylı bədii elementlərdən

[391] Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil, 2012, s.92

yaradıcılıqla istifadə ilə bərabər, Avropa xalqlarının ədəbiyyatlarından gələn bir sıra ənənələr də müxtəlif səviyyələrdə (tematika, janr, üslub, qafiyə və s.) öz ifadəsini tapmışdır. Müxtəlif vaxtlarda Azərbaycan ədəbiyyatşünaslıq elminin ayrı-ayrı nümayəndələri; akademik Məmməd Cəfər Cəfərov və İsa Həbibbəyli, AMEA-nın müxbir üzvləri Yaşar Qarayev və Kamran Əliyev, professorlar; Məsud Əlioğlu, Əjdər İsmayılov, Himalay Qasımov, Timuçin Əfəndiyev, f.e.d. Vəli Osmanlı, f.ü.f.d. Əbülfəz İbadoğlu və Aygün Həsənoğlu, Sona Vəliyeva və digərləri bu sonuncu məsələdən də danışmış, bir sıra qiymətli elmi fikirlər söyləmişlər. Lakin bir ümmana bənzəyən Hüseyn Cavid sənətinin hələ də açılmamış sirləri çoxdur, o cümlədən ədibin lirikasında Avropa şeir ənənələri ilə bağlı daha geniş, əhatəli şəkildə öyrənilməli məsələlər də az deyil. Təqdim olunan kitab da məhz bu niyyətə xidmət edir"[392] (Həşimli, 2012, 5).

Kitabda Cavidin lirik şeirlərində qeydə alınan

[392] Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil, 2012, s.5

Avropa mənşəli poetexnik vasitələr, o cümlədən bənd strukturundakı özəlliklər, yeni qafiyələnmə sistemləri, anjambemandan istifadə, həmçinin marş, sonet və onun müxtəlif variantları (quyruqlu sonet, uzun sonet və s.), qloss, terset kimi janrlarda yazdığı şeirlər təhlil olunur, onları ideya-bədii məziyyətləri araşdırılır. Tədqiqat zamanı Cavidin lirikasında Şərq-Qərb poetik sistemlərinin sintezi, üzvü vəhdət kimi məsələlər də diqqət mərkəzində saxlayan professor H.Həşimli müvafiq məqamlar aşkarlamış, yeri gəldikcə ədəbiyyatşünaslığın bir sıra müvafiq müddəalarına da istinad etmiş, eyni zamanda özündən əvvəl aparılmış tədqiqatlara da toxunulan problemi daima diqqət mərkəzində saxlamış və ardıcıl araşdırma aparmışdır. "Giriş"də özündən əvvəlki tədqiqatlara yüksək alim etikası ilə münasibət bildirən tədqiqatçı yazır: "O iddiada deyilik ki, Hüseyn Cavidin lirikası ilə Avropa poetik ənənələri arasındakı əlaqə bütün yönləri ilə araşdırılmışdır. Gələcək tədqiqatçıların mövzu ilə əlaqədar daha ciddi mətləblərə işıq salacağı inamındayıq"[393]

[393] Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil,

(Həşimli,2012:6). Kitabın sonunda alimin qənaətbəxş nəticələri bu şəkildə yer alır: “Hüseyn Cavidin lirikasında Avropa poetik ənənələrinə müraciət ədəbiyyatımızın iyirminci əsrin ilk onilliklərində janr- üslub təkamülü və novatorluq axtarışları ilə bilavasitə əlaqədar olub, həmin prosesin mühim tərkib hissəsidir; Hüseyn Cavid Qərb ədəbi ənənələri ilə daha çox Osmanlı ədəbi mühiti vasitəsi ilə tanış olmuşdur; Avropa xalqlarının poeziyasında özünəməxsus mövqeyə malik qapalı qafiyə sistemindən və bəzi digər qafiyələnmə modellərindən istifadə edən ilk Azərbaycanlı şairlərindən biri Hüseyn Caviddir. Bundan əlavə novator sənətkar Şərq-Qərb poetik sistemlərinin sintezindən yaranan bir sıra yeni qafiyə düzümləri və bənd quruluşları ilə də şeirimizi zənginləşdirmişdir; Qərb ölkələrinin ədəbiyyatlarında uzunmüddətli tarixə malik poetexnik, stilistik vasitələrdən olan anjambemandan istifadə Hüseyn Cavid lirikasında daha dərin istifadəsinə, bəzən də prozaikliyin müəyyən əlamətlərinin təzahürünə imkan yaratmışdır; Romantik şair ədəbiyyatımızda ilk dəfə

---

2012, s.6

olaraq mənsur və mənzum dramların bəzilərinin daxilində Avropa mənşəli marş janrından istifadə etməklə ideya-bədii qayənin daha dolğun təqdiminə nail olmuşdur. Müəllifin bəzi şeirlərində də marşla səsləşən parçalarla qarşılaşırıq; Hüseyn Cavid Avropa xalqlarının poeziyasında yeddi yüz əlli ildən artıq tarixə malik sonet janrını Azərbaycan lirikasına gətirən ilk sənətkarlardandır. Onun İtaliyan soneti modelində yazdığı şeirlər həm forma əlamətlərinə, həm də poetik fikrin dolğunluğuna və bədii strukturundakı təqdimi səviyyəsinə görə janrın bütün xüsusiyyətlərinə cavab verir. Ustad sənətkar sonnetin şəkil dəyişmələrinə də müraciət etmiş, uzun sonet, "quyruqlu" sonet nümunələri qələmə almışdır. Xüsusən onun "İbtilayi-qəram" şeri janrın ingilis və italiyan variantlarından istifadə yolu ilə yaradılan nadir quruluşlu "quyruqlu" sonet örnəyidir; Avropa mənşəli qlossa şeir şəklində anoloji nümunə yazan, həmçinin sonetlər çələnginin müəyyən əlamətlərini uğurla sınaqdan çıxaran söz ustadının sənət axtarışları Şərq - Qərb poetik sistemlərinin üzvü qovuşuğunun dolğun təcəssümüdür. Şair bu zəmində

bir sıra yeni şeir şəkilləri də yaratmışdır; Hüseyn Cavidin "Azər" əsərinə Qərb şeirindən gələn terset formasında mənzum parça daxil etməsi ədəbiyyatımızda üçlük şeir şəklinə poema daxilində müraciət sahəsində ilk, həm də uğurlu təşəbbüsdür"; Avropa mənşəli bəzi poetexnik vasitələrin və janrların Azərbaycan ədəbiyyatında təşəkkülündə, eləcə də sonrakı mərhələlərdə möhkəmlənməsində Hüseyn Cavid lirikasının mühim mövqeyi vardır"[394] (Həşimli, 2012: 81-85).

Hüseyn Cavidin lirikasında Avropa poetik ənənələrini araşdıran professor Hüseyn Həşimlinin ötkəm qənaətləriylə yanaşı, Cavid lirikasının "özünün ideya-bədii məziyyətləri, əsrarəngiz gözəlliyi, novatorluq axtarışları ilə" ədəbiyyatımızda xüsusi yer tutduğunu vurğulayır.

Cəfakeş elm xadimi Hüseyn Həşimlini haqlı olaraq "fədai" adlandıran İlkin Əsgər yazır: "Ə.Hüseynzadə tənqidi məqalələrin birində yazırdı ki, fədai lazımdır, fədai, yuxarı sıçrayan murdarlıqdan və həşamatdan qorxmayan

[394] Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil, 2012, s.81-82

fədai! Mənim üçün (elə bizim üçün) Sabir də, Mirzə Cəlil də, Cavid də, Cabbarlı da, Əli bəy də, Vahabzadə Bəxtiyar da fədaidir. Özü də bir millət fədaisi, insanlıq fədaisi, elm, mədəniyyət fədaisi. Hüseyn Həşimli də bir fədaidir. Ədəbiyyat (şünaslıq) fədaisi!"

Böyük sənətkarın zəngin yaradıcılığında Qərb ədəbi cəryanlarının izləri, yaradıcılığını Şərq və Qərblə müqaisəli şəkildə araşdırılması filologiya üzrə fəlsəfə doktru, dosent Cavidə Məmmədlinin tədqiqatlarının da aparıcı mövzusu olub. Bu tədqiqatların nəticəsi olaraq; "Hüseyn Cavidin "Afət" faciəsi"[395] (Bakı:Nurlan,2007, 191 s), "Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri"[396] (Bakı: Mütərcim, 2013,144 s), "Hüseyn Cavid və XX əsr Qərb fəlsəfi düşüncəsi"[397] (Bakı: Mütərcim, 2014, 252 s) adlı üç monoqrafiyası işıq üzü görüb. "Hüseyn Cavidin "Afət" faciəsi" monoqrafiyasında tədqiqatçı dramaturqun "Afət" və digər dram əsərlərini təhlilə cəlb edir. "Afət" əsərində

[395] Məmmədli C. Hüseyn Cavidin "Afət" faciəsi. Bakı:Nurlan, 2007, 191 s
[396] Məmmədli C. Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri. Bakı: Mütərcim, 2013, 144 s
[397] Məmmədli C. Hüseyn Cavid və XX əsr Qərb fəlsəfi düşüncəsi. Bakı: Mütərcim, 2013, 252 s

qoyulan bir sıra bəşəri problemlər, eləcə də müəllifin insan konsepsiyası Şərq və Qərb filosoflarının görüşləri ilə müqayisəli şəkildə şərh edlir. C.Məmmədlinin "Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri" adlı monoqrafiyasında isə mütəfəkkir Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri tədqiq olunur. Filosof şairin məktəb, təlim-tərbiyə, tədris üsulları, ana dili, müəllim hazırlığı kimi mühim məsələlər barədə mülahizələrinin şərhi ilə ədibin ictimai-siyasi görüşlərinə aydınlıq gətirilir. Eyni zamanda, mövzu ilə bağlı Ə.Hüseynzadə, M.Hadi, Ə.Ağa-oğlu Ə.Kamal, Ə.Raiq, H.S.Ayvazov kimi ədiblərin yaradı-cılığı da tədqiqata cəlb olunur. Həmçinin H.Cavidin ədəbiyyatın və fəlsəfənin vəzifələri haqqında qənaətləri Azərbaycan və Qərb müəlliflərinin görüşləri ilə müqayisəli şəkildə araşdırılıb, təhlil olunur. C. Məmmədlinin "Hüseyn Cavid və XX əsr Qərb fəlsəfi düşüncəsi" adlı monoqrafiyasında isə Hüseyn Cavidin ədəbi-fəlsəfi görüşləri tədqiq edilir. Pozitivizm, həyat fəlsəfəsi, freydizm, tradisionalizm kimi Qərb fəlsəfi cərəyanları ilə müqayisəli şəkildə tədqiqata cəlb edilən H.Cavid

fəlsəfəsinin fərqli və üstün cəhətlərinə aydınlıq gətirilir.

Mövzu ilə bağlı XX əsrin əvvəllərində bədii ədəbiyyata təsir göstərən ekzistensializm, praqmatizm, şüur axını və digər fəlsəfi cərəyanlar, nəzəriyyələr təhlil cəlb edilir. H.Cavidin həyat, insan, varlıq, din haqqında orijinal düşüncələri təkcə bədii-fəlsəfi fikir dünyamızda deyil, fəlsəfə tarixində də xüsusi səhifə kimi qiymətləndirilir, mütəfəkkir şairin Allaha qayıdış fəlsəfəsi əsaslandırılır. Monoqrafiyada həmçinin H.Spenser, K.Yaspers, U.Cems, A.Berqson, O.Kont, A.Şopenhauer, F.Nitsşe, Z.Freyd, E.Fromm, R.Genon, M.Lings və digər mütəfəkkirlərin yaradıcılığı da tədqiqata cəlb olunur.

Hüseyn Cavid yaradıcılığının başqa bir tədqiqi istiqaməti professor Tahirə Məmmədin araşdırmaları ilə formalaşır. Böyük mütəfəkkirin mətnlərinə çoxqatlı sistem kimi yanaşan tədqiqatçı, ondakı informasiyanın aşkara çıxarılıb müəyyənləşməsi məqsədilə mətnin elementlərini analiz edir. T.Məmmədin tədqiqatlarına qədər Cavidin yaradıcılığı əsasən sosial məzmun baxımından araşdırılmış və mətnin “gizli sirləri” bir o qədər də diqqət kəsb

etməmişdir. Mətnin sosiallığının öndə saxlanılması bir tərəfdən sovet hakimiyyətinin ədəbiyyatşünaslığı yönləndirdiyi dar cığırla, digər tərəfdən mətnin təhlil mexanizmində gecikmiş metodlara daha çox üstünlük verilməsi ilə əlaqədar idi. Cavidin böyük ideallarını, əsərləri ilə irəli sürdüyü məfkurəni hiss edib, görən tədqiaqatçılarımız onu sona qədər açmaqda ehtiyat edir, bəraət qazanmış mütəfəkkirimizin əsərlərinin xalqdan uzaq tutulacağından, əsərlərin üzərinə "həbs qoyulacağından" çəkinirdilər.

T.Məmmədin Cavid yaradıcılığı üzərində ardıcıl tədqiqatları 90-cı illərin əvvəlindən başlayır. O, artıq Cavid mətnlərinin yeni "oxunuşlarını" təqdim etməyə başlayır. Ayrı-ayrı məqalələrində maraqlı elmi yeniliklərlə diqqət cəlb edən müəllif, 1999-cu ildə çap olunan "XX əsr Azərbaycan dramaturgiyasının poetikası" monoqrafiyasında Hüseyn Cavid, eləcə də müqayisəli şəkildə Cəlil Məmmədquluzadə, Cəfər Cabbarl dramaturgiyasını struktural poetika texnologiyası ilə təhlil

edir və maraqlı nəticələrə gəlir. Monoqrafiyada, ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq mətnin elementləri sistemli şəkildə - həm mətndaxili komponentlərin əlaqəsində, həm də kontekst şərtləri nəzərə alınaraq öyrənilir. Bu təhlil mexanizmində Hüseyn Cavid yaradıcılığı  unikal hadisə kimi və Cavidin fəlsəfi yanaşması neosufizm kimi dəyərləndirilir. Monoqrafiyada ayrıca bir yarımfəsil var: "Təsəvvüf yeni zəmində. Neosufizm mərhələsinin başlanğıcı"[398] (Məmməd, 1999:21).Tədqiqatçı burada ilk dəfə olaraq Hüseyn Cavid dramaturgiyasını ənənəvi Şərq dünyagörüşü kimi qəbul olunan sufizmlə XX əsrin dəyərlərinin kəsişməsi işığında qiymətləndirir. Bunu Hüseyn Cavid mətnlərinin özü sübut edir. T.Məmməd faktlardan çıxış edib, müddəalar irəli sürür, gəldiyi qənaətləri əsaslandırır.  Tədqiqatçının müşahidələri və üzə çıxardığı yeniliklər tezliklə ədəbiyyatşünaslığımızda öz təsirini göstərir. Hüseyn Cavid yaradıcılığına irfan işığında nəzər salmaq ənənəsi daha da genişlənir. Özü də bu sahədə elmi axtarışlarını davam

[398] Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı: Elm, 1999, s. 19-52

etdirən tədqiqatçı Cavid yaradıcılığı əsasında irəli sürdüyü konsepsiyanı genişləndirib daha da zənginləşdirir. Neosufizm probleminə həsr olunmuş ayrıca monoqrafiyasında[399] neosufizmin parametrlərinin Azərbaycan romantizmində tam formalaşması fikrini irəli sürür və Cavidin yaradıcılığını, haqlı olaraq, yeni bədii yaradıcılıq hadisəsi və modeli kimi izah edir. Eyni zamanda, Abbas Səhhət, Abdulla Şaiqin də əsərlərində bu ədəbi-fəlsəfi baxış yeniliyinin aparıcı funksiyaya malik olduğunu göstərir. Bu zaman "neosufizmi neomifologiya ilə paralelləşdirərək əsasən poetika hadisəsi kimi" öyrənilən tədqiqatında mütəfəkkir Hüseyn Cavidin yaradıcılığında sufizm məsələlərinə toxunaraq aydınlıq gətirir. Bəzi tədqiqatçıların Cavid yaradıcılığından Orta əsrlərin sufizmi kimi bəhs etmələrinə münasibət bildirir: "Neosufizmin parametr və prinsiplərini nəzərə almayan tədqiqatçılar Hüseyn Cavid kimi sənətkarın yaradıcılığından Orta əsrlərin sufizmi kimi bəhs edirlər. Bunu o vəziyyətlə müqaisə etmək olar ki, mifopoetikanın

[399] Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016

strukturunda əsaslı yeri olan romana mif mətni kimi yanaşılsın"[400] (Məmməd, 2016:11). Caviddəki sufizmi Orta əsrlərin sufizmi deyil, neosufizm kimi qəbul edən alim yazır: "Neosufizmin romantizmdəki modelində sufizmdən gələn poetika elementləri bütün sivilizasiyaların və aparıcı cərəyanların nailiyyətlərinə arxalanaraq bəşəriyyəti və müllətləri xilas etmək konsepsiyasının ifadəsinə xidmət edir. H.Caviddə millətlərin xilası ideyası türkün xilasından, dünyanın xilasına doğru irəliləyir. Əgər "İblis" əsərində Birinci Dünya müharibəsi Şərqə, xüsusən də türkün mövcudluğuna qarşı fəlakət kimi götürülrdüsə, artıq "İblisin intiqamı", "Azər" əsərlərində dünyanın və millətlərin, bəşəriyyətin xilası ideyası önə sürülürdü"[401] (Məmməd,2016:13).

Tədqiqatçı alim "XX əsr Azərbaycan dramaturgiyasının poetikası" monoqrafiyasında əsasını qoyduğu elmi yanaşmanı daha da genişləndirərək neosufizmi onun müasiri olan fəlsəfi, eyni zamanda bədii

---

[400] Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016, s.11
[401]Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016, s. 13

cərəyanlarla müqayisə edir. Bununla da Azərbaycanda müstəqil, orijinal bir modelin tam yetkinləşməsi məsələsi gündəmə gəlir. Müqayisəyə cəlb olunan, adları çəkilən müəlliflərin yaradıcılığı sübut edir ki, Türkiyə, eləcə də dünya ədəbiyyatında neosufizm kimi dəyərləndirilə biləcək ədəbi hadisələr mövcuddur; onun adını çəkdiyi, yaradıcılığı üzərində durduğu Nəcib Fazilin, Poelo Koelonun əsərləri kimi. Lakin bu ədəbiyyatın ilkin yetişdiyi ocaq Azərbaycan romantizmi və onun da ən yüksək zirvəsi Hüseyn Cavid yaradıcılığıdır. Poetikada, sənətkarlıqda neosufizmin ifadə sistemi öz elementləri ilə təşəkkülünə XIX əsrin "sosial təsəvvüfü" ilə başlayır, Azərbaycan romantizmində, Cavid yaradıcılığında kamala çatır və daha sonra dünya ədəbiyyatında genişlənməyə başlayır. Cavid yaradıcılığı dünya ədəbiyyat xəzinəsinə bəxş etdiyi bu orijinal modellə böyük və möhtəşəmdir.

Tahirə xanım neosufizmi digər fəlsəfələrin, çox əlamətdardır ki, həm də zidd fəlsəfələrin aparıcı olduğu bədii yaradıcılıq tiplərinin ədəbi qəhrəmanlarını kəsişmə nöqtələrində müqayisəyə cəlb edir: "Ekzistensializm və

marksizmi bir-birinə yaxınlaşdıran (müəyyən fərqlərlə) özgələşmə ilk baxışda neosufizm qəhrəmanları üçün xarakterik sayıla bilər. Lakin neosufizmin qəhrəmanını nə sosial münasibətlər özgələşdirib (marksizimdə olduğu kimi), nə də o, öz mövcudluğu ilə özgələşmiş vəziyyətdədir (ekzistensealizmdə olduğu kimi). O sosial və beynəlxalq məsələlər kəsiyində hadisələrin içinə daxil olur, lakin mövcudluğu və varlığını təmin edən bir güc var - ya qovuşmaq istədiyi Tanrı (Şeyx Sənan), ya da fərdin özünü, fərdin mövcudluğunu arxa plana çəkən ideal. Bu bir aşiqlikdir - vətən, millət ümmət, bəşəriyyət aşiqliyi”[402] (Məmməd,2016:14).“Ekzistensealizmə görə həyatda iztirab üstünlük təşkil edir. Dünyaya neqativ baxışlarla yanaşan ekzistensialist, sosial dəyişikliklərdən çox fərdi dəyişməyə önəm verir. Neosufizmin romantizmdə təzahüründə isə mövcudluq naminə bütün iztirablar keçiləndir və şəxsiyyətləşmiş insan çətinliklərin dəfinin yolunu tapmalıdır. Öz yolunu itirənlərin isə (“Afət”dəki Afət, “İblis”dəki Arif) uduzduğu yerləri, səhvləri yaratdığı

[402] Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016,s.14

situasiyalarla oxucusuna göstərən müəllif, təlqin vasitəsi ilə şəxsiyyətləşmə prinsipini aşılayır"[403] (Məmməd, 2016: 14). Cavidin həll etmək istədiyi problem, ilk növbədə bu, "şəxsiyyət yetişdirmə" məsələsi idi. Elə bu yolda da onun köməyinə Orta əsrlər Şərq fəlsəfəsinin kamil insan idealı gəlir. Lakin həmin kamil insanın boynunda XX əsrin keşməkeşli hadisələrindən irəli gələn ağır vəzifələr var idi. Artıq Tanrı eşqi millət, vətən eşqindən, sosial vəzifələrdən keçərək durulurdu.

XX əsrdə Azərbaycan romantizmində sufizmin dəyişik şəkillərdə yaşaması bir neçə istiqamətdə özünü göstərir. T.Məmməd həmin müxtəlifliyin də mənzərəsinə aydınlıq gətirir. Bu, ilk növbədə sufizmin ənənəvi aşiq-məşuq modelində məşuqun yerinə vətənin və millətin qoyulması şəklində özünü göstərir. İlk addımlar, elementlərin ilkin təşəkkülü şəklində Abbasqulu ağa Bakıxanov, türk ədəbiyyatında Namiq Kamalın yaradıcılığında müşahidə olunur. A.Bakıxanovun "Xəyalın uçuşu" mənzuməsində sadə koordinatları cızılan həmin

[403] Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016, s.14

model Namiq Kamalın yaradıcılığında püxtələşir. "Hürriyyət" qəsidəsində "Vətən" şeirində, "Vətən, yaxud Silistrə" dramında və s. Burada sufimin aşiq-məşuq modelində məşuqu, dilbəri Vətən, Millət əvəz edir"[404] (Məmməd, 2016:22). Zeynəlabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanını da tədqiqatçı həmin strukturun formalaşmasında əhəmiyyətli fakt kimi qiymətləndirir. Bu model H.Caviddə dərin fəlsəfi məzmun və poetik zənginlik, geniş informativlik qazanır. Hüseyn Cavid aşiq-məşuq modelində millət, vətən aşiqinin iztirablarını beynəlxalq hadisələr, qlobal proseslər fonunda təqdim edir; o kodlaşdırılmış obraz və situasiyalarla Şərqə, Türk dünyasına çəkildiyi ölüm-qalım mübarizəsində qoruyub saxlamalı və qazanmalı olduğu dəyərləri göstərir. Bu fonda dahi şairimizin eyni zamanda böyük filosof olması və müasiri olduğu fəlsəfələrə, tarixin açıq və gizli planlarına yaxından bələdliliyi nümayiş olunur. Söylənənlərin açılması isə Cavidin bədii kod sisteminin açılışı ilə mümkündür; tədqiqatçı baxış istiqamətini məhz

[404] Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə: Bakı, 2016,s.22

həmin tərəfə yönləndirir. Bu, təkcə Cavid yaradıcılığının yox, həm də neosufizmin ornamental, şəbəkəvari poetikasını öyrənmək baxımından da əhəmiyyətlidir.

"Hüseyn Cavidin təxəllüsləri Şərq-Qərb kontekstində" alı məqaləsində Cavidin təxəllüslərindəki olan dəyişmələrə həm Uzaq, həm də Yaxın Şərq mədəniyyət ənənələri işığında aydınlıq gətirən Tahirə Məmməd yazır: "Sosial statusa görə ad qazanma və təxəllüsün bir neçə dəfə dəyişilməsi ənənəsi uzaq Şərq mədəniyyətində geniş yayılmışdır. Çin və ural-altay xalqlarında, müxtəlif dövrlərdə, insanların sosial statusa görə bir neçə dəfə ad dəyişməsi qanuni hal kimi qəbul edilirdi. Yaş dövrləri və status dəyişmə ilə əlaqədar ad/təxəllüs dəyişmə və onun keçilən dərəcələrdə yenisi ilə əvəz olunması prototürk mədəniyyətində özünü göstərir"[405] (Məmməd,2019:261). Bu zaman söylədiyi fikirləri faktlarla əsaslandırır və ədəbi nümunələrdən, dastanlardan misallar

[405] Tahirə Məmməd.Hüseyn Cavidin təxəllüsləri Şrq mədəniyyəti kontekstində. "Hüseyn Cavid və dünya ədəbiyyatı" Respublika elmi konfransının materialları. Azərbaycan Dillər Universiteti, Bakı, 2019. s.260-266

göstərir. Şairin Gülçin, Salik, Arif, Cavid təxəllüslərindəki dinamikanı həm prototürk-türk mədəniyyəti, həm də sufizm semantikası ilə əlaqədə izah edən tədqiqatçı burada başqa bir fikrin də formalaşmasına stimul verir ki, təsəvvüfün tədqiqinə birtərəfli, yalnız dini dünyagörüşü bucağından yox, həm də daha qədim ənənələrdən gələn sistemli ardıcıllıq işığında nəzər salmaq lazımdır.

Ümumiyyətlə, "səma şairi" Caviddəki sufizm tədqiqatçılar tərəfindən birmənalı qəbul edilmir. Türk poeziyasını Asiman poeziyası adlandıran filologiya elmləri doktoru Azər Turan yazır: "Türk poeziyası Asiman poeziyasıdır, elə buna görə də, yerdə qərar tuta bilmir. Üstündəki Göyün də qatıldığı obrazlar sistemi ilə qədim rünik yazılarının yazarı,"Qanadlandıq quş olduq, uçduq əlhəmdülillah" - deyən Yunis, ərşi varlığına sindirmiş Nəsimi, ahı fələkləri yandıran Füzuli və səma şairi Cavid göylərdən ayrıla bilmədilər"[406] (Turan, 2000:79). Görkəmli tədqiqatçı bu qənaətə gəlir ki, "ərşi içinə sindirdiyinə görə Nəsimini edam edənlər", "göylərin şairi

[406] Turan A. Hüsnü xuda şairi. Bakı: Çaşıoğlu, 2000, s.79

olduğuna görə Cavid əfəndini edam etdilər"[407] (Turan, 2000:79). Həqiqətən də, "Həqq mənəm, həqq məndədir" - deyə Orta əsrləri dərisi soyulmaqla heyrətləndirən, amma əqidəsindən donməyən Nəsimi cəsarəti ilə, "Mən fəqət hüsnü xuda şairiyəm, yerə enməm də, səma şairiyəm", - deyə öz məramını açıqlayan Cavid hər zaman göylər şairi olaraq qaldı, heç zaman yerə enmədi. Özünü səma şairi adlandıran Cavid Tanrıya bərabər tutduğu böyük eşqi, aləmi yaradan sevgini tərənnüm edən arif idi. Deyirlər: "Hər sufi arifdir, hər arif sufi deyil." H.Cavid "Şeyx Sənan" da bu mövzuya fəlsəfi bir məna vermişdir. Bu da ondan ibarətdir ki, öz mütləq eşqinə qovuşandan sonra ölən təriqət başçısı Şeyx Sənan öz eşqi yolunda islami təriqətindən uzaqlaşaraq yeni bir fəlsəfi təriqətin; "böyük eşq!, "ilahi sevgi" təriqətinin əsasını qoymuşdur. Amma "Cavidin yaratdığı təriqət klassik ədəbiyyatda olduğu kimi süfizmdən, hürufizmdən, panteizmdən fərqlidir. Cavid Nəsimi kimi sufi deyil, Caviddə Allaha sevgi tərənnüm edilmir, əksinə Allaha-Tanrıya-Həqiqətə yetişmək üçün eşq

[407] Turan A. Hüsnü xuda şairi. Bакı: Çaşıoğlu, 2000, s.79

və gözəllik tərənnüm edilir, çünki Hüseyn Caviddə Tanrı ilə sevgi bərabərdir"[408] (Əsgərzadə L, 2007: 6).

Unutmayaq ki, Cavid hər şeydən öncə romantik idi. Romantiklər hər zaman "eşqlə dini bir-birinə yaxın bulmuşlar, çünki hər ikisinin çövhərində saflıq və paklıq var. Onlar mahiyyət etibarı ilə eyni qaynaqdan qidalanırlar. Hər ikisi öz başlanğıcını məftunluq, heyranlıq və şövqdən alır. Dində Tanrıya məftunluq, inam həm birbaşa, həm də pərəstiş vasitələri ilə ifadə olunur. Bu eşqə də aiddir. "Yar" həm eşq mənbəyi olan Tanrıdır, həm də aşiqinə cəfa verən yardır. Lakin hər ikisinin cəfası aşiq üçün xoşdur"[409] (Əkbərov,1977:140).

Cavidin "Çünki bən aşiqi divanəsiyəm,/Bən o hüsnün dəli pərvərdəsiyəm" - misraları bir çox gizli mətləbləri yada salır", insanın mənəvi dünyasının sirli-möcüzəli bir aləm oldğuna inam yaradır. C.Rumi yazır: "Ulu tanrı gözəldir və gözəlliyi əmr edir." Ruminin bəhs etdiyi gözəllik camal gözəlliyi deyil, qəlb, ruh gözəlliyidir.

---

408 Əsgərzadə L. Cavid yaradıcılığında özünüdərk məsələsi və ya Özünü dərkdən özünü tərkə /AMEA - Xəbərlər. Bakı: Elm. №1, 2007, s. 3-11

409 Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977,s.140

Cavid “Peyğəmbər”də “Bən gözəllərdə gözəl ruh ararım, Ruhu düşkünləri çirkin sayarım”,- deyərkən bu gözəllikdən bəhs edirdi [410] (Cavid,2007:246).

Hər sevilən, gözəl gözlə baxılan şey gözəldir. Sərt qayaya, boz daşa sevgi gözü ilə baxsan gözəl görünər. Hər şeyə, kainata, təbiətə sevgi gözü ilə baxmaq isə ruhu gözəl olanlara aiddir.Filosof S.Xəlilovun fikrincə; “Kainatın bir zərrəsi olan insan ruhu cahanı və kainatı ehtiva etmək qüdrətindəymiş! Bunu bədənə yox, ruha tapınanlar, cismani ehtiyac üçün yox, ruhani ehtiyac üçün yaşayanlar, dünyanı ruhun işığında seyr edənlər daha yaxşı bilirlər!”[411] (Xəlilov, 1996:97).

Bu mənada, dünyanı ruhun işığında seyr edənlərin, üzü Tanrıya doğru olanların, Haqqa qovuşmaq eşqi ilə yananların yolu gözəllik və eşqin odunda qovrularaq böyük bir yoldan keçir. Gözəllik olan yerdə eşq, eşq olan yerdə hər şey var. Gözəllik həqiqətdir, Allahın (küllün) bir zərrəsi kifayətdir ki, onu özündə daşıyan insan (cüz) sevilməyi

[410] Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007, s.246
[411] Xəlilov S. Cavid faciəsi. I kitab. “İblis”də fəlsəfi motivlər. Bakı: Qanun, 1996,s.97

haqq etsin. Bu fikirlərə mövlanə Füzulinin "Rindü Zahid" əsərində də rast gəlirik. Rind deyir: "Gözəllik Allah simasının aynasıdır, Allahı bulmaq istəyənlərin məqsədə çatmaları üçün yol göstərəndir. Camal Allah nurunun məzhəridir, əbədi feyzin mənşəyidir. O hər yerdə həqiqi gözəllik mənşəyi olur. Zənn etmə ki, gözəllik su və palçıqdan ibarətdir. Bəlkə gözəllik bir həqiqətdir ki, gözəl üzdə də aşıkara çıxıbdır. Camal sahibi bir oyuncaqdır ki, camal göstərir"[412] (Fuzuli, 2005:47). Filosof şairin "Allah simasının aynası" olan Gözəlliyə və sevgiyə tapınması həqiqətə yetişmək, onda yox olmaq istəyindən irəli gəlirdi. Sələfləri; Nizami, Nəsimi, Füzulu kimi, Eşq və Gözəllik, Zaman və Təbiət, İnsan və Tale qarşısında "poeziyanın irəli sürdüyü ədəbi suallara tam qətiyyətlə, orijinal cavablar vermiş" Cavidin Kainat və Tanrı duyğusu ilə yüklənmiş yaradıcılığında gözəllik və eşq probleminin bədii həlli çox dərin bir şəkildə fəlsəfi mahiyyətini tapmışdı. Özünü "hüsnü xuda", "səma şairi" adlandıran

[412] Füzuli M. Əsərləri. 6 cilddə, I c. Bakı:Şərq-Qərb, 2005, s.47

Cavid acımasız sovetlər dönəmində, hər kəsin yerdəkilərlə uğraşdığı,yarındığı, vəsf etdiyi qorxunc zamanda belə yerə enmədi, "göylər şairi" olaraq qala bildi. Daima Tanrıya bərabər tutduğu böyük eşqi, aləmləri yaradan sevgini tərənnüm etdi. Mütləq eşqinə qovuşan tariqət mürşidi Şeyx Sənanın timsalında yeni bir fəlsəfi təriqətin "Böyük eşq!, "Sevgi dini"nin əsasını qoydu. Onun "Böyük eşq" təriqət klassik ədəbiyyatda olduğu kimi süfizmdən, hürufizmdən, panteizmdən fərqlidir, amma təriqətdir. Eşq və gözəlliklə Tanrının dərkidir, sevərək Allahlaşmaqdır. Bu səbəblə "Göylər şairi"nin yaratdıqları uca Tanrı üçündür, Ona edilən dualar, söylənən pıçıltılardır. Şairin "Bəni hər kim sevirsə, yüksəlsin", - fəlsəfəsi - bu yüksəliş intellektual müstəvidə deyil, daha çox mənəvi müstəvidə həyata keçirilir, çünki Allahı yalnız sevmək, etiqad etmək və inanmaqla – müqəddəslik duygusu ilə idrak etmək olar. "Cavid insanın özünü idrak etməsi üçün eşq və gözəllik yolundan saflaşaraq kamilliyə doğru yol aldığına, müqəddəslik duyğusu ilə idrak etdiyinə inanırdı" [413]

[413]Askerzade L Reflection of Philosophical Ideas in Huseyn Javid's work/Revısta

(Askerzade,2018:141-150). Qısa bir həyat sürən ingilis şairi Con Kitsin "Ode On A Gracian Urn" şeirində dilə gətirdiyi də budur: "Gözəllik – həqiqətdir, həqiqətsə gözəllikdir – bizim bütün bildiyimiz və ümumiyyətlə, bu dünyada bilməli olduğumuz hər şey budur"[414] (Keats,2006). Con Kitsin də vurğuladığı; "gözəlliyin həqiqət, həqiqətinsə gözəllik olması", gözəlliyin həqiqətin dərkində bir vəsilə olması fikri öz ifadəsini H.Cavidin "Şeyx Sənan" faciəsində tapmışdır.

Cavidəki şəxsiyyət böyüklüyü, məfkurə sadiqliyi, yaradıcılığındakı fəlsəfi qat, müasir Cavidşünaslıqda Cavidə qayıdışda, sənətkarın yaradıcılığının fərqli aspektlərdən araşdırmaya cəlb edilib bir-birindən səviyyəli monoqrafiyalar yazılmasında əsas faktorlardandır. Şəmil Sadiqin XXI əsrin əvvəllərində yazılmış, sovet tənqidçilərinin siyasi proseslərin təzyiqi ilə Cavidə olan mənfi münasibətdən uzaq, XX əsrin sonlarında Azərbaycan müstəqilliyini qazandıqdan sonra Cavidə olan böyük

---

Universidad y Sociedad, 2020). Vol 12(3), str.141-150

[414] Keats John: The Complete Poems, Penguin Classics, 2006

məhəbbət nəticəsində yenə birtərəfli müsbət münasibətdən uzaq, ədibin əsərlərində qəhrəman konsepsiyasının araşdırıldığı tədqiqatın nəticəsi olaraq ərsəyə gətirdiyi ”Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası” adlı monoqrafiyası bu baxımdan dəyərlidir.

Tədqiqat obyekti olaraq filosof şair - dramaturq Hüseyn Cavidin bütün yaradıclığı seçilən tədqiqatda qəhrəman konsepsiyası XX əsrin əvvəllərində Azərbaycan romantizminin kontekstində tədqiqata cəlb edilmiş, dövrün tanınmış sənətkarları ilə müqayisədə öyrənilmişdir. H.Cavid yaradıcılığını tədqiq edərkən istər dövrünün tənqidçilərindən olan Abdulla Şaiqin, Mustafa Quliyevin, Hənəfi Zeynallının mətbuatda çap etdirdiyi məqalələrinə, istər 50-60-cı illərdən 80-ci illərə qədər olan Azərbaycan ədəbiyyatının öyrənilməsində böyük xidmətləri olan ədəbiyyatşünaslarımızın: akademik Məmməd Cəfər Cəfərovun, Cəfər Cəfərovun, Timuçin Əfəndiyevin, Əbülfəz İbadoğlunun, Məsud Əlioğlunun, Əli Sultanlının, Yaşar Qarayevin, Zahid Əkbərovun, Vəli Osmanlının, Əjdər İsmayılovun, istərsə də müasir dövrümüzün elmi

mühitində yetərincə tanınmış Kamran Əliyevin, Tahirə Məmmədin, Zaman Əsgərlinin, Aygün Həsənoğlunun, Rasim Nəbioğlunun, Tural Hüseynlinin, Zümrüd Abıyevanın, Jalə Hüseynovanın monoqrafiya, dissertasiya və məqalələrinə müraciət edilmişdir.

Ümumiyyətlə, müasirlərindən dünyada baş verən sosial-mədəni, ictimai-əxlaqi problem və proseslərə özünəməxsus baxışları, şair-vətəndaş münasibətinin ideya-estetik ifadə tərzi ilə diqqəti cəlb edən romantik şairin orijinal, sistemli və davamlı ideya-əxlaqi düşüncə sisteminin tarixi-ictimai köklərinin dayanıqlığının sirlərinin araşdırılmasına saysız-hesabsız məqalə, şeir, dissertasiya, monoqrafiyalar həsr olunmuşdur. Bütün bunlar əsrarəngiz Hüseyn Cavid sənətinin dərin sosial-mədəni, ictimai-əxlaqi qaynaqlara malik düşüncə sisteminin sənətkar fərdiyyəti ilə ideya-estetik ifadəsindən, sirlərlə dolu cazibədarlığından irəli gəlir. Filosof şair-dramaturqun uca şəxsiyyətinə, yaradıcılıq sirlərinin açılmasına elmi-nəzəri marağın orijinallığı kimi, filologiya elmləri doktoru Sona

Vəliyevanın “Hüseyn Cavid sənətinin qüdrəti”[415] monoqrafiyası da qiymətli və əhatəlidir.

Tədqiqatçı qarşısına qoyduğu məqsədə çatmaq üçün mütəfəkkir əsəntkarın ailə, təhsil mühiti, ictimai-mədəni əhatə dairəsi ilə dünyagörüşünün formalaşma mərhələlərini, istedad və məfkurə sisteminin təzahür özəlliklərini vəhdətdə izləmişdir. Tədqiqat obyektinin elmi-nəzəri şərhi Cavidin ilk qələm təcrübələrinin təhlili ilə başlayır. Bəzi poetik nümunələrin təhlili ilə onun sənətkar “mən”inin romantikası və ilk axtarışlarının xarakterini açmağa çalışır. Cavid ideya-məfkurə axtarışında birinci növbədə ilkinliyə diqqət yetirdiyi kimi, S.Vəliyeva da elmi araşdırma və nəzəri qənaətlərində “…məhz başlanğıclara” diqqət yetirir. “O, ən birinci mənbəni götürür və bununla da düzgün nəticə çıxarmaq imkanı”[416] əldə edir (Vəliyeva, 2018:300). Şairin “Hübuti-Adəm”, “Yadi-mazi”, “Dəniz tamaşası”, “Bir rəsm qarşısında” və digər şeirlərinin təhlili zamanı, S.Vəliyeva, filosof şairin gözəllik axtarışlarını onu

[415] Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC,2018
[416] Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC,2018,s.300

cəzb edən gözəlliyin məna və məzmun əsrarəngizliyinin hikmətində ilk növbədə Tanrı qüdrəti görməsinə, irfan romantikasını yarada bilməsinə" cəlb edir. Bu qənaətə gəlir ki, "Bu cəhət H.Cavid romantizmini Avropa romantizmindən, dünya romantik fikrindən fərqləndirən mühim xüsusiyyətdir"[417] (Vəliyeva,2018:21). "Allah gözəlliyin harmoniyasını yaratdığı kimi, bu gözəlliyi tərənnüm etmək, onların irfani ruhunun fəlsəfəsini poetik şəkildə açmaq üçün də H.Cavidə güc, qüvvət və istedad vermişdi[418] (Vəliyeva,2018:20). Yaradanın ona bəxş etdiyi intellektual, duyğu və düşüncə dolu keyfiyyətlərdən, hər hansı məqamda, məqsədə doğru necə istifadə edəcəyini bilən Cavid aram-aram, mərhələ-mərhələ irəliləyir, mövzu və mətləblə dərindən aşina olandan sonra yazırdı. Məsələn, Cavid "Şeyx Sənan"dan əvvəl,  eyniadlı qəzəl yazmış və qəzetdə dərc etdirmişdi. "Peyğəmbər"dən əvvəl "Hübuti-adəm" şeirini yazmışdı və s. Monoqrafiyada da bu öz əksin aşağıdakı  kimi tapır: "H.Cavid yaradıcılığında ciddi bir

[417]Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC,2018,s.300, s.21
[418] Yenə orda,s.20

ənənə mövcuddur. Belə ki, əvvəlcə "Şeyx Sənan" adlı şeir, sonra isə "Şeyx Sənan" faciəsi yazılıb. Əvvəlcə "Hübuti-Adəm" şeiri, sonra isə "Peyğəmbər" pyesi qələmə alınıb. Əvvəlcə "Hərb və fəlakət" şeiri, "Müharibə və ədəbiyyat" məqaləsi, sonra isə "İblis" əsəri meydana çıxıb. Bunlar H.Cavidin monumental mövzuya mərhələ-mərhələ gəlməsinin sübutudur"[419] (Vəliyeva,2018:148). H.Cavid şəxsiyyəti və yaradıcılıq kredosunun bütün cəhətlərinə dərindən vaqif olan Sona Vəliyüva, monoqrafiyada Hüseyn Cavid yaradıcılığına, onun əsərləri və bədii qəhrəmanları məhz bu istiqamətdə, şair-dramaturqun ictimai-əxlaqi amalına, tapındığı romantik-fəlsəfi ideala uyğun, həmin ruh və kökdə təhlil edilir. Monoqrafiyanın ayrı-ayrı bölmlərinə seçilib verilən başlıqlar - "Gözəlliyin romantikası", "Əfsanəvi qəhrəman: Şeyx Sənan", "Mifik qəhrəman: "İblis", "Həyatda və mənəviyyatda uçurum", "Uçurumdan xilas ola bilməyən obraz: Cəlal", "Məğlub qəhrəman: Knyaz", "Müqəddəs qəhrəman: Peyğəmbər", "Humanist qəhrəman - Səlma", "Mühitin faciəsi: Maral", "Xəyanətin

[419]Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC,2018, s.148

qurbanı: Afət", "Hökmdar qəhrəman: Topal Teymur", "Sərkərdə qəhrəman: Səyavuş", "Xəyyam tarixdə və bədii yaradıcılıqda" və s. və i.a. - həmin bölmələrin məzmun və ideya-estetik tutumunu dolğunluğu ilə əhatə və ifadə edir. Bu başlıqlar həm obrazlığı, həm də elmiliyi, nəzəri dəqiqliyi ilə də H.Cavid yaradıcılığının ideya-fəlsəfi və tarixi-ictimai mahiyyəti ilə yanaşı, monoqrafiyada izlənən mərkəzi elmi-nəzəri məqsədə tamamilə uyğun seçilmişdir. Hər başlıq seçildiyi hissənin məram və məqsədini ifadə edir. Monoqrafiyada  Cavidin ideya sənət yüksəlişinin inkişaf mərhələləri, obrazlar və ideyalar aləmi ilə yanaşı, yaradıcılığının məzmun və forma baxımından daxili dinamikasına da aydınlıq gətirilir. Bu zaman şairin "Qız məktəbində", "Çiçək sevgisi" şeirləri seçilərək əsərlərdəki fikrin obrazlı və uğurlu ifadəsinə yönələn dialoqlara, şairin lirikadan dramaturgiyaya təbii keçidinin forma və janr bitkinliyi diqqətə çəkilir. H.Cavid yaradıcı şəxsiyyət və mütəfəkkir kimi əzəməti, sosial-siyasi, tarixi-ictimai proseslərə aydın və dəyişməz baxışının kamilləşməsi ilə vəhdətdə izlənilir.  sonda Hüseyn Cavidin şəxsiyyət və

sənətkar bütövlüyü monoqrafik səpkidə canlandırılır. Alim, tədqiqat boyu Cavidşünaslığın uğurlarından da lazımınca bəhrələnınməklə həm monoqrafiyanın elmi-nəzəri dayaqlarının etibarlığını təmin etmiş, "Cavidşünaslığa yeni yanaşma tərzi, tədqiqat metodu bəxş edərək, gələcək yeni ruhlu tədqiqatların yaranmasına stimul vermişdir"[420] (Əliyev,2018,16).

Monoqrafiyalarla yanaşı, mütəfəkkir sənətkarın ikinci doğum tarixi haqqında yazılan kitab-hekayələr də özünəməxsusluğu ilə seçilir. Bu baxımdan publisist, yazıçı, kino ssenarist Əmir Pəhləvanın "Qalxın, Cavid gəlir"[421] (1997) əsəri  məhz Cavidin ikinci doğum tarixi haqqında bir az qəmli, bütövlükdə son dərəcə işıqlı bir hekayədir. Kitabda Hüseyn Cavidin həyatının faciəli səhifələrini açıqlamaqla yanaşı, onun cənazəsinin vətənə gətirilməsi zamanı qarşıya çıxan çətinliklərdən bəhs edilir. Cavidin ruhuna münasibətdə ən dramatik və yaddaqalan hadisədən; ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə böyük şairin

[420] Əliyev K. Cavidşünaslıqda ən yenimərhələnin başlanğıcı (Ön söz)/Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC, 2018, 11-16
[421] Pəhləvan Əmir. Qalxın, Cavid gəlir. Bakı:Elm, 1997

cənazəsinin qalıqlarının uzaq Sibirdən Azərbaycana gətirilməsindən, doğulduğu şəhərdə torpağa verilməsindən, Cavidin vətənə qayıdışı məsələsi, bu şərəfli və tarixi bir məsələni vicdanla yerinə yetirən Azərbaycanın 3 qədirbilən övladından, Həmid Cəfərov, Telman Əliyev və Zakir Nəsirovdan söhbət açılır, Nəriman Həsənzadənin ”Cavid” poemasından parçalar, Zəlimxan Yaqubun, Akif Səmədin, Vahid Əzizin Hüseyn Cavidə həsr etdikləri  şeirləri, şairlə bağlı müəllifin düşüncələri və s. daxil edilir. Kitabın sonunda Əmir Pəhləvanın Hüseyn Cavidin “Qız məktəbində” şeirinə romans, “Ana” pyesindən Səlmanın monoloquna və kitabın ilk səhifəsində özünün yazdığı “Vətəndaş” şeirinə Cahargah ladında bəstələdiyi həzin, lirik musiqi nümunələrinin notları da öz əksin tapır:

Biri: Satqın-dedi, pantürkist dedi.
Biri: Bu millətə ağır yük-dedi.
Biri də: “Kimdir ki, bu çürük dedi,
Özün alçaldıldın sözün baş oldu…
Turanın nur saçdı ala-toranda,

Ərtoğrul bərkidi qarda-boranda…
Müşkinaz xanımı yollar yoranda
İnamın gözündə qızılquş oldu!
Ruhu mələk kimi yürüyən Cavid,
Haqq səsi ailəni bürüyən Cavid.
Sümüyü Sibirdə gömülən Cavid,
Başdaşın vətəndə vətəndaş oldu!!![422]

Aparılan araşdırmalardan sonra gəlinən qənaəti ümumiləşdirərək deyə bilərik ki, Hüseyn Cavid sənətinə olan ədəbi-elmi baxış heç zaman birxətli olmamış, müxtəlif dövrlərdə əsasən də, Cavidşünaslığın birinci mərhələsi dövründə onun sənəti barədə ziddiyyətli, qeyri səmimi fikirlər söylənilmişdir. Amma maraqlı cəhətlərdən biri budur ki, ideologiyanın ən sərt zamanında belə, Cavid sənəti haqqında fikir və mülahizələr bildirmiş bütün ədəbiyyatşünas və tənqidçilər Cavid sənətinin böyüklüyünü etiraf etmişlər.

Ümumiyyətlə, şairin həyat və yaradıcılığı, əsasən, üç istiqamətdə araşdırılmışdır.

[422] Pəhləvan Əmir. Qalxın, Cavid gəlir. Bakı: Elm, 1997

I istiqamət romantizmin ümumi problemlərindən bəhs edən tədqiqatlarda onun ədəbi irsinə də yer ayrılmasıdır. Bu istiqaməti Azərbaycanda ədəbi məktəblər barədə doktorluq işi yazan görkəmli ədəbiyyatşünas Mir Cəlal Paşayev, Azərbaycan romantizminin Hüseyn Cavid yaradıcılığı ilə qarşılıqlı əlaqələrini araşdıran akademik Məmməd Cəfər, Azərbaycan romantizminin nəzəriyyəsi və poetikası barədə araşdırmalar aparan görkəmli ədəbiyyatşünas Kamran Əliyev, Vəli Osmanlı  və digərləri təmsil edir.

II istiqamət, əsasən, Hüseyn Cavid yaradıcılığının ümumi məsələləri ilə bağlı aparılan tədqiqatlardan ibarətdir. Bu istiqaməti Əli Sultanlı, Əli Nazim, Mustafa Quliyev, Yaşar Qarayev, Məsud Əlioğlu, Timurçin Əfəndiyev, Rafael Hüseynov, Azər Turan, Alqış Musayev, Orucəli İskəndər, Tahirə Məmməd, Zümrüd Abıyeva, Nəzakət Əzizova, Sona Vəliyeva, Alqış Həsənoğlu, Şəmil Sadiq, Tural Hüseynli və digərləri təmsil edir.

III istiqamət  Hüseyn Cavid yaradıcılığının tədqiqi ilə bağlı əsərlərinin ayrı-ayrı öyrənilməsi ilə əlaqədardır. Bu

istiqamətdə araşdırma aparanlar: Zahid Əkbər, Əbülfəz İbadoğlu, Baloğlan Şəfiyev, Jalə Hüseynova, Vəfa Mahmudova, Rəsuli İradə, Cavidə Məmmədova və Etibar Talıblı vardır.

Bir çox tədqiqatlarda XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatı nəzər nöqtəsinə çəkilərkən Cavid sənətindən də söz açılmış, filosof şairin yaradıcılığı ümumi Azərbaycan ədəbiyyatı kontekstində öyrənilmişdir. Bəzi müəlliflər, Cavidin müasirlərindən bəhs edərkən müqaisə üçün Cavid əsərlərini də tədqiqat obyektinə çevirmiş, sənətkara "pillə-pillə" yaxınlaşmış, "ilmə-ilmə". öyrənmişlər, çünki "Cavid hər pillədə yenidir, başqadır, təzədən kəşf olunası dünyadır." Cavid sənətinə tamamilə başqa bir aspektdən yanaşan Aydın Talıbzadə "Üsyan və cəza: Fikir "kəndirbazı"nın aqibəti məqaləsində yazır: "Mən Cavid əfəndiyə, onun yaradıcılığına pillə-pillə yaxınlaşıram və hələ də bu yolu yarı eləməmişəm. Nədən ki, hər pillədə Cavid yenidir, başqadır, təzədən kəşf olunası dünyadır. Bu dünyanın bir üzündə İBADƏTƏ düzülmüş möminlər səf bağlayır, o biri üzündə isə ÜSYANA qalxmış

insanlar qaynaşır. Yəni Allah və İblis “atəşlə suyun öpüşdüyü” məkan içrə əbədi çarpışmada… Cavid pyeslərində mən qəribə bir sonsuzluq, intəhasızlıqla qarşılaşıram və bu intəhasızlığı bir simvol kimi qavrayıram, bir mistika əlaməti kimi yozuram. Müəllifin faciələrinin arxitektonik quruluşunu çözdükcə mən bu qənaətə gəlirəm ki, Cavid sürgün edilməmişdən qat-qat öncə ruhən Sibir torpaqlarına getmişdi, Sibir “uçurum”undan keçən burazın üzəri ilə gəzişmişdi.” Cavid yaradıcılığına pillə-pillə yanaşan və hər pillədə onu yenidən kəşf edən “Pyeslərində Cavid əfəndinin öz təlqinlərilə bir ŞAMAN SEANSI, bir DƏRVİŞ ZİKRİ qurduğu” - qənaətində olan Aydın Talıbzadənin yanaşması o qədər mükəmməl, o qədər Cavidanədir ki, sanki bunları Cavid kəndisi pıçıldayır. Yalnız “Qulaq kəsilmək kifayətdir ki, sən də onlara qoşulub vird eləyəsən və ya uçurum rəqqasına dönəsən, uçuruma atılmaq qəhrəmanlığının, etirazın zirvəsinə yüksəlmək qürurunun həzzini yaşayasan. Əgər Cəfər Cabbarlı dramları öz dinamikası, iştirakçıların bir-birinə münasibəti, davranışı,

rəftarı baxımından, reaksiya, mimika və jestlərin ritmi sarıdan, teatral gərginlik, emosionallıq yönündən qaynayan maqmaya bənzəyirsə, Cavid pyesləri düppədüz sakit dənizi xatırladır. Əsl təlatüm, həyəcan suyun dibindədir: yuxarıda isə təkcə amiranə tərzdə "avar çəkən" sözlərdir. Hüseyn Cavid dramaturgiyasında səhnələr və konfliktlər ildırım kimidir: birdən çaxıb birdən də yox olar, ucurumlarda gözdən itər. Və biz "avar çəkən" sözlərin teatral poetik pıçıltısını yenidən eşidərik"[423] (Talıbzadə). H.Cavid-Nitsşe paralelizmi üzərində maraqlı müşahidələr aparan, bu "poetik pıçıltı"ları duyan A.Talıbzadə üçün bu "heyrətamiz bir məqamdır: fəlsəfədə Fridrix Nitşe haralara gedib çıxmışdısa, Hüseyn Cavid də öz bədii əsərlərində həmin düşüncə hücrələrinə varır. Nədirsə, səbəblərini dəqiq bilmirəm, amma məndə belə bir duyğu var ki, Cavid qəhrəmanlarının yaşı Adəm və Həvva əhvalatı qədərdir, Nitşenin Zərdüştü qədərdir. Halbuki onun personajlarının əksəriyyəti müəllifin müasirləridir. Bu adamların sırasında

[423]Talıbzadə Aydın. Üsyan və cəza: Fikir "kəndirbazı"/ Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, I c., Bakı: Elm, 2007, 322 s. s.266-277

nə bir fəhlə, nə bir kəndli: Cavid maarifçiliyin eqzistensional fəlsəfəsini düzüb-qoşarkən ziyalıların, əqidə sahiblərinin müxtəlif vəziyyətlərdə və situasiyonlarda necə qərar qəbul edəcəklərini ön plana çəkir. Onu bir düşünür, bir ədib kimi maraqlandiran maariflənmiş azəri türkünün, bu qövmə mənsub mühərrir, rəssam, zabit, şair və filosofun eqzistensional problemləridir. Hərçənd bəşər övladının daimi ruhsal durumu bu. Düşüncə labirintlərinin hamısı “olum, ya ölüm” sualının konkretliyində modelləşdirilir”[424] (Talıbzadə). Həqiqətən də, “qəhrəmanlarının yaşı Adəm və Həvva əhvalatı”, Nitşenin Zərdüştü qədər” olan Cavidin yaradıçılığının ruhunu təşkil edən “Türklüyün ilk çağlarının ədəbi örnəklərinin ruhu, havası hopmuş”, “Göktürk abidələri”i, rünik türk şeiri, Türkün əski tarixi, Şaman fəlsəfəsi, Türk qəhramanlarının həyatı və şəxsiyyətidir.” Yəhya Kamal Bayatlı yazır ki, “Mən tarix oxuyurum... Tarixi dövrləri öyrəndikcə yaşım üç yüz, beş yüz, min olur. Yaş xatirələrdən ibarət deyilmi?... Həqiqətən

---

[424]Talıbzadə Aydın. Üsyan və cəza: Fikir “kəndirbazı”/ Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, I c., Bakı: Elm, 2007, 322 s. s.266-277

də elədir. Cavidi də oxuduqca oxucunun yaşı "üç yüz, beş yüz, min", Adəm və Həvva ilə, Zərdüştlə eyni yaşda olur. Hüseyn Caviddə köhnə ən yenidir. İblis həm köhnə, köhnə olduğu qədər də yeni deyilmi? "Köhnə mövzu"lardan yazmaqla "suç"lanan sənətkar "Doğunun ədəbi üfüqlərində tarixən birinci **"İBLİSNAMƏ"** müəllifi oldu, Faustun şərqli variantını yaratdı: üstinsanı tanrı və mələk arasında çabalayan bir məxluq kimi görükdürdü", "X1X yüzildə Bodenştedt Azərbaycanı Almaniyaya apardığı" kimi, "XX əsrdə də Cavid Almaniyanı Azərbaycana gətirdi, köhnəni yenilədi[425] (Talıbzadə,2007:275).

Almaniyanı, bütövlükdə Avropanı Azərbaycan ədəbiyyatına gətirən Cavidin yaradıcılığında Qərb ədəbi cəryanlarının izləri də araşdırılmış, yaradıcılığındakı Qərb təsiri tənqidçilər tərəfindən gah alqışlanmış, gah da tənqid edilmişdir. Məsələn, Əli Nazim Cavidi "dağılmaqda olan dekadent burjua türk ədəbiyyatı nümayəndəsi, mistika əlamətləri daşıyan" şair kimi səciyyələndirmiş, akademik

[425] Talıbzadə Aydın. Üsyan və cəza: Fikir "kəndirbazı"/ Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, I c., Bakı: Elm, 2007, 322 s. s.266-277

M.C.Cəfərova görə isə, "bu fəlsəfi çaşqınlıq bəzən şairin lirikasında, bir çox romantiklərdə olduğu kimi ifrat bir fərdiyyətçilik qüruru, şəxsiyyəti cəmiyyətə qarşı qoymaq meyli, bir növ Şərq dekatentizmi ruhu və fəlsəfi eklektizm gətirmişdi." Görkəmli ədəbiyyatşünas alim Y.Qarayev Cavidin "ümumbəşəri problemlərdə bədbinlik göstərdiyini" qeyd etsə də "digər tədqiqatçılar - Ə.Mirəhmədov, M.Əlioğlu isə şairin yaradıcılğındakı bədii-fəlsəfi axtarışlar sistemindən bəhs etmələrinə rəgmən ondakı dekadentizmi görməzliyə vurmuşlar"[426] (Akimova, 2016), çünki "sovet ideologiyasının hakimi-mütləq olduğu illərdə Avropada yaranmış cərəyanların funksionallığına qadağa qoyulmuş, yaradıcılığında azacıq "sapma" olanlar ciddi xəbərdarlıqlara və tənqidlərə məruz qalmışlar. Təbii ki, XX əsr tarixi-tipoloji vahiddir və ona, əsrin yetmiş ilini çevrələsə belə sovet dövrünün dominant mövqeyindən deyil, özünəməxsus inkişaf stixiyasından yanaşsaq dövrü bütün ziddiyyətləri və parametrləri ilə görməyə müvəffəq olarıq." Əgər AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu

[426] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel, 2016

“XX əsr ədəbiyyatı-tarixi-tipoloji vahid kimi”[427] kitabında (Əlişanoğlu, 2006:) XX əsr Azərbaycan ədəbiyyatının tarixi-tipoloji mənasını həmin dövrün sənərkarlarında, bu sıradan Hüseyn Cavidin də yaradıcılığında aramağı təməl prinsip kimi irəli sürürsə”, professor Əlizadə Əsgərli “XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları” məqaləsində “M.Hadi, H.Cavid yaradıcılığında qərbçilik problemi varsa, niyə onlarda Qərb ədəbi-fəlsəfi cərəyanlarının izlərini görməyək?[428] (Əsgərli,2010) - deyə Cavidin dekadentizm cərəyanı ilə bağlılığını qabardır.

Elə isə, Cavidin yaradıcılığında da təsiri görünən, “bu cərəyanla bağlılığı qabardılan”, türklərin “dekadan ədəbiyyatı” adlandırdıqları “dekadentizm” nə anlama gəlir? Qeyd edək ki, bunu Fransız ədəbiyyatından türk ədəbiyyatına gətirən “Sərvət-i Fünun” ədəbiyyatı nümayəndələri də Tənzimatçıların kəskin tənqidinə məruz qalmışdır.

---

[427] Əlişanoğlu T. XX əsr ədəbiyyatı-tarixi-tipoloji vahid kimi / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, “Elm”, 2006
[428] Əsgərli Ə. “XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları” (Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Bakı: Elm, 2010

Dekadan (decadent) fransızca “düşkünləşmiş” anlamını ifadə edir ( “on günlük uzunqulaq yavrusu”na da “dekadan” deyilir). Dekadan Türk ədəbiyyatında Əhmət Mithad əfəndinin Tənzimat yazıçılarının təmsilçisi kimi “sərvətifünunçular”a verdiyi bir ləqəbdir. “Sərvət-i Fünun” dönəminin ən uzun və önəmli mübahisəsinə çevrilən “dekadanlıq” Əhmət Mithatın  sərvətifünunçuların dilini tənqid edən, “Sərvətifünunçular”ın dillərinin ədəbiyyat və dillə “həşır - nəşir” olanlarla belə anlaşılmadığının altını cızan “Dekadanlar” adlı məqaləsindən sonra çox populyarlaşmışdır. Ə.Mithadın sərvətifünunçuları tənqiddə ən çox istifadə olunan, bəzən də təhqir, küfür, ələ salma kimi istifadə edilən  bir sözə çevrilmişdir. Beləliklə “Dekadanlar” daha əvvəllərdə olduğu kimi, başqalarına təpki (etiraz) olaraq ortaya çıxmışdır. Ə.Mithatın tənqid etməsi ilə başlayan, dövrün bir çox şair və yazarının da ona qatılmasıyla daha da genişlənən bu ədəbi mübahisələr; Şinasi ilə Sait Bəy, Rəcaizadə Mahmud Ekrəmlə Müəllim Naci və başqaları arasında dörd il qədər uzun bir sürə içərisində davam etmişdi. Ekrəmlə Müəllim Naci arasında

yaşanan "Zəmzəmə - dəmdəmə" savaşı "köhnə - yeni savaşı" onların izindən gedənlər tərəfindən də zaman-zaman, məsələn, "şeir", "şeirdə xəyal və həqiqət" mövzularında  Bəşir Fuat ilə Menemenlizadə Tahir arasında çılğın bir şəkildə davam etmişdir.  Mübahisə xarakteri daşıyan bu yazışma və deyişmələrə qoşulan Cənab Şəhabəddin isə "türk ədəbiyyatının klassiklərə ehtiyacı olmadığını və klassiklərin  örnək alınmasının Türk ədəbiyyatına yararı olmayacağını irəli sürməsi ilə mübahisələr daha da qüvvətləndirmişdir. Məqsədi Ə.Mithatla "uğraşmaq" olan Sait Bəyin mübahisəyə qatılması ilə ədəbi savaş fərqli bir şəkil almış və bu A.Mithatla "alay"  və təhqir edən Sait Bəyin arasında uzun zaman davam etmişdir. Bu təhqirlər və bunlara cavab o qədər uzun sürmüş ki, bunlar  sonralar 206 səhifəlık kitabın yaranmasına vəsilə olmuşdur (Əhməd Mithat "Sait Bəyəfəndi həzrətlərinə cavab" başlıqlı yazılarını dərc etdirib). Yazılarda dekadanlık üzərində daha çox sərvətifünunçular dayanmış, Cənab Şəbabəddin və Hüseyin Cahit də öz düşüncələrini ortaya qoymuşlar. Uzun sürən

mübahisələrə son qoymaq üçün bir yazısında bəzi tənqidi fikirləri qəbul etsə də, hər şeyə rəğmən sərvətifünunçuları həm bəyəndiyinin, həm də qəbul etdiyinin altını çızmış Süleyman Nəsibə Əhməd Rasim "Təkamül və Tərəqqi" adlı uzun məqaləsiylə cavab verimişdr. Bundan sonra Əhməd Mithat "Təslim-i Həqiqət"ı yazmış və sərvətifünunçulara söylədiği sözləri geri götürmüşdür. Qeyd edək ki, səngiməyən mübahisələr yalnız tənzimatçı Şəmsəddin Saminin sərvətifünunçuları dəstəkləməsi ilə dekadanlık mübahisələri zəifləməyə başlamışdır.

Dekadanlık mübahisələrində üç şəxsin adı; Əhməd Mithat, Şəmsəddin Sami və Hüseyin Cahitin adı xüsusilə önə çıxmışdır. Əhməd Mithat mübahisəni başladan, Hüseyin Cahit bu mübahisələrdə "Sərvət-i Fünun"un ən çılğın müdafiəçisi, Şəmsəddin Sami isə mübahisənin həll olunmasında ən böyük rolu olanlardandır. Bunlar - "çox ağır və yıxıcı" dekadanlık suçlamaları sərvətifünunçularla tənzimatçıların yeni - əski ədəbiyyatın "son çırpınış"ı olur. Yəni dekadanlık bir nevi əski ilə yenini davası idi.

Cavidin yaradıcılığında "Sərvət-i – fünunçu"ların

Fransız ədəbiyyatından Türk ədəbiyyatına gətirdikləri "yeniliklərin" görünməsi təbii idi, çünki Cavidin dünyagörüşünün müəyyənləşməsində İstanbul ədəbi mühitinin müstəsna rolu olmuşdu. Və Cavid İstanbulda olanda sərvətifünunçu şairlərin bəzisi hələ sağ idi. İstanbulda Qərb fəlsəfi cərəyanları ilə yanaşı, sufizmlə bağlı təsəvvürlərini genişləndirmiş Cavid, həmçinin "dünya elminin qabaqcıl meyllərindən də xəbərdar idi. Dünya bədii-estetik fikrinə bələdlik Caviddə onlardan eklektik şəkildə bəhrələnmək səciyyəsi daşımırdı. Bu estetik-fəlsəfi bilik arsenalı onda ilk növbədə, planetar düşüncə mədəniyyəti formalaşdırırdı, şairin dünyaya, bəşəriyyətə, təbiətə, insana münasibətdə dərin, vüsətli, həmçinin skeptik, tərəddüdlü yanaşma nümayiş etdirməsinə gətirib çıxarırdı"[429] (Akimova,2016). Cavidin ilk tədqiqatçisi H.Zeynallının Cavidi "daima şübhələr və tərəddüdlər içində çırpınaraq şeirlər" yazan filosoflar sırasında qeyd etməsinin bir səbəbi də bu idi; "Cavidin narahat poeziyasının ritmi daim dünya problemlərinə köklənmiş,

[429] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016

bəşərin qayğı və dərdlərini düşünmək qayəsindən qalmamışdır. Bu cahanşümul məsələlər, həqiqət və azadlıq uğrunda axtarışlar onda istər-istəməz, intuitiv olaraq ekzistensial düşüncə, pessimist ovqat yaradırdı"[430] (Akimova,2016). İnsan haqqında fəlsəfi fikirləri əks olunan "İştə bir divanədən bir xatirə" şeirində filosof şairin pessimist düşüncələrinin səbəbi "başdan-başa oyuncaq" olan dünyada insana qiymətin verilməməsi, sərxoş insanın bu dünyada qafil olmasıydı:

Bir oyuncaqdır cahan başdan-başa,
Qafil insanlar da bənzər sərxoşa.
Səndələr hər kəs əməlsiz, qayğısız,
Həpsi kəndindən xəbərsiz, sayğısız[431] (Cavid, 2007: 97).

Birdən - birə "Bəncə, xilqət şimdi bir əfsanədir, Kim ki, həll etmək dilər, divanədir" - deyərkən "şair heçliyə yuvarlanmıırdı (zatən varlığın sonu da heçlik deyilmi), əksinə yaşadığı dünyanın vəziyyəti onu pessimist

[430] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016
[431] Cavid H. Əsərləri. Beş cilddə Icild.Bakı:Elm, 2007,s.97-108

duyğularla yükləyirdi. Filologiya elmləri doktoru tənqidçi, E.Akimovanın fikrincə, "Elmi-bəşər", "Küçük sərsəri", "Hərb və fəlakət", "Məzlumlar için", "Qüruba qarşı", "Hərb ilahı qarşısında" və bir sıra başqa şeirlərində H.Cavid ifrat fərdiyyətçi düşüncə sistemindən çıxış etmiş, həqiqət, cahanın xilası axtarışlarında tərəddüdlərə, inamsızlığa qapılmışdır. Lakin həyata sevgi, inam olduğu kimi, tərəddüdlər, inamsızlıq da insana xas xüsusiyyətlərdəndir və bu inamsızlığın, tərəddüdlərin yaranmasında, bədbinliyinin yaranmasında "cahanın bir qətlgah olması", "zülmü vəhşətdən" qaçınılmaz olması, "gönüllər"in, "çiçəklər"in, " bütün çöllər"in, "çəmənlər"in, "dənizlər"in, "bulutlar"ın, "hava"nın, "iştə hər yer"in "qan" ("Qüruba qarşı") olmasının rolu böyükdür." Ölüm, qan qoxan müharibələrin əleyhinə olan şairin "Hərb və fəlakət" şeiri bütövlükdə Birinci Dünya müharibəsinin törətdyi qırğınlara, qana və ölümə nifrəti və tənqidi, "Qüruba qarşı" şeri isə müharibəyə lənəti idi. Görkəmli ədəbiyyatşünas alim Y.Qarayevin fikrincə, "Cavidin bədbinliyi" və "tərəddüdü şərtləndirən" səbəblərdən birinin

“şairin Sovet dövrünün şairi olmaq qismətini yaşaması” və “bu zaman artıq ziddiyyətin Cavidlə hakim ideologiya arasında yox, bəlkə daha çox “Cavidlə Cavid arasında” (Y.Qarayev) olan mahiyyətində axtarmaq daha doğru olar, çünki şair bu dövrdə “öz fikirlərindən də, duyğularından da eymənir. Neyçün ki, qadağalar, yasaqlar dövründə düşünür, varlığın, olumun mənasını, dəyərini, cövhərini dönə-dönə təftiş edir, konkret bir qərar verməyə çəkinir. Gəldiyi ötəri nəticələrsə onu üzgünləşdirir, ruhunu ağrıdır, bu adamı anbaan axirət ideyasına doğru aparır, esxatoloji ovqat burulğanında batırmağa çalışır, içində bir Uçurum oyub açır.”

Mütəfəkkir şairin “lirikasındakı dekadans (əgər buna dekadans demək mümkünsə) Sovet İttifaqının qurulması proseslərindən xeyli əvvəl başlamışdı. O zaman deyə bilərik ki, bu pessimizmin səbəbi onun yaşadığı zamanın, həyatın antitezalar üzərində qurulması, ümumbəşəri ziddiyyət və əksliklər idi. “Hər qaranlıqda çırpınır bir nur, / Hər həqiqətdə bir xəyal uyuyur.” İşıqla qaranlığın, həqiqətlə xəyalın bir-birini əvəz edən fasiləsiz dövriyyə

çarxında Cavid üçün dünən (dün), keçmiş (mazi) bu günə, onun yaşadığı zamana qaynayıb-qarışmış şəkildə gerçək bir məna kəsb edirdi və o, müdrik bir həssaslıqla zəmanənin, dünyanın ziddiyyətlərini, təbəddülatlarını görə bilirdi”[432] (Akimova,2016). Qeyd etdiyimiz kimi, bütün bunlar; əski-yeni, xəyal-həqiqət, dün-mazi və s. kimi məsələlər sərvətifünunçularla Tənzimatçılar arasında da zidiyyət və mübahisələrə səbəb olmuşdur.

Şairi daha çox “bəşərin taleyi, cəmiyyətin mənəvi həyatı, əqlü-zəkanın əhatə etdiyi mürəkkəb problemlər düşündürürdü” və “bu mürəkkəblikləri dəf etmək, əbədi harmoniya və mənəvi kamillik, həqiqət və inam axtarışları yönündə idrakın hüdudlarından yararlanmaq Cavid şeirinin stixiyası idi. Təbii ki, Cavid bütün Şərq mədəniyyətinin zəminində yetişən sənətkar idi və bu mədəniyyətin bədii-fəlsəfi fikrini dərindən əxz eləmiş, ona daxilən bağlanmışdı. Bəşər oyunlarının mürəkkəbliyi içində çaşıb qalan, dəhşətə gələn Cavidin içində baş verən təlatümlərin, mənəvi qovğaların səbəbini öyrənmək üçün üzünü Tanrıya

[432] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016

tutması", "Niçin, Ya Rəb, niçin?" - deyə sual edərək metafizik düşüncə kontekstindən çıxış etməsi, "üsyankar ruhu ilə seçilən Cavid idrakının bəzi məqamlarda uçuruma yuvarlanması, sövq-təbii onun ideal gözəlliklə bağlı təsəvvürlərinin "xəyali-inkisarə" uğraması ilə əlaqədar idi. Bu dekadans ovqat şairin hətta sevgi mövzulu şeirlərinə belə hakim kəsilmiş, onun küskünlüyü, bədbinliyi şəklində meydana çıxmışdır"[433] (Akimova, 2016).

Hər şeydən öncə Cavid romantik idi və "romantizm Cavidə görə bilmədiklərini xəyalında qurmaq, canlandırmaq üçün lazım idi. "Yaşarsa bir könül, az-çox xəyal içində yaşar" –misraları təsadüfi yaşantının bəhrəsi deyildi. Şair ümumbəşəri ideallarla yaşayan bir sənətkar idi, onun xəyallarındakı bəşər daha sivil, azad və humanist, insan daha müstəqil, qayğısız və xoşbəxt idi"[434] (Akimova, 2016). Hər halda bütün bunların belə olmasını arzulayan, "öz ayağını göylərdən üzdüyünü elan etmir, bəlkə, əksinə: torpağı da, insanı da səmaya qaldırmağı və ona yüksəkdə –

[433] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016
[434] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016

zirvədə nəzər salıb qiymət verməyi bir sənət prinsipi kimi irəli sürən” ”hüsnü-xuda şairi”ni daha çox uzaqlar, “bəşərdən uzaq, gizli bir fəzaya qoşmaq” “meyli çəkirdi ki, burada o, romantik duyğularına qanad verə bilirdi. Amma o zaman ki, şair xəyalı göylərdən yerə enirdi, bu xəyallar, arzu və pərvərişlər sərt həyat həqiqətləri, bəşər çaxnaşmaları önündə fiaskoya uğrayırdı. O zaman Cavidin poeziyasındakı qanadlı romantikanı nisgil və bədbinlik əvəz edirdi.” Bu mənada, “dramaturgiyasının əsası”nı “uçurum yaşantıları” təşkil edən Cavidi “esxatoloji ovqat heç vədə rahat buraxmayıb: bəşər axirətinin uçurumu elə bil ki, həmişə Rasizadə cənablarının bir addımlığında olub. Və nəinki bir addımlığında… Bu insanın içində əcayib bir uçurum mürgüləyib.” Dramaturgiyası ilə yanaşı, Cavidin şeirlərinə “uçurum” leytmotivinin hakim olduğunu da vurğulayan şairin bu ruhsal çevrilməsini Aydın Talıbzadə haqlı olaraq “gerçəkliyə nifrət: oradan qaçmaq, uzaqlaşmaq, uçmaq, yaxud uçurumlarda yox olmaq!” kimi mənalandırır. “Olum və ya ölüm.” Ya səmaya doğru pərvəriş etmək, ya da uçurum - “bəla bəhrinə

yuvarlanmaq" - Cavidin fikir oyunlarının simvolik sonucudur. "Yadi-mazi" şeirində şair təsəvvüründə yaratdığı gözəlliyi həqiqətə qarşı qoymaqla əslində, iki dünya mənzərəsini diaxron olaraq poetik müstəviyə çıxarırdı. Hələ gənc yaşlarından dünya elminə, Qərb mədəniyyətinə dərindən bələd olan və bu iki qütb arasında ziddiyyətləri görən" Cavidin pessimizminin digər zəminini" isə "onun təsvir elədiyi Şərq-Qərb kontekstində axtarmaq lazımdır." Onu çulğamış skeptisizm təsirində olan "Cavid xəyallar dünyasının yer üzündə alternativ mənzərəsini, real təzahürünü görmədikdə tərəddüdlərə varmışdır"[435] (Akimova,2016). Sözsüz ki, "Birinci Dünya müharibəsinin fəsadları, insanlığa qarşı yürüdülən amansız qərarlar Cavid yaradıcılığına təsir göstərirdi və planetar miqyaslı narahatlığın daşıyıcısı olan şairin lirikasında insanın psixoloji yaşamları boşluq, təklik, son problematikası ilə müşayiət olunmağa başlayırdı. Təsadüfi deyil ki, bir çox şeirlərdə Hüseyn Cavidin hədəf götürdüyü ünvanlar absurd situasiyalardır - "Cavan ömrüm fəryad

[435] Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel,2016

içində keçdi, “Səadət” - əməli bir röya imiş” - bu şairin mənəvi dünyasındakı əsl dekadantın göstəricisi, mövcudluğudur.” Professor Ə.Əsgərlinin “XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları”[436] məqaələsi (Əsgərli,2010) Hüseyn Cavidin dekadentizm cərəyanı ilə bağlılığından bəhs etdiyi, “Cavid yaradıcılığındakı modernizə cəhdlərini üzə çıxarmağı təqib qıldığı, ondakı dekadentizm çalarlarını sərgilədiyi üçün” əhəmiyyət kəsb edir. “Bir korifey olmaq etibarı ilə “Yer-Göy, Allah-insan ikiliyində birləşən” Cavid ücün insan kimdir? –sualına cavab axtaran Z.Yağmur isə, elə cavabı da Cavid yaradıcılığında tapır: “Ya hər kəsə xain olan insan nədir? - İblis!”, “insan məzhəbindən kimsə cıxmaz, kimsə qurtulmaz”, cünki “böyük başlar dumanlanmış, atəş püskürür hər an, dənizlər qan, buludlar qan, hava qan, işdə hər yer qan”... “nə istər bir-birindən anlaşılmaz sayqısız insan!” Tədqiqatçı hökmünü verir, “Cavid ücün insan budur! Dünyanın sakini həm zalım, həm də qan icində

[436] Əsgərli Ə. “XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları” (Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Bakı: Elm, 2010

çırpınan bir varlıqdır. Varlığımızın bir aləmini Cavid aydın şəkildə ifadə edir, tərəddüd etmədən ikili dünyanın sakinini bir qütbdən - sosial varlığın bütün insafsızlığını təqdim edir. Amma bu insanın bir qütbüdür. Cavidi isə ikinci aləmin sakini daha cox məşğul edir. Bir tərəfdən Cavid üçün "xilqət indi bir əfsanədir, kim ki, həll etmək dilər divanədir", "bir oyuncaqdır cahan başdan başa, qafil insanlar da bənzər sərxoşa", digər tərəfdənsə bu "kəndindən xəbərsiz, sayğısız insanlar" daima xoşbəxtlik axtarsa bədbəxtdir. Bu ziddiyyət filosof şairin yaradıcılığında ən yüksək formada özünü göstərir. O, "bir tərəfdən öz qəhrəmanlarının daxili dünyasını, digər tərəfdənsə insanın daxillə zahiri arasındakı ziddiyyətləri təhlil və izah etməyə çalışmadan insanı özünə təqdim etməyə calışır, yaratdığı böyük obrazlar vasitəsilə buna nail olur. Cavid sona qədər qəhrəmanının əzab-iztirabının səbəbini gizli saxlayır, qəhrəman tez-tez "mən kiməm" - sualına "bir heçəm" cavabını alsa da (zatən insan olmaq, varla - yox arasında çırpınıb durmaq deyilmi) elə hey çırpınır" bu heçlikdə belə "bir işıq ucu" tapmağa cəhdlər

edir, çünki xoşbəxt olmaq insanın haqqıdır. Haqqı xoşbəxtlik olsa da yaradılışdan bu dillemma qarşısında çırpınan insan təəssüf ki, "məhkum olunduğu məhrumiyyətlərdən qurtula bilməyib, bundan sonra da buna ümidin gələcəyi qaranlıq görünür. Bioloji və sosial varlıq kimi ikiyə bölünən insan təbii ki, bu ikini bir etmək üçün çox yollar aramışdır, amma heç bir nəticə əldə etmədən, əksinə xoşbəxt olmaq umidindən uzaq düşmüşdür. Nəticədə insan sosial varlıq kimi xoşbəxtlikdən nə qədər uzaqdırsa, bioloji varlıq kimi bir o qədər də bədbəxtliyə məhkumdur, çünki insan öz istək və duyğularına uyğun həyat tərzi yaşamır."[437]

Tədqiqatçıya görə, "Cavid qəhrəmanlarına inanır", amma etibar etmir, ona görə də onları ən çətin ziddiyyətlər və düşüncələr fonunda özləri ilə baş-başa buraxır, bu insanlar çox zaman da sınaqlardan çıxa bilmirlər. Cavidə görə insan öz ikili dünyasında hiss və ağıldan eyni dərəcədə asılıdır. Bu ikilik insanı məyus və ümidsiz edir,

[437] Abıyeva Z. H.Cavidin yaradıcılığında insan конsepsiyası. Namizədlik dissertasiyası. Lənkaran dövlət universiteti. Baкı, 1997. 129 с.

nəticədə insan tənhalığa məhkum olur" ki, "bu da öz əzabına qapanıb özünü axtarma və özünütapmanın ən sərt formasıdır." Onsuz da insan tənhalığa, əzab cəkməyə məhkumdur" və bu insan nə qədər əlləşib-vuruşsa da, onun hisslərinin mahiyyəti dəyişməz olaraq qalır. Ona qoyulan qadağalara - "olmaz"lara qarşı çıxır, zaman keçdikcə bu "olmaz"larla baş edə bilməyən insanda ikrah hissi doğurur. Və iblisə Şərə - uyur…" Eyni zamanda Cavid yaradıcılığındakı özəlliklərdən bəhs edən tədiqiatçı "ən qatı cinayətkarın, qatilin öz əzabında yuyulması"nın altını cızır. "İblis"də, "Afət"də olduğu kimi… Tədqiqatçının Afətə, onun bədbəxliyinə yanaşması fərqlidir, çünki "Afət bədbəxtdir, ancaq Özdəmir də Afət qədər bədbəxtdir", çünki o, faciələrin ən dəhşətlisini - "sevilməyən ər faciəsini yaşayır. Zahirən yanaşılsa Özdəmiri Afətə qarşı kobudluqda günahlandırmaq olar, amma Afət ona qarşı çoxmu sayğılıdır…" Təbii ki, Afətin faciəsində Özdəmir, Özdəmirin faciəsində Afət günahkardır. Amma Afətin Özdəmiri sevməməsi suçmu? Sevməyib sevilənlər və ya sevilməyib sevənlər heç zaman xoşbəxt ola bilməz.

“Sevilməyib sevənlərin faciəsi” Dünya ədəbiyyatında dəfələrlə əks olunub.

Zümrüd Yağmur da bunun Dunya ədəbiyyatında dəfələrlə işlənməsini vurğulayır, diqqəti Lev Tolstoyun “Anna Karenina”, C.Qolsoursinin “Farsaytlar haqqında əfsanə” kimi əsərlərində bu xəttin geniş şəkildə təqdim olunmasına yönəldir.

Müəllifini unutduğum bir söz yada düşür; “Qadın sevəndə mələk, nifrət edəndə şeytandır.” Bu söz Cavidin sevib-sevilməyən Afətini (“Afət”), Südabəsini (“Səyavuş”) xarakterizə edir. Südabə də sevib, seviləməyən bədbəxtlərin sırasındadır. “Sevmək və sevilmək üçün yaradılmış” Südabə cinayət ücün deyil, “indiyə qədər tənqidimizdə deyildiyi kimi, “daxilini bürümüş ehtiras alovunun onu cinayətə, rəzil əməllərə və sui-qəsdə təhrik edən” qadın deyil. Südabə içindəki sevmək adlı ülvi istedadın alovunda qovrulur, lakin bu heç də bəsit anlaşılan və adi, hormonlarla eyniləşdirilən ehtiras deyil. Əgər Südabə hisslərini yalniz həzz və ehtiraslarına qul etsəydi, onda bunları təmin etmək üçün baş hərəm olduğu sarayda

bunu asanlıqla təmin etmiş olardı. Əsərdə bunun əksini görürük və Südabə sevginin bütün gözəlliklərini düymaq istəyir, bunları ona bəxş edəcək birisi də ancaq Səyavuşdur. Sudabədən hamı yüksək dəyərlər tələb edir, amma kimsə ona indiyə qədər bu şəkildə davranıbmı?” (Yağmur Z). Əsla, gənc və gözəl Südabə  rəyi soruşulmadan özündən çox yaşlı birinə ərə verilmişdir. Bu, “insanın istəmədiyi bir şeyə məcbur edilməsi onu əxlaqsızlığa təhrik etmək kimi bir şeydir və Sudabə də məcburən ərə verildiyi ücün belə bir əxlaqsızlığa məcbur edilmişdir. Qəlbini sevgi atəşinə atmaqla əslində Südabə bu əxlaqsızlıqdan təmizlənmək istəyir. Demək tənqidimizdə vurğulandığı kimi Südabənın Səyavuşa olan sevgisi əxlaqsızlıq deyil, həyatını məcburiyyətlər icində keçirmiş bir qadının üsyanı, eyni zamanda dərdidir, çünki Südabənin qəlbi ilə seçdiyi Səyavuş ona heç bir halda cavab verəcək biri deyil. Beləliklə, ətrafın bu sevgiyə dəhşətli münasibəti ortaya çıxır və bir çox müstəvidən baxdıqda haqq verilməsi çətin olan, yalnız bir insan hissi kimi yanaşılarsa faciə ilə qarşılanan bu sevgi rədd olunduqdan sonra dəhşətlə

qarşılandığı kimi indi də öz dəhşət və qorxunc qisasını ortaya qoyur. Cavabsız məhəbbətlərin qisası çox zaman dəhşətli olur" (Yağmur Z). Yəni bütün qadağalara, olmazlara rəğmən sevməyi bacaranların intiqamı da qorxunc olur, Səyavuşa ləkə yaxan Südabəninki kimi. "Yaradılış etibarilə mürrəkkəb və izah olunmaz" olan insanı Cavid də "şablon şəkildə "yaxşı və pislərə" bölmədən, bir bütün olaraq, "hər halı ilə təqdim edir."

Cavid qəhrəmanlarını özünəməxsus şəkildə təhlil edən Z.Abıyevaya görə, "Cavidin yaratdığı  Əmir Teymur haqq uğrunda haqsız formada savaşır. Bu yöndən yanaşılsa bu, düz yolda əyri oturmağa bənzəyir... Bir yanda mərhəmət, bir yanda savaş... Bir yanda sevgi, bir yanda qorxu... Yenə ziddiyyət, amma bir qədər insan mahiyyətinə və təbiətinə baxsaq, yer üzündə bu əks olanların vəhdətini görmək olar. Bu məsələyə Allah (c.c.) və insan münasibətləri yönündən baxsaq, "Qurani-Kərim" məntiqi ilə də qorxu və sevgi vəhdəti vardır... Müqəddəs Kitabımızda əvvəl "qorxun", sonra "sevin" ardıcıllığı var. Qorxu ilk, sevgi sonuncu pillədir...

”Cavidin yaradıcılığında daima Göy və Yer arasında mübarizə gedən, bu mübarizədə pis əməllərin sanki artması üçün mübarizəyə girən insan sürətlə qaranlığa doğru yuvarlanır. Ruhunu şərə satmaqla əldə etdikləri ilə öyünən insan düşdüyü qaranlıqda bəzən tamamilə azır və bu zaman Göylər yenə insanın köməyinə gəlir”[438] (Abıyeva,1997). Eynilə “Peyğəmbər”də olduğu kimi... “Köhnədən bezmiş insan yenilikləri də qəbul etməyə o qədər könüllü deyil. Məhz elə buna da Peyğəmbərin (s.ə.s.) ümumla mübarizəsi başlayır. Elində qəbul olunmamaq dərdi yaşayan Peyğəmbər (s.ə.s.) “İblisə uymuş bəşəriyyəti” xilas etmək ücün Altun kitaba sarılır, amma insanlıq təkcə Kitabla yola gələcək qədər məsafə qət etməmişdir və elə buna görə də Göylər yeni bir missiya da verir öz Elçisinə... Qılınca sarılmaq... Peyğəmbər (s.ə.s.) əlindəki Altun kitabla tam göylərə məxsusdur, amma əlinə qılınc aldığı andan yerdəkilərə saflıq gətirəcək Kitabın yolunu açmaq ücün əlindəki silaha sarılır. Müdriklik-Kitab Göylərindir, qılınc-

[438] Abıyeva Z. H.Cavidin yaradıcılığında insan кonsepsiyası. Namizədlik dissertasiyası. Lənkaran dövlət universiteti. Baкı, 1997. 129 c

qansa yerlərin... Göylərin Müdrikliyi varsa, yerlərin kin və silahdan başqa Peyğəmbərə (s.ə.s.) verəcək bir şeyi yoxdur...” Lakin insan ümid qapısı saydığı  Göydən heç bir zaman ümidini üzmür, “çünki bu var olmanın şərti gəlir ona... Amma Göylərdəki saflığa həsrət yoxdur... İnsan göylərə inamını daha çox əldə etmək ücün dualara sığışdırıb, ondakı ilahiliksə insanın şübhə və “bəlkələrinin” kölgəsində o qədər solğunlaşıb ki, İblis insanın əməllərində mütləqi-hakim olmağa başlayıb.”

Cavidin “İblis” və “Peyğəmbər” əsərlərini nəzərdən keçirdikcə belə bir bir fikir insana hakim olur... İnsan dilində Allahla (c.c.), əməlində İblislədir. İnsan İblisi lənətləyir, amma Allaha (c.c.) pənah aparmır... Elə bu səbəbdəndir ki, “İblis”də “İblis – insan” hökmünü verən İblis gözündə “yazıq” və “zavallı”ya dönür. İblis ona uyduğu üçün insan haqqında qəti qərarını verir... ”Yazıq sənə, yazıq zavallı insan” (“Peyğəmbər). Beləliklə, “insanlıq bir əli ilə Göylərdən, bir əli ilə yerdən yapışmaqla ruhunu ikiyə parçalayır və mahiyyət etibarilə hər şey olmaq

istərkən heçliyə yuvarlanır”[439] (Abıyeva,1997). Tədqiqatçının gəldiyi qənaətə görə Cavid ücün insan “nə mələkdir, nə də şeytan, yalnız insandır.”

Görkəmli ədəbiyyatşunas Yaşar Qarayev haqlı olaraq yazır: “Cavid – zaman munasibətlərinin bəlkə də ən mürəkkəbi, təzadlısı və ibrətlisidir. Bu mürəkkəblik Cavidin yaşayıb-yaratdığı tarixi epoxanın öz narahatlığı ilə, öz fırtına və inqilabları ilə aşılanmışdır və dolayı inikasını (vulqar və bayağı ifratları ilə bərabər) bəzən Caviddən də cox Cavidşunaslığın axtarışlarında tapılmışdır”[440] (Qarayev,1982:6).

Uzun illər zaman kimi,  tənqid də Cavidə qarşı çox sərt olmuşdur. Lakin hec bir “qadağa”, heç bir “təzyiq” H.Cavid adını unutdura bilməmişdir, 27 yaşında Cavid təxəllüsünü götürən şair “Cavidləşəcəyinə”, əbədi olacağına əmindi. Bu əbədiliyi böyük qəzəlxan şairimiz də etiraf edirdi: “Cavid əbədidir, qalacaq namı cahanda”[441]

[439] Abıyeva Z. H.Cavidin yaradıcılığında insan концepsiyası. Namizədlik dissertasiyası. Lənkaran dövlət universiteti. Baкı, 1997. 129 c.
[440] Qarayev Y. Ön söz. Cavid - ömrü boyu yaxud Cavid olduğu kimi/ Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, 3-16
[441] Vahid Ə.Əsərləri. Bakı,2012,s.5

(Vahid, 2012: 5).

H.Cavid yaradıcılığı zaman-zaman birmənalı olaraq qeyri-obyektiv tədqiq edilsə də, o zamanlar arxada qalmış, bu gün böyük sənətkarın tədqiqi arzu olunan səviyyədədir. Yazılan monoqrafiyalarda (professor C.Abdullayev və tədqiqatcı A.Həsənoğlunun qələmə aldıqları "Huseyn Cavid"[442] monoqrafiyası böyük sənətkarın yaradıcılığı, indiyə qədər yazılanlardan fərqli, yeni baxış bucağından nəzərdən kecirilmiş, Cavidin 1926-1937-ci illərdəki fəaliyyəti tədqiqata cəlb edilmişdir. Professor C.Abdullayev və filologiya üzrə fəlsəfə doktoru A.Həsənoğlunun H.Cavidlə əlaqədar olaraq oxuculara çatdırmaq istədikləri fikir və mülahizələri üç fəsildə - "H.Cavidin həyat və poeziyasına dair bəzi qeydlər", "Dramaturgiyasının ilk nümunələri" və "Son dram əsərləri - zirvəyə gedən yol" kimi bölmələrdə ümumiləşdirilmişdir. Hüseyn Cavidi oxuculara heç bir milli məhdudiyyət bilməyən, bütün insanları düşündürən, əsərlərində qlobal məsələlər qaldıran böyük filosof-şair və dramaturq kimi

[442] Abdullayev C, Həsənoğlu A.. Hüseyn Cavid, Bakı, Səda, 1997, 160 s.

təqdim edən müəlliflər böyük sənətkarın əsərlərində həmişə ehtiraslı xarakterlər, insanlığa xidmət edən ideyalar, müharibəyə, fənalığa, pisliyə nifrət, paklığa, ədalətə, gözəlliyə pərəstiş meyllərinin hakim olduğu, ədibin xeyirlə şərin əlbəyaxa vuruşunda daima haqqın, ədalətin tərəfində durduğunu Cavidin sənətinin məhəlli, məhdud, milli bir hadisə deyil, bütöv, bəşəri, dünyəvi bir məna və mahiyyət kəsb edən zəngin xəzinə olduğunu vurğulayırlar. Kitabın birinci fəslində dramaturqun tərcumeyi-halı haqqında qısa məlumat verildikdən sonra, 12 yaşından yazmağa başlayan Cavidin yaradıcılığı bir necə dövrə ayrılaraq təhlil edilir, daha cox son illər (1926-1937) üzərində dayanılır, lirik şeirlərin, fəlsəfi xarakterli əsərlərin tədqiqinə üstünlük verilir. İkinci fəsildə, Cavid yaradıcılığında mühim rolu olan dramaturgiya sahəsi haqqında daha ətraflı söhbət açılır, "İblis", "Peyğəmbər", "Şeyx Sənan", "Topal Teymur" və s. dram əsərləri haqqında məlumat verməklə bərabər, Cavidşunaslığın uğurları da qeyd edilir. Kitabın üçüncü fəslində isə, ədibin "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı" pyeslərinin yığcam təhlili

verilir. Eyni zamanda, Cavid haqqında yazılmış əsas kitabların və elmi məqalələrin müxtəsər siyahısının kitabın sonunda əlavə olunması da diqqətədəyərdir.

Hüseyn Cavid böyük şair, görkəmli dramaturq, ədib, ictimai xadim, Azərbaycan ədəbiyyatı tarixində orijinal ədəbi simalardan biri olmaqla yanaşı, pedaqoji fikir tariximizdə görkəmli yer tutmaqdadır. Onun yaradıcılığı ədəbi-estetik düçüncəmizdə və əxlaqi-mənəvi yüksəlişimizdə misilsiz rol oynamışdır. Cavidin publisistika və məktublarında insan və cəmiyyətə baxışı və sosial mühitin insanlara müxtəlif təsiri kimi ictimai məsələlər də işıqlandırılmışdır. Tədqiqatçılar – pedoqogika üzrə elmlər doktoru, professor R.Hüseynzadə, pedoqogika üzrə fəlsəfə doktoru, dosent K.Camallı Cavidin yaradıcılığında, publisistikasında pedoqoji görüşləri üzərində araşdırmalar aparmış, fikir və mülahizələrini bildirmişlər. Pedaqogika elmləri doktorları; professorlar Firədun İbrahimov və Rüfət Hüseynzadənin müəllifi olduqları iki cildlik “Pedoqogika” kitabında məktəb və pedaqoji fikrinin inkişafına təsir gostərən dahi alim, boyuk

şair və ədib, görkəmli mutəfəkkirlərin; Xətib Təbrizi, Əbulhəsən Bəhmənyar, Nizami Gəncəvi, Məhəmməd Nəsirəddin Tusi, Marağalı Əvhədi, Məhəmməd Fuzuli, Abbasqulu ağa Bakıxanov, M.F.Axundzadədə, Seyid Əzim Şirvani, Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Rəşid Bəy Əfəndiyev, Firudin bəy Köcərli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Uzeyir Hacıbəyov, Nəriman Nərimanovunla yanaşı, Azərbaycan pedaqoji fikrinin və maarifinin inkişafında xidmətləri olan, uşaq şəxsiyyətinin inkişafında tərbiyənin rolunu yüksək qiymətləndirən "mütəfəkkir şair, görkəmli dramaturq, böyük pedaqoq Azərbaycan ədəbiyyatı və pedaqoji fikir tarixində orijinal ədəbi simalardan biri olan, "öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını zənginləşdirdiyi kimi, təlim və tərbiyəyə dair, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətlərinə dair orijinal fikirləri ilə pedaqoji fikir tarixini də zənginləşdirmiş" Hüseyn Cavidin də pedoqoji fikirləri, məktəb və tərbiyə haqqında fikirləri araşdırılmışdır.

Ümman yaradıcılığı ilə, Azərbaycan ədəbiyyatını

zənginləşdirdiyi kimi, təlim və tərbiyəyə dair, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətlərinə dair orijinal fikirləri ilə pedaqoji fikir tarixini də zənginləşdirmiş Hüseyn Cavid dövrünün çətinliklərini, mürəkkəbliyini dərindən dərk edərək xalqın, millətin tərəqqisini məktəbdə, müəllimlikdə görmüşdü. O dövrdə məktəblərin geriliyinə acıyan bunun səbəbini məktəb binalarının olmamasında, bu sahəyə lazımınca diqqət verilməməsində, savadllı müəllimlərin azlığında görən ədib hələ keçən əsrin əvvəllərində, "Növhə" şeirində yazırdı:

....İşlər fənadır, bir neçə məktəblər olmasa,
Onlarda can verən müəllimlər olmasa,
Qafqazda yox müəllimlərimiz, digər olmasa,
Bunlar ki var, sılahidi vallah gər olmasa,
Mütləq xərab ediblər təməddün binasını[443] (Cavid, 2007:145).

Təlim-tərbiyə məsələlərindən və məktəbdən bəhs edərkən məktəbin tikildiyi yerə qədər diqqət yetirən Cavid məşhur bir məsəli diqqətə çatdırır: "Günəş girməyən evə

[443] Cavid H. Əsərləri. 5 cilddə I c., Bakı: Elm, 2007, s.145

təbib girər”[444] (Cavid,2007:246). Təlim və tərbiyə prosesinin həyata keçirilməsində məktəb binasını və sinif otaqlarını əsas təlim-tərbiyə ocağı hesab edir, “məktəblər və məktəb binaları gözəl və görkəmli , havalı və uca yerlərdə tikilməlidir... Məktəb binası mümkün dərəcədə günəşli yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir” - Nə üçün? Çünki orada körpə uşaqlar oxuyur və tərbiyə alırlar. Günəşsizlik və rütubət isə bir çox xəstəliklərin mənbəyidir”[445] (Cavid,2007:246). Bu mövzudan bəhs edərkən Cavid özünün çətin şəraitdə oxuduğu və tərbiyə aldığı Sidqinin ”Nili-mübarək üzərində cameye sığınmış” məktəbini də xatırlayır (məktəb Bazarçayı üzərindəki camə məscidində yerləşdiyi üçün otaqları dar və rütubətli idi).

Cavid məktəblə yanaşı, elmin, müəllimin rolunu sübut etmək üçün çox ibrətamiz, maraqlı və inandırıcı faktları təhlil edirdi: “rahat və xoşbəxt yaşamaq üçün işləmək, bir peşəyə sahib olmaq vacibdir. Hər bir peşə sahibi yaxşı

[444] Cavid H. Əsərləri. 5 cilddə V c., Bakı: Elm, 2007, s.145
[445] Cavid H. Əsərləri. 5 cilddə V c., Bakı: Elm, 2007, s.246

işləmək, nöqsanlarını anlayıb sənətində mahir olmalıdır. Belə bir məharəti, qabiliyyəti insanlar elmdən, məktəbdən öyrənirlər”[446] (Cavid, 2007:241). H.Cavidin fikrincə, insan nə qədər öyrənir, nə qədər oxuyursa, yenə azdır, çünki “bilmək, öyrənmək intəhasız”dır.

“Uşaqların fərdi xüsusiyyətlərini, qabiliyyətlərini nəzərə almağı müəllimlərə tövsiyə edən” H.Cavid “çöhrələrin müxtəlif olduğu kimi, əxlaq və xarakterlərin də müxtəlif olduğunu”, “müəllim nəzəriyyə ilə kifayətlənməməsini, həm də axtarış aparmalı, xüsusi əməli istedada malik olmasını” vurğulayır, “müəllimlərə valideynlərin kömək etməsini də zəruri sayır, məktəbdən, müəllimlərdən gənc nəslin təlim və tərbiyəsi qayğısına qalan ata-analar tərbiyə etməyi tələb edirdi. Müəllimin hər sözünün, hər duruşunun, hər halının bütün şagirdlərə ciddi təsir göstərdiyini”, “müəllimin öz sözü və nüfuzu ilə təkcə şagirdləri tərbiyə etmədiyini”, “valideynlərə də qüvvətli təsir etdiyini” qeyd edirdi.

Uşağın tərbiyəsində irsiyyət, mühit və tərbiyənin rolundan

---

[446] Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007, s 2. 41

bəhs edərkən Cavid  bunların hər üçünün insanın yetişməsində mühim rolu olduğunu vurğulayır,  xüsusən "insan tərbiyəsində irsiyyətin mühim amil olduğunu",  "bir uşağın sağlam və ya xəstə doğulmasında ata-ana məsuliyyətlidir" - deyə izah edir, "ailələrdə uşaqların rejim qaydalarına baxmadığını, düzgün tərbiyə almadıqlarını, erkən yaşlardan uşaqların müxtəlif xəstəliklərə düçar olduqlarının səbəblərini anaların savadsız və uşaqlara münasibətlərini, qulluq etmək qaydalarını bilmədiklərindən irəli gəldiyini söyləyən Cavid bu qənaətə gəlir ki, "cəmiyyətin rifahı ziyalı, iffətli analardan daha çox asılıdır. Valideynlər evdə uşağın təlim və tərbiyə işinə ciddi nəzarət etməlidir. Çünki uşaqların təlimə yiyələnməsi onları avamlıqdan, cəhalətdən xilas edər. Bu zaman H.Cavid "Qurani-Kərim"ə, Məhəmməd Peyğəmbərin kəlamlarına istinad edirdi: "Beşikdən qəbrədək elm öyrənin." "Elm Çində də olsa, gedib öyrənin."

Dil məsələsində həsas  olan Cavid valideynləri ilk növbədə uşaqlarına ana dilini təmiz öyrətməyə çağırır, eyni zamanda gənclərə ana dilindən başqa digər dilləri də

öyrənməyi tövsiyə edəirdi: "Vətən övladı üçün lazımdır ki, bəzi mətbuatı oxumaq və öyrənmək üçün övladi vətən türk dilini bilməlidir. İkinci bir para hadisələrin və xəbərlərin məzmununu bilmək üçün fars dilini öyrənməlidirlər, üçüncü dini məsələlərlə məşğul olanlar ərəb dilini bilməlidirlər, dördüncü rus dilini əsaslı bilməlidirlər. O rus dilini ki, bizim vətəndə bəzi həqiqətləri və məsələləri bilmək və dərk etməkdə ən lazımlı vəsait sayılır və o dili öyrənmək və bilmək lazım və vacibdir." Cavidin təhsildə dil öyrənmək məsələsinə xüsusi diqqət yetirməsini və bunu yetirmələrinə də məsləhət görməsini vurğulayan pedoqgi elmlər doktoru, professor R.Hüseynov görkəmli pedaqoq, ədəbiyyatşünas alim, İstiqlal ordenli, Əməkdar müəllim, atası Lətif Hüseynzadənin 1918-1919-cu illərdə Naxçıvanda "Rüşdiyyə" məktəbində oxuyarkən İstanbulda təhsil almış Hüseyn Caviddən türk dili, Tehranda, Nəcəfdə, Təbrizdə təhsil almış onun böyük qardaşı Şeyx Məhəmməd Rasizadədən ərəb dili və kiçik qardaşı Qori Müəllimlər Seminariyasının məzunu olmuş Əlirza Rasizadədən rus dili

dərsi almasından”[447] da bəhs edir (Hüseynzadə, 231-37) “Lətif Hüseynzadə xatirələrində yazır ki, bu insanlar müxtəlif yerlərdə, müxtəlif dillərdə təhsil almalarına baxmayaraq öz ana dilində danışırdılar. Ailələrində əgər onlardan biri təhsil aldığı dilin kəlmələrini işlədərdilərsə anaları tez onlara xatırladardı – “Ananızın dilində danışın!”[448] Cəlil Məmmədquluzadə “Anamın kitabı” əsərinin ideyasını bu ailədən götürmüşdür.

Müəlliminin, Cavidin müəllimlik fəaliyyətindən bəhs edən Lətif Hüseynzadə yazır: “Mən Naxçıvanda “Rüşdiyyə” məktəbində oxuyurdum. Hüseyn Cavid bu məktəbdə dərs deyirdi. O zahirən çox sakit, təmkinli və mülayim təbiətli idi... Çox danışmağı sevməzdi. Onun sinifdə kiməsə hirsləndiyini heç vaxt görmədik. Bəzən şagirdləri güldürər, özü də mənalı-mənalı gülümsərdi.

Hüseyn Cavid şagirdlərə çox da tələbkar deyildi. Lakin, şagirdlər onu çox sevdiklərindən həmişə dərsə hazırlıqlı gələrdilər. Dərsdə kifayətləndirici cavab

---

[447] İbrahimov F., Hüseynzadə R.Pedaqogika: 2 cilddə. I cild.Bakı: Mütərcim, 2012, s.231-237
[448] Hüseyn Cavidin pedoqoji görüşlərində təhsil və tərbiyə məsələləri/Peşə təhsili və insan kapitalı jurn., s.30-34

verməyən şagirdə, o təbəssümlə “Öyrənərsən!” - deyərdi.

Hüseyn Cavidin dərs üsulu çox maraqlı idi. O ədəbiyyat nəzəriyyəsinə aid sxemlər, əyani vəsait hazırlamışdı. Bu sxemlərdə ədəbi janrların növləri, bədii ifadə vasitələri, ədəbi cərəyanlar, klassik və şifahi ədəbiyyatda şeir formaları və sair göstərilmişdi...”[449] (Məmmədli, 1982:95).

Müəllimlik sənətini çox sevən Cavid, “bu sənətdə fədakarcasına çalışmış”, Bakıda “Səfa”, Naxçıvanda “Rüşdiyyə”, Gəncədə məşhur din xadimi Hacı Məhəmməd Pişnamazzadənin rəhbərliyi altında açılmış “Mədrəseyi-Ruhaniyyə” və s. məktəblərində müəllimlik etmişdir. Cavid bir pedaqoq kimi qız uşaqlarının təhsilə cəlb olunmasını təbliğ etməklə qalmır, bunun həyata keçirilməsi üçün çalışırdı. O qız uşaqlarının məktəbdən yayındırılmasının və təhsildən uzaqlaşdırılmasının islama zidd olduğunu söyləyərkən sualı belə qoyurdu: “Əcaba, səkkiz-doqquz yaşında bir qız yalnız ibtidai, yaxud rüşdi təhsil görürsə,

[449] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.95

şəriətə müxalifmi zənn olunur?"  Guya "qız tərbiyə görür-görməz itaətsiz olacaq", - söyləyənlərin fikirlərini rədd edən şair alidevynləri qız uşaqlarını məktəbə qoymağa çağırır və qızların tərbiyəsinə xüsusi fikir verilməsini, onların yüksək, əxlaq və mənəviyyata sahib olmalarını istəyirdi. Onun  pedaqoji baxımdan çox dəyərli və əhəmiyyətli olan "Qız məktəbində" şeiri gözəl nümunədir.

—  Kuzum, yavrum! Adın nədir?

— Gülbahar.

— Pəki, sənin annən, baban varmı?

— Var.

—Nasıl, zənginmidir baban?

— Əvət, zəngin, bəyzadə...

— Öylə isə, geydiyin geyim neçin böylə sadə?

— Yoxmu sənin incilərin, altın bilərziklərin?

— Söylə, yavrum! Hiç sıqılma...

— Var əfəndim, var... lakin

— Öyrətmənim hər gün söylər, onların yox qiyməti,

— Bir qızın ancaq bilgidir, təmizliktir zinəti.

— Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin

— Kimdir, quzum, söylərmisin?

— Ən çox sevdiyim ilkin

— O Allah ki, yeri-göyü, insanları xəlq eylər.

— Sonra kimlər?

— Sonra onun göndərdiyi elçilər.

— Başqa sevdiklərin nasıl, yoxmu?

— Var...

— Kimdir onlar?

— Anam, babam, öyrətmənim, bir də bütün insanlar...[450] (Cavid, 2007:58-59).

Şeirdə sadə məktəblinin saf mənəviyyatını, təmiz və pak duyğularını dioloq şəklində təqdim edən şairin çocuq qəhrəmanı Gülbahar milli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Sadə, təvazökar, imanlı bir qız olan Gülbaharın zinəti bilgi və təmizliktdir. Zəngin olmasına baxmayaraq, nə altın, nə inci istifadə etməsə sə, mənəviyyatca çox zəngindir. O, Allahı bilir, "onun göndərdiyi elçiləri" "annə

---

[450] Cavid H. Əsərləri. 5 cilddə I c., Bakı: Elm, 2007, s.59

babası"nı sevir və ehtiram edir. Eyni zamnda, bütün insanlara sevgi bəsləyir. Bu bir pedoqoqun qız tələbəsində görmək istədikləri idi.

Hüseyn Cavidin pedaqoji cəhətdən çox böyük əhəmiyyət daşıyan digər bir şeiri "Öksüz Ənvər" dir. Bu şeirdə müəllim-şagird münasibətini önə çəkən Cavid müəllimlərə bildirmək istəyir ki, onlar uşaqlara qarşı diqqətli, mehriban, həssas və qayğıkeş olsunlar. Şagirdlərini yaxşı öyrənib tanısınlar, onların ailə vəziyyəti ilə yaxından tanış olsun və tələsik qərarlar çıxarmasınlar. Şeir xəstə yatan və dünyasını dəyişən anaya qulluq və qay-ğı göstərən məktəbli Ənvərin iztirabı və laqeyd, qəzəbli müəllimin rəftarı haqqındadır….Ənvərin bir neçə gün dərsə gəlməməsi müəllimi hirsləndirmişdir. Müəllim isə Ənvərin dərsə gəlməməsinin səbəbini öyrənmədən, ona qayğı və diqqət göstərmədən pedaqojidən uzaq tələsik qərar qəbul edir. Əslində, bu kiçik şeirlə Hüseyn Cavid böyük pedaqoji məsələni müəllimlərə çatdırmaq istəyir ki, uşaqlara qarşı diqqətli, qayğıkeş və mərhəmətli olsunlar. Uşaqları, onların ailədəki həyatını dərindən öyrənsinlər.

Şagirdlərinə laqeyd olmasınlar.

Uşaqların məktəbə hazırlanmasında ev tərbiyəsinin roluna ayrıca yer verirən Cavid "Ev tərbiyəsi necə olmalıdır?" - sualına ailələrdə mövcud olan xoşagəlməz tərbiyə üsulları ilə cavab verir: "Uşaqlar damdabacalarla qorxudulur. Başıaçıq çölə çıxsan göydən başına adamcıl qurd düşər. Qaranlıq bir yerə getsən cinlər, divlər səni təhdid edər" [451] və i. a. (Cavid, 2007:244).

Ailə tərbiyəsində yalançılığı, kindarlığı, qorxaqlığı, itaətsizliyi, xurafat və mövhumatı tənqid edəni və valideynlərin xoşagəlməz müraciət üsullarına qarşı çıxa Cavid yazır: "...Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin", - deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o qan qusmuş çönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlasın" [452]- deyir (Cavid, 2007:244).

Hüseyn Cavid tərbiyə işində anaların roluna böyük əhəmiyyət verirdi və bu məsələ onu daim qayğılandırırdı.

---

[451] Cavid H. Əsərləri. 5 cilddə V c., Bakı: Elm, 2007, s.244
[452] Cavid H. Əsərləri. 5 cilddə V c., Bakı: Elm, 2007, s.244

O yazırdı: “Cocuq tərbiyəsinə diqqət etmək üçün tərbiyə görmüş analar lazım deyilmi? Hanı ana yetişdirəcək məktəblərimiz! Hər hansı qəzetəyə baxsan millət böylə? Vətən şöylə? - olmalı kimi bir çox məqalələr, xülyalar görünür. Lakin xülya ilə, boş xəyal ilə iş aşarmı? Vətəni, vətənin qiymət və əhəmiyyətini, tərəqqi və səadətini kimdən bəkləyə bilərik? Beli bükülmüş, ətəh və ətalətə uğramış ixtiyarlardanmı? Bir para biqeyd, laübali gənclərdənmi? Yaxud, saf, təmiz, məsum, ləkəsiz növzadlardanmı. Şübhəsiz ki, vətənə, millətə, millətin gələcəyinə ağlayacaq, tərəqqisinə çalışacaq olsa-olsa, ancaq ana qucaqlarında, məktəb sıralarında çırpınan məsumlar ola bilərlər. Fəqət bu növzadların yeyib-içməsinə, geyinib-gəzməsinə, təlim-tərbiyəsinə diqqət edəcək analar hanı?” [453] (Cavid, 2007:246 ).

Cavid övladının tərbiəysi qeydinə qalmayan valideynləri qınayır: “Xeyirsiz, xain, ədəbsiz övlad yetişdirib onları tərbiyə və islaha çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli

[453] Cavid H. Əsərləri. 5 cilddə V c., Bakı: Elm, 2007, s.246

insanlara müsəllət olmaq üçün bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar. Böylə qeydsiz, tərbiyəsiz ata-ananın nə dərəcə məsul olacağı... hər kəsə məlum və aydın bir həqiqətdir...._Bu gün azacıq təbiətə qarşı durub övladını tərbiyədən məhrum buraxanlar, yarınkı gün cigərguşə-lərinin zillət, fəlakət odunda yanıb-qovrulduqlarını ağlaya-ağlaya seyr edəcəklər… Cocuqlar məsumdurlar, onunçün etdikləri işlərin heç birinə məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq yalnız ata-analarıdır. Qızını, oğlunu tərbiyə etməkdə müsamihə göstərən valideyn qanun və əxlaq nəzərində şiddətlə məsul tutulmalıdır. Çünki cəmiyyəti-bəşəriyyə üçün müzür bir adam hazırlamış olurlar.” Həm professor R.Hüseynzadə[454] (Hüseynzadə, 232-37), həm də dosent K.Camallı[455] (Camalov,2009:4) Hüseyn Cavidin pedaqoji fikirlərinin bu gün də aktual və əhəmiyyətli olduğunu vurğulayır .

Pedoqogika üzrə fəlsəfə doktoru, dosent K.Camallının

---

[454] Hüseyn Cavid/İbrahimov F, Hüseynzadə R.. Pedaqogika: 2 cilddə. I cild. – Bakı: Mütərcim, 2012, s.231-237

[455] Camalov K. “Azərbaycan romantiklərinin maarifçilik görüşləri” Bakı, Nurlan, 2009, s.3-7

“Azərbaycan romantiklərinin maarifçilik görüşləri” adlı kitabında yalnız Cavidin deyil, ümumilikdə Azərbaycan romantiklərinin (A.Səhhət, M.Hadi, H.Cavid və b.) yaradıcılığında təlim-tərbiyə məsələləri araşdırılır. Onların yeni tipli məktəblərin açılmasında, milli dərsliklərin yaradılmasında, ana dili və onun tədrisi, eləcə də ana dilinin saflığı apardıqları mübarizə, müəllim və müəllim hazırlığı məsələlərinin ən mühim məqamları öz əksini tapmışdır. Gənc nəslin tərbiyəsində bu gün də öz təsir gücünü qoruyub saxlayan əxlaq, ailə tərbiyəsi, vətənpərvərlik tərbiyəsi, uşaq ədəbiyyatı və s. məsələlər geniş oxucu kütləsinə ilk dəfə təqdim edilir. “müstəqillik dövrünün verdiyi imkanlar daxilində pedoqoji fikir tariximizin öyrənilməsi sahəsində iki mühim istiqaməti müəyyənləşdirmək çətin deyil. Birinci istiqamət kimi kommunist ideologiyasının milli mədəniyyətə, o cümlədən pedoqoji fikrə və tərbiyə məsələlərinə verdiyi “traktovkaya” yenidən baxmaq zərurətinin yaranması, digər tərəfdən araşdırılmasına ehtiyac olan məsələlərə orijinal və yenilikçi prizması ilə baxılması ilə bağlıdır.

İkincisi, qatı açılmamış mətləbləri, çan ox-çox səhifələri öyrənilməmiş məsələləri üzə çıxarmaq, tədqiqata cəlb etməkdən ibarətdir. “Ön söz” yazan V.Rzayev tədqiqatçı alim Kamal Camallının araşdırmalarının obyektini pedoqoji fikrimizin öyrənilməsi vacib olan hər iki istiqamətinə yönəlməsinin”[456] altını cızır (Camallı, 2009: 3-7). Bu baxımdan, K.Camallının araşdırmalarının obyektini pedoqoji fikrimizin öyrənilməsi vacib olan hər istiqamətinə yönəlmişdir və buna nail olmuşdur. K.Camallı tədqiqatında əsasən, H.Cavid, M.Hadi, A.Səhhət və başqalarının yaradıcılığında dövrün mühim pedoqoji əsələlərinə aid baxışları, məktəb təhsilinin məzmunu, ümumi prinsipləri haqqında fikirləri araşdırılır. Qeyd edək ki, K.Camallının namizədlik dissertasiyasının mövzusu da mütəfəkkir şairin pedoqoji ideyalarının tədqiqinə həsr olunub”[457] (Camallı, 2009:3-7).

Ümummilli lider Heydər Əliyev haqlı olaraq filosof şair-dramaturq H.Cavid haqqında deyirdi: “Hüseyn

[456] Camalov K. “Azərbaycan romantiklərinin maarifçilik görüşləri” Bakı:Nurlan, 2009,s.3-7
[457] Camalov K. “Azərbaycan romantiklərinin maarifçilik görüşləri” Bakı:Nurlan, 2009,s.3-7

Cavidin əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsis ki, nə qədər təhlil etsələr, o qədər dərinliyə gedəcəklər. Bəlkə də böyük dərya kimi heç onun hamısını əhatə edə bilmyəcəklər. Ancaq bununla yanaşı bizim hamımızın borcu, xüsusən müəllimlərin,  məktəblərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən də bizim gənclərə."

Həqiqətən də, Azərbaycan pedoqoji fikir tarixində şair və mütəfəkkir kimi yer tutan Azərbaycan romantiklərin, eyni zamanda Hüseyn Cavidin "yaradıcılıqları cahanşümul məsələlərlə doludur." Cavidin əsərlərinin təhlili göstərir ki, "milli mədəniyyətimizin bu görkəmli nümayəndəsi tərbiyə və tərəqqi ailəyə çox böyük diqqət vermiş, onun möhkəmləndirilməsini cəmiyyətin mütərəqqi  inkişafı üçün zəruri hesab etmiş" "Peyğəmbər" əsərində vəhşi ərəb adətlərinə-doğulan qız uşaqlarının diri-diri torpağa basdırılmasına münasibət bildirmiş, əsərlərində qadının qalxmağa, yüksəlməyə, mübarizəyə səsləmişdir. Qadınların qalxması, təhsil alması eyni zamanda övlad tərbiyəsi üçün daha əhəmiyyətlidir, çünki tərbiyəli uşaq böyütmək üçün

ilk öncə təhsil və tərbiyə görmüş analar lazımdır" hökmünü verən yaradıcılığında təlim, tərbiyə, əxlaq məsələləri, övlad tərbiyəsi hər zaman öndə olmuş ədibin yaradıcılığından sayına görə, yazdığı əsərlərdən yüz dəfə artıq monoqrafiyalar yazılmış, hələ də yazılmaqdadır. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Sevil Həsənovanın "H.Cavidin publisistikasında milli-mənəvi dəyərlərin inikası" kitabı da bu qəbildəndir. Bir məqaləsində "H.Cavidin dramaturgiyası, poeziyası haqqında donə-donə bəhs edən butun tədqiqatcı alimlər nədənsə onun publisistikasını tamamilə unutmuşdular. Hətta cavidşunasların "H.Cavid yaradıcılığının ən yaxşı tədqiqatcısı adlandırdıqları"[458] (Həsənova,2014:1982) akademik Məmməd Cəfər də onun publisistik yaradıcılığı haqqında bircə cümlə belə yazmayıb (Cavid haqqında ilk monoqrafiyanın müəllifi akademik M.C.Cəfərovun Cavid üçün etdiyini qaralamaq düzgün fikir deyil. Məmməd Cəfər Cəfərov Caviddən yazanda hələ repressiya xofu

[458]Həsənova S. Publisistikada özünüdərk problemləri/ Bakı universitetinin xəbərləri (humanitar elmlər seriyası) №3 2014, s.182-188

səngiməmişdi, çoxları Cavidin adını çəkməyə cəsarət etmirdi). "Cavidşunaslıq, xüsusilə də sovet Cavidşunaslığı xüsusi elmi-tədqiqat mövzusu kimi oyrənildiyi, araşdırıldığı halda, Cavid publisistikasının araşdırılması, bu haqda irəli sürülən fikirlər, məqalələr heç bir elmi araşdırmanın predmetinə çevrilməmişdir. Unutmayaq ki, H.Cavid yaradıcılığı boyu publisistika ilə də məşğul olmuşdur"[459] (Həsənova,2014:182-188 ) yazan pedoqojika üzrə fəlsəfə doktoru, dosent S.Həsənova bu ağır və məsuliyyətli işi öz üzərinə götürmüş və işin öhdəsindən gəlmişdir. H.Cavidin bədii-elmi publisistik məqalələrindən bəhs olunan kitabda S.Həsənova böyük sənətkar Hüseyn Cavidin yalnız "publisistikası yox, bütövlükdə ədəbi yaradıcılığı böyüməkdə olan nəsillərin tərbiyəsi üçün zəngin material qaynağı" olduğunu, bu, çoxsahəli və çoxşaxəli irsə ədibin publisistikasının da daxil olduğunu, məhz buna görə də bu dərs vəsaitində ədibin yalnız publisistikasından bəhs edildiyini, "uzun

[459] Həsənova S. Publisistikada özünüdərk problemləri/ Bakı universitetinin xəbərləri (humanitar elmlər seriyasi) №3 2014, 182-188

illər H.Cavidin publisistikası geniş tədqiqatdan kənarda qaldığı”nı xüsusi olaraq qeyd edir.

Bildiyimiz kimi, 1920-ci ildən 1950-ci illərə qədər olan tədqiqat əsərlərində bəzi cavidşünaslar məqalələrində ədibin publisistikası haqqında cuzi informasiya verməklə kifayətlənmişlər. 1960-70-ci illərdən başlayaraq Kamran Əliyev, İzzət Rüstəmov, Qulam Məmmədli və s. Hüseyn Cavidin bədii publisistik yaradıcılığı haqqında məqalələr yazaraq elmi ictimaiyyətə daha geniş məlumat veriblər.

Hələ keçən əsrin əvvəllərindən başlayaraq H.Cavid Azərbaycanda çap olunan mətbuat orqanlarının əksəriyyətində bədii publisistik məqalələrlə də çıxış edib (1904-1937). Yalnız Azərbaycanda deyil, İranda, Türkiyədə, Tiflisdə fəaliyyət göstərən qəzet və jurnalların səhifələrində publisistik yazılarla çıxış edib. Onun “Şərqi-Rus”, “İqbal”, “Həqiqət”, “Açıq söz” qəzetlərində çap olunan elmə, təhsilə, ailə tərbiyəsinə həsr edilən bədi-elmi publisistik məqalələri daha çox üstünlük təşkil edir. S.Həsənovanın monoqrafiyasında “H.Cavid ilk dəfə

1904-cü ildə "Şərqi-rus”da, 1905-ci ildə “Həyat”da, 1906-cı ildə “İrşad”da, 1907-ci ildə “Füyuzat”da, 1909-cu ildə İstanbulda “Süratül-müstəqim” jurnalında, Bakıda “İttifaq” qəzetində, sonrakı illərdə əsasən "Həqiqət”, “Yeni irşad”, “İşıq”, “Məktəb”,  “Şəlalə”, “İqbal”, “Açıq söz”, “Yeni iqbal”, “Qurtuluş”, “Bəsirət”, “Azərbaycan”, “Azərbaycan füqərası”, “Qardaş köməyi”, “Millət”, “Qurtuluş yolu”, “Zəhmət”, “Yeni yol”, “Maarif və mədəniyyət” və “Kommunist” kimi qəzet və jurnallarda çap olunan şeirləri, pyesləri ilə yanaşı, publisistik və ədəbi-bədii məqalələri ilə də çıxış etməsi” eyni zamanda, mütəfəkkir Hüseyn Cavidin də “Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Ceyhun Hacıbəyli, Üzeyr Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə  Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqa görkəmli sənətkarlarımız kimi publisistika ilə də məşğul olduğu, ideya və düşüncələrini yalnız şeirlərində, pyeslərində, dram əsərlərində deyil, həm də məqalələrində əks etdirməsindən bəhs edilir.

Özündən sonra Azərbaycan xalqına zəngin ədəbi

irs qoyub getmiş Cavidin publisistikası xalqının qarşılaşdığı problemləri dərindən öyrənməyə, aktual mövzulara həsr olunduğundan müasir dövrümüzdə də ictimai və tərbiyəvi əhəmiyyətini itirməmişdir. Ədibin publisistikasına xas olan ən əsas xüsusiyyətlərdən biri məhz onun gələcəklə bağlı olmasıdır. Bu baxımdan S. Həsənovanın "Hüseyn Cavidin publisistikasında milli-mənəvi tərbiyənin inikası" adlı dərs vəsaiti də dövrün tələblərinə cavab verir. Yüz il öncə H.Cavid qələmindən çıxmış bu "sənət nümunələri nəzərdə tutulan bütün elmi-pedaqoji tələblərə cavab verdiyi üçün onların təlim materialı kimi gəncliyə təqdim olunması" həm aktuallıq kəsb edir, həm də əhəmiyyətlidir. S.Həsənovanın H.Cavidin Azərbaycan ədəbiyyatı tarixindəki yerinin elmi şəkildə izahından sonra məktəbdə öyrədilməsi tarixinə nəzər salınan dərs vəsaitində H.Cavidin dramaturgiyası ilə yanaşı, publisistikasının da öyrədilməsi üzərində aparılan işin metodikasının verilməsi də diqqət çəkir: "İnkaredilməz həqiqətdir ki, Azərbaycan mətbuatı, ədəbiyyatı, mədəniyyəti qədim

tarixə və zəngin ənənəyə malikdir. Xalqımızın həyat tərzi, milli psixologiyası, mənəvi keyfiyyətləri, əxlaqi sifətləri, adət və ənənələri mətbuatımızda və ədəbiyyatımızda öz ifa tərzini tapıb. Ölkəmizdə böyüməkdə olan gənclərin milli ruhda, milli zəmində tərbiyə olunmasının başlıca vəzifələrdən biri kimi qarşıya qoyulduğu indiki şəraitdə, Hüseyn Cavid yaradıcılığının təlim-tərbiyəvi əhəmiyyətini, gənclərdə milli şüurun inkişafına onun təsirini də tədqiq edib öyrənmək əsas məqsədlərdəndir.”

Kitabda həmçinin cavidşünasların diqqətini bir məsələyə yönəldərək, bu mühim problemin həll edilməsinə dəstək olmalarını arzu olunur, çünki çağımızda gənc nəslin mənəvi-əxlaqi zövqünün formalaşmasında, soy-kökünə qayıdışında, milli-mənəvi dəyərlərin yaşanmasında, təlim-tərbiyə prosesinin gücləndirilməsində H.Cavid ədəbi-bədii irsinin mühim rol oynadığı inkar oluna bilməz. Yazdığı əsərlərində insanları bəşəri ideyalara, vətənpərvərliyə, ədalətə, mübarizəyə, insanlığa, xeyirxahlığa, paklığa, səsləyən

mütəfəkkir sənətkarın zəngin ədəbi-bədii irsi hər zaman təzədir. “Klassik publisistikamıza nəzər yetirəndə bir daha şahidi oluruq ki, xalqın milli özünüdərk və özünəqayıdış hisslərinin aşılanmasında dahiyanə nümunələr yaranmışdır”[460] (Dünyaminqızı, 2017). İstər XX əsrin əvvəllərində, istərsə də sonlarında milli müstəqilliyimizin, azadlığımızın qazanılmasında publisistikamızın da özünəməxsus rolu olmuşdur. Ona görə də bu gün klassiklərin, o cümlədən H.Cavidin də publisistik yaradıcılığını geniş tədqiqata cəlb olunması arzu ediləndir. S.Həsənovanın adıkeçən dərs vəsaiti Cavidə sevgi ilə yanaşı, həmçinin ağır zəhmətin nəticəsidir.

Ümumiyyətlə, Cavid sənəti haqqında söz deyən, fikir və mülahizələrini bildirən bu tədqiqatçıların araştırmaları elmi mühitdə hər zaman böyük maraq doğurmuş, ədəbi ictimaiyyət tərəfindən hər zaman rəğbətlə qarşılanmışdır.

Beləliklə, hələ böyük şairin sağlığında yaranmağa

[460]Dünyaminqızı.“İnqilab və Mədəniyyət”kimdən, nədən və neçə yazırdı? Kaspi qəz.,12 aprel , 2017

başlayan və özünəməxsus bir tarixi inkişaf yolu keçmiş Cavidşünaslıq bu gün də bu missiyanı ləyaqətlə davam etdirməkdədir və son dövrlərdə də bir çox ayrı-ayrı namizədlik və doktorluk dissertasiyalarının tədqiqat obyektinin yenə də məhz Cavid yaradıcılığının təşkil etməsi də bunu təsdiqləməkdədir.

# III FƏSİL
# YA MÜTTƏFİQ, YA ÖLÜM: HÜCUM-ƏDƏBİ MÜNAQİŞƏLƏR, ƏDƏBİ MƏHKƏMƏLƏR

XX əsrin otuzuncu illərində milli iftixar gücü ilə tanınan mütəfəkkir Cavid "zamanın qadağa hökmü ilə diz-dizə dayandı. Millətin həqiqət libasını geymiş sənət mundir geyindirilmiş çinovnikin murdar föhşlərinə məruz qaldı. Azad söz, azad fikir, sərbəst düşüncə sahibi Diktatorun əmrləri ilə diktant-izahat yazmağa məcbur edildi. Tarixdə görünməmiş və fələyin də mat qaldığı bir fəlakət baş verdi: bu dəfə bütöv Zamanın mizan-tərəzisi pozuldu, bütöv bir yaradıcı nəsil torpaq altına gömüldü. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq… poeziya dünyasından qoparılıb müttəhim kürsüsünə gətirildi"[461](Əliyev, 2013:223). "Fələyin mat qaldığı", "zamanın mizan-tərəzisinin pozulduğu", "bütöv bir yaradıcı nəslin torpaq

[461] Əliyev K. Ədəbiyyat tarixinə bir baxış /Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı, 2013,s.223

altına gömüldüyü dövrü sənət və mədəniyyət yaddaşının əzilən çağı bəşər tarixinin niskil və ağır səhifəsi" adlandıran professor K.Əliyev yazır: "Bu çağ qaranlıq və zülmət gecə ilə üzbəüz dayanaraq, sözə ehya verən yuxusuz gecələrin, həyatın ləzzətindən kənarda doğulan şirin yaradıcılıq əzabının acı təəssüfə bürünmüş ölüm məqamıdır. O an intiharı yaxın buraxmayan mətin iradənin, nifrət və qəzəbdən ürəyi çəkilən cəsarətin çarmıxa çəkilən anıdır. XX əsr 37 yaşını beləcə işgəncə və qətllərlə keçirdi. Bu zaman xalq öz tarixi deyiminə – el üçün ağlayanın kor olması hikmətinə bir daha inandı"[462] (Əliyev, 2013: 223).

"Sənət və mədəniyyət yaddaşının əzilən çağı"nın əli qələm tutan sovet yazıçıları haqqında Kamil Vəli Nərimanoğlunun "Sovet ədəbiyyatı": gerçəkliklər, həqiqətlər, ziddiyyətlər" adlı məqaləsində yazdıqları: "Allahım, məni bağışla və biz bədbəxtləri başa düşməyə çalış. Tanrım, niyə bizi bu ağır, məşəqqətli zamanda dünyaya gətirib əlimizə qələm verdin? Bizdən rəhmini əsirgə-

[462] Əliyev K.Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s223

mə, Tanrım” (Sovet yazıçısının bu dünyada son, o dünyada ilk duası)”  - sözləri sovet yazıçılarının necə məşəqqətli bir zaman kəsimində yazıb, yaratdıqlarını bir daha sübut edir”[463] (Nərimanoğlu, 2008: 220).

Böyük məntiq daşıyan  bu sözlərə söykənərək sovet dramaturqu Cəfər Cabbarlıya və sovet yazıçısı olmaq istəməyən Hüseyn Cavidə yanaşsaq, ağır, məşəqqətli zamanda dünyaya gəlib əlinə qələm alan, ədəbi məhkəmələrdə çox zaman prokuror kimi Cavidi ittiham edən Cəfər Cabbarlını da anlamağa çalışmalıyıq.

Nədən Cəfəri? – Çünki Hüseyn Cavid ədəbi məhkəmələr məngənəsində, sözünü yazar-yazmaz ilk yada düşən görkəmli sovet dramaturqu Cəfər Cabbarlı olur. Professor B. Əhmədov yazır: “Hüseyn Cavid haqqında ən kəskin tənqidlərdən birinin zamanını və müəllifini gizli saxlayıb onu ədəbi camiyə təqdim etsək, o, birmənalı şəkildə qınaq obyekti olacaq, bu çıxış onun repressiyasından üç il əvvəl Azərbaycan Yazıçılar

---

[463] Nərimanoğlu V. K. Sovet ədəbiyyatı: gerçəkliklər, həqiqətlər, ziddiyyətlər // Azərbaycan. 2008, №, s.220

İttifaqının 1-ci qurultayında (1934) C. Cabbarlı tərəfindən edilmişdir”[464] (Əhmədov,2015:327).

Nə idi ədəbi məhkəmə deyilən şey və ya ədəbi məhkəmələrə lüzum varmıydı? Əgər dövrün tələbləri baxımından bu sualı cavablandırmalı olsaq, deməliyik ki, bəli, vardır, çünki sistem bunu tələb edirdi. Əslində, “Ədəbi məhkəmələr”, repressiyalar, sürgünlər, həbslər, təcridetmələr, işsizliyə məhkumetmələr, nəzarət və idarəetmənin mürəkkəb strukturunun tərkib hissəsini” təşkil edən “bu sistemi təfərrüatı ilə təsvir etməyə ehtiyacı yoxdur, çünki “ədəbiyyat işi ümumproletar işinin tərkib hissəsi, təkərciyi, vintciyi olmalıdır” (V.İ.Lenin) - cümləsində bu sistemin mahiyyəti bütün dəqiqliyi ilə ifadə olunmuşdur”[465] (Nərimanoğlu, 2008: 220). Deməli, ədəbi məhkəmələrin əsas işi, “ümumproletar işin tərkib hissəsi, təkərciyi, vintciyi olmayan ədəbiyyatın” qaralanması prosesi idi. Faciəvi haldır ki, prosesdə - “Ədəbi məhkəmələr”də ittihamçı da, müttəhim də elə yazıçılardır.

---

[464] Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı.Bakı:Elm və təhsil,2015, s.327

[465] Nərimanoğlu V. K. Sovet ədəbiyyatı: gerçəkliklər, həqiqətlər, ziddiyyətlər // Azərbaycan. 2008, №, s.220

C.Cabbarlı və H.Cavid kimi...

Sovet dramaturqu Cəfər Cabbarlı bu işdə (sovetləşmədə) heç bir səriştəsi olmayan Cavidi ittiham edirdi. Hər ikisi də azərbaycanlı, hər ikisi də dramaturq idi. Ən əsası da hər ikisi də qüdrətli sənətkar idi; ədəbi məhkəmələrin əvəzolunmaz ittihamçısı Cəfər Cabbarlı da, qətiyyətlə sovet dramaturqu olmaq istəməyən Hüseyn Cavid də. Halbuki, Cəfər Cabbarlı yolundan sarpmasaydı, Hüseyn Cavidlə sənət yolunda inadla addımlaya bilərdi. Çünki Cəfər Cabbarlı 1915-ci ildə M.Ə.Rəsulzadənin təsis etdiyi, türkçülük və müsavatçılıq fikirlərini təbliğ edən "Açıq söz" qəzetinin ətrafına toplaşanların ən fəallarından biri idi. Onun "Trablis müharibəsi", "Ədirnə fəthi" kimi pyesləri də bu ideyalara rəğbətdən yaranmışdı. Milli hökumət zamanı Cabbarlı parlamentdə stenoqraf kimi işləmişdi. "Sevdiyim", "Azərbaycan bayrağına" şeirlərində milli dövlətimizi tərənnüm etmişdi.

1920-ci illər Cəfər Cabbarlı dramaturgiyası üçün "dərin sarsıntılar, iztirablı axtarışlar, varlığa estetik münasibətdəki eniş-yoxuşlar mərhələsi olub. Azərbaycan

Demokratik Cumhuriyyəti dövründə (1918-1920) bir çox yazıçılar kimi, gənc Cabbarlının da dərindən çulğalamış milli problematika, milli iftixar, qürur və vətənpərvərlik ruhu ilə yazılmış "Ulduz və ya Trablis müharibəsi" (1917), "Ədirnə fəthi" (1917) pyesləri tənqid tərəfindən "Ziyanlı sənət", "Zərərli təmayül" kimi qarşılanıb" (Quliyev,1926*)*.

1920-ci il aprelin 27-də Milli hökumətin suqutu bir çoxları kimi, gənc Cəfərin taleyində də mühim rol oynayıb. Milli hökumət təhvil verilən günün axşamı milli hərəkatın fəalları, əsas da Mirzə Bala Məmmədzadə və Cəfər Cabbarlı başda olmaqla, Məmməd Əmin Rəsulzadənin evinə yığışaraq "Gənc musavatçılar" hərəkatını yaratmış, təşkilatın sədri Mirzə Bala Məmmədzadə, katibi isə yenə gənc Cəfər Cabbarlı seçilmişdi.

1923-cü ildə həbs olunan təşkilatın üzvlərindən biri də gənc Cəfər Cabbarlı olub. Həbs olunmuş Cəfər Cabbarlı azaldığa müəyyən şərtlə buraxılıb. Bu müəyyən şərtdən sonra müsavatçı Cəfər Cabbarlı sovetlərin ideoloquna çevrilib. O dövrdə axşam müsavatçı kimi yatıb, səhər bolşevik ideyalarının təbliğatçıları kimi oyanmaq

məcburiyyətində buraxılanlar çox olub. Həbsxanadan müəyyən şərtlə buraxılan Cabbarlı da bu yolu seçməyə məhkum buraxılıb (qınanılası da deyil).

Sözsüz ki, bütün bunlar onun məfkurəsini dəyişdirdiyi kimi, yaradıcılığına da siraət edib. Əgər ədibin yaradıcılığını iki dövrə bölsək, görəcəyik ki, yaradıcılığının birinci dövrünə aid olan əsərlərini türkçülük məfkurəsi ilə yazan sənətkar həbsdən azad edildikdən sonra, yenidən qurulub. Musavata, müsavatçı ideyalara üz çevirib. Ən ürəkağrıdan məsələ də, qəlbi milli duyğularla vuran bir gəncə sovet dramaturgiyasının baniye-karı olmaq qismət olub. Yeni ideologiyaynın əlibağlı quluna çevrilib, "yeni tanrısını bulduğunu" bəyan edib.

Cəfər Cabbarlı Hüseyn Cavidin müasiri və oxucusu idi. Əvvəllər Caviddən yaradıcı şəkildə bəhrələnmiş C.Cabbarlı, uzun müddət ədibin dramaturji təsirindən çıxa bilməmişdir. "Yaşıl yarpaqlar"da yayınlanan, bütövlükdə yaradıcılıq konsepsiyasını ortaya qoyan Cavidin "Mənim tanrım gözəllikdir, sevgidir" – şeirinə Cabbarlı alternativ olaraq yazdığı (Kommunist" qəzetində çap olunan) şeirində

düşüncələrini, yenidən qurulduğunu, “yeni tanrısını bulduğunu”, yeni məfkürəsini ifadə etmişdi:

Mən bir zaman öz-özümdən uzaqdım
Dün bir işıq buldum, könlümə taxdım.
Bütün əski tanrıları buraxdım,
İndi artıq bir tanrım var – Gözəllik!

Oxşa məni, yeni tanrım sevindir!
Artıq fikrim, ruhum, duyğum sənindir.
Çıx könlümdən, əski dünya, sonundur,
Çünki yeni bir yarım var – Gözəllik![466] (Cabbarlı, 2005:71).

XX əsrin 20-ci illərində Azərbaycan teatr səhnəsini dram əsərləri ilə təmin edən iki böyük, “iri” dramaturq vardı; Hüseyn Cavid və Cəfər Cabbarlı. Amma nədənsə “Ədəbi məhkəmələr”də yoldaş Cəfər prokuror, Cavid isə sorğulanan tərəf olurdu. “Könlündən, əski dünyanı çıxarıb yeni Tanrısını bulan” və ona sədaqətlə sitayiş edən Cəfər Cabbarlı Hüseyn Cavidi ən çox tənqid edənlərdən biri idi.

---

[466] Cabbarlı C. Əsərləri 4 cilddə, I c., Bakı: “Şərq-Qərb”, 2005, s.71

C.Cabbarlı ilə H.Cavid arasında şəxsi həyatda heç bir narazılıq olmadığı halda, Cabbarlının tənqidi yazıları mətbuatı bəzəyib. Bunu sübut edən arxiv sənədləri var. Təcrübəli jurnalist, "canlı salnamə" Qulam Məmmədli bu sənədlərdən biri haqqında yazır: "Respublika Əlyazmalar fondunda C.Cabbarlının arxivindən bir dəftərçənin 22-49-cu cu səhifələri, "Şeyx Sənan"ın mühakiməsi konspekti saxlanılır. Xətt Cəfərindir. Materiallar arasında Cavidə aid qeydlər vardır"[467] (Məmmədli,1982:183).

Əslində, bu gün sözün ən mülayim halında tənqid dediyimiz bu yazılar tənqiddən çox danos yazmağa bənzəyir, çünki bu tənqidin kimə və nəyə xidmət etdiyi məlumdur. O da məlumdur ki, repressiya edilənlər kimi, bu işdə barmağı olanların da hamısı sonralar reğressiyaya məruz qalıblar. Sözsüz ki, Cəfər Cabbarlı 1934-ci ildə öz əcəli ilə ölməsəydi, onun da repressiyaya məruz qalması labüd idi.

"Hüseyn Cavid və Cəfər Cabbarlı. Cavid öz tarixi-

---

[467] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.183

romantik qəhrəmanları ilə çoxdan tamaşaçılara tanış idi. Cəfər isə gənc idi. Onu da qeyd etmək lazımdır ki, bu iki yazıçının əlaqə və münasibəti maraqlı məsələdir, gələcəkdə də bu məsələ tədqiqatçılarımızı məşğul etməlidir. C.Cabbarlı H.Cavid yaradıcılığının bəzi məhdud cəhətlərini, xüsusən Azərbaycan həyatından az yazmasını, milli qəhrəmanlar yaratmağa az əhəmiyyət verməsini hiss etsə də, hər halda onun dramaturji təsirindən uzaqlaşa bilməmişdi. Cavidin Şeydası ilə Cəfərin Aydını arasında qohumluq vardı və bunu görmək o qədər də çətin deyildi. Amma Cavidin Cəfərə təsiri belə müstəqim təsirdən daha artıq, əks istiqamətdə olmuşdur. Bu cəhəti biz hətta Cavidin “Peyğəmbər”i ilə Cabbarlının “Od gəlini” arasında əlaqədə axtara bilərik. Əgər Cavid peyğəmbər surətində Məhəmmədi müsbət planda, bir humanist və islahatçı kimi vermişdisə, Cəfər Əbü-Ubeyd surətində Məhəmmədi mənfi planda, bir qəssab və mürtəce şəxsiyyət kimi verməyə çalışmışdı, yəni Cavidin əksinə hərəkət etmişdir, onu bir növ təshih etmək istəmişdi. Cavidin əksinə olaraq, Cabbarlı daha çox Azərbaycandan və həm də müasir həyatdan

yazırdı. Cabbarlı Caviddən öyrənirdi, amma onu nəinki təkrar etmirdi, hətta sovet ədəbiyyatının qarşısında duran məsələləri həll etmək işində onu qabaqlayırdı...” [468]
(Arif, 31-32).

Beləliklə, “sovet ədəbiyyatının qarşısında duran məsələləri həll etmək işində Cavidi  qabaqlayan” (Cavid bu yarışa heç qoşulmamışdı ki...!)  Cabbarlının yolları ayrılmış, bu iki böyük sənətkar ittihamçı, müttəhim kimi ədəbi məhkəmələrdə tez-tez üz-üzə gəlmək mcburiyyətində buraxılmışdı.

O illərdə “Kommunist” qəzetinin təşəbbüsü ilə ədəbi əsərlər və ictimai tiplər üzərində bir çox mühakimələr qurulması qərara alınır.  Əlavə olunur ki, bu yaxınlarda “Şeyx Sənan” üzərində mühakimə qurulacaqdır. Bu münasibətlə məzkur pyes dekabrın 4-də dövlət teatrında tamaşaya qoyulacaqdır”[469] (Məmmədli,1982:141). Bir il sonra isə, 1922-ci il 19  iyunda, “Zəhmət” qəzetində belə

[468] Məmməd Arif. Cəfər Cabbarlı haqqında xatirələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1969,  s.31-32
[469] Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982, s.141

bir məlumat verilir: "Cim" imzalı müəllifin "Ədəbi mübahisələr" başlıqlı məqaləsi çap edilməyə başlayır. Hüseyn Cavidin yaradıcılığı və əsərlərinin təhlilinə həsr edilmiş bu məqalələlər əsas etibarı ilə tənqidi xarakterdədir və bir-birinin ardınca "Zəhmət" qəzetinin 20, 23, 24, 27 və 28 iyun tarixli nömrələrində verilib.

İdeoloji cəhətdən yenidən qurulan Cəfər Cabbarlı "Cim" imzası ilə dövri mətbuatda Cavidə qarşı tənqidi yazılar yazıb, ard-arda mətbuatda nəşr etdirir. Məsələn, 1921-ci il 15 noyabrda Cabbarlı "Kommunist" qəzetində Hüseyn Cavidin "Şeyx-Sənan" əsəri haqqında eyniadlı tənqidi məqaləsi. Məqsədi adıçəkilən məqalədə "əsərin bir qaç nüqtəsinə şairimizin diqqətini cəlb etmək olan müəllifin yazır: " "Cümə günü, noyabırın 11-də möhtərəm şairimiz Hüseyn Cavidin "Şeyx-Sənan" adlı faciəsi oynandı. Möhtərəm müəllif guya, "İblis"də buraxdığı bütün xətaların intiqamını "Şeyx-Sənan"dan almış kimi əsərin hər bir cəhətinə son dərəcə diqqət etmişdir. Nə qədər "İblis" bir-birindən bir o qədər də rabitəsi olmayan ayrı-ayrı vaqiələrdən ibarət olsa da, o qədər "Şeyx-Sənan"ın

bütün vaqiələri arasında sıxı bir irtibat vardır. Həm də əsərdə gözəl tiplər və bir çox həyacani - bədii səbəbiyyət verici mənzərələr vardır ki, bunun üzərinə möhtərəm ədibimizin bu müvəffəqiyyəti üçün səmimi qəlbdən alqışlamaqla bərabər, əsərin bir qaç nüqtəsinə şairimizin diqqətini cəlb etmək istərdik...” Cim-Cəfər Cabbarlı (Cim, 1921).

Cabbarlının əsas məqsədi bu bərbəzəkli sözlərdən sonra başqa bir hal alan sözlərində aşkar şəkildə hiss olunur, “Cim” “möhtərəm şairimiz” adlandırdığı Cavidi acımasızcasına tənqid atəşinə tutur. Beləliklə, “Cavid yaradıcılığı ilə ilk ədəbi mübahisə” başlayır və bu “Cəfər Cabbarlının adı ilə bağlıdır”[470] (Babaxanlı, 2010:34).

“Zəhmət” qəzetində nəşr etdirdiyi yazılarında Cavidin guya şeiriyyətini yüksək qiymətləndirən “Cim” əslində, Cavidi dramaturq kimi qəbul etməyib, ona yalnız şairliklə məşğul olması tövsiyəsində bulunur: “Zatən Cavidin Qafqasiyada sevimli və hörmətli şair olduğunu inkar etməyiriz. Fəqət bunu da gizlətməyəlim ki, Hüseyn

[470] Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, s.34

Cavidin gərəksə "İblis", gərəksə "Afət"i və yaxud "Uçurum"u, "Şeyx Sənan"ın xəllaqinə yaraşar bir əsər olmayırlar. Bu əsərlərin bu qədər zəif və səhnə üçün natəmam olmaqları Hüseyn Cavidə yalnız şair olmağını tövsiyə etməzmi? Əlbət ki, edərsə bəlkə də türk ədəbiyyatında parlaq bir mövqe tutması üçün fəqət bir şair olub qalmasını əvvəldən tələb edir" (Cim,1921).

Tənqidə təriflə başlayan və "Cavidin Qafqasiyada sevimli və hörmətli şair olduğunu" vurğulayan "Cim" ədibin "İblis", "Afət", "Uçurum", "Şeyx Sənan" kimi əsərlərini "xəllaqinə yaraşan bir əsər olmadığını, "zəif və səhnə üçün natəmam" olduğu qənaətini paylaşan Cəfər Cabbarlıya görə, şairin "türk ədəbiyyatında parlaq bir mövqe tutması üçün fəqət bir şair olub qalması" lazımmış.

1924-cü ilin dekabr ayında Əli Bayramov adına klubda Həbib Cəbiyevin sədrliyi ilə aparılan "Şeyx Sənan"ın ədəbi-ictimai mühakimədə prokuror sifəti ilə uzun bir məruzə ilə çıxış edən Cabbarlı Cavidi mühakimə edir. Maraqlananların həm teatra, həm də mühakiməyə gəlməsi tövsiyə olunur. Bir aydan çox çəkən bu ədəbi-

ictimai mühakimənin qəbul etdiyi qərara görə, “Şeyx Sənan” hazırkı ictimai tərbiyə nöqteyi nəzərincə cəmiyyət üçün zərərli bulunur.

“Ədəbi mübahisələr”də yazdıqlarından tam məmnunluq ədası ilə razı qalan müəllif yazır: “Qoy bir nəfər çıxsın və barmağını uzadaraq tərəddüdsüz, Cavidin filan yazısı cəmiyətimizin ifadeyi-hal və keyfiyyətidir, söyləsin. Bunu kimsə deyə bilməz. Biz “Zəhmət”dəki tənqidin bir çox yerləri ilə şərik deyiliksə də, “Cavidin yazdığı əsərlər get-gedə həyatdan uzaq olmağa başlamışdır” – deməsini də bir nöqteyi-nəzərlə olduğunu ehtimal ilə sabit edirik.

“İştə, bu nöqteyi-nəzərlə Cavidə yanaşınca elə təsir bağışlayır ki, guya Cavid heç vaxt içində yaşadığı mühitlə maraqlanmamış, ölkəmizin, xalqımızın rəngarəng həyat və məişəti onu heç vaxt xalqımızın fəryadları ilə inlədiyini, xalqımızın sevincləri ilə güldüyünü görə bilmirik”[471] (Turan, 2010:61).

Məqaləsində bir az da irəliyə gedən Cabbarlı Cavidi

---

[471] Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010,s.61

bir “romantik yazıçı” kimi qəbul etmir: “Cavid sırf romantik bir yazıçı deyildir. O gah romantik, gah idealist, gah realist kimi sentimentalistdir. Fəqət Cavid kim olursa olsun, hanki məktəbə mənsub bulunursa həmin məktəblər üsulu ilə yazdıqlarına müvəffəq olmuşsa-olmamışsa, fərq etməz. Şimdi Cavid var. Yazıyor”[472] (Cim,1921:175).

Məqalədə, eyni zamanda, Cavidin mövzu-problematikasını, ədəbi təmayülünü də tənqid edən C.Cabbarlı dramaturqun “Şeyx Sənan”, “Uçurum”, “Afət” və “İblis” əsərlərindən bəhs edərkən müəllifin dövrlə ayaqlaşa bilməməsini əsaslandırmağa çalışır. “Kommunist” qəzetinin 1925-ci il 12 aprel tarixli 82-ci nömrəsində dərc olunan “İblis”in son quruluşu” adlı məqaləsində C.Cabbarlı pyesin səhnə tərtibatındakı nöqsan və çatışmazlıqları diqqətə çəkir”[473] (Cim,1925:174).

Bu qədər tənqiddən sonra, Cabbarlı Cavidin “təqdim ediləcək müsbət cəhətləri də yox deyildir ki, bunları qeyd etməməklə həm yazdıqlarımız birtərəfli olur, həm də

---

[472] “Cim”. Ədəbi mübahisələr // Cavidşünaslıq. Araşdırmalar toplusu. 10 cilddə, II-III c. Bakı:Elm, 2007, s.173-175

[473] Yenə orda,s.173-175

Cavidin haqqını inkar etmiş oluruq" - fikrinə gəlir: "Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu islahına çalışan lisanımızın təkamül özülü ola biləcəkdir zənnindəyik. Zatən bir millət üçün lisanı onun şairləri, ədibləri yaradırlar ki, Cavid də bu cəhətdən qiymətlidir. Bizcə, Cavidin ortaq bir yol götürmüş lisanı Azərbaycanda tətbiq ediləcəyi kimi, ərəbləşmiş Fikrət və Hamid lisanlarını da meydandan sıxıb çıxaracaqdır"; "Caviddə hər kəsi məftun və əsir edəcək bir qüvvəye şeiriyyə vardır. Zatən əsərlərinin ən böyük gözəlliyi və qüvvəti də burasındadır. Bizcə, "Afət"in bir qədər zəifliyi nəsr olunmasıdır. Tamaşaçılar adəta səhnəyi unudur, Cavidin şeirlərindəki gözəlliklə əylənirlər. Biz bu şeir və lisanı ümumtürk aləmi-ədəbiyyat səhnəsinə xüsusi malımız kimi çıxara bilərik", "Caviddə bir də fəlsəfə vardır ki, bu, ədəbiyyatda bir əsas olmasa da, hər halda bir məziyyət kimi götürülərsə, əsərlərinin qüvvətlənməsinə yardım edir. Bu fəlsəfələrin həpsi yeni olmasa da, hər halda yeni və gözəl bir şəkillə meydana çıxarılır ki, bu da bir fəzilət və məziyyətdir"; "Hər halda bu fəlsəfələr müxtəlif

əsərlərdə bir-birinə təzad təşkil etsələr də, Cavidin əsərləri fikir və fəlsəfə cəhətincə bir-birinin mütəmmimi olsalar da, olmasalar da, bizcə, Cavid üçün bir nöqsan olmazlar"[474] (Cim,1925: 76).

Sonda "Cavidin hal-hazırda ədəbiyyatımızın yoqsulluğu içində böyük bir mövqe tutur" – qənaətinə gələn C.Cabbarlının "Caviddə müsbət cəhətlər" kimi göstərdiyi bu məziyyətlər heç şübhəsiz ki, məqalədəki tənqidi fikirləri sığortalamaqdan başqa bir şey deyildir" və "həmin dövr üçün Cabbarlının söylədiyi tənqidi fikirlər məqbul sayıla bilər, çünki digər yazıçıların yazılarında da Cavid haqqında eynən belə fikirlər az deyilməyib"[475] (Babaxanlı, 2010: 37). Qeyd etmək lazımdır ki, C.Cabbarlı Cavidin sənətini sevirdi, onun Şeyx Sənanının əzbər bilirdi. Cavid də, C.Cabbarlını sevirdi. Onun vaxtsız ölümünə çox mütəəssir olmuş ədib 1935-ci il 2 yanvarda "Ədəbiyyat" qəzetində yazırdı: "Cəfər Cabbarlı Azərbaycan səhnəsinin ən parlaq bir yaradıcısı idi. Onun vaxtından əvvəl sönməsi

---

[474] "Cim". Ədəbi mübahisələr // Cavidşünaslıq. Araşdırmalar toplusu. 10 cilddə, II-III c. Bakı:Elm, 2007, s.173-175

[475] Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, s.37

yaxın arkadaşlarını və bütün şura yazıçılarını mütəəssir etməyə bilməz.” Məcid Şamxalov xatirələrindən Cavidin Cəfərin ölümünə çoxüzüldüyünü, köks ötürüb ağladığını” öyrənirik. O yazır: ”...Biz Cəfərin hüzür yerinə getdik. Orda izdiham vardı. H.Cavid,Ə.Cavad, ƏsədTahir, bir ço x ziyalılar artırmada o turmuşdular.H.Cavid papiro su barmağı arasında, kədərli xəyala dalmışdı”[476] (Şamxalov,1982). O, hərdən dərindən köksünü ötürüb papiros çəkirdi, tez-tez eynəyini çıxarıb göz yaşını silirdi. Hüzür yerindən qayıdarkən Əhməd Cavad Cavidlə aralarında Cəfər barədə danışırdılar. Onu eşitdim ki, Cavid dedi: “Bəli, Azərbaycan dramaturgiyasının parlaq ulduzu söndü!” Ə.Cavad onun sözünü təsdiq etdi: “Qoy onun ölməz əsərləri bizlərə böyük təsəlli olsun!”...[477] (Şamxalov, 1982). Əminik ki, Cabbarlı da Cavid şəxsiyyəti və sənəti haqqında yüksək fikirdə idi. Amma şərtləhəbsdən buraxılan gəncin də götürdüyü öhdəliklər vardı. Yaz dediklərini yazmalı, öy dediklərini öyməli, döy dediklərini

[476] Şamxalov M. “Ədəbiyyat və incəsənət” / 19 mart 1982
[477] Yenə orda

doyməli idi. Və bu öhdəliklər gənc Cabbarlının ömrünü qısaltdı. Sevdiyi sənətkarı tənqid və ittiham etmək asan deyildi. Amma yazmalıydı, fikir bildirməliydi, tərəfin bildirməliydi. Cabbarlının ən geniş tənqidi yazısı Cavidin "ŞeyxSənan"ı idi. "Şeyx Sənan" haqqında xeyli resenziyalar yazılmış, mükəmməl mülahizələr söylənmişdir. Lakin tamaşanın tənqidçiləri də daima fəallıq göstərmiş, hər tərifə bir tənqidlə cavab vermişlər. Daha çox da 20-30-cu illərdə... teatrla heç bir əlaqəsi olmayanlar belə əsər haqqında tənqidi yazılar yazmışlar. Əsərin ilk tənqidçisi C.Cabbarlı olmuşdur. Əsərin təhlilinə dair ilk böyük məqalə H. Zeynallının "Seyx Sənan" haqqında mülahizələrim"i idi.

İlk başlarda "Şeyx Sənan" orjinalda olduğu kimi oynanılsa da, sonralar Azərbaycan Dövlət Dram Teatrı göstərmək istərkən əsərin mətni üzərində müəyyən dəyişikliklər aparmaq üçün bir sıra təkliflər verilmişdir. Ə.H.Rzayev tərəfindən üzü köçürülmüş, haliyədə Az.res.Əlyazmalar İnstitutunda saxlanan "Şeyx Sənan"ıın əlyazması mətni üzərində edilmiş dəyişikliklər də

maraqlıdır (Az.Res.Əlyazmalar İnstitutu. “Şeyx Sənan”ıın əlyazması mətni B 2539). Eyni zamanda, bu təkliflərin bir çoxunun müəyyən zamanda teatrda ədəbiyyat müdiri vəzifəsində işləyən C.Cabbarlı tərəfindən edilməsi də bir o qədər maraqlıdır. Onun arxivindəki sənədlər içərisində bir əlyazmasında “Şeyx Sənan” haqqında yazdığı qeydlər irəli sürülmüşdü. Cəfərin ədibdən istədiyi isə başqaydı: “Tiflisdə iki türkü (yəni azərbaycanlını) iki gürcü ilə əvəz etmək və onları axıra qədər Sənanın dostu kimi göstərmək. Son səhnədə gürcülərin özlərini Sənanın müdafiəçisi kimi göstərmək. Qoca Dərvişi real şəxsiyyət – düşüncəli allahsız kimi vermək. Allahsızın nitqindən aləmin varlığını inkar edəcək sözlər vermək. Sənanın Quranın yandırılmazlığı, allahın varlığı haqqındakı sözləri çıxarmaq” (1934 6 (2) Cavid Hüseyn. “Şeyx Sənan” (Azərbaycanca əlyazması) Az.Res. Əlyazmaları institutu. Arx. 20. Q-14 (160). Bu əsərdə dəyişiklik etmək tələbi deyildi, sifarişlə yenidən yazmaqdı. Təbii ki Cavid bu təklifi qəbul edib əsəri dəyişməzdi, çünki bu təklifləri; “Tiflisdə iki türkü (yəni azərbaycanlını) iki gürcü ilə əvəz etmək və onları axıra

qədər Sənanın dostu kimi göstərmək. Son səhnədə gürcülərin özlərini Sənanın müdafiəçisi kimi göstərmək. Qoca Dərvişi real şəxsiyyət – düşüncəli allahsız kimi vermək. Allahsızın nitqindən aləmin varlığını inkar edəcək sözlər vermək. Sənanın quranın yandırılmazlığı, allahın varlığı haqqındakı sözləri çıxarmaq", əsərin üzərində dəyişikliklər aparmaq əsərin mahiyyətinə vurulan zərbə idi. Məsələn, "Qoca Dərvişi düşüncəli allahsız kimi vermək." Allahsız dərviş olarmı?  Və ya Cavid Allahsız Dərviş obrazı yaradarmı?  Halbuki "Qoca dərviş"i də, Tiflisdə iki türkü də Cavid məqsədli şəkildə əsərinə salmışdır (Türkün türkdən başqa dostu yoxdur). Hətta əsərdə "Qoca dərviş" şairin idealist düşüncələrini ifadə edirdi.

Uzun müddət Azərbaycan səhnəsindən düşməyən, hakim mövqe tutan "Şeyx Sənan" 1930-cu illərə qədər teatrın repertuarını bəzəmişdi, hətta "teatrlarımızın repertuarında sıra nömrəsi üzrə birinci tutmuş", "teatr mövsümləri onunla açılıb, onunla bağlanmışdı. Bunu dövri mətbuat və bir sıra mədəni müəssisələrdə, arxiv və muzeylərdə indiyə qədər mühavizə olunan sənədlər- elan,

afişa, proqram, xatirə və s. subut edir”[478] (Əkbərov, 1977:74).

Doğrudur, Cabbarlının mütəfəkkir sənətkara tutduğu iradlar sonralar çoxları tərəfindən də söylənəcəkdi, onun mənsub olduğu xalqın mübarizəsindən, həyatından xəbərsiz olduğunu isbatlamağa çalışacaqdılar, niyə yeni quruluşu tərənnüm etmədiyinin səbəbləri üzərində baş sındıracaqdılar, yaradıcılığında qeyri-milli, Azərbaycan ədəbiyyatına yad notlar axtaracaqdılar, hətta bulacaqdılar. Amma üzərindən uzun illər keçməsinə baxmayaraq, hələ də qəlbləri ağrıdan odur ki, böyük sənətkara qarşı bu çirkin münasibətin əsasını sovetlər məhz Cəfər Cabbarlıya qoydurmuşdular.

Cabbarlının bu tənqidi fikirləri hələ o zaman, yazıldığı dövrdə belə ədəbi tənqiddə birmənalı qarşılanmamış və ona tutarlı cavablar verilmişdir. Cabbarlıya Cavidin əsərləri haqqında yazdığı tənqidi yazılara ən çox cavab verənlərdən biri Hüseyn Cavidin yaradıcılığına xüsusi diqqət göstərən, jurnalist, publisist,

---

[478] Əkbərov Z. “Hüseyn Cavidin “Şeyx Sənan” faciəsi. Bakı: Elm, 1977, s.74

tənqidçi Xəlil İbrahim olmuşdu.

O dövrdə C.Cabbarlının Azərbaycan tənqidi mühitində populyar olan "Cim" imzasının əksinə olaraq, Xəlil İbrahim "Əks-cim" imzasını tərcih etmiş və yazılarında C.Cabbarlının fikirlərinə kəskin münasibət bildirmiş, onun "Şeyx Sənan" haqqında yazdığı tənqidi yazısına cavab verərkən həm də Cavidə qarşı obyektiv və ədalətli olmağı tövsiyə etmişdi: "Əzizim! Tənqid deyə yürütdüyünüz müxavizəni hər kəs kimi mən də oxudum. Arizu buyrulan nüqtələrin cavabını kəndisilə bərabər oturduğun müəllifdən sorsaydın oxucuların vaxtını nafilə almazdınız…"[479] (İbrahim,1921).

Xəlil İbrahim "Ədəbiyyat şərarələri" adlı tənqidi məqaləsində "Cim"in əksinə olaraq Hüseyn Cavidin "Şeyx Sənan" və "İblis" faciələrini ideya-sənətkarlıq nöqteyi-nəzərindən müqayisə edərək yüksək dəyərləndirmiş, "Şeyx Sənanı" və "İblis"ı səhnəmizin birər zinəti"[480]

[479] İbrahim X."Şeyx Sənan" Möhtərəm "Cim"ə cavab / "Kommunist" qəz., 17, 21,23 noyabr 1921;3 dekabr 1924

[480] İbrahim X.Ədəbiyyat çərarələri/ "Kommunist" qəz., 1, 2 dekabr 1921; İbrahim X.Daşdankeçənistiqlal.Bakı:Yazıçı,1993, s.20-28

adlandırmışdır (İbrahim,1921).

Eyni zamanda, Cabbarlının “Zəhmət” və “Kommunist” qəzetlərində Cavidin “Uçurum”u ilə əlaqəli dərc edilən tənqidi yazılarına da münasibət bildirməklə qalmayıb, “Cim”i məzəmmət edir: “Hüseyn Cavidin “Uçurum” dramı barədə “Zəhmət” və “Kommunist” qəzetləri səhifələrində bəzi mübahisələr mövcud oldu və məqalə sahiblərinin hər biri məqaləyə bir cür yanaşaraq tühafdır ki, guya “Uçurum” ədəbi bir əsərmidir? Yaxud bir dramadır? - sualını vermiş kimi oldular. C.C. hətta əsərə ötəri bir nəzərlə baxaraq yalnız şeir yazmağı tövsiyə etdi. Hüseyn Kazımoğlu isə, “Uçurum”u yalnız birinci mühərrirə qarşı müdafiəyə qalxışaraq, onun tənqid etdiyi cəhətlərə yanaşdı və ancaq bununla iqtifa etdi.

Bunların hər ikisinin yazısında məncə başlıca bir yanlışlıq var. O da bir əsərə hər ikisinin pək darısqal bir nəzərlə baxması və məsələni bir qədər qarışdırmasıdır”[481] – deyə fikirlərini yekunlaşdırır (İbrahim,1922).

[481]İbrahim X. ”Uçurum” / “Zəhmət” qəz., 26-30 iyun 1922

Yenə “Zəhmət” qəzetində yayınlanan məqalənin ikinci hissəsində Xəlil İbrahim: “Azərbaycanda mövcud ədəbi əsərlərə baxdıqda hər şeydən əvvəl böyük bir qüsür gözə çarpır... Yazıçının müəyyən dili, müəyyən şivəsi, müəyyən üslubu və dolayısı ilə əsərin ahəngi yoxdur. Xüsusən son zamanlarda yazılan əsərlərə baxdıqda, bir səhifənin başında tam mənası ilə qaba, provinsial bir şivə, ayağında isə İstanbul üdəbası dairələrinin incə ədəbi dili, hətta dəyil bir səhifədə, bəlkə bir cümlədə belə bu kimi təzadə təsadüf etmək olur. Halbuki “Uçurum”da və ümumiyyətlə, Hüseyn Cavidin bütün əsərlərində müəyyən bir dil, müəyyən bir üslub, şivə, səlasət, ahəng görülməkdədir”[482] (İbrahim, 1922) – şəklində münasibət bildirir. Lakin Cavidin əsərlərinin tendensiyalarını düzgün qavramayan Xəlil İbrahim də ədibə münasibətdə tam obyektivlik göstərməmiş, subyektiv mülahizələr də yürütmüşdür: “Əsərə diqqət edildikdə, başdan-ayağa əksəriyyət, silah və kapital əleyhinə təbliğat aparıldığı görünür. İblis qiyafəsində rol oynayan krallar, şahlar,

[482] İbrahim X. ”Uçurum” / “Zəhmət” qəz., 26-30 iyun 1922

siyasilər, mollalar, qızıl ilə silahı təqdis edərək:

Bunlar edəcək iştə nəhayət şiri məsud,

Al, iştə bu ataş, bu da ən sevgili məbud…

… Əvvəla, Hüseyn Cavidin ümdə fikri, İblis yoxdur və bu işlərin heç birisindən İblisin xəbəri yoxdur – demək ikən, nədənsə ikinci pərdədə xidmətçi ərəb qiyafəsində İblis çıxır, yaxud üçüncü pərdədə abid sifətində yenə İblisi səhnəyə çıxarır. Və bununla da əsas fikrin xilafına olaraq isbat etmiş olur ki, o cinayətlərin həpsi İblisdəndirsə insan nə yapsa da İblisin pəncəsindən qurtulmaz…bu kimi təzadlar nəticəsində şairin İblisə münasibəti və ümumiyyətlə, əsas fikrini, ideyasını anlamaq olmur”[483] (İbrahim,1924).

Görünür ki, X.İbrahim əsərin sonunda Hüseyn Cavidin gəldiyi “İblis nədir?” – Cümlə xəyanətlərə bais…Ya hər kəsə xain olan insan nədir? - İblis!...”[484] (Cavid,2007:117) – qənaətinə yetərincə diqqət yetirməmişdir. Xəlil İbrahimin tənqidinə münasibət

483 İbrahim X. ”Uçurum” / “Kommunist” qəz., 16 oktyabr 1924,s.4
484 Cavid H. Əsərləri. 5 cilddə III c., Bakı: Elm, 2007, s.117

bildirən Zinət Nuşirəvan yazır: “İblis”ə tənqid yazan Xəlil İbrahim yoldaş Hüseyn Cavidin bu əsərinin əsas qüsurundan qafil qalmışdır ki, o da ümumiyyətlə bu əsərlərin həpsinin ən qarışıq bir idealizm kaşası süfətinə malik olmasıdır. Tənqid yazan İbrahim Xəlil yoldaş isə tənqidin başlanğıcında özü idealizm toruna (tuzağına) düşməkdədir...”[485] (İbrahim, 1924).

Qeyd edək ki, Cavidin əsərləri ilə əlaqədar keçirilən “Ədəbi məhkəmələr”də çox zaman ittihamçı kimi Cabbarlı çıxış edibsə, Xəlil İbrahim müdafiəçi qismində iştirak edib. Cabbarlının əksinə olaraq Xəlil İbrahim bəzi sarpmalara baxmayaraq, Cavid sənətinə hər zaman obyektiv yanaşıb, onun “məncə ədəbiyyat başqa, siyasət və təbliğat daha başqadır!”[486] – fikirlərini yüksək qiymətləndirib (İbrahim,1924).

Doğrudur, “hər hansı bir əsərə və orada qaldırılan problemlərə görə müəllifin ittihamı dünya praktikasında mövcuddur. Sovetləşməyə qədər Azərbaycanda da belə

[485] İbrahim X. ”Uçurum” / “Kommunist” qəz., 16 oktyabr 1924,s.4
[486] İbrahim X. Ədəbiyyat şərarələri / “Kommunist” qəz., 1, 2 dekabr 1921

hallar olmuşdur. Dərisi soyulan Nəsimi, oğlu ilə birlikdə başı kəsilən Molla Pənah Vaqif, sovet hakimiyyəti illərində sürgün edilən, qətlə yetirilən Əlabbas Müznib, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşviq, Əmin Abid, Əli Razi Şamçızadə, Seyid Hüseyn, Hacı Kərim Sanılı, Hənəfi Zeynallı, Qantemir, Tağı Şahbazi və başqaları ideyalarına görə təqib olunmuşlar. Lakin müəllifi zalda oturdub onun əsərlərindəki hər hansı bir obrazı mühakimə etmək yeni hadisə, daha doğrusu, yeni siyasi aksiya idi. Belə siyasi aksiyalar keçirməklə Azərbaycan ədəbiyyatının yönünü dəyişdirmək, onu zəngin tarixi ənənələrindən ayrı salmaq, yeni ədəbiyyat-sovet ədəbiyyatı yaratmaq və formalaşdırmaq istəyirdilər”[487] (Qasımov, 2003:31).

Bu ideyaya xidmət edən ədəbi məhkəmə Cavidin Şeyx Sənan obrazını “hissiyyatının, şəhvət və ehtirasının əsiri”, “zəif iradəli”, “səbatsız”, “yalançı”, “Zəhra və Xumarın fəlakətinə səbəb olmuşdur”[488],- sözləri ilə ittiham edilmişdir. Obrazla əlaqəsi olmayan yalançı ittihamların

[487] Qasımov C. Məhbus tərcümeyi-halı. Bakı: Səda, 2003, s. 31
[488] Cim. Şeyx Sənan” “Kommunist” qəz., 21, oktyabr 1921, s.6

baş alıb getdiyi ədəbi məhkəmələrin məramı və məqsədi, əslində yaratdıqları obrazlar vasitəsi ilə, sənətkarı ittaham etməyə yönəlmişdi. Əslində, "siyasi aksiya" olan "Ədəbi məhkəmələrin yekunu kimi demək olar ki, bütün bu mühakimələr düşünülmüş şəkildə həyata keçirilən siyasi repressiyanın milli mənəvi dəyərlərə qarşı yönəlmiş əsas formalarından biri idi"[489] (Qasımov, 2003:43). Bu "siyasi aksiya"ya böyük sədaqətlə xidmət edən Azərbaycan Şura yazıçılarının birinci qurultayı (1934) da bu ideologiyanı əsas tutmuşdu. "Gənc işçi" qəzeti həmin qurultaydakı əsas çıxışların stenoqramını çap edib. Bu gün bu vəsilə ilə öyrənirik ki, qurultayın 16 iyun tarixli iclasında ideoloji cəhətdən yenidən qurulan Cəfər Cabbarlı Hüseyn Cavidin yaradıcılığını yenə qızğın tənqid atəşinə tutub: "Mən bir neçə kəlmə Cavid yoldaş haqqında demək istəyirəm. Qurultayımız Hüseyn Cavidə böylə bir sual verməyə haqlıdır: – "Siz Cavid yoldaş! 14-15 il içərisində yaranan həyatı, onun böyüklüyünü görmək istəyirsinizmi? Cavid yoldaşdan yeni əsərlər tələb edənlər, əlbəttə, haqlıdırlar.

[489] Cim. Şeyx Sənan" "Kommunist" qəz., 21, oktyabr 1921, s.6

Cavidin verdiyi əsərlər, bu günün tələbini ödəyə bilməyir. Cavidin "Peyğəmbər"ində qadına olan baxış tamamilə köhnədir. Hər bir işçi qadın, imdi bundan çox-çox iləri getmişdir. Cavid yeni "Peyğəmbər" (yəqin ki, Lenini nəzərdə tutur) yeni əsər yaratmalıdır. Onun "Peyğəmbər"i bu günə yaramır. Bu günün tələbi başqadır. Yaxud "Şeyx Sənan"ı alalım. Cavid "Şeyx Sənan"ın yeni quruluşda oynanılmasına təəccüb edir. Əlbəttə, o, əski quruluşda oynanıla bilməzdi. Ona görə oynanıla bilməzdi ki, ondakı ideya, Sənanın panislamizmi bu günə yaramır. Sənanın sözlərini bu gün Lökbatanda oxuyacaq olsanız, sizə gülərlər. Bizim şura yazıçılarımız bu coşqun həyatın sürətini addım-addım təqib etməli, onun inkişafına yardım etməlidirlər. Şura yazıçısının nəbzi böyük quruluşun hərəkəti ilə bərabər döyünməlidir. Mən öz sosialist vətənimin səadəti üçün bu günki böyük quruluşun, bu coşqun həyatın tələblərini təmin edəcək əsərlər yazıram və yazacağam." Özünü şura yazıçısı kimi təqdim edən və "sosialist vətənimin səadəti üçün bugünki böyük quruluşun, bu coşqun həyatın tələblərini təmin edəcək

əsərlər yazıram və yazacağam" – deyə öz məfkurəsini bəyan edən Cəfər Cabbarlının Hüseyn Cavidə tənqidi yanaşması da ideoloji məzmun daşıyır.

"Mən də vaxtı ilə görə bilməyirdim, hiss edə bilməyirdim. Lakin indi görməyə, hiss etməyə çalışıram, mən də görürəm. Şura yazıçısı öz yaradıcılığını, hərəkət təmayülünü indiki həyatdan almalıdır. Mən sosializm vətənimin əməkçi xalqının gələcək səadətini təmin edici əsərlər yaza bilərəm, yazacağam da, lakin bununla bərabər, yenidən qurulmaya, yenidən yetişməyə can atan, lakin həyatın dərinliyini tezliklə qavraya bilməyən bəzi yazıçılar da vardır" – deyə Hüseyn Cavidə münasibət bildirən C. Cabbarlının dərsini necə mükəmməl aldığını, həqiqətən də, yenidən qurulduğunu, musavatdan şura hökümətinə adladığını və yaşadığı quruluşa cani könüldən xidmət etdiyini, öz məsləkdaşlarına sifarişlə tənqidi məqalələr yazdığını görürük.

Yenidən qurulan və sovet tərbiyəsi ilə yazıb, yaradan Cəfər Cabbarlıya və onun kimi bir çox məsləkdaşlarına görə Hüseyn Cavid "Tərbiyə" olunmaz idi... "Altmış

yaşda təzə şəyird kimi" (Dədə Ələsgərə Naxçıvanda deyilmişdi) quruluşun "yaradıcılıq institutu"na zorən çağırılması və onun məzun olmaq istəməməsi Cavidi "tərbiyə" olunmaz kimi məşhur etmişdi"[490] (Yunisli, 2012). Bir ata deyimindəki "gördün, hamı gözüqıpıq, sən də ol gözüqıpıq" - hökmünü şair və yazıçıların "boynuna qoyan", üzdə ədəbiyyat "mayakları" Cavid əfəndiyə də "göy əski" hazırlayırdılar. Necə ki qondarılmış "ədəbi məhkəmələr" qara siyahıya aid sənədlərin "kötüyü" idi"[491] (Yunisli, 2012).

Hər iki dramaturqu müqayisə edən filosofun Səlahəddin Xəlilovun qənaətləri daha sərrast və ötkəmdir; "Əslində, hər iki dahi eyni bir yolu qət edir. Biri səmadan enir, o biri səmaya yüksəlir. Biri həyatın ali məna zirvəsindən həyatın dibinə işıq salır, o biri həyatın dibindən onun ali mənasına doğru insanlarla birlikdə çox çətin bir yüksəliş yolu keçməyə çalışır. Yollar eyni olsa da, səmtlər bir-birinin əksinədir. Əvvəlcə özü nura çatıb, insanlara

[490] Yunisli F. Cavid - bu böyük ad nə qədər calibi-heyrət?! "Mədəniyyət"qəz., 30 iyun, 2012
[491] Yunisli F. Cavid - bu böyük ad nə qədər calibi-heyrət?! "Mədəniyyət"qəz., 30 iyun, 2012

nurdan pay verməklə, insanlarla birlikdə nura doğru yürüş etmək fərqli hadisələrdir. Lakin istiqamətlər fərqli olsa da, məqsədlər, məramlar eynidir və hər iki ədib həm böyük mütəfəkkir, filosof, həm də gözəl sənətkardır" (Xəlilov, 2001:14). Cavid sənətkar olmaqla yanaşı, həm də filosofdur, "lakin kim əvvəlcə filosofdur, kim əvvəlcə sənətkar? Bax, əsas fərq də burada üzə çıxır. Cavid isə əvvəlcədən filosof idi. O, yüksək təhsil görmüş, bir sıra fəlsəfi təlimlərdən xəbərdar olan və öz fəlsəfi konsepsiyası, ideyaları olan və bu ideyaları bədii yolla, sənət vasitəsilə çatdırmaq istəyən bir sənətkar idi. Cavid birbaşa yüksək mərtəbədən başlayır. İdeyalardan başlayıb həyatın özünə doğru gəlir"[492] (Xəlilov,2001:14).

Caviddən fərqli olaraq, "Cabbarlı bir təbiətşünas alim, eksperimentator səyi, entuziazmı ilə yaşadığı maddi dünyanın iç üzünü axtarır; qırır, dağıdır, sökür, yenidən qurur, yenidən sökür, bütün daxili qatları alt-üst edir, açıb bizə göstərir, lakin yenə əsil mahiyyət deyil, yeni bir pərdə,

---

[492] Xəlilov S. Cavid  və Cabbarlı. Müxtəlifliyin vəhdəti. (fəlsəfi etüdlər). Bakı: Azərbaycan Universiteti, 2001, s.14

yeni bir illüziya, yeni bir riya, yeni bir saxtakarlıq, haqsızlıq üzə çıxır... Bəs haradadır həqiqət? Bəs mahiyyətə necə çatmaq olar? Bax, bu suallar bütün aydınlığı ilə gözlərimiz önündə canlanır, lakin elə bil ki, cavab tapılmır. "Sevil"də çadranın atılması və guya mahiyyətin, həqiqətin üzə çıxarılması, "Oqtay Eloğlu"nda pərdənin sökülməsi, divarların iç üzünün göstərilməsi, "Od gəlini"ndə, hətta paltardan da xilas olmaq, adət-ənənənin də buxovlarından azad olmaq, islamın da ehkamlarına qarşı çıxmaq cəhdləri - mütləq azadlıq axtarışları... Bütün bunlar, təbii ki, uğurla nəticələnmir. Onda nədir bu axtarışların mənası? Məna elə axtarışın uğursuzluğundadır. Mənfi cavab da bir cavabdır"[493] (Xəlilov,2003:14), "yanlış da bir naxışdır."

Cavid isə, lap əvvəlcədən mahiyyət qatında əyləşib bizim bu fani (maddi) dünyada kölgələrin oyununu izləyir" və onun "əsas məqsədi ideyanı çatdırmaqdır. Bədii üsul və təhkiyə, ola bilsin ki, hətta təsadüfi seçilmiş vasitələrdir. Yəni əsas inkişaf xətti ideya ilə bağlı olduğundan, hadisələr

[493] Xəlilov S. Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti. (fəlsəfi etüdlər). Bakı: Azərbaycan Universiteti, 2001,s.14

sonradan seçilir və bu ideyanın təkamülünə uyğunlaşdırılır. Cavid irəlicədən qoyduğu bir fəlsəfi ideyanın bədii yolla açılışına çalışarkən cari, gerçək hadisələrdən daha çox tarixi mövzulara və rəvayətlərə müraciət edir. Bu mövzular ümumbəşəri mövzulardır. Konkret zaman və məkanla bağlı deyildir. Hətta tarixdə həqiqətən məlum olan hadisələr də konkret zaman-məkan müəyyənliyindən, dövrün spesifik xüsusiyyətlərindən, milli etnoqrafik mündəricədən azad olunur, bütün bunlar ancaq rəmzlərlə təqdim edilir və təhkiyə ancaq ideyanın açılışına xidmət edir. Sanki bədii xarakter də, milli kolorit də arxa plana keçir və ideyanın inkişaf yolunu kölgədə qoymamaq üçün bir fon rolunu oynamaqla kifayətlənir. Yəni Caviddə hadisələr ikinci plandadır, fokusdan kənardadır və burada hər hansı detalın elə bir əhəmiyyəti yoxdur. Məhz ona görədir ki, maddi realizm müstəvisində, konkretlik prizmasında Cavid yaradıcılığı tənqidə tab gətirmir” [494] (Xəlilov, 2003:14).

Ümumiyyətlə, “Hüseyn Cavid və Cəfər Cabbarlı

[494] Xəlilov S. Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti. (fəlsəfi etüdlər). Bakı: Azərbaycan Universiteti, 2001, s.14

tarixi romantikası eyni ədəbi-tarixi dövrün məhsulları olsa da, onlar bir-birinə kəsişmə nöqtəsi olmayan müxtəlif ideya-məzmun kontekstinin hadisələri idi. Yeniləşən tarixi-ictimai epoxada yeni elmi-nəzəri əsaslarla formalaşan, fərqli estetik mövqe nümayiş etdirən tarixi mövzunun S.Vurğuna qədərki dövrünün ağırlıq mərkəzində məhz C.Cabbarlı və H.Cavid dayanır”[495] (Mustafayeva, 2016:246-255). Təəssüf ki “yeniləşən tarixi-ictimai epoxada” “Ədəbi mübahisələr”də Cavidlə Cabbarlı üz-üzə qoyulub, biri-digərini ittiham edib. Sovet dramaturqu C.Cabbarlı  sovet adamı, sovet sənətkarı ola bilməyən Cavidi tənqid edib.  Cavid repressiyaya məruz qalsa da Cabbarlını repressiyadan ölüm xilas edib.

Professor Cəlal Qasımovun xalqımızın keçdiyi kəsməkeşli taledən dərs almaq üçün ciddi bir “dərslik” olan “Ədəbi məhkəmələr” əsərində  “günümüzün  bir cox yerli-yersiz mülahizələrin elmi cəhətdən sistemləşdirilmiş cavabı vardır. Əsərdə elmi şərhlərlə təqdim olunan faktlar

[495] Mustafayeva A. Hüseyn Cavid, Cəfər Cabbarlı dramlarında tarix və onun bədii obrazı/ Ədəbiyyat məcmuəsi.Bakı:Elm və Təhsil, 2016. XXVII cild. s, 246-255

bolşevizm mühitində ziyalılara qarşı törədilən üsulların "iblisin intiqamı" ilə düzənləndiyini sübut edir. Ən qiymətli dəyərin yalnız özünü qoruma yox, millətin mirasını saxlamaq olduğunu aşılayan tədqiqatçı "özü (H.Cavid, Ə.Cavad, M. Müsfiq, S.Mümtaz və s.) və sözü (S.Vurğun, S.Rüstəm, M.Rahim və s) həbs olunanlardan" bəhs edəndə, haqlı olaraq yaşayanların da repressiyadan yaxa qurtara bilməmələri təsəvvürünü yaradır; çünki repressiya hədəfi ayrı-ayrı şəxsiyyətlərdən daha çox ənənəvi dəyərlər, milli ruh idi. Onu qoruyub saxlamaq istəyəndə şəxsiyyətlər məhz həmin cəhətləri ilə mühakiməyə cəlb olunurdular, onların qüruru, qoruduqlarından aldıqları mənəvi güc cəzaya məruz qalaraq sınağa çəkilirdi"[496] (Məmməd, 2016:283-88).

Bu sınaqda bəzilərinin özü, bəzilərinin ruhu, sözü həbs edilmişdi.

Milli ziyalılarımızın, din adamlarımızın repressiya illərində məruz qaldığı təqiblər, iftiralar, həbslər haqda

[496] Məmməd T."Ədəbi məhkəmə və repressiya – bir yolun iki mərhələsi" // Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı:Xan, 2016. 120 s. 283-288

faktlara əsaslanan C.Qasımovun "Ədəbi məhkəmələr"i "hazırda yaşadığımız bir çox problemlərin təməlləri və ilk sütunları haqda bizdə təsəvvür yaranır"[497] (Məmməd, 2016: 283-88).

Bu gün yaxın keçmişə ekuskurs edəndə, Hüseyn Cavidin "dramaturgiyamızın parlaq ulduzu" adlandırdığı Cəfər Cabbarlının dəyişimini, müsavatdan üz çevirərək sovet dramaturqu olmasını, "Cim" imzası ilə "Zəhmət" qəzetində ard-arda gedən "Ədəbi mübahisələr"ini, "Ədəbi məhkəmələr"də prokurorsayağı mühakimələrini oxuyarkən Cəfər Cabbarlıya daha çox ürəyimiz ağrıyır. Gənc istedad C.Cabbarlı, əgər sosioloji dəyişimə məruz qalmasaydı nələr yazıb yarada bilərdi. Təbii ki bu zamanın parodoksudur.

"Sovet ədəbiyyati: gerçəkliklər, həqiqətlər, ziddiy-yətlər" adlı məqaləsində bir çox mətləblərə açıqlıq gətirən professor Kamil Vəli Nərimanoğlu K.Marksın sözünü sitat gətirir: "Bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır"[498] (Nərimanoğlu, 2008:69). Amma, bu gözəl sözün bir də as-

---

[497] Yenə orda,s.283-288

[498]Nərimanoğlu V. K. Sovet ədəbiyyatı: gerçəkliklər, həqiqətlər, ziddiyyətlər // Azərbaycan. 2008, №1,s.69

tar üzü var: “Bəşəriyyət keçmişindən ağlaya-ağlaya ayrılır.” Sovet xalqları və əlbəttə ki, sovet ədəbiyyatı öz keçmişindən həm gülə-gülə, həm də ağlaya-ağlaya ayrılır.” Amma unutmayaq ki, “Bu göz yaşları da, gülüş yaşları da bu yenidən qurularaq sosializmin düdükçüsinə çevrilənlər də, yenidən qurula bilməyib xalq düşməni kimi Sibirdə məhv edilənlər də bizimdir. Bizim taleyimizdir”[499] (Nərimanoğlu,2008: 69). Bu mənada, Hüseyn Cavid də, Cəfər Cabbarlı da bizimdir və onların taleyi bir tək özlərinin taleyi – faciəsi  deyil, bütövlükdə Azərbaycanın faciəsidir.

[499] Yenə orda,s.69

# IV FƏSİL
# ƏBƏDİ SƏNƏTKAR, ƏBƏDİ SƏNƏT

Filosof şair – dramaturq Hüseyn Cavidin sənəti milli, milli olduğu qədər də bəşəridir. Yaradıcılığı üçün səciyyəvi, konsepsiya təşkil edəcək bir ideya olan "gözəllik və sevgi" şairini – Cavid əfəndini yalnız "gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıra qədər başa düşmək olar"[500] (Qarayev, 1985:105).

Dünya, aləm möcüzələrlə, gözəlliklərlə doludur. Bu möcüzələr, bu gözəlliklər sirri xudadır. Bu gözəlliyi görmək, duymaq, ondakı fəlsəfəni dərk etmək hər kəsə nəsib olmur. "Hüsnü xuda şairi" Cavid insanda, təbiətdə və dünyadakı gözəllikləri görür, duyur, ondakı fəlsəfəni idrak edir, gözəlliyə tapınırdı. Gözəlliyi və sevgini özünə Tanrı sayan şair sevərək özünüdərkə - Haqqa-Həqiətə yaxınlaşmağa, "sevərək Allahlaşmağa" üstünlük verirdi.

Cəmiyyət və sənətdə öz yerini bu sözlərlə müəyyən edən "hüsni-xuda" və "səma şairi", mütəfəkkir Hüseyn

---

[500] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.105

sənətkar "yer həqiqətlərindən çox-çox yüksəkdə dayandı, çünki göylər şairində "hüsni-xuda"ya, "səma"ya bağlılıq yerə bağlılıqdan daha güclü idi." Xudanın sirrlərindən xəbərdar olan "hüsnü-xuda" şairi "xuda"nın ona bəxş etdiklərindən də, fitri istedadından da xəbərdar idi. Xəbərdar idi ki, hələ 27 yaşında olarkən (1909) o, özünə "Cavid" təxəllüsünü götürmüş, bunula da adının və sənətinin əbədi qalacağına inamını ifadə etmişdi. Mütəfəkkir şair özünün kimliyini, əbədiliyini hələ 27 yaşında ikən dərk etmişdi. Kiçik yaşlarında "Gülçün" təxəllüsü ilə şeirlər yazan şair, 14 yaşlarında "yol"a qədəm qoyaraq "Salik", 27-yaşında isə "Cavid"ləşmişdi.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatının "qüdrətli söz ustalarından biri", birincisidir. Onun haqqında çox deyilib, çox yazılıb. Şair tərifi də sağlığında eşidib, xoş və boz tənqidi də. Keçən əsrin əvvəllərində mətbuatda onun yaradıcılığı haqqında ötkəm, keçərli fikirlər də deyilib, qəlb bulandıran sözlər də yer alıb. Amma nədənsə hər zaman diqqətimizi 1923-cü ildə mətbuatda (Yeni fikir" qəzeti) yer alan bu sözlər çəkib: "Hələ tarix Hüseyn Cavidə

əl vurmayıbdır. Şairimiz bir tərəfdə oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir.” Bu sözlərin müəllifi Cavidin müasiri və dostu o zaman gənc olan görkəmli ədəbiyyatşünas, professor Əziz Şərif idi. Bu sözlər yazılanda həqiqətən də, “tarix hələ Hüseyn Cavidə əl vurmamışdı.” Nə yaxşı ki, tarix Cavid əfəndiyə bu imkanı vermişdi. Və böyük sənətkar “bir tərəfdə oturub” şedevr əsərlərini; “Peyğəmbər”, “Toğal Teymur”, “Azər”, “Xəyyam”, “Səyavuş”, “Şəhla” və “İblisin intiqamı”nı yazmışdı. Tam da bu sözlərin mətbuatda yer aldığı ildə mütəfəkkir sənətkar “Peyğəmbər” əsərini, az sonra isə “Topal Teymur”u yazaraq özünün tərəfini, yönünü bəyan etmişdi (Azərbaycanda “İnqilab və Mədəniyyət” jurnalının təməli də bu illərdə qoyulurdu. Və Azərbaycan Şura Yazıçıları İttifaqının orqanı  olan jurnalın adı bir çox şeylərin xəbərçisi idi. Jurnala yazılacaq məqalələrin də hansı məqsədə xidmətlə yazılacağı da bəlli idi). də Qələmlərini itiləyib, sovetlərə xidmətə köklənmiş tənqidçilər boş dayanmayıb “bir tərəfdə oturub əsərlərini yazan” Hüseyn Cavidin yazdıqlarını tənqidi yazılarla cavab

verir, onu İslam və Türk tarixinə  - “köhnə mövzu”lara müraciət etməkdə günahlandrırdılar. Cavid əfəndi hər şeydən öncə romantik idi, “romantiklər millətin birləşməsi, özünü tanıması üçün keçmişinə dönüb baxmasını zəruri sayırdılar.” Və “tarixə müraciət milləti millət kimi təsdiq, ya da millətin bugünkü tənəzzülünü ört-basdır etmək, ittihad, ittifaq, türk birliyi fikrinə yardım üçün düşünülmüşdü”[501] (Əliyeva, 2002:279).

Cavid əfəndini “köhnə mövzu”lara müraciət etməkdə günahlandıranlardan bir də Cavidşünaslığın yaradıcısı eyni zamanda, “Peyğəmbər”in ilk tədqiqatşısı Hənəfi Zeynallı idi. 1923-cü ildə pyesə (“Peyğəmbər”) ilk materialist şərh verən H.Zeynallı “Peyğəmbər” haqqında mülahizələrim” adlı məqaləsində əsərin mövzusunu, metodunu, ideyasını tənqid etsə” də Cavid əfəndini “hər kəsi düşüncəsində əlçatmaz bir dərəcədə yüksəklərə çıxarılmış bir dühanın, adi bir insan, fəqət düşündüyünə inanan, idealına qoşan bir insan olduğunu”[502]  (Zeynallı,1979:34-35) göstərdiyi üçün

[501] Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002,s.279
[502] Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s.34-35

alqışlamışdı”[503] (Hacıyeva, 2010:82-91). Həmçinin ədibin “köhnə mövzulara” müraciət etməsinə, mövzularını və qəhrəmanlarını seçdiyi çoğrafiyaya, günün reallıqlarından bəhs etməməsinə münasibət bildirmişlər. Daha doğrusu buna məcbur buraxılmışdılar:”Məəttəəssuf övraqi-ədəbiyyəmizin layiqli bir müntəqidi fiqdanı dolayısı ilə ədəbiyyatda ixtisas kəsb etmədən belə Cavid kimi ümumun sevimlisi olan bir şairimizin hələ mürəkkəbi qurumamış “Peyğəmbər”i haqqında tənqidçilər misali mülahizələr yürütməyə cəsarət etməyə məcbur olduq, zatən mən əvvəldən bu fikirdə deyildim. Bəlkə belə iqdamata icbar edildim” (Zeynallı,1983:136). İcbar edilərək yazdığı məqalələrlə Cavidşünaslığın əsasını qoyan Hənəfi Zeynallı ədibin əsərlərinin mövzusuna toxunaraq yazırdı: “Böyük mövzu dedik ya. İştə Cavidin ən zəif nüqtələrindən biri də bu mövzuları alıb üzərində çox çalışmasıdır. Ona görədir ki, ondan gözlədiyimiz qədər meydana böyük bir əsər atmaz. Cavid bir “Şeyx Sənan” yazar, bir “Peyğəmbər”

[503] Hacıyeva A. Hüseyn Cavidin “Peyğəmbər dramı tarixi və bədii həqiqətlər zəminində // Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Humanitar elmlər seriyası, 2010, №3-4, s.82-91

yaratmağa qeyrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır”[504] (Zeynallı,1983: 41).

Tənqidçilər belə düşünürdülər, lakin böyük bir fəhmlə özünün ədəbiyyatda əbədiliyini idrak edən Cavid nədən yazdığını da bilirdi, yazdıqlarının əbədilik qazanacağını da; “Nədən yazmağın məsuliyyətini həmişə yadda saxlamaq lazımdır ki, beşgünlük olmasın. Yazının tərzi vaxtı ötəndən sonra köhnə görünə bilər. Bu qorxulu deyil. Qorxulusu odur ki, mövzuların günün hay-küyü ilə bağlı olsun və hay-küy yatan kimi də unudulsun. Məsələn, baxın, indi Çay-Kay Şidən yazırlar, şer də həsr eləyirlər ona. Ancaq görərsiniz, çox keçməyək ki, o yazıların çap olduğu qəzet-jurnalın vərəqləri yalnız əl silməyə yarayacaqdır”[505] (Hüseynov, 1988: 264).).

Ədəbiyyatımızda o dövrdə çox əsərlər önə çıxsa da, çoxları da zamanın sınağından çıxa bilməyərək arxivlərin bir küncünə atılıb qalıb, çünki yazdıqları əsərlərin ömrü də

---

[504] Zeynallı H.Seçilmiş əsərləri. Bakı:Yazıçı,1983, s.36-79
[505] Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988, s.264

qulluq etdikləri sovetlərin ömrü qədər olub. Hüseyn Cavidin əsərləri isə yaşayır. Bu gün arxivlərin bir küncünə atılıb qalan əsərlərin müəllifləri o dövrdə ədəbi tənqiddə daha çox fəallıq göstərənlərdi. Belə bir zamanda Hüseyn Cavid "Vətən xaini", "xalq düşməni" adlandırılaraq Sibirə sürgün edilmiş, 20 il qədər zaman kəsimində kimsə böyük sənətkarın adını çəkməyə cəsarət etməmişdi. H.Cavidin "Vətən xaini", "xalq düşməni" kimi ittiham olunması absurddur, çünki Cavidin "Qırmızı imperiya"ya xəyanəti vətəninə, xalqına sevgisindən doğurdu. Mütəfəkkir Cavid heç zaman Şərqdə ilk dəfə qurulan Azərbaycan Demokratik Respublikasını yaşamağa qoymayan "Qırmızı imperiya"nı özünə vətən hesab etməmişdi. Cavid üçün vətən Turandı, Azərbaycan da bu vətənin bir parçası idi. Təəssüf ki, "Vətən, vətən deyərək hər diyarə səs salan", "dilindən məqali-vətən"i düşürməyən şairi vətənində nə yaşamağa, nə də ölməyə qoymadılar. O, vətəndən uzaqlarda, Sibirdə həyata vida etdi. Deyirlər, "coğrafiya taledir." "Coğrafiya tale" olsa da, bu "Ədalət istərəm, yalnız ədalət" – deyən mütəfəkkir sənətkara dövranın,

zamanın, amansız sovet rejminin ədalətsizliyi idi.

Yaradıcılığı millət, dil, ana, vətən, ədalət, vicdan, sülh, sevgi üzərində qurulan, bütün əsərləri haqqa və həqiqətə sevgidən yoğrulan sənətkarın dramaturgiyası "kəskin süjetləri, obrazları, xarakter toqquşmaları, sərt konfliktləri və mövzunun bədii həlli baxımından hərtərəflidir." Və "yüksək poetikası", "bədii-estetik dəyəri baxımından" qiymətli və "cəzbedici"dir. Onun "Şeyx Sənan"ı Şekspirin "Romeo və Cülyetta"sından yüksəkdə dayanir. "İblis"i "Hamlet" ilə zirvəni paylaşır. Bəziləri yazır ki, "Hüseyn əfəndini "xəyanətdə" suçlamaq dünyanın ən böyük cəfəngiyyatı idi (Qeyd edək ki, Cavid əfəndiyə Hüseyn əfəndi demək... bu da bir başqa yazının mövzusudur. Bu yanlış bir ifadədir, hətta şairin qızı Turan xanımın heç həzz etmədiyi ifadədir). Əslində, onun sovet rejiminə qarşı heç bir siyasi-ictimai fəaliyyəti olmamışdı, əgər əsərləri, "İblisə uymuş bəşəriyyət" - ittihamı sosializm realizminə və ya sovet "gerçəklikləri"nə uyuşmurdusa bu, xəyanət deyildi, Kremlə yox, haqqa və gerçək bədii sözə tapınan şairin cəsarəti idi." Turançı idealı ilə yaşayan Cavidin xəyanəti də

“Kremlə, rusa, sosializm realizminə və ya sovet “gerçəklikləri”nə deyildimi? Yaradıcılığı ilə məfkurə savaşı verən Cavid ADR-i boğan bolşevikləri alqışlasaydı, Kremlə, Stalinə mədhiyyələr yazsaydı, sosializm realizminə və ya sovet “gerçəklikləri”nə ayaq uydursaydı, bu zaman özünə, ideallarına, inandığı və tapındığı Turana xəyanət edəcəkdi. Yəni Cavidə qarşı suçlamalar o günün prizmasından baxanda həqiqət idi. Cavid “Qırmızı imperiya”nı özünə vətən saymaması həqiqət idi. Cavidin türkçü,türançı olması həqiqət idi. O, bunu gizlətmir, pərdələmir, əksinə 1923-cü ildə “Peyğəmbər”i yazmaqla islama bağlılığını bəyan edir, 1926-cı ildə “Topal Teymur”u yazmaqla vətənini işğal edənlərə qorxmadan, çəkinmədən “Mən türkəm”,-mesajını verirdi. Cavidi “burjua yazıçısı” kimi tənqid edən məqalələrin artıb, çoxalması, mətbuat səhifələrində yer almasının mərkəzində də bu məsələ dururdu. Şairin sovet quruluşunun tələblərinə boyun əymək istəməməsi tənqidçilərin təəccübünə səbəb olurdu. M.Quliyev “maarif və mədəniyyət” jurnalındakı “Hazırkı türk ədəbiyyatı” adlı məqaləsində Əli bəy

Hüseynzadənin, Hüseyn Cavidin "sənət sənət üçündür" nəzəriyyəsinin tərəfdarı olduğunu göstərir, "əlavə edirdi ki, Cavid ondan sovet quruluşunu təbliğini tələb edənlərə cavab şəklində yazdığı məktubunda: "məncə ədəbiyyat başqa, siyasət və təbliğat başqadır. Təbliğat mənim işim deyildir." Sovetləri alqışlayıb təbliğ etməyən şairə qarşı tənqid 1933-cü illərdən sonra daha şiddətlənir, başqa bir məcraya yönəlir, çünki bolşeviklər həyatda və sənətdə sosialist inqlabını başa çatdırmaq üçün şüur və psixologiyalarda maarifçi və tənqidi realizmdən fərqli olaraq yeni bir "izm" sosialist realizmi modeli, qəlibi yaratmışdılar. Əslində, siyasi cərəyan olan sosialist realizmi geçmiş SSRİ-nin və digər sosialist ölkələrinin incəsənətində bədii yaradıcılığa dövlət siyasəti vasitələri, həmçinin senzura ilə yeridilən və sosializm quruculuğu məqsədinə xidmət edən dünyagörüşü metodudur. Azərbaycan dramaturgiyasında sosialist realizmin banisi Cəfər Cabbarlı sayılır.

Milli ədəbiyyatşünaslığımızda termin kimi "Sosialist realizmi" ilk dəfə 1933-cü ildə, Azərbaycan Sovet Yazıçıları cəmiyyətinin pleniumunda H.Nəzərlinin məruzəsində

işlədilir, bir il sonra isə sovet yazıçılarının Ümumittifaq qurultayında bu metod sovet ədəbiyyatının başlıca metodu elan edilir (1934), ayrı-ayrı məruzə və çıxışlarda sosialist realizminin prinsipləri müəyyənləşdirilir, sovet həqiqətinə ən uyğun adın sosialist realizmi olduğu dəqiqləşdirilir.

Sosialist realizmi sovet bədii ədəbiyyatının və sovet tənqidinin əsas metodu olaraq sənətkardan gerçəkliyi inqlabi inkişafda doğru və tarixi konkretliyi ilə təsvir etməyi tələb edirdi. 1967-ci ildə nəşr edilən Sovet ədəbiyyatı"nda yazılır: "Burada bədii təsvirin həqiqiliyi və tarixi konkretliyi zəhmətkeşləri sosialist ideyaları ruhunda dəyişdirib tərbiyə etmək vəzifəsi ilə uyğunlaşmalıdır. Sosialist realizmi bədii yaradıcılığa geniş təşəbbüskarlıq gətirmək üçün, müxtəlif formalar, üsullar, janrlar seçmək üçün fövqəladə imkan verir"[506] (1976,110).

Həqiqətən də, sosialist realizmi metodu əsasında yaranan ədəbiyyat proletar işinin "vintciyi", "təkərciyi" funksiyasını yerinə yetirir, partiyanın siyasətini bir

[506] Hüseyn Cavid./Sovet ədəbiyyatı, 2cilddəIc., Bakı, 1967, s.110

mexanizm kimi hərəkətə gətirirdi. Sənətkarlardan sosialist realizminə sadiq qalmağı tələb edən proletariat diktaturasının getdikcə “ideoloji buxov”a çevirilməsi ilə cəmiyyətdə və ədəbiyyatda qorxu, səksəkə, “siyasi vahimə” yaradırdı. Belə bir cəmiyyətdə azad ədəbiyyat yaratmaq hər sənətkarın işi deyildi, ancaq “mənəvi təqiblər, siyasi vahimə nə qədər davam etsə də, o mənəvi təqiblər, o siyasi vahimələrin fövqündə duran azad ədəbiyyat da bir boy ucalırdı.” “Sənətkar vicdanına xəyanət etməyən” Hüseyn Cavid “siyasi vahimələr fövqündə duran azad ədəbiyyat” yaradanlardan idi.

Cavid əfəndinin yaradıcılığı sovet ideologiyası üçün, sovet ideologiyası da Cavid üçün yad idi. Məddahlıq etməyi bacarmyan Cavid əfəndi nə komunist partiyasını, nə də Lenini, Stalini mədh etmirdi. Onun yaradıcılığında tarlaya, pambığa, iliç lampalarına həsr edilmiş bir misraya rast gəlinmir, yəni şairin yaradıcılığı yaşadığı dövrü - “müasir həyatı əks etdirmir”, çünki “müasir həyatı əks etdirmə” ideologiyanı qəbul etməkdən, məddahlıqdan, təbliğdən keçirdi. “İdealist şair”in materialist təfəkkürü

həzm etməsi çətin bir iş idi. Yenidən qurulanlar, ideologiyaya qulluq göstərənlər Cavid əfəndinin ayaq dirəməsini həzm edə bilmirdilər. Yerlərini daha da möhkəmlətmək üçün "Cavidin qələmdaşları" hər əlinə bir daş almışdı. Özümüzdən özümüzə sərt, kəskin hücum başlamışdı. Hücumçular da: M.Quliyev, M.Hüseyn, Ə.Nazim, S.Şamilov, M.K.Ələkbərli, H.Nəzərli, Ə.Sadıq və s. hücuma məruz qalanlar da özümüzünkülər, sevdiklərimiz; Ə.Cavadımız, Y.V.Çəmənzəminlimiz, M.Müşfiqimiz, H.Cavidimiz və s. idi. Bu hücum daha çox mətbuat səhifələrində yer alan tənqidimizdə, ədəbi məhkəmələrdə daha da kəskinləşirdi. Bu mətbuat orqanlarının "Hücum", "Mədəni Hücum", "İnqilab", "İnqilab və Mədəniyyət" və s. adları belə nəyə və kimə qulluq etdiyi bəyan edir. "Bu jurnalın ilk saylarından son sayına qədər ən çox yer verdiyi Leninə, Stalinə, inqilaba həsr edilən yazılar çoxluq təşkil edib. "Sonuncu 11-12-ci sayı 75 səhifədən ibarət olan jurnalın 45-səhifəsi yalnız Stalinə həsr edilib. S.Vurğunun "Azad ilham", Aşıq Hüseyn Bozalqanlının "Stalin", S.Rüstəmin "Stalin",

M.Müşfiqin "Azadlıq dastanı", M.Rahimin "Stalin", Aşıq Əsədin "Stalin", Mirzə Səmədin "Stalin yoldaşa", Şair Nəcəfin "Stalin", Süleyman Staliskinin "Ulu Stalin yoldaşa" və s. Bax bu ifrat dərəcədə məddahlıq deyil, bəs nə idi?)"[507] (Dünyaminqızı,2017). Eyni zamanda da "Ədəbi məhkəmələr"in. Məhkəmənin də "ədəbi"si olarmı?

Beləliklə, 1923-cü ildən 40-cı illər arasında çap olunan bu mətbuat orqanları kör-koranə bir şəkildə hakim partiyanın siyasi ideologiyasına cani-dildən qulluq göstərir, ideologiyanı təbliğ edirdi (bu ideologiyaya uymayanlar kimi, ideologiyaya qulluq göstərənlərin sonrakı aqibəti məlumdur). Özümüzə qənim kəsilmiş bu jurnallarda gedən tənqidi yazılardan qan qoxusu gəlirdi. Adı çəkilən yazıçı və şairlər "nişan" verilir, taleləri həll olunurdu. H.Cavid də "nişan" verilənlər arasında idi. Əvəz Sadığın "Mübarizə davam edir" adlı məqaləsində Azərbaycan Şura Yazıçılar İttifaqında keçirilən müşavirəsindən coşqunluqla bəhs olunur. Məgərsə, Ə.Sadığın böyük coşqunluqla bəhs etdiyi

[507] Dünyaminqızı Q. "İnqilab və Mədəniyyət" kimdən, nədən və neçə yazırdı? Kaspi qəz., 12 aprel, 2017

müşavirə Hüseyn Cavid əfəndini “xalq düşməni” çıxarmaq üçün toplanıbmış. Ancaq 8 səhifəlik məqalədə Ə.Sadıq yalnız Cavidin adını çəkməyib, eyni sözləri Əhməd Cavad, Mikayıl Rəfili, Rəsul Rza, Seyid Hüseyn yaradıcılığı haqqında da söyləyib və sonda müşavirə iştirakçılarına sualla müraciət edib: “Rəfili şairdirmi, deyilmi? Rəsul şairdirmi, deyilmi?”

Həm Ə.Sadığın, həm də bolşevik ədəbi tənqidin Seyfulla Şamilovun timsalında “Cavidin yenidən qurulması” tələbini qətiyyətlə irəli sürdüyü məqalələr o dövrün ədəbi mühitinin mənzərəsini gözümüzdə o qədər açıq-aşkar canlandırır ki...

Cavid əfəndiyə qarşı mətbuatda baş alıb gedən tənqidi az bilib, bunu özlərinə “nöqsan” sayan tənqidçilərə bu dəfə də Sovet ideologiyasının ədəbiyyat qarşısında ifrat tələbləri qarşısında “Cavidlə Cavid arasında” qalan ədibin “özünüifadə” məqsədi ilə yazıldığı söylənən əsərini (“İblisin intiqamı”) meydana çıxarmaması, “özünü ifadə etməyə cəhd göstərməməsi”, “özünüifadəyə yanaşmaması” dərd olur. Bu sözlərin həqiqət payı yox

deyil. Cavid əfəndinin sovetlərə qafa tutumasını qəbul edə bilmirdilər. O illərin qorxunc siyasi ab-havası altında yazılan "İblisin intiqamı" əsəri haqqında 1967-ci ildə nəşr edilən "Sovet ədəbiyyatı"nın II cildində[508] yazılır: "İblisin iintiqamı" faşizmin ifşasına həsr olunmuşdur. Dramın yazıldığı 1936-37-ci illərdə faşizm taunu (repressiya taunu faşizm taunundan da qorxunc idi) bütün Avropanı bürümüşdü, hətta Şərq ölkələrinə də yayılmaqda idi. Biz bu əsərdə "İblis" faciəsində gördüyümüz İblis, Arif, Rəna və digər surətlərlə yenidən qarşılaşırıq. Əsərdə müəyyən simvolik səciyyə daşıyan İBLİS, I Şeytan, II şeytan, III şeytan IV şeytan və Sülh pərisi və s. kimi surətlərlə yanaşı konkret obrazlar da verilmişdir." "Şair qəhvəyi taunun bütün birləşmələrini, onların ittifaqlarını, bəşəriyyət üçün dəhşətli təhlükə olacağını duymuş və onu ifşa etməyə başlamışdır. Əsərdə alman, italyan, ispan və yapon faşistləri şeytanın, imperializm isə İblisin simasında verilmişdir. İblis onları dünyanın müxtəlif yerlərinə göndərir. Bu iblislərə qarşı şair

[508] Hüseyn Cavid/Sovet ədəbiyyatı.2 cilddə I c., Bakı,1967

sovet vətəndaşı Tüncəri qoymuşdur" ki, Tüncərin də mənası torpağa səpilən toxum deməkdir ki, bu da bütün dünyada sülhün, əmin-amanlığın, ədalətin, tərəqqi və təkamülün, yoxsulların pənahı, arxa və dayağı qadir Sovet ittifaqının qüdrət və əzminin bədii publisistik ifadəsindən ibarətdir"[509] (1967,74). Oçerkin müəllifi yazısını bu sözlərlə bitirir: "Göründyü kimi, H.Cavid sovet dövrü yaradıcılığı ilə nəinki sovet ədəbiyyatını ideya istiqamətlərində dayanmış, o, həmçinin öz yeni əsərləri ilə sovet ədəbiyyatının əməli yaradıcılıq həyatında iştirak etmiş, sosialist realizmi ədəbiyyatının böyük amalına səmimi xidmət etmişdir"[510] (1967:74). Cavid əfəndi "sovet ədəbiyyatının əməli yaradıcılıq həyatında iştirak etmiş, sosialist realizmi ədəbiyyatının böyük amalına səmimi xidmət emişdirmi"? – Qətiyyən!

Professor C.Qasımovun təbirincə desək, bu Cavid əfəndiyə zorla "sovet mundiri geydirməkdir." Amma "sovet mundiri" nə o zamanlar, nə də sonra Cavid əfəndiyə

[509] Hüseyn Cavid/Sovet ədəbiyyatı. 2 cilddə I c., Bakı,1967
[510] Hüseyn Cavid/Sovet ədəbiyyatı.2 cilddə I c., Bakı,1967

görə deyil. Yaratdığı obrazlara nəzər salanda gözümüzün önündə Şərq Peyğəmbəri, Şərq fatehi, Şərq mütəfəkkiri, Şərq aşiqi, Şərq məğlubu sıralanan Cavidin haqqında bu sözlərin dilə gətirilməsi və tənqidin sərtləşməsində məqsəd şairi məhv etmək idi. 1937-ci il martın 28-də Azərbaycan Sovet Yazıçıları İttifaqının Plenumunda Cavid əfəndi ciddi şəkildə tənqid olunmuş, ölkə rəhbəri "Mir Cəfər Bağırov coşaraq demişdir: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa olunmuş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Trinci kimiləri..." Adı "ifşa olunmuş"ların içərisində çəkilən H.Cavid əfəndi 4 iyun gecəsində həbs edilib, iki il Bayıl həbsxanasında saxlanılıb, sonra Sibirə sürgün edilib.

Şairin nakam oğlu - gənc Ərtoğrul Cavid 1939-cu ildə yazırdı: "Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldılar..." Doğrudur, Cavid XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında parlayan bir "günəş" idi və bu "günəş"in işığı işıqdan qorxan "yarasaların gözünü kor

etmiş", onun qarşısını "dumanlar almışdı." Lakin Cavid əfəndi elə bir "günəş" idi ki, "dumanlar" onun qarşısını yalnız 20 il kəsə bildi. 20 il sonra şükürlər olsun ki, "dumanlar" çəkildi, "günəş" öz işığı ilə yenidən ətrafı işıqlandırdı, çünki Cavid əfəndinin "işığı əsrlərin süzgəcindən süzülüb gəlir...Əsrlər bir-birini əvəz edir, o işıq isə, həmişə istedadı özünə çəkir. Çünki o işığı da, istedadı da alovlandırırdı."

"Əfsanəvi Simruq quşu kimi buzlu cəhənnəmin alovları içərisindən silkinib çıxan" Hüseyn Cavid Azərbaycan ədəbiyyatının "sal" daşlarından idi. Lakin ədəbiyyatımızın "sal" daşına daş atanların əlinə daşı verənlər başqaları olsa da, daş atanlar onun "qələmdaşları" idi." Daş atmaq, daşlamaq xəstəliyi dinindən, irqindən asılı olmayaraq insan oğluna məxsusdur. Peyğəmbərə daş atan da, İsanı xaça çəkən də insan deyilmi?

Düşünürük ki, Tanrısı gözəllik və sevgi olan şairi daşlamaq eyni zamanda, gözəlliyi, sevgini, insanlığı, mənəviyyatı daşlamaq idi. Bütün dünyanı, bəşəriyyəti hürr, səadət və rifah, sülh içində görmək istəyən mütəfəkkir

Cavid isə, özünə gözəllik və sevgidən elə bir möhtəşəm saray – qala yaradıb ki, atılan heç bir daş bu qalanın dağıda bilməyib. Bu saray dünya var olduqca var olacaq. Hətta Hüseyn Cavidə iki saray ucaldılıb. Biri öz əsərlərindən ucaldılan saray, ikincisi isə qorxunc sovet totalitar rejimində  pantürkist-millətçi kimi Uzaq Sibirə sürgün edilən Cavidin cənazəsini vətənə gətirən, milli-mənəvi dəyərlərimizin qoruyucusu, ümummilli lider Heydər Əliyev tərəfindən Naxçıvanda ucaldılan "Hüseyn Cavid məqbərəsi."

"Tükəndi taqətü səbrim ədalət! Ah ədalət!" - deyə hər zaman ədalət arzusunda olan, ədalət prinsipini özünə məram seçən, "bütün yaradıcılığı, xüsusən bütöv dramaturgiyası ilə ədalət dramının mücahid yazıçısı" Hüseyn Cavd hər zaman ədalətin var olduğuna və qələbəsinə inanmışdı. Onun Vətənə möhtəşəm qayıdışı da ədalətin var oluşu idi və bu ədalətin var oluşunun müəllifi məhz ümummilli lider Heydər Əliyev idi.

Mütəfəkkir sənətkarın  "həmişəyaşar və ecazkar" sənəti şəxsiyyətini, şəxsiyyəti isə xarakterini xarakterizə

edir. Doğrudur, mütəfəkkir Cavidin həyatı yazdığı facıələrdən faciəli olub, lakin “faciə ancaq məni, ruhu olanların və bu ruh uğrunda mübarizə aparanların qismətidir!”

Akademik Kamal Abdulla yazır ki, ”Hüseyn Cavid öz inadkarlığı ilə Azərbaycan ədəbiyyatının semiotik bütövlüyünü qorudu. “Aşağı var idi, Cavid “Yuxarı”nı qurdu.” Dövrana qulluq edənlər, məddahlar, yenidən qurulanların “aşağı”nın baş alıb getdiyi cəmiyyətdə “yuxarını qurmaq”, “yuxarıda bərqərar olmaq” şairə çox ağır başa gəlsə də, bu Hüseyn Cavidə “ədəbiyyatımızın vicdanı” kimi müqəddəslik bəxş etdi.

Əsrlər keçəcək, zaman dəyişəcək, amma “bizə böyük mətləbləri gizli-gizli duyura bilən” Hüseyn Cavid əfəndinin böyüklüyündən, “Cavidanə” ədəbiyyat yaratma qüdrətindən, “bənzərsiz”liyindən hər zaman danışılacaq, çünki “Cavid sarayı”nın 39 otağının qapısı açılsa da, 40-cı otaq hələ də öz mübhəmliyini qoruyub saxlayır.

# NƏTİCƏ

Həyatı və yaradıcılığı, əsərlərinin səhnə taleyi öz dövründən araşdırılan Hüseyn Cavidin avtobioqrafiyası və sənəti daim elm və sənət adamlarının diqqət mərkəzində olmuş, bu istiqamətdə xeyli tədqiqat əsərləri yazılmışdır. Sənətkarın sağlığında yaranmağa başlayan Cavidşünaslıq özünəməxsus bir tarixi inkişaf yolu keçmiş, aparılan tədqiqatlar böyük maraq doğurmuş, Cavid şəxsiyyətinin böyüklüyü, ülviliyi yeni arxiv materialları əsasında təqdim olunmuşdur. Keşməkeşli həyatı və zəngin sənəti olan şairin əsərlərindəki türkçülük, turançılıq ideyaları və zamana tarixi yanaşmalar günümüzdə də ədəbiyyatşünaslara yeni-yeni fikir və qənaətlərə gəlmək üçün əsas verir.1920-1937-ci illər Cavidyaradıcılığının ən məshuldar dövrü olub. Böyük sənətkar bir-birinin ardınca “Afət” (1921), “Peyğəmbər” (1922), “Topal Teymur” (1925), “Azər” (1928), “Knyaz” (1928), “Səyavuş” (1933), “Xəyyam” (1935),”İblisin intiqamı” (1926) kimi dəyərli əsərlər yazıb.

4 iyun gecəsində həbs edilən Hüseyn Cavid, iki il Bayıl həbsxanasında saxlanılıb, sona Sibirə sürgün edilib. 1910-cu ildən 1937-ci ilə qədər müntəzəm şəkildə bədii yaradıcılıqla məşğul olmuş Hüseyn Cavid millətini, xalqını canından çox sevərkən “xalq düşməni” adlanıb. 20 il kimsə Hüseyn Cavidin adını çəkməyə cəsarət etməyib, Azərbaycan ədəbiyyatşünaslığında Cavidə aid bir məqalə belə yazılmayıb. Yalnız İ.V.Stalinin ölümündən və şairə verilən bəraətdən sonra ağır-ağır olsa da yenidən Cavidin adı çəkilməyə başlayıb. Bəraətdən sonra da hər kəs onun adını çəkməyə, ondan yazmağa cəsarət etməyib. Bu cəsarəti özündən tapanlar isə Cavid yaradıcılığını tədqiq edərək məqalə və monoqrafiyalar yazıb.

Əgər 20-30-cu illər Cavidşünaslığının banisi Hənəfi Zeynallını hesab olunursa, təkamül mərhələsi 60-80-ci illər Cavidşünaslığının banisi akademik M.C.Cəfərov sayılır. Professor Gülşən Əliyeva yazır ki, “Əgər təşəkkül mərhələsində Cavidşünaslığı ədəbi mübahisələr, ziddiyyətli, fikirlər, ədəbi-siyasi ittihamlar, pantürkizm və panislamizm yarlıqları səciyyələndirirdisə 60-80-ci illəri

H.Cavidin sakit və təmkinli elmi-nəzəri dərk xarakterizə edirdi. Çünki bu mərhələnin başında Cavidi sevən və dərindən bilən hər cür çılğınlıqdan konyunkturadan uzaq nəzəriyyəçi alim, akademik Məmməd Cəfər Cəfərov dayanırdı.” Monoqrafik tədqiqatların ilk olaraq yolunu açan M.C.Cəfərovun “Hüseyn Cavid” (1960) monoqrafiyasının ardınca Əbülfəz İbadoğlu “H.Cavidin “İblis”faciəsi” (1969), Məsud Əlioğlu “Hüseyn Cavidin romantizmi” (1975), Zahid Əkbər “Hüseyn Cavidin “Şeyx Sənan” faciəsi” (1977), Yaşar Qarayev “Realizm: sənət və həqiqət” (1980) Rəfiq Zəka Xəndan Cavid sənəti” (1981) kimi əsərlərini yazmaqla “M.Cəfər və onun müasirləri Cavidin Azərbaycan milli romantizminin banisi dünya romantizminin korifeylərindən biri kimi sanballı elmi-nəzəri tədqiqata cəlb edib onun sənətinin böyüklüyünü göstərə bildilər.” Xüsusən də ədibin 100 illik yubileyindən sonra Cavid yaradıcılığına müraciət edən tədqiqatçıların sayı artı. Filosof şairə yeni rakursdan yanaşaraq tədqiq edən iədqiqatçılar və “bu tədqiqlərin nəticəsi olaraq mütəfəkkir sənətkarın şanına layiq” sanballı əsərlər;

Timuçin Əfəndiyev "Hüseyn Cavidin ideyalar aləmi" (1985) və "Romantik dramaturgiyada tarixilik və bədiilik" (1999), akademik Rafael Hüseynov "Vaxtdan uca" (1988) və "Əbədi Cavid" (2007), Yaşar Qarayev "Romantizmin Cavid yaddaşı. Tarix: yaxından və uzaqdan" (1996), Əjdər Tağıoğlu "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" (1991), Səlahəddin Xəlilov "Cavid faciəsi "İblis"də fəlsəfi motivlər" (1996), Kamran Əliyev"Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008), Cəlal Qasımov "Yaddaşın bərpası" (1999),"Məhbus tərcümeyi-halı" (2003), "Cavidi məhbəsə aparan yol" (2007), Alqış Həsənoğlu "Ürfan işığında" (2002), Azər Turan "Hüsnü xuda şairi" (2000), "Hüseyn Cavid" (2007), "Cavidnamə" (2010), Tural Hüseynli "Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatı" (2004), "Hüseyn Cavid: taleyi və sənəti (tərtib edən və toplayan: İ. Həbibbəyli) (2007), Həzakət Əzizova "Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı" (2007), Babaxanlı

Gülbəniz “Azərbaycan ədəbi fikri və Hüseyn Cavid” (2010), İ. (Orucəliyev) Atilla “Hüseyn Cavidin mənzum dramları” (2011), Hüseyn Həşimli “Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri” (2012), Cavidə Məmmədli “Hüseyn Cavidin “Afət” faciəsi” (2007), “Hüseyn Cavid və XX əsr Qərb fəlsəfi düşüncəsi” (2014), “Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri” (2013), L. Əsgərzadə “Hüseyn Cavid və Şərq” (2005) və “Hüseyn Cavid:mühiti və müasirləri” (2016), Sevil Həsənova “H.Cavidin publisistikasında milli-mənəvi dəyərlərin inikası” (2017) və s. monoqrafiyalar yazılaraq Azərbaycan Cavidşünaslığını, bütövlükdə ədəbiyyatşünaslığımızı zənginləşdirdilər.

Cavidşünaslıq üçün son illərdə çap olunmuş on cildlik “Cavidşünaslıq: araşdırmalar toplusu”nun önəmi böyükdür. Bu “fundamental toplu”da Cavidşünaslığın əsas mərhələləri də öz əksin tapır. Professor Gülşən.Əliyeva Kəngərli Azərbaycan Cavidşünaslığının real nəzəri-tarixi vəziyyətinin təsnifatını aşağıdakı kimi verir:

“I mərhələ: Cavidşünaslığın təşəkkülü 1920-1930-cu

illər (1936-ya, H.Cavid tutulana qədər; 1936-1956 Yasaq dövrü. Siyasi bəraətə qədər.

II mərhələ:Cavidşünaslığın nəzəri-tarixi təkamülü: 1956-1981.

III mərhələ: Cavidşünaslığın Milli müəyyənlik mərhələsi. (H.Cavidin anadan olmasının 100 illiyi haqqında Azərbaycan KPMK-nın 21 iyul 1981-ci il tarixli qərarından 1991-ci ilə istiqlal dövrünə qədər). Oncildlik 1983-cü ilə qədərki materialları əhatə edir. Son 30 ilin Cavidşünaslıqı hələlik öz nəşrini və tədqiqini gözləməkdədir.

IV Mərhələ: Cavidşünaslığın istiqlal dövrü mərhələsi (1991-2012).

V Mərhələ: Cavidşünaslığın nəşr və nəzəri metoloji mərhələsi (H.Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında Sərəncam və 10 cildliyin nəşrindən başlanır)" (Əliyeva-Kəngərli, 2013).

Oncildlik "Cavidşünaslıq" toplusu böyük sənətkarın Hüseyn Cavid haqqında 70 illik möhtəşəm bir dövrün tarixini bəzi istisnalarla əks etdirir və bu işdə Cavidşünas

alim Gülbəniz Babaxanlının xidməti danılmazdır.

Oncildlik "Cavidşünaslıq" toplusunu "təkcə nəzəri ədəbiyyatşünaslıq faktı deyil, bütövlükdə tarixi-mədəni hadisə" adlandıran professor G.Əliyeva Kəngərli bu nəşrin əhəmiyyətini bu cəhətlərlə bağlayır; "Cavidşünaslıq" toplusu bu elmin nəzəri-tarixi problemlərini işləyəcək tədqiqatçıların əməyini yüngülləşdirən etibarlı, əsaslı məxəzdir; Bu toplu ədəbi-tənqidi və nəzəri-estetik fikrin böyük romantik şair və filosof H.Cavidə münasibətini əks etdirir. Faktiki olaraq mütəfəkkir şairin ədəbi portretini təsəvvür etməyə imkan verir; toplunun XX əsrin 20-30-cu illərini əhatə edən cildləri bu mürəkkəb, zəngin və ziddiyyətli dövrün ədəbi mübahisələrini, mübahisələrin hansı problemlər ətrafında getdiyini, H.Cavidi 37-nin repressiyasına aparan səbəbləri bir ədəbi-tarixi epoxa kimi ədəbi tənqidin nəzəri-metodoloji səhvlərini Cavidə münasibətdə ədəbi tənqidin sosioloji cılızlığını aydınlaşdırmağa material verir; Toplu H.Cavidin bir filosof sənətkar kimi özünütəsdiq üçün hansı mərhələlərdən, çətinlik və böhtanlardan keçdiyini Hüseyn

Cavid şəxsiyyətinin yenilməzliyini, bütövlük və əzəmətini əks etdirir; "Cavidşünaslıq" təkcə Hüseyn Cavidə yox, ümumən klassik bədii irsə, sənətkara münasibətdə Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-tarixi imkanlarını, sosioloji tənqidin metodoloji gücsüzlüyünü ortaya qoyur"[511] (Əliyeva-Kəngərli, 2013:22). Həqiqətən də, AMEA-nın Hüseyn Cavidin Ev Muzeyinin on cildlik "Cavidşünaslıq" nəşri çağdaş ədəbi fikrə mühim tarixi xidmətdir və bütün bunların hamısının başında H.Cavidin taleyində çox böyük rol oynamış ümummilli lider Heydər Əliyev ismi, Heydər Əliyev nüfuzu və Heydər Əliyev sevgisi dayanır.

Məhz ümummilli lider Heydər Əliyev misilsiz fədakarlıq göstərərək, bütün maneələrə sinə gərib, keçmiş SSRİ-də analoqu olmayan bir qərarı imzalamaqla böyük türkçünün, böyük mütəfəkkirin - filosof H.Cavidin nəşini uzaq Sibirdən doğma vətənə gətirdi, doğulduğu qədim Naxçıvanda torpağa tapşırdı, Cavidlərin pərən-pərən

[511] Əliyeva-Kəngərli G. Cavidşünaslığın hüdudları/525-ci qəzet.- 2013, 21 sentyabr, s.22.

düşmüş məzarlarını bu məqbərəyə gətirtdi. Artıq Cavidlər bir məqbərədə-Hüseyn Cavid məqbərəsində uyuyur. İnsanlar; "Qapanın səcdəyə hörmətlə bütün, O böyük eşqlə yalnız öyünün!!!" - deyə Həqiqətə səsləyən mütəfəkkir Cavidin məqbərəsi önündə hörmətlə, etiramla baş əyib, müqəddəs ruhunu yad edirlər.Dahi Heydər Əliyevin möhtəşəm fəaliyyəti, dahi şair Hüseyn Cavid haqqında verdiyi cəsarətli qərar və sərəncamlar özünəməxsus tarixi, nəzəriyyəsi və estetik hüdudları olan bir elm sahəsi kimi Cavidşünaslığın da inkişafına böyük təkan oldu. Qətiyyətlə demək olar ki, Azərbaycan, eləcə də Dünya ədəbiyyatının zənginləşməsində mühim rol oynayan, romantizmin banisi Hüseyn Cavidin yaradıcılığı fikir, ideya, məzmun, vəzn, fəlsəfə, söz, xüsusən də şəxsiyyəti və məfkurəsi romantizm araşdırıcıları üçün daima tədqiqat obyekti olub, hər zaman da olacaqdır. Filosof şair-dramaturqun həyat və yaradıcılığının öyrənilməsinə, çoxsaylı sanballı monoqrafiyaların yazılmasına baxmayaraq, Cavidin ümman sənəti yeni-yeni rakurslardan təhlil olunacaq, yeni-yeni tədqiqatlar aparılacaq, monoqrafiyalar yazılacaqdır.

## *İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT*


*Abdullayev C. Əsərləri. 7 cilddə. 3-cü cild. Bakı: Elm və təhsil, 2012*

*Abıyeva Z. H.Cavidin yaradıcılığında insan кonsepsiyası. Namizədlik dissertasiyası. Lənkaran dövlət universiteti. Bакı, 1997*

*Akimova E. Hüseyn Cavid lirikasında dekadans / 525-ci qəz., 15 aprel*

*Anar.Vaxtvə baxt haqqında düşüncələr/Hüseynov R.Əbədi Cavid. Bakı:Nurlan, 2007, s.602-608*

*Ağayev Ə. Sənətkarlıq məsələləri. Bakı: Azərnəşr - 1962*

*Ağayev Ə. Hüseyn Cavid və onun "Şeyx Sənan" əsəri, "Ədəbiyyat və incəsənət", 28 oktyabr 1956*

*Ağayev Əkbər. Hüseyn Cavid və onun "Şeyx Sənan" əsəri, "Ədəbiyyat və incəsənət", 4 noyabr 1956*

*Aslan K. XX əsrdə repressiyalara məruz qalanlar. Bakı: Azərnəşr, 2011*

*Ayan H. Nəsim: Həyatı, ədəbi kişiliyi, əsərləri və türkçə*

*Divanının Tənqidli Mətni. I c. Ankara Türk Dil Qurumu Yayınları, 2002*

*Asgerzade L. Hüseyin Cavid efendinin yaratıcılığında türkce konuşan çocuklar / II. Uluslararası Çocuk ve genclik edebiyatı sempozyumu materialları.İstanbul:KBN Dijital Basın tesisleri, 2015, s. 39-46*

*Asgerzade L.İnsanın ve insanlığın kaderinde İblis (Hüseyin Cavid'in İblis trajedisi üzerine bir inceleme)/ Tokyo summit. 2nd international conference on innovative studies of contemporary sciences,17-20 avqust 2020, The Book of full texts p.156-172*

*Asgerzade L.Hüseyin Cavid'in "Peygamberi" islam değerler bağlaminda/ International African Conference On Current Studies Of Science, Technology & Social Sciences, July 6-7, 2020, Johannesburg, South Africa, p. 427-428*

*Asgerzade L.Filozof şair Hüseyin Cavid efendinin yaratıcılığında aşk ve güzellik felsefesi/Avrasiya Kurumu sempozyum bildirileri. Ankara, 2012*

*Asgerzade L.Aşk ve güzellik felsefesinin ışığında sanat (filozof şair Hüseyin Cavidin yaratıcılığı üzerine).*

*Uluslararası Söz, Sanat, Sağlık simpozyumu bildirileri. Edirne, 2016, s. 325-30*

*Asgerzade L.Hüseyin Cavidin aşk ve güzellik felsefesi// Baltam Türklük dergisi. Prizren, 2011, №21, s.37-44*

*Azərbaycan sovet ədəbiyyatı. II cilddə 1c., Bakı, Maarif, 1967*

*Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Qanun, 2010*

*Azərbaycan KP MK –də Hüseyn Cavidin anadan olmasının 100 illliyi haqqında qərar qəbul edilmişdir / Naxçıvan. İctimai, siyasi, ədəbi-bədii, elmi publisistik jurnal., Nax.MR. Ali Məclisinin orqanı. 2007, №16, s, 12-14*

*Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010*

*Babaxanlı G. Unudulmaz alimin cavidşünaslıq fəaliyyəti. "Azərbaycan" qəz., 9 oktyabr, 2011*

*Bayramoğlu A. Bənzərəm bir qocaman dağa ki... Bakı: Elm, 2010*

*Bağırov Q. Huseyn Cavid məni gulləl103nməkdən xilas etdi; Dosent Həmzə Qasımzadənin xatirələrinə əsasən// Azərbaycan muəllimi. 2 noyabr - 1988.*

*Çakır M. Qövsi. Həyatı, ədəbi kişiliyi və Divanı (İncələmə-Tənqidli Mətn-Dizin/Gazi Üniversiteti, Sosyal Bilimlər İnstitutu. Yayınlanmamış Doktora Tezi, Ankara, 2008*

*Cabbarlı C. Əsərləri 4 cilddə, I c., Bakı: "Şərq-Qərb", 2005*

*Cabbarlı. C. Ədəbi mübahisələr/Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, II-III c., Bakı: Elm, 2007*

*Cahangirov İ. Azərbaycan Dövlət Bədaye Teatrosu. Bakı, 1932*

*Cavid H. Əsərləri. 5 cilddə I c., Bakı: Elm, 2007*

*Cavid H. Əsərləri. 5 cilddə II c., Bakı: Elm, 2007*

*Cavid H. Əsərləri. 5 cilddə, III c., Bakı: Elm, 2007*

*Cavid H. Əsərləri. 5 cilddə, IV c., Bakı: Elm, 2007*

*Cavid H. Əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2007*

*Cavidşünaslıq. Araşdırmalar toplusu. 10 cilddə, II- III c., Bakı: Elm, 2007*

*Cavidi xatirlarkən: Hüseyn Cavidə həsr olunmuş məqalələr və xatirələr. Bakı: Gənclik. 1982*

*Cavidi xatırlarkən (Məqalələr və xatirələr, tərtib edən İsgəndər Orucəliyev), Bakı, 1982*

*Cavid M. Cavid haqqında xatirimdə qalanlar. Bakı:Vektor, 2005*

*Cavid H. Həyat və yaradıcılığı haqqında // Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, s. 53 - 75.*

*Cavid H. "Şeyx Sənan" (Azərbaycanca əlyazması) Az.SSR EA Respublika . Əlyazmaları fondu. Arx. 20. Q-14 (160).*

*Camalov K. Azərbaycan romantiklərinin maarifçilik görüşləri. Bakı: Nurlan, 2009*

*Cəfər M. Böyük şair, mütəfəkkir: Hüseyn Cavidin romantikası // Cavid H. Əsərləri. 4 cilddə. 1 c., Bakı: Yazıçı, 1982. s. 5-20.*

*Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr. 1960*

*Cəfərov C. Əsərləri. 2 cilddə, II c., Bakı: Azərnəşr, 1968*

*Cəfər M. Sənət yollarında. Gənclik, Bakı, 1975*

*Cəfərov M. C. "Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Elm, 1963*

*Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977*

*Cəfər Ə. Həqiqət şairi/Cavidşünaslıq. Araşdırmalar toplusu. (Tərtib edəni G.Babaxanlı).10 cilddə, IV c., Bakı:*

*Elm, 2007*

*Cəfərov C. Azərbaycan dram teatrı. Bakı: Azərnəşr, 1959*

*"Cim". Ədəbi mübahisələr//Cavidşünaslıq. Araşdırmalar toplusu. Tərtib edəni G.Babaxanlı.10 cilddə, II-III c. Bakı:Elm, 2007, s.173-175*

*Ədalət Daşdəmirli. Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi Azərbaycan müəllimi. 2011. 8 aprel, s.8.*

*Dünyaminqızı Q. "İnqilab və Mədəniyyət" kimdən, nədən və neçə yazırdı? Kaspi qəz., 12 aprel, 2017*

*Ergin M. Qazı Bürhanəddin Divanı. İstanbul: İstanbul Üniversiteti Ədəbiyyat Fakültəsi Yayınları, 1980*

*Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif. 1978*

*Əfəndiyev T. Tarixi həqiqətə sadiqlik: H. Cavidin əsərləri haqqında // Ulduz. Bakı, 1985, № 8, s. 53-56*

*Əfəndiyev T.Hüseyn Cavid: ideal həqiqət axtarışı. Bakı: Proqres, 2013*

*Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. Bakı, 1985*

*Əfəndiyev T. Romantik dramaturgiyada tarixilik və bədiilik. Bakı, 1999*

*Əfəndiyev T. Huseyn Cavid dramaturgiyası (1910-1920-ci illər). Namizədlik dissertasiyası. Bakı: 1996*

*Əfəndiyev T. Azərbaycan teatr tarixi. Bakı, 2009*

*Əhmədva S. Soykökümüz, milli-mənəvi mədəniyyətimiz, tariximiz. Bakı:Uniprint, 2015*

*Əhmədova S.Hüseyn Cavidin ev Muzeyi. Bakı: Şirvannəşr, 2009*

*Əhmədova S. Böyük ömrün salnaməsi.Bakı: Ecoprint, 2018*

*Əhmədova S.Heydər Əliyevin dil siyasəti. Bakı: İncə Nəşriyyat Evi, 2010*

*Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı.Bakı:Elm və təhsil, 2015*

*Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, 2 cild. Bakı: Apostrof, 2010*

*Əkbərov Z. "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977*

*Ələkbərli M.K. Bədii yaradıcılıq qurultayı/ Cavidşünaslıq. Araştırmlar toplusu (Tərtib edəni G.Babaxanlı). 10 cilddə, II-III c., s 376-378*

*Ələkbərli M. Aprel ədəbiyyatı. "İnqilab və mədəniyyət", 1935, № 10, s.2*

*Ələkbərli M. Azərbaycan ədəbiyyatı. Bakı, 1935*

*Ələkbərzadə M. Milli düşüncə əfəndisi/"Yeni Azərbaycan" qəz., 8 sentiyabr, 2005, № 173 (2126)*

*Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975*

*Əlioğlu M. Məslək qardaşları. Bakı: Azərnəşr, 1966*

*Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999*

*Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002*

*Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı, 2002*

*Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s, 25-35.*

*Əliyev K. Sənətkar taleyi və yaradıcılıq azadlığı: H. Cavid romantizmi// XX əsr Azərbaycan romantiklərinin ədəbi görüşlər. Bakı: Elm, 1985, s. 83-111*

*Əliyev K. Mir Cəlal Paşayev –tənqidçi və nəzəriyyəçi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s.13-*

*32*

*Əliyev K. Ölüm cələsi (Cəlal Qasımovun "Əsrin qiyamət çağı" kitabını oxuyarkən) / Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, 222-226*

*Əliyev K.Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s.98-110*

*Əliyev K.Hüseyn Cavidin şəxsiyyəti və poetikası.Bakı:Yazıçı, 1997*

*Əliyev K. Mirzə Fətəlidən Hüseyn Cavidə qədər. Bakı, Yazıçı,1998*

*Əlyev K. Cavid möcüzəsi. Bakı: Nurlan, 2002*

*Əliyev K. Romantizm və folklor. Bakı:Elm, 2006*

*Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı:Nurlan, 2008*

*Ədəbiyyat tarixinə bir baxış / "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" Bakı:Elm və təhsil, 2013, s. 3-12*

*Əliyev K. Yeni ədəbiyyatşünasliq konsepsiyası / Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslarlar. Bakı: Elm və təhsil, 2013, s, 40-46*

*Əliyev K. Hüseyn Cavidin sənət dünyası. Ədəbiyyat qəz., 11 aprel, 2014, №13, s.3*

*Əliyev K. Cavidşünaslıqda ən yenimərhələnin başlanğıcı (Ön söz)/Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC, 2018, 11-16*

*Əliyeva-Kəngərli G. Ön söz. Tarix Cavidə xidmət edir/ T. Əfəndiyev.Hüseyn Cavid: ideal həqiqət axtarışı. Bakı: Proqres, 2013*

*Əliyeva-Kəngərli G. Cavidşünaslığın hüdudları/525-ci qəzet. 2013. 21 sentyabr, s.22.*

*Əlişanoğlu T. XX əsr ədəbiyyatı-tarixi-tipoloji vahid kimi / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı:Elm, 2006*

*Ənvəroğlu H. Azərbaycan şeirinin poetikası. Bakı: Nurlan, 2008*

*Ənvəroğlu (Qasımov) H. Azərbaycan dramaturgiyasi: tarixilik və muasirlik. Bakı: Nurlan, 2008*

*Əsgərli Ə. "XX əsr Azərbaycan şeirinin bədii-estetik qaynaqları" (Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Bakı: Elm, 2010*

*Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Naxçıvan:Əcəmi, 2005.*

*Əsgərzadə L. Hüseyn Cavid: mühiti və müasirləri. Bakı: AFPoliqrAF, 2015*

*Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Filol.ü.f.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmis Dissert ( Əlyazması hüququnda).Naxçıvan, 2005.*

*Əsgərzadə L. Əmir Teymur:tarixdə və ədəbiyyatda. Globe Edit, 2020*

*Əsgərzadə L. Özünü dərkdən özünü tərkə //AMEA - Xəbərlər. Bakı: Elm, №1, 2007, s.3-11*

*Əsgərzadə L. Mühit, sənətkar, zaman üçbucağinda Hüseyn Cavid//Türk Dünyası, cild: 1, say: 1, s.53-61*

*Əsgərzadə L."İblis"- Şərq mifologiyasının tipoloji həlli"//Azərbaycanda elmin inkişafı ve regional problemler. Bakı: Nurlan, 2005, s. 293 - 299*

*Əsgərzadə L. Düşünən və düşündürən Cavid / Mədəniyyət qəz., 24 oktyabr, 2014*

*Əsgərzadə L. "Şeyx Sənan" mənzum faciəsində Şərq motivi və müasirlik // Naxçıvan Dövlət Unversetinin elmi*

*əsərləri. 2005, № 16, s. 42 - 45*

*Əsgərzadə L. Hüseyn Cavidin gözəllik və məhəbbət fəlsəfəsi. Elmi araşdırmalar jurn., Bakı: Səda, 2006, s.6-8*

*Əsgərzadə L. Hüseyn Cavidi Tanrı yaratdı, dövran məhv etdi. Şərq qapısı qəz., 23 oktyabr, 2004. №135, s.2.*

*Əsgərzadə L.Məmməd Cəfər yaradıcılığında Hüseyn Cavid / Məmməd Cəfər Cəfərov: Taleyi və sənəti" (tərtib edən: akademik İ.Həbibbəyli). Bakı: Elm və təhsil, 2009, s.169-180*

*Əsgərzadə L. Hüseyn Cavidin pedoqoji görüşlərində təhsil və tərbiyə məsələləri/Peşə təhsili və insan kapitalı jurn., s.30-34*

*Əttar F. Məntıqit– teyr (çev. Əbdülbaki Gölpınarlı). İstanbul: Milli eğitim Basımevi, 1968*

*Əttar F. Təzkirətül-Övliya (tərtibçi, transfonliterasiya edən, ön sözün, qeyd və izahların müəllifi Məmmədli N).Bakı, Elm və Təhsil, 2011*

*Əzizova H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər"). Bakı: Elm, 2007*

*Füzuli M. Əsərləri. 6 cilddə, I c. Bakı:Şərq-Qərb, 2005*

*Füzuli (Türkçə Divan). (Akyüz K. Ankara: Türk Tarix Qurumu, 1958*

*Ziya Göyalp. Türkçülüyün əsaslar. Bakı, 1991*

*Onay Ə. T. Əski Türk ədəbiyyatında Mazmunlar və izahı (hazırlayan: Camal Kurnaz). Ankara: Akçağ Yayınları, 2000*

*Orucəliyev İ. (Atilla). Hüseyn Cavidin mənzum dramları. I hissə. Bakı: 2011*

*Orucəliyev İ. (Atilla). Hüseyn Cavidin mənzum dramları. Üçüncü hissə. Bakı: Adiloğlu, 2011*

*Orucəliyev İ. Hüseyn Cavid haqqında yazılmış məqalələrə bir nəzər/ Cavidi xatırlarkən (s, 10-59) Bakı, "Zərdabi LTC MMC, 2012*

*Orucəliyev İ. Hüseyn Cavid yaradıcılığı Azərbaycan sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığında. Namizədlik dissertasiyası.Bakı, 1985.*

*Osmanlı V. Azərbaycan romantiklərinin bədii-estetik özünəməxsusluğu problemi: mövzu tipologiyası. Doktorluq dissertasiyası. Bakı, 1989, 369 s*

*Osmanlı V. Azərbaycan romantizmi. İki cilddə, II cild.*

*Bakı:Yazıçı,1978*

*Oktay, xalq qəzeti, 2013.- 9 fevral.- S.14.*

*Hacıyeva A. Hüseyn Cavidin "Peyğəmbər dramı tarixi və bədii həqiqətlər zəminində // Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Humanitar elmlər seriyası, 2010, №3-4, s.82-91*

*Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan. 2007*

*Həbibbəyli İ. Hüseyn Cavid sənəti / Taleyi və sənəti (tərtib edən və toplayan: İ. Həbibbəyli). Bakı: 2007, s. 3-36*

*Həbibbəyli İ. Əziz Şərif haqda/525-ci qəzet. 2010, 26 yanvar, s.7*

*Həbibbəyli İ. Azərbaycan şeirində himn və marş / Ədəbi tarixi yaddaş və müasirlik. Bakı:Nurlan, 2007, s. 493-501*

*Həbibov İ. Romantik lirikanın imkanları. Bakı:Yazıçı, 1984*

*Həbibov İ. Ədəbi yüksəliş. Bakı: Yazıçı, 1985*

*Həsənova S. Cavidşünaslığın yeni inkişaf mərhələsi/ Ədəbiyyat məcmuəsi.Bakı:Elm və Təhsil, 2016. XXVII cild, s, 191-197*

*Həsənova S. Publisistikada özünüdərk problemləri/ Bakı*

universitetinin xəbərləri (humanitar elmlər seriyasi) №3, 2014, s.182-188

Həsənova S. H.Cavidin publisistikasında milli-mənəvi dəyərlərin inikası (dərs vəsaiti).Bakı, 2016

Həşimli H. XX əsr Azərbaycan ədəbiyyatında yeni lirik yanrlar. Bakı: Elm, 2002

Həşimli H. Azərbaycan poeziyasında sonet və terset. Bakı:Elm, 2003

Həşimli H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri. Bakı: Elm və Təhsil, 2012

Həsənzadə N. Tariximiz taleyimiz. Bakı, 2002

Həsənoğlu A. Ürfan işığında. Bakı: Azərbaycan, 2002

Hüseyn M. Əsərləri. On clilddə. IX c., Bakı: Yazıçı, 1979

Hüseyn M. Sənət və ədəbiyyat /Zəhmət qaz., 1922

H.Mehdi yoldaşın çıxışından/Ədəbiyyat qəz., 14 aprel, 1936

Hüseyn M. "Sol maskası altında opportunizm"/ "Hucum" jurn., 1931, № 9-10

Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi haqqında. "Yeni Azərbaycan" qəz., Bakı, 1999, 26

*oktyabr, s. 8.*

*Hüseynov R. Əbədi Cavid. Bakı: Nurlan, 2007*

*Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988*

*Hüseynli Tural. Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatşünaslığı. Bakı: Azərnəşr, 2004*

*Hüseynova J. Hüseyn Cavidin "Topal Teymur" pyesi. Nam. dissertasiyası. Bakı, 1997*

*Hüseynzadə Ə. Ədəbiyatımızda Cavid. "Yeni yol" qəz., 1925 12 yanvar.*

*Xəndan R. Z. Cavid sənəti. Bakı: birlik,1981*

*Xəlilov S. Cavid faciəsi. I kitab. "İblis"də fəlsəfi motivlər. Bakı: Qanun, 1996*

*Xəlilov S. Cavid  və Cabbarlı. Müxtəlifliyin vəhdəti. (fəlsəfi etüdlər). Bakı: Azərbaycan Universiteti, 2001*

*Xəlilov S. Məsud Əlioğlunun yaradıcılığında fəlsəfi meyl haqqında. 525-ci qəz., 2009. 3 mart. s.7.*

*Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər (I kitab) Naxçıvan:Əcəmi, 2017*

*İbadoğlu Ə. H.Cavidin "İblis"faciəsi. Bakı: Azərnəşr, 1969*

*İbrahimov F, Hüseynzadə R. Pedaqogika: 2 cilddə. II cild. Bakı: Mütərcim, 2012, s.55-84*
*İsmayılova S. Azərbaycan dünyanın gözü ilə// Azərbaycan, 2008, № 11, s.188-194*
*İsmayılov M. Azərbaycan tarixi. Bakı: Azərnəşr. 1992*
*İsmayılov Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı: Azərnəşr, 1969*
*İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1991*
*İbrahim X.”Şeyx Sənan” Möhtərəm “Cim”ə cavab / “Kommunist” qəz., 17, 21,23 noyabr 1921;3 dekabr 1924*
*İbrahim X.Ədəbiyyat şərarələri/ “Kommunist” qəz., 1, 2 dekabr 1921*
*İbrahim X.Daşdan keçən istiqlal.Bakı:Yazıçı,1993, s.20-28*
*İbrahim X. ”Uçurum” / “Zəhmət” qəz., 26-30 iyun 1922*
*Kaplan, Mehmet, Kültür ve Dil, İstanbul, Dergah Yayınları. 1982. s, 64*
*Kazımoğlu, Ədəbi mübahisələr/ “Kommunist” qəz., 6 iyun,1922*
*Kərimli T. Vahiddən böyük Zahid. 525-ci qəz., 28 fevral,*

*№035 (3591)*

*Kutlar F.S. Arpaeminizadə Mustafa Sami. Divan, Ankara, 2004*

*Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr, 1965*

*Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985*

*Qarayev Y. Romantizmin Cavid yaddaşı. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996*

*Qarayev Y.Realizm:sənət və həqiqət. Bakı: Elm, 1980. s*

*Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər. Bakı, "Elm", 2002*

*Qaraqızı Ü. "Hüseyn Cavid irsinin tədqiqi ilə bağlı" Ekspress qəz., 2014, 25-27 oktyabr, s.1*

*Qasımov C. Vəli Xuluflu. Bakı:2016, s.12-13*

*Qasımov C. Ədəbi məhkəmələr. Bakı:Zərdabi LTD MMC, 2012*

*Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı: Elm, 2007*

*Qasımov C. Məhbus tərcümeyi-halı. Bakı: Səda, 2003*

*Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 05 2013*

*Cəlal Qasımov. Yaddaşın bərpası. Bakı: Mütərcim, 1999*

*Qızıl qələm. Topal Teymur / Araştırmalar toplusu (Tərtib*

*edəni G.Babaxanlı.. 10 cilddə, II-III c., Bakı: Elm: 2007*

*Quliyev M. Hazırkı türk ədəbiyyatı haqqında / “Kommunist” qəz., 1926, 7 dekabr*

*Quliyev M. Hazırkı türk ədəbiyyaü haqqında. - Maarif və mədəniyyət, 1926, № 10-11, s. 26.*

*Quliyev M. Sosializm quruluşu və proletar yazıçılarının vəzifələri. - Kommunist, 1929, 23 oktyabr*

*Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.631-636*

*Məmmədquluzadə C. Əsərləri. 3 cild. Bakı: 1967*

*Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982*

*Məmməd Arif. Cəfər Cabbarlı haqqında xatirələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1969*

*Məmmədov M. Acı fəryadlar, şirin arzular. Bakı: Gənclik, 1983. 192 s.*

*Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı: Elm, 1999*

*Məmməd T. Neosufizm: yaradıcılıq və nəzəriyyə. Bakı: Xan, 2016*

*Məmməd T. Hüseyn Cavidin təxəllüsləri Şrq mədəniyyəti kontekstində. "Hüseyn Cavid və dünya ədəbiyyatı" Respublika elmi konfransının materialları. Azərbaycan Dillər Universiteti, Bakı, 2019, s.260-266*

*Məmməd T. Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı:Xan, 2016*

*Məmməd T. "Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri" dövrünün türk ədəbiyyat nəzəriyyələrinə aid kitablar kontektində" / Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı:Xan, 2016, s. 293-312*

*Məmməd T. "Ədəbi məhkəmə və repressiya – bir yolun iki mərhələsi" / Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı:Xan, 2016, s, 283-288*

*Məmmədli C. Hüseyn Cavidin "Afət" faciəsi. Bakı:Nurlan, 2007*

*Məmmədli C. Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri. Bakı: Mütərcim, 2013*

*Məmmədli C. Hüseyn Cavid və XX əsr Qərb fəlsəfi düşüncəsi. Bakı: Mütərcim, 2014*

*Mostarlı Ziyai Şeyx Sənan məsnəvisi (haz: Müberra*

*Gürgendərəli), İstanbul: Kitabevi Yayınları, 2007*

*Mustafayeva A. Hüseyn Cavid, Cəfər Cabbarlı dramlarında tarix və onun bədii obrazı/ Ədəbiyyat məcmuəsi.Bakı:Elm və Təhsil, 2016. XXVII cild. s, 246-255.*

*Paşayev Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyat. Bakı: Maarif, 1982*

*Paşayeva N. Ön söz. Himalay Ənvəroğlu (Qasımov). Azərbaycan dramaturgiyası: tarixilik və muasirlik. Bakı, Nurlan, 2008, s. 4-6*

*Pəhləvan Əmir. Qalxın, Cavid gəlir. Bakı: Elm, 1997*

*Nazim Ə. Bugünkü ədəbiyyatımız haqqında//Maarif və mədəniyyət jurn., 1926, № 9, s.21*

*Nəbioğlu V. Yalanlar, həqiqətlər // Azərbaycan jur., 1991 №3, 1992, № 5-6, 112-127.*

*Nəbiyev B. Tənqid və ədəbi proses. Azərnəşr, Bakı,1976*

*Nərimanoğlu V.K. Sovet ədəbiyyatı: gerçəkliklər, həqiqətlər, ziddiyyətlər // Azərbaycan. 2008, №1*

*Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991*

*Rza Xəlil. Vaxtdan uca dayanmağı bacaranlar/R.Hüseynov. Əbədi Cavid. Bakı: Nurlan, 2007, s.610-630*

*Rzaquluzadə M. "Cocuq ədəbiyyatı və qiraət kitablarında üsul"// "Maarif işçisi", №10*

*Rüstəmxanlı S. Ömür kitabı. Bakı: Gənclik: 1988, 368 s.*

*Rüstəmov İ. Cavidin fəlsəfi irsi/ "Ədəbiyyat və incəsənət" qəz., 25 yanvar, 1969*

*Yusifova C. XIX əsrin əvvəllərində Azərbaycan yazıcılarının Turkiyə ədəbi muhiti ilə əlaqələri. Namizədlik dissertasiyası. Bakı: 1991, 163 s.*

*Salmanov Ş. Ön söz. N. Əzizova H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər").Bakı: Elm, 2007, s.3-5*

*Sultanlı Ə. "Hüseyn Cavid faciələri" // "Azərbaycan" jurn., 1969, №-7*

*Şaiq A. Xatirələrim. Bakı: Azərnəşr, 1961*

*Şaiq A. Cavidin "İblis" faciəsi haqqında duyğularım // Şaiq A. Əsərləri. 5 cilddə. 4 c., Bakı: Azərnəşr, 1977, s. 177-191.*

*Şamilov S. Ədəbiyyatda bolşevizm ideyaları uğrunda/ “Kommunust” qəz., 1937-ci il, 17 mart*

*Şərif Ə. Keçmiş günlər. Bakı:Yazıçı, 1986*

*Şərif Ə. “Molla Nəsrəddin” necə yarandı. Naxçıvan: Əcəmi, 2009*

*Şərif Ə. “İblis” / Cavidşünaslıq. Araştırmalar toplusu (Tərtib edəni G.Babaxanlı). 10 clddə, II-III c., Bakı: Elm, 2007*

*Şərif Ə. “Yeni fikir” qəz., 4mart, 1923*

*Şəmsizadə N. İtmiş nəslin ardınca // Azərbaycan. Bakı, 2008, №1.*

*Şəmsizadə N. Ön söz. Tarix həqiqətləri təsdiq edir / Aslan Kənan. XX əsrdə repressiyalara məruz qalanlar. Bakı: Azərnəşr, 2011*

*Tahirzadə Ə. Manaflı H. Unutdurulmuş azman–Əliabbas Qədimov. Bakı: Apostrof, 2012*

*Talıbzadə K. Ədəbi irs və varislər. Azərnəşr, Bakı, 1974*

*Talıbzadə K. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966*

*Talıbzadə Aydın. Üsyan və cəza: Fikir “kəndirbazı”/ Cavidşünaslıq. Araşdırmalar toplusu (Tərtib edəni*

*G.Babaxanlı.). 10 cilddə, I c., Bakı: Elm, 2007, s.266-277*

*Tağıoğlu Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi.Bakı: Elm, 1991*

*Turan A. Hüseyn Cavid. Bakı: Vektor, 2007*

*Turan A. Cavidnamə. Bakı: Avrasiya Press, 2010*

*Turan A. Hüsnü xuda şairi. Вакı: Çaşıoğlu, 2000*

*Təhmasib R. Dostluğumuz / Cavidi xatırlarkən:Məqalələr və xatirələr. Bakı: Gənclik, 1982*

*Təhmasib T. Cavid İran teatrında // Elm və həyat,1969,№ 9*

*Türkəqul M.H. Azərbaycan türk şairi Hüseyn Cavid.Bakı:Nirlan,2002.*

*Tatçı M. Yunus Əmrə Divanı. Ankara: Akçağ Yayınları, 1998*

*Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı:Zərdabi LTD MMC,2018*

*Vəliyeva S. Hüseyn Cavid:Vətənə qayıdış. Bakı: Gənclik,2015*

*Vurğun S. Səadət günəşi/ "Ədəbiyyat" qəz., 16 may, 1937*

*Vəliyev Ş. "Fuyuzat" ədəbi məktəbi. Bakı: Elm, 1999*

*Yağmur Zümrüd. İnsan arayışında. Bakü: Günəş, 1998*

*Yunisli F. Cavid - bu böyük ad nə qədər calibi-heyrət?! "Mədəniyyət"qəz., 30 iyun, 2012*

*Yusifli V. Karvanbaşı yol hayanadır. Bakı: Gənclik, 1988*

*Zamanov A. Tənqidi realistlərlə bir cəbhədə/ "Ədəbiyyat və incəsənət" qəz., 29 oktyabr, 1982*

*Zamanov A. "Əbədi sevgi nəğməsi" / "Bakinski raboçi" qəz., 28 fevral, 1984*

*Zamanov A. Cavid sənətinin qələbəsi/"Kommunist" qəz., 2 aprel, 1983*

*Zamanov A. Ön söz. Eynəli bəy Sultanov/Seçilmiş hekayələri. Bakı, 1966, 140 s.*

*Zamanov A. Ön söz /Cavidi xatırlarkən. Bakı, Zərdabi LTD, 1982, s. 59-70*

*Zamanov A. "Bir kitabın taleyi, yaxud Vəli Məmmədovun Amerika səfəri" /1992-ci il .*

*Zeynalov X. Ədəbi mövzunun yeni qatları/ Ədəbiyyat qəzeti. 11 oktyabr, 2013, s.7.*

*Zeynallı H. Ədəbi parçalar // Maarif və mədəniyyət. 1926, may, №1.*

*Zeynallı H. Hüseyn Cavidin yazdığı "Peyğəmbər"*

*haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 36 – 79.*

*Zeynallı H. "Maral" xüsusunda qısa mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 31 – 35.*

*Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 80 – 106.*

*Zeynallı H. "Şeyda" xüsusunda qısa bir mülahizə // Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983. s. 28 – 30.*

*Sadıqov Ş. Huseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası. Bakı:Hədəf, 2011,*

*Kazancıoğlu A. Üstün yaşama. İstanbul, 1998*

*Ulutürk X.R. "Vaxtdan uca dayanmağı bacaranlar"/ Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1988*

### *Rus dilində*

*Elçin. Pravda, tolko, pravda. "Literaturnaya qazeta", Baku, 1988*

*Аскерзаде Л.Роэт - драматург Гусейн Джавид в руссko язычной речати/Рроблемы филологии народов Роволжья. Материалы Всероссийсkой научно-праkтичес-kой kонференции. Moskva, 2013 г. Выр 7*

*Аскерзаде Лютвия Сулейман кызы. «Поэт и драматург Гусейн Джавид в русскоязычной печати» / «Русский язык и литература» РУП Выдавецтва "Адукацыя і выхаванне" (научно-методическом журнале) 6-ом номере 201-го выпуска 2016-го года (июнь).*

*Аскерзаде Лютвия Сулейман кызы, «Гусейн Джавид и Леонид Николаевич Андреев» / журнала «Мови и культура» Киевского Национального Университета имени Тараса Шевченко.179 выпуске 2016-го года (II квартал*

*Гулиа Г.Д. Сказание об Омаре Хайяме, Москва, 1976*

*Нур. А. Джавид и его критика // Новый Восток, 1928-№22. и.т., s.6*

*Profsoyuzı SSSR. Dokumentı i materialı v çetırex tomax. Т.2. М., 1962*

*Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.*
*Lu – Sın. Sobranie soçinenıe. Moskva: 1954.*
*Гегель. Работы разных лет. В 13-х томах. Т.1, М., 1972-310 с., s.216*

### *İngilis dilində*

*Keats John: The Complete Poems, Penguin Classics, 2006*
*Askerzade L. About European poetry traditions of the turkişh literature // International Scientific Journal. Theoretical & Applied Science / p-ISSN: 2308-4944, ISSN: 2409-0085.Year: 2016 Issue: 3 Volume: 35/ s. 40-44*
*Askerzade L.”Western poetry, Servet-I Funun” and Huseyn Javid / Confrontation.Literaru magazine/Hudson, USA. 2018. ISSUE 123, No.1, - Sprıng Long Island unıversıty, p. 113-123*
*Asgerzade Lutviyye. Huseyn Javid in the context of western poetry tradition  Innovation and Entrepreneurship: Collection of scientific articles. - Ajax Publishing,Montreal, Canada, 2020. - 208 p.167-171*

*Asgarzade L. Reflection of philosophical ideas in Huseyn Javid's work/ Revısta Unversıdad y Socıedad/ 2020, tom 12, vıp:3, p 141-150*

***İnternet resusları***

*Mirzə Abbas Abbaszadə - Vikipediya az.wikipedia. org/wiki/Mirzə_ Abbas _Abbaszadə*

*Sosialist—realistlər məhkəməsində Cavidin savunulması /Hüseyn Cavidin ev muzeyinin saytı az.wikipedia.org/wiki/Hüseyn_Cavid*

*Professor Rahid Ulusel: "Halil Cibran hiç zaman beni terk etmeyib" 8 апр._2019 г. -Hansı məziyyətlərinə və bədii keyfiyyətlərinə görə Cibran Xəlil ... –Yaradıcılığı ilə tanış olduğum... pia.az...*



Prof. Dr. Lutviya Askerzade

*I am Lutviya Askerzade.*
*I work at the Institute of Literature named after Nizami Ganjavi of ANAS.*
*My research covers the life and work of Huseyn Javid, the founder of Romanticism in Azerbaijan.*
*Hussein Javid is a philosopher, poet and playwright. He is considered a Shakespeare of Azerbaijan. In 2020, I published two books.*

*1. Amir Teymur: In history and literature.*
*2. Ahmed Trinic.*
*In 2020, I was awarded the title of "Scientist of the Year". My articles have been published in America, Russia, Macedonia, Kosovo, Iran, Iraq and Turkey.*
*I am a member of the Writers' Union of Azerbaijan and the Union of Journalists.*
*I have been invited to more than 100 international symposiums. I reported.*
*1.”Hussein Javid and the East”*
*2.”Amir Teymur: In history and literature”*
*3. “Ahmed Trinic”*
*4.”Hussein Javid: I am the author of books on the environment and contemporaries” and about 200 scientific articles.*
*6 books of my poems have been published.*

Liberty Academic Books

## About the book

The name of the book Huseyn Javid and Azerbaijani literary criticism the book synopsis The book examines the life and work of Hussein Javid, the founder of twentieth-Century Azerbaijani romanticism, a philosopher who distinguished himself in literature and continued and developed the traditions of Western and Eastern literature in his work. Huseyn Javid is analyzed against the background of different relations, communication with different literary forces, sharing, debates, Gurbanali Sharifzade, Sheikh Mohammad, Eynali bey Sultanov, Jalil Mammadguluzade, Turkish romantics Rza Tevfik, Mehmet Akif Ersoy, Khalid Ziya Ushaqligil, Abdulhaq Hamid and others. Connections are provided in the system. The personality and characteristics of the philosopher-poet- playwright Hussein Javid, a victim of repression, as a representative of romantic literature, are investigated.

This book is published in azerbaijani language

Liberty Academic Books



ISBN 978-1955094009

New York, US- 2021